Vəqflər və İslam işləri nazirliyi

# Əli ibn Əbu Talibin رضي الله عنه həyatı

D. Əli Muhəmməd Muhəmməd

Vəqflər və İslam işləri nazirliyinin elektron saytı www.islam.gov.kw

بسم الله الرحمن الرحيم

# Mündəricat

Mövzu________________________________________Səhifə

Müqəddimə .......................................................................... 11

**Əli ibn Əbu Talib رضي الله عنه Məkkədə** ..................................................... 14

Zatı tanışlıq ........................................................................ 14

a) Adı və kunyəsi ................................................................ 14

1 – Adı və nəsəbi ............................................................... 14

2 – Kunyəsi ........................................................................ 15

b) Doğulduğu yer və tarix ................................................... 15

Əli رضي الله عنه "Kəbə övladı"–dırmı? ................................................. 16

c) Əli ibn Əbu Talibin ailəsi, onun nüfuzu və böyüyüb başa çatması ........................................................................ 21

1 – Qureyş qəbiləsi ............................................................ 21

2 – Haşim oğulları ............................................................. 21

3 – Abdulmuttalib ibn Haşim ............................................ 22

4 – Əbu Talib Əli ibn Əbu Talibin رضي الله عنه atasıdır ........................ 23

5 – Möminlərin əmiri Əli ibn Əbu Talibin رضي الله عنه anası ............. 24

6 – Əli ibn Əbu Talibin رضي الله عنه qardaş və bacıları ........................ 25

7 – Möminlərin əmiri Əli ibn Əbu Talibin رضي الله عنه zövcələri və övladları ........................................................................ 26

8 – Əli ibn Əbu Talibin رضي الله عنه vəsfi ............................................. 27

**İslamı qəbul etməsi** ............................................................ 28

Əli ﷺ ilə Əbu Talib arasında *olan münasibət* ..... 30

**Əlinin ﷺ fəzilətlərindən və vəsflərindən müxtəsər parçalar** . 32

a) Onun ﷺ bəzi fəzilətləri ..... 32

b) Onun ﷺ vəsfləri ..... 35

1 – Dində elmli və fəqih olması ..... 35

2 – Zahidliyi ..... 36

3 – Təvazökarlığı ..... 38

4 – Səxavətli və comərd olması ..... 38

5 – Uca Allahdan həya etmək ..... 40

6 – Onun ibadətinin, səbrinin və Uca Allaha olan səmimiyyətinin gücü ..... 40

7 – Uca Allaha şükr etməsi ..... 41

8 – Uca Allaha dua etməsi ..... 42

**Əli ﷺ İslam dinini öyrənmək üçün Məkkəyə gələnlərin yardımçısıdır** ..... 43

Fədakar və qəhrəman Əli ﷺ ..... 44

**Əlinin ﷺ hicrəti** ..... 47

**Əli ibn Əbu Talib ﷺ Mədinədə** ..... 49

Qardaşlıq ..... 49

Əlinin ﷺ Fatimə ﷺ ilə izdivacı ..... 50

a) Mehri və cehizi ..... 50

b) Toy mərasimi ..... 50

c) Əli ﷺ ilə Fatimənin ﷺ yaşayışı ..... 51

**Əlinin رضي الله عنه cihadı və döyüşləri** ........ 53

1 – Büyük Bədr döyüşü və Əli ibn Əbu Talibin رضي الله عنه döyüşdəki rolu ........ 53

2 – Əli رضي الله عنه Uhud döyüşündə ........ 55

3 – Əli رضي الله عنه Həmra əl-Əsəd döyüşündə ........ 57

4 – Əli رضي الله عنه Bənu ən-Nədir döyüşündə ........ 58

5 – Əli رضي الله عنه Əhzab döyüşündə ........ 58

6 – Əli رضي الله عنه Bənu Qureyza döyüşündə ........ 60

7 – Əli رضي الله عنه Hudeybiyyə sülhündə ........ 61

8 – Əli رضي الله عنه Xeybər döyüşündə, hicrətin 7-ci ili ........ 62

9 – Əli رضي الله عنه Məkkənin fəthində ........ 65

a) Hatibin رضي الله عنه məktubunun Qureyşə çatmasının qarşısını almaq ........ 65

b) Əli رضي الله عنه islahedici tapşırıqda ........ 67

10 – Əli رضي الله عنه Huneyn döyüşündə ........ 68

11 – Tay diyarındakı Fils adlı bütü dağıtmaq üçün Əlinin رضي الله عنه qoşunu ........ 69

12 – Təbuk döyüşündə Peyğəmbərin ﷺ Əlini رضي الله عنه Mədinəyə başçı təyin etməsi, hicrətin 9-cu ili ........ 70

**Təbliğ və dəvət *xarakterli* tapşırıqlar** ........ 72

1 – Hicrətin 9-cu ilində Əbu Bəkrin رضي الله عنه həcci zamanı Əlinin رضي الله عنه rolu ........ 72

2 – Hicrətin 10-cu ilində Əli رضي الله عنه Yəmənə qazi və dəvətçi kimi göndərilir ........ 74
3 – Əli رضي الله عنه vida həccində ........ 75
Əlinin رضي الله عنه böhtan hadisəsində mövqeyi ........ 76
Əli رضي الله عنه Peyğəmbəri ﷺ qüsl etmək və onu dəfn etmək şərəfinə nail olur ........ 78
**Əli ibn Əbu Talib رضي الله عنه raşidi xəlifələr dönəmində** ........ 79
**Birinci: Əbu Bəkr əs-Siddiq رضي الله عنه dönəmində** ........ 79
1 – Əlinin xilafət xüsusunda Əbu Bəkrə رضي الله عنهما beyət etməsi ........ 79
2 – Əlinin رضي الله عنه mürtədlərə qarşı döyüşlərdə Əbu Bəkrə رضي الله عنه dəstək verməsi ........ 83
3 – Əlinin Əbu Bəkri رضي الله عنهما *hər kəsdən* önə çəkməsi ........ 84
4 – Əlidən رضي الله عنه ümmətin Siddiqinə haqq şahidliyi ........ 86
5 – Əlinin رضي الله عنه namazlarda Siddiqə رضي الله عنه tabe olması və onun verdiyi hədiyyələri qəbul etməsi ........ 87
6 – Siddiqlə Əli ibn Əbu Talib رضي الله عنهما arasındakı qohumluq əlaqələri və Əlinin رضي الله عنه bəzi övladlarına Əbu Bəkr adı verməsi ........ 91
7 – Əli رضي الله عنه Siddiqin رضي الله عنه vəfatında ........ 92
**İkinci: Ömər ibn əl-Xəttab (əl-Faruq) رضي الله عنه dönəmində** ........ 94
a) Hökm məsələlərində ........ 96
b) Maliyyə işlərində ........ 97
c) İdarəçilik işlərində ........ 98

d) Cihad məsələlərində və dövlət işlərində ............................ 100
e) Əli رضي الله عنه və onun övladlarının Ömərlə رضي الله عنه əlaqəsi ............ 104
1 – Ömərin Hüseyni öz övladı Abdullahdan رضي الله عنهما üstün tutması ........................................................................ 104
2 – Ömərin رضي الله عنه Əli ibn Əbu Talibin رضي الله عنه övladlarının geyimlərinə diqqət göstərməsi ........................................... 104
3 – Pay bölgüsündə Ömərin Haşim oğullarını رضي الله عنهم üstün tutması ........................................................................ 105
4 – Əli ibn Əbu Talibin رضي الله عنه Ömər ibn əl-Xəttabın رضي الله عنه verdiyi libasla fəxr etməsi ..................................................... 106
5 – Ömər ibn əl-Xəttabın رضي الله عنه Yənbonu Əliyə رضي الله عنه pay verməsi ........................................................................... 106
6 – Möminlərin əmiri Ömərlə Əli رضي الله عنهما arasında yuxu barədə söhbət ......................................................................... 107
7 – Ömərin رضي الله عنه Əli ibn Əbu Talibin qızı Ummu Gülsümlə رضي الله عنها evlənməsi .................................................................. 107
Abbasla رضي الله عنه Əli رضي الله عنه arasında baş vermiş ixtilafa Ömərin رضي الله عنه hökm verməsi ............................................................................. 109
Ömərin رضي الله عنه şura əhli ilə birlikdə Əlinin رضي الله عنه xəlifəliyə namizədliyini irəli sürməsi və Ömər رضي الله عنه şəhid olduqdan sonra Əlinin رضي الله عنه onun barəsində dediyi söz ..................................... 111
a) Şura əhli ilə birlikdə Əlinin رضي الله عنه namizədliyinin irəli sürülməsi ........................................................................... 111

b) Ömər رضي الله عنه şəhid olduqdan sonra Əlinin رضي الله عنه onun barəsində dediyi söz .......... 113
Əli ibn Əbu Talibin رضي الله عنه öz övladlarına Ömər adı verməsi ..... 114
**Üçüncü: Əli رضي الله عنه Osman ibn Əffan رضي الله عنه dönəmində** .......... 115
1 – Əlinin رضي الله عنه Osmana رضي الله عنه beyət etməsi .......... 115
2 – Osmanın رضي الله عنه xəlifəliyi dövründə Əli رضي الله عنه şəri cəzalar təyin edir və məsləhətlər verir .......... 117
a) Osmanın رضي الله عنه dönəmində Əlinin رضي الله عنه şəri cəzaları təyin etməsi .......... 117
b) Osmanın رضي الله عنه insanları bir qiraət üzərində toplamaq məsələsində Əlinin رضي الله عنه rəyi .......... 118
3 – Osmanın رضي الله عنه qətli fitnəsində Əlinin رضي الله عنه mövqeyi .......... 119
a) Fitnənin əvvəlində Əlinin رضي الله عنه mövqeyi .......... 119
b) Mühasirə əsnasında Əlinin رضي الله عنه mövqeyi .......... 121
4 – Əlinin رضي الله عنه öz övladlarından birinə Osman رضي الله عنه adı verməsi .......... 122
5 – Əlinin رضي الله عنه Osmanı رضي الله عنه vəsf etməsi .......... 123
► Əli ibn Əbu Talibin رضي الله عنه raşidi xəlifələr və səhabələr رضي الله عنهم barədə mövqeyi .......... 124
**Əli ibn Əbu Talibin رضي الله عنه xilafəti** .......... 127
Əliyə رضي الله عنه beyət .......... 127
Əlinin رضي الله عنه verdiyi ilk xütbə .......... 128
Hökm xüsusunda Əli ibn Əbu Talibin رضي الله عنه mənhəci .......... 129

a) Rəhbərlərə nəzarət etmək xüsusunda ümmətin haqqını təsdiq etməsi ..... 130
b) Şura ..... 131
c) Ədalət və *hüquq* bərabərliyi ..... 132
d) Azadlıq ..... 133
Əbu Sibteyn Əli ibn Əbu Talibin ﵁ dövlətinin ən ali məxəzləri ..... 134
**Əli ibn Əbu Talibin ﵁ xilafəti dövründə baş vermiş ən mühüm hadisələr** ..... 136
**1 – Cəməl döyüşü** ..... 136
a) Döyüşdə *baş verən* hadisələr ..... 136
b) Əlinin ﵁ Aişəyə ﵂ hörmət bəsləməsi ..... 142
**2 – Sıffin döyüşü** ..... 143
a) Əli ﵁ ilə Müaviyə ﵁ arasındakı *olaylar* ..... 143
b) Döyüşdə *baş verən* hadisələr ..... 145
c) Hökm çıxarma ..... 148
d) Möminlərin əmiri Əlinin ﵁ xəvariclərə qarşı mövqeyi ..... 152
**3 – Nəhrəvan döyüşü (hicrətin 38-ci ili)** ..... 157
**Əli ibn Əbu Talibin ﵁ dönəmində maliyyə və ədliyyə idarələri** ..... 157
1 – Maliyyə idarəsi ..... 158
2 – Ədliyyə idarəsi ..... 159

**Möminlərin əmiri Əli ibn Əbu Talibin ﵁ şəhid olması** ....... 162
a) Şəhid olma rəvayəti ............................................................ 162
b) Həkimin Əliyə ﵁ tövsiyəsi və möminlərin əmirinin ﵁ *xilafət məsələsində* şuraya üstünlük verməsi: ....................... 163
c) Möminlərin əmiri Əlinin ﵁ övladları Həsən və Hüseynə ﵄ vəsiyyəti ..................................................................... 163
d) Əlinin ﵁ yuyulması, kəfənlənməsi və xilafət müddəti . 168
e) Müaviyənin Əlinin ﵁ ölüm xəbərini qarşılaması ........... 169
**Əli ibn Əbu Talib şeyx və ravi kimi** ............................................ 171
1 – Əlinin ﵁ Rəsulullahdan ﷺ nisbətən az hədis rəvayət etməsinin səbəbləri ............................................................ 171
2 – Əlidən ﵁ rəvayət edən ən məşhur səhabələr ................ 172
3 – Əhli beytindən Əlidən ﵁ *hədis* rəvayət edənlər ............ 174
4 – Əlidən ﵁ rəvayət edən ən məşhur tabiinlər .................. 175
**Əlinin ﵁ şeirləri və bəlağəti** ...................................................... 179
**Son söz** .......................................................................................... 181
**Müracət olunmuş ədəbiyyatlar** ................................................... 183

# Müqəddimə

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq və Ondan bağışlanma diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə onu azdıran tapılmaz, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسۡلِمُونَ﴾

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"**[1]

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُواْ رَبَّكُمُ ٱلَّذِي خَلَقَكُم مِّن نَّفۡسٖ وَٰحِدَةٖ وَخَلَقَ مِنۡهَا زَوۡجَهَا وَبَثَّ مِنۡهُمَا رِجَالٗا كَثِيرٗا وَنِسَآءٗۚ وَٱتَّقُواْ ٱللَّهَ ٱلَّذِي تَسَآءَلُونَ بِهِۦ وَٱلۡأَرۡحَامَۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَيۡكُمۡ رَقِيبٗا﴾

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir."**[2]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَقُولُواْ قَوۡلٗا سَدِيدٗا ٧٠ يُصۡلِحۡ لَكُمۡ أَعۡمَٰلَكُمۡ وَيَغۡفِرۡ لَكُمۡ ذُنُوبَكُمۡۗ وَمَن يُطِعِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدۡ فَازَ فَوۡزًا عَظِيمًا ٧١﴾

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar."**[3]

---

[1] "Ali-İmran" surəsi, 102.

[2] "ən-Nisa" surəsi, 1.

[3] "əl-Əhzab" surəsi, 70-71.

Ey Rəbbim! Sənin Üzünün əzəmətinə və hökmranlığının böyüklüyünə layiq bir şəkildə Sənə həmd olsun. Sən razı qalana qədər də Sənə həmd olsun, Sən razı qaldığın zaman da Sənə həmd olsun və Sən razı qaldıqdan sonra da Sənə həmd olsun.

İslam tarixi dövlətlərin, müharibələrin və siyasi rejimlərin tarixinə çevrilməmişdən öncə din və əqidə tarixi olmuşdu. Çünki məhz əqidənin sayəsində həmin dövlətlər, cəmiyyətlər, onların siyasəti, idarəetməsi, təhsili, iqtisadiyyatı və s. yaranmışdır. Odur ki, *İslam tarixini,* xüsusən də raşidi xəlifələrin dövrünü öyrənməklə oradan ibrət götürülür. Belə ki, raşidi xəlifələrin əsri İslam tarixində Qızıl Əsr sayılır. Elə ona görə də Əhli-beyt və səhabələr adına xeyriyyə fondunun nəzdində olan araşdırmalar və tədqiqatlar mərkəzi doğru yolda olan raşidi xəlifələrdən biri olan möminlərin əmiri Əli ibn Əbu Talibin رضي الله عنه həyatını üzərə çıxarmaq və onun həm həyatındakı, həm də dövründəki məqamları işıqlandırmaq üçün *böyük* səy göstərdi. Biz doktot Əli Muhəmməd Muhəmməd əs-Salləbinin tərifəlayiq əmək sərf etdiyi "İsmey əl-Mətalib fi Siyrati Əmir əl-Mumininə Əli ibn Əbi Talib رضي الله عنه" adlı kitabını *gördükdə* qərara gəldik ki, onu məsləhət bildiyimiz bəzi əlavələr etməklə ixtisar edək.

Bu heyrətamiz işi bizə bəxş edən müəllif və doktor Əli Muhəmməd Muhəmmədə bu məqamda səmimi qəlbdən təşəkkür edir və ona dəyər veririk. O, əhatəli dəlillərlə araşdırmasını şəffaf şəkildə yekunlaşdırmışdır. Kitaba edilmiş əlavələrdə də onun dəsti xətti aydın şəkildə özünü göstərir. İzzət və Cəlal Sahibi olan Allahdan diləyirik ki, Qiyamət günü bunun savabını onun əməl dəftərində üzə çıxarsın.

Kitab yeni simasında dörd qisimdən ibarətdir:

**Birinci:** Əli ibn Əbu Talib Məkkədə "Doğuluşu, həyatı, böyüyüb başa çatması, İslamı qəbul etməsi və hicrəti."

**İkinci**: Əli Mədinədə, onun evlənməsi və Peyğəmbərlə ﷺ birlikdə döyüşləri.

**Üçüncü**: Əli ibn Əbu Talib raşidi xəlifələrin dövründə, Əli ibn Əbu Talibin həyatına hər xəlifənin dövründə ayrıca işıq salmışıq.

**Dördüncü**: Xilafəti dövründə şəhid olanadək baş vermiş hadisələrdən söhbət açmışıq.

Allah ondan razı olsun.

Allahdan diləyirik ki, bu elm hər bir oxucuya və bu barədə danışana faydalı bir şəfa olsun.

**Araşdırmalar mərkəzi**

# Əli ibn Əbu Talib رضي الله عنه Məkkədə

**Zatı tanışlıq:**

**a) Adı və kunyəsi:**

**1 – Adı və nəsəbi:** Əli ibn Əbu Talib رضي الله عنه olduqca əsil-nəcabətli bir nəsildəndir. Hətta onun nəslinin ən şərəfli nəsil olduğunu da demək olar. Əli ibn Əbu Talib «Abdumənaf»[1] ibn Abdulmuttalib[2] ibn Haşim ibn Abdumənaf ibn Qusey ibn Kilab ibn Murra ibn Kəb ibn Luey ibn Ğalib ibn Fəhr ibn Malik ibn ən-Nədr ibn Kinanə ibn Xuzeymə ibn Mudrikə ibn İlyas ibn Mudər ibn Nizar ibn Məd ibn Ədnan.[3] Əli رضي الله عنه Peyğəmbərin ﷺ əmisi oğludur. Babaları Abdulmuttalibdə nəsəbləri birləşir. Belə ki, atası Əbu Talib Peyğəmbərin ﷺ atası Abdullahın doğma qardaşıdır.

Əlinin رضي الله عنه nəsəbi şərəfli nəsəb sayılır. Çünki bu, Peyğəmbərin ﷺ nəsəbidir. Bu isə məxluqatın ən şərəfli nəsəbidir. Həmçinin onun nəsəbi Əbu Bəkr, Ömər və Osmanla da yeddinci babası Kəbdə birləşir.

İmam Əli رضي الله عنه dünyaya gəldikdə, anası Fatimə bint Əsəd ona öz atası Əsəd ibn Hişamın adını, yəni Əsəd adını vermişdi. Xeybər günü onun səsləndirdiyi aşağıdakı beyt də buna sübutdur:

Anamın Heydər [4] adlandırdığı mənəm,
Meşələr şiri tək zəhmli görkəmliyəm. [5]

*Anası Əliyə Əsəd adını verdiyi zaman* Əbu Talib evdə deyildi. Lakin evə qayıtdıqda bu ad Əbu Talibin xoşuna gəlməmiş və o, uşağın adını dəyişdirib ona Əli adını vermişdir.[6]

---

[1] Əbu Talibin adı Abdumənafdır.

[2] Abdulmuttalibə Şeybətul-Həmd də deyirdilər.

[3] "ət-Təbəqat əl-Kubra", 3/19; "Sifatu əs-Səfva", 1/308; "əl-Bidayə və ən-Nihayə", 7/333; "əl-İsabə", 1/507; "əl-İstiyab", 1/1089; "əl-Muntəzim", 5/66; Təbəraninin "əl-Mucəm əl-Kəbir" əsəri, 1/92.

[4] Heydər ərəbcə şir deməkdir.

[5] Bu rəvayəti imam Muslim öz "Səhih" əsərində nəql etmişdir, № 1807.

[6] "ər-Riyad ən-Nadra", səh. 234; "Subulu əl-Hədy və ər-Rəşad", 5/163.

**2 – Kunyəsi:**

Əbu əl-Həsən, yəni Həsənin atası. Həsən onun Rəsulullahın ﷺ qızı Fatimədən olmuş böyük oğlunun adıdır.

Onun kunyələrində biri də, Əbu Turabdır, yəni "torpaq atası" və ya "torpağa bulaşmış." Bu kunyəni ona Peyğəmbər ﷺ vermişdir. Rəvayət edilir ki, Səhl ibn Səd ﷺ demişdir: "Əlinin ən çox sevdiyi kunyəsi Əbu Turab idi. O, bu kunyə ilə çağırıldıqda sevinərdi. *Çünki* bu kunyəni ona Peyğəmbər ﷺ vermişdi. *Bir gün* Əlinin *bir işdən ötrü* Fatiməyə acığı tutdu. Elə bu səbəbdən də, evdən çıxdı və *gedib* məscidin divarının dibində yerə uzandı. Peyğəmbər ﷺ onu xəbər aldıqda, ona: "Əli məscidin divarının dibində yerə uzanıb"– dedilər. Peyğəmbər ﷺ Əlinin yanına gəldikdə, onun kürəyi torpağa batmışdı. Peyğəmbər ﷺ onun kürəyindəki torpağı silə-silə dedi: "Qalx, ey Əbu Turab, qalx, ey Əbu Turab!" [1] Buxarinin rəvayətində isə deyilir: "Vallahi ki, bu adı ona Peyğəmbər ﷺ vermişdi." [2]

Əli ibn Əbu Talibin ﷺ kunyələrindən biri də, Əbu Sibteyndir, yəni iki nəvənin atası. Burada "iki nəvə" deyildikdə, Rəsulullahın ﷺ qız nəvələri – Həsən və Hüseyn nəzərdə tutulur. [3]

**b) Doğulduğu yer və tarix:**

Onun doğulduğu il barədə rəvayətlər müxtəlifdir. Həsən əl-Bəsri onun Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on beş və ya on altı il əvvəl anadan olduğunu bildirmişdir. [4] İbn İshaq isə Əli ibn Əbu Talibin ﷺ Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il əvvəl dünyaya gəldiyini xəbər vermiş, [5] İbn Həcər də, bu rəyin ən doğru rəy olduğunu söyləmişdir. [6] Muhəmməd əl-Baqir isə iki rəy söyləmişdir: Birinci İbn İshaqın söylədiyi rəydir ki, İbn Həcər bu rə-

---

[1] "Səhih əl-Buxari" № 441; "Səhih Muslim" № 2409.

[2] "Səhih əl-Buxari" № 3703.

[3] "Əsəd əl-Ğabə", 4/16.

[4] Təbəraninin "əl-Mucəm əl-Kəbir" əsəri, 1/95, mürsəl isnadla № 163.

[5] "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/262, isnadsız.

[6] "əl-İsabə", 2/501, Əlinin tərcümeyi halı.

yin düzgün olduğunu bildirmişdir. Həmin rəyə görə o, Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il öncə dünyaya gəlmişdir.[1] İkinci rəyə görə isə o, Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən beş il öncə dünyaya gəlmişdir.[2] Mən də İbn Həcərlə İbn İshaqın rəylərinə üstünlük verirəm, qənaətimcə o, peyğəmbərlikdən on il öncə anadan olmuşdur.[3]

**Əli رضي الله عنه "Kəbə övladı"[4] –dırmı?**

Şəkk yoxdur ki, möminlərin əmiri Əli ibn Əbu Talibin رضي الله عنه fəzilətləri olduqca çoxdur. Uca Allahı Rəbb, Muhəmmədi ﷺ də peyğəmbər və rəsul olaraq qəbul edən hər bir müsəlman bilir ki, imanın səhih olması üçün Peyğəmbərin ﷺ Əhli beytini də sevmək gərəkdir. Həmçinin onların fəzilətlərinə, məqamlarına və başqa bu kimi xislətlərə də iman gətirmək lazımdır. Lakin bu həqiqətlər sabit və səhih mənbələrə əsaslanmalı, yalan və uydurma olmamalıdır.

Hər bir halda əgər Əlinin رضي الله عنه Kəbədə dünyaya göz açması həqiqətən də doğrudursa hər bir müsəlmanın bunu təsdiq edib iman gətirməsi də vacib olardı. Yoxsa müxtəlif bəzi rəvayətlər uydurmaqla, digərlərini isə saxtalaşdırmaqla Əliyə رضي الله عنه fəzilət nisbət et-

---

[1] Təbəraninin "əl-Mucəm əl-Kəbir" əsəri, 1/95, № 163, əl-Baqirə qədər olan isnadı həsəndir.

[2] Təbəraninin "əl-Mucəm əl-Kəbir" əsəri, 1/95, № 163, isnadı mürsəldir və Muhəmməd əl-Baqirə qədər olan isnad həsəndir.

[3] "Fəth əl-Bari", 7/71; "əl-İsabə", 2/507.

[4] "Kəbə övladı" bir müəllifin 495 səhifədən ibarət olan böyük bir kitabının adıdır. Həmin müəllif müxtəlif rəvayətlər, əsərlər, seirlər və digər bu kimi vasitəsilə sübut etməyə çalışır ki, guya Əli رضي الله عنه Kəbənin içində dünyaya gəlib və bu Əlinin Allah yanında ən əzəmətli kəramətlərindən və fəzilətlərindəndir. Hətta Kəbə bele onun dünyaya gəlişi ilə guya böyük şərəfə nail olmuşdur!! Mən başa düşə bilmirəm, görəsən həmin müəllifə görə Əli dünyaya gəlməmişdən öncə Kəbə şərəfli idi yoxsa yox?!

Hörmətli oxucu, həmin kitabda yazılanlar qondarma və yalan hədisləri gətirərək İmam Hakimin adından istifadə edib camaatı aldatmaqdan başqa bir şey deyildir. Həmin rəvayətlərə iman gətirmək bir yana qalsın, onlar oxucunu belə təəccübə gətirir.

məyə çalışırsa bu yolverilməzdir. Belə işlərdən uzaq olmaq gərəkdir. Eyni zamanda bilmək lazımdır ki, bəzilərinin iddia etdiyi kimi Əlinin Kəbədə doğulması öz təsdiqini tapmadığı üçün bunu inkar etmək heç də onun şəninə əksiklik gətirmir və onun məqamını da alçaltmır. Vallahi ki, belə deyildir. Bu da digər məsələlər kimi sadəcə bir elmi məsələdir ki, burada nəyin haqq olduğunu bilmək şərtdir.

Bu məsələnin təfsilatı aşağıdakı kimidir:

Ola bilsin ki, bildiyim qədər Əlinin Kəbədə anadan olması məsələsini ilk iddia edən kəs əl-Fakihi (vəfatı, hicri 272) olmuşdur. O bunu özünün "Əxbaru Məkkə" əsərində yazmışdır. əl-Fakihi demişdir: "Mühacirlər arasında Haşimi oğullarından Kəbədə ilk doğulan kəs Əli ibn Əbu Talibdir ﷺ."[1]

Daha sonra bu sözü əl-Hakim ən-Nisaburi (vəfatı, hicri 405) öz Mustədrak[2] əsərində zikr etmişdir. Ən qəribəsi də budur ki, Hakim bu barədə yekdil rəyin olduğunu iddia etmişdir.

O, Həkim ibn Hizamın Kəbənin içində doğulduğu barədə Musab ibn Abdullah əz-Zubeyrinin (vəfatı, hicri 236) dediyi sözü zikr etmişdir. Zubeyri demişdir: "Nə ondan öncə, nə də ondan sonra Kəbədə heç kəs doğulmamışdı."

Bu sözləri nəql etdikdən sonra əl-Hakim demişdir: "Burada – yəni Həkimdən savayı heç kimin Kəbədə doğulmadığını deməklə - Musab bir yanlışlığa yol vermişdir. Yekdil rəyə görə Fatimə bint Əsəd Möminlərin əmiri Əli ibn Əbu Talibi ﷺ Kəbənin içərisində dünyaya gətirmişdir."

Lakin əl-Hakimin işarə etdiyi xəbərlərin harada olduğu mənə məlum deyil, görəsən həmin hədisləri kim rəvayət edib? Hədislərin yekdil olması bir yana, bəs onların dərəcəsi nə səviyyədədir? Hakim ﷺ bunun mənbəyini, hətta dediyini sübuta yetirmək üçün bircə dənəsini belə qeyd etməmişdir.

---

[1] əl-Fakihinin "Əxbaru Məkkə" əsəri, 3/226, Abdulmalik ibn Dəhişin təhqiqi 2-ci nəşr, hicri 1414.

[2] "əl-Mustədrək" əsəri, 3/550, № 6044.

Ola bilsin ki, Hakim burada mütəvatir dedikdə həmin məsələnin insanlar arasında, xüsusən də öz zamanında məşhur olduğunu və yayıldığını bildirmək istəmişdir. Çünki bəzi tarix və siyər kitablarında bu qeyd olunmuşdur.

Daha sonra Hafiz İbn əl-Məğazili (vəfatı, hicri 483) öz isnadı ilə Əlinin Kəbənin içərisində anadan olduğunu rəvayət etmişdir. Bu rəvayətdə deyilir ki, guya Peyğəmbər ﷺ əmisi Əbu Talibin əlindən tutmuş və onu yanında zövcəsi Fatimə bint Əsədlə birlikdə Kəbəyə aparmışdır. Sonra o Fətimə bint Əsədi Kəbədə otuzdurmuş və demişdir: "Allahın adı ilə burada əyləş." Sonra o təmiz və gülərüz bir uşaq dünyaya gətirir. Mən onun üzü kimi gözəl üzlü birisini görməmişdim. Əbu Talib ona Əli adını verir. Sonra Peyğəmbər ﷺ onu evinə aparır. [1]

Lakin bu hədisin isnadı səhih deyil və məchul ravilərdən nəql olunmuşdur.

Bir sıra alimlər bu hədisin səhihliyini inkar etmişlər. Misal üçün:

1 – İmam Nəvəvi ﷺ (vəfatı, hicri 676) demişdir: "Həkim ibn Hizamdan ﷺ savayı kiminsə Kəbədə anadan olması səhih deyildir."[2]

Həmçinin demişdir: Deyilənə görə Həkim Kəbənin içərisində doğulmuşdur. Ondan savayı kiminsə orada anadan olması məlum deyil. Əli ibn Əbu Talibin orada doğulması ilə bağlı rəvayət olunanlar isə alimlərə görə zəifdir. [3]

2 – İbn əl-Muləqqin (vəfatı, hicri 804) demişdir: "Həkim – yəni ibn Hizam – Kəbənin içərisində dünyaya gəlmişdir. Ondan savayı kiminsə orada anadan olması isə məlum deyil. Əlinin orada doğulması ilə bağlı rəvayət isə zəifdir. Hakim bu məsələdə müxalif möv-

---

[1] Hafiz İbn əl-Məğazilinin "Mənaqibu Əmir əl-Muminin Əli ibn Əbu Talib" əsəri, səh. 26, hədis №3.

[2] Nəvəvinin "əl-Məcmu" əsəri, 2/66.

[3] "Təhzib əl-Əsma" əsəri, səh. 234.

qe tutmuş və "əl-Mustədrak" əsərində Əlinin tərcümeyi halını qeyd edərkən bunun yekdilliklə belə olduğunu bildirmişdir. [1]

3 – Əbu əl-Abbas ibn əl-Xatib (vəfatı, hicri 810) demişdir: "Kəbənin içərisində doğulmuş yeganə şəxs Həkim ibn Hizam olmuşdur."[2]

4 – İbn Nasirəddin əd-Diməşqi (vəfatı, hicri 842) Həkim ibn Hizamın tərcümeyi halında demişdir: "Anası onu Kəbənin içərisində dünyaya gətirmişdir. Başqa birisi bununla tanınmır." [3]

5 – Bu rəyi İmam Suyuti ﷺ də (vəfatı, hicri 911) dəstəkləmişdir. [4]

*Əlinin Kəbənin içində doğulmadığı* rəyinin səhih olduğunu "Tarixu Məkkə əl-Muşərrafə" əsərinin müəllifinin gətirdiyi dəlillər də təsdiqləmişdir. Belə ki müəllif Əlinin ﷺ doğulduğu yeri barədə söhbət açarkən qeyd etmişdir ki, Əlinin doğumu Kəbədə olmamışdır. O, demişdir: "Əli ibn Əbu Talibin ﷺ anadan olduğu yerə gəldikdə, bu yer insanlara bəllidir. Həmin yerə insanlar arasında Əlinin anadan olduğu yer deyilir. O yer Peyğəmbərin ﷺ anadan olduğu yerə yaxındır. Bu barədə əl-Əzraqi (vəfatı, hicri 250) bir söz söyləməmiş, İbn Cubeyr isə bu barədə qeyd etmişdir.

O yerin qapısının ağzındakı daşda belə bir yazı vardır: "Bura möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ doğulduğu yerdir və burada Peyğəmbər ﷺ böyüyüb başa çatmışdır... Bəziləri deyir ki, Əli ibn Əbu Talib Kəbənin içərisində anadan olmuşdu. Lakin bu rəy Nəvəvinin "Təhzib əl-Əsma" əsərində qeyd etdiyi kimi alimlərə görə zəifdir. Məşhur olan rəy isə qeyd etdiyimiz kimidir. Həmin evdə təndirə bənzəyən bir yer vardır ki, Əli ibn Əbu Talibin məhz orada dünyaya gəldiyi güman edilir."[5]

Görəsən İbn Ziyanın Əlinin doğumu barədə qeyd etdiyi həmin məşhur yerdə şübhə doğuran bir şey varmı? Məgər insanlar o qə-

---

[1] "əl-Bədr əl-Munir" əsəri, 6/489.

[2] "Vəsiylətu əl-İslam Binnəbiyyi Aleyhissələm" əsəri, səh. 68.

[3] "Təudih əl-Muştəbih" əsəri, 3/98.

[4] "Tədrib ər-Ravi" əsəri, 2/360.

[5] İbn Ziyanın "Tarixu Məkkə əl-Muşərrəfə vəlməscidil-haram" əsəri, səh. 185.

dərmi yalana aludə olublar ki, fikir və mənhəc müxtəlifliyi yaranmamışdan əvvəl Əlinin fəzilətini inkar edirlər? Sonra da yalan o yerə gəlib çatdı ki, onlar bir otağın önünə yazdılar ki, möminlərin əmiri Əli ibn Əu Talib burada dünyaya gəlmişdir? Yəni bunu etməklə onlar istəyiblər ki, Əlinin fəzilətini insanlara unutdursunlar və insanlar da buna iman gətirməsinlər?

Sonra da kiminsə Kəbədə və ya Məscidulharamda anadan olması ərəblərə görə xüsusi bir fəzilət hesab olunsa idi onlar bunun üçün yarışardılar. Lakin bu belə olmayıb. Çünki onların qəlbində müqəddəs evin xüsusi yeri var idi. Onlar bilirdilər ki, bu müqəddəs yeri hər növ nəcasətdən, o cümlədən heyz və nifas qanından təmiz saxlamaq gərəkdir!

Həkim ibn Hizamın ﷺ Kəbədə doğulması məsələsinə gəldikdə isə rəvayətdən anlaşılan odur ki, onun anasının Kəbədə uşağını dünyaya gətirmək qəsdi olmamışdır. Sadəcə onun doğuş vaxtı Kəbənin içində olması vaxtına təsadüf etmiş və bu səbəbdən də uşağı orada dünyaya gətirmişdir.

Zubeyr ibn Bəkkar (vəfatı, hicri 256) Musab ibn Osmandan rəvayət edərək demişdir: "Həkim ibn Hizamın anası qureyşli qadınlarla birlikdə Kəbəyə daxil oldu. Həmin vaxt o, Həkim ibn Hizama hamilə idi. Bu vaxt onun sancısı tutur. Doğuş tez baş verdiyindən dolayı təcili bir dəri döşənək gətirirlər və Həkim ibn Hizam Kəbənin içərisində həmin dəri döşənəyin üzərində dünyaya gəlir."[1]

Rəvayətin zahirindən anlaşılan odur ki, həmin qadın Kəbədə olan doğuşun şərəf və fəzilət olduğunu güman edib Kəbəyə məhz doğum məqsədi ilə getməmişdir. Sadəcə bu bir bir təsadüf nəticəsində baş vermişdi. Bu baxımdan da ərəblərə görə Kəbənin müqəddəsliyi və onun nəcasətdən təmiz tutulması məsələsi ilə bağlı heç bir müşkül yoxdur. Demək Kəbə nə əvvəllər nə də sonralar heç bir zaman buna bənzər məsələlər üçün nəzərdə tutulmayıb.

---

[1] "Nəsəbu Qureyş" əsəri, səh. 77.

**c) Əli ibn Əbu Talibin ﷺ ailəsi, onun nüfuzu və böyüyüb başa çatması:**

Əli ibn Əbu Talib ﷺ bir sıra əxlaqi və ənənəvi özəllikləri olan bir ailədə böyüyüb boya-başa çatmışdır. Ərəblər o zaman həmin ailənin fəzilətini və yüksək məqamını təsdiq edirdilər. Əvvəlcə Qureyş qəbiləsi, sonra isə Haşim oğullarından söhbət açacağıq.[1]

**1. Qureyş qəbiləsi:**

Bütün ərəblər Qureyş qəbiləsinin ali nəsəbə malik olmasını, rəhbərliyini, dilinin fəsahətini, gözəl əxlaqi keyfiyyətlərə malik olmalarını, şücaətini etiraf etmişlər. Bu mübahisəsiz bir məsələdir.[2] Qureyş qəbiləsi digər ərəblərdən birlik, bərabərlik kimi müsbət keyfiyyətlərinə, habelə İbrahimin ﷺ şəriətinə riayət etmələrinə görə fərqlənirdilər. Onlar öz övladlarını olduqca çox sevir, həcc ziyarəti edir, onun ayinlərini yerinə yetirir, ölülərini kəfənləyər, cənabətdən qüsl edər, məhrəmlərlə nikah bağlamazdılar. Qurani Kərim də nazil olduqda onların bu müsbət keyfiyyətlərini təsdiq etmişdi. Onlar evləndikdə mehr verər, şahidlər tutar, üç dəfə boşanardılar.[3] Onları şərəfləndirən digər bir amil onların istədikləri qəbilədən evlənə bilmələri idi. Bu xüsusda onlarda hər hansı bir qadağanedici şərt yox idi. Qızlarını başqalarına ərə verdikdə işə onlar qarşı tərəfə dinə möhkəm sarılmalarını şərt qoyurdular. Onlar hesab edirdilər ki, dinə tabe olmayan birisinə qız vermək onların şəninə əksiklik gətirmiş olur.[4]

**2. Haşim oğulları:**

Haşim oğulları isə Qureyşin ən əfzəl ailələrindən idi. Onlar bir sıra müsbət insani keyfiyyətlərlə səciyyələnirdilər. Onlar hər işlərində ədalətli olar, iti zəkali olar, zülmkarlıqdan və haqqa qarşı çıx-

---

[1] Ərəblərin özəllikləri ilə bağlı Nədəvinin "əs-Siyratu ən-Nəbəviyyə" əsərinə bax.

[2] Nədəvinin "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, səh. 74.

[3] Əlusinin "Buluğ əl-Ərab fi Mərifəti Əhval əl-Arab" əsəri, 1/243.

[4] Nədəvinin "əl-Murtəda" əsəri, səh. 22; Əlusinin "Buluğ əl-Ərab fi Mərifəti Əhval əl-Arab" əsəri, 1/243.

maqdan uzaq durar, yüksək məramlı olar, qonağa və məzluma qarşı mülayim davranar, səxavətli və şücaətli olar, bir sözlə ərəblərin cəngavər adlandırdıqları dərin mənalı və tərifəlayiq xüsusiyyətlərə malik olardılar. Bütün bu vəsflər hörmətli Peyğəmbərlərinin ﷺ ulu babalarına yaraşan vəsflər idi. O da məhz həmin müsbət əxlaqi keyfiyyətlərə dəvət edirdir. Sadəcə onlar fitrət əhli idilər və övladlarını cahiliyyə adət-ənənələrinə aludə etmişdilər. Haşim oğulları bu yüksək məqama fədakarlıqları, səxavətləri və insanlara xidmət göstərmələri sayəsində nail ola bilmişdilər.

**3. Abdulmuttalib ibn Haşim:**

O, Peyğəmbərin ﷺ və Əli ibn Əbu Talibin ﷺ babası idi. Həcc mövsümü zamanı zəvvarların yemək və içməklə təmin olunmaları işinə Əmisi Muttalibdən sonra Abdulmuttalib ibn Haşim baxmağa başladı. O da babaları kimi öz qövmünə xidmət göstərmiş, babalarından da üstün bir şərəfə nail olmuşdu. Qövmü də onu sevib hörmət bəsləyirdi. [1]

Abdulmuttalib Qureşlilərin arasında elə də zəngin adam deyildi. O, Qusey kimi Məkkənin yeganə itaət olunan rəhbəri də deyildi. Məkkədə ondan daha zəngin və vəzifəcə daha böyük olanlar da var idi. Sadəcə o, zəvvarların yemək-içmək məsələlərinə məsul olduğu üçün özəl bir hörmətə malik idi. O, zəmzəm quyusuna da məsul idi ki, bu da Kəbə ilə birbaşa əlaqəli məsələlər idi. [2]

Məlumdur ki, Beytulharamın ərəblər arasında yüksək məqamı var idi. Elə bu səbəbdən də Beytulharamın işləri ilə məsul olan şəxsin də ərəblər yanında məqamı yüksəlirdi.

Abdulmuttalib Beytullahın Allah yanında xüsusi məqamının olmasına iman gətirirdi. O bilirdi ki, Allah Öz evini qoruyur və *bütün pislikləri* ondan dəf edir. Həbəşistan kralı Əbrəhə ilə Abdulmuttalibin arasında bir hadisə yaşanmışdı. Bir dəfə o, Məkkəyə hücum

---

[1] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/142.

[2] Cavad Əlinin "əl-Mufəssəl fi Tarixi əl-Arab Qablə əl-İslam" əsəri, 4/57; "əl-Murtəda" əsəri, səh. 22.

edərək Kəbəni dağıdıb onun hörmətini alçaltmaq istəyir. Hücum zamanı o, Abdulmuttalibin iki yüz dəvəsini də ələ keçirir. Bu vaxt Abdulmuttalib onun yanına gedərək izin istəyir. Əbrəhə də ona xüsusi ehtiram göstərərək öz taxtından enir və onu yanında oturdur. O Abdulmuttalibdən nə üçün gəlməsinin səbəbini soruşduqda Abdulmuttalib deyir: "Kralın ələ keçirdiyi iki yüz dəvəmi geri alamaq üçün gəlmişəm." Bunu eşidən kral təəccüblə deyir: "Mənim yanıma iki yüz dəvəyə görə gəlmisən, halbuki dağıtmaq istədiyim ev sənin və babalarının dini hesab olunur, elə bildim ona görə gəlmisən?!" Abdulmuttalib deyir: "Mən dəvələrin sahibiyəm, evin isə öz sahibi var və O onu qoruyacaqdır." O dedi: "Qarşımı ala bilməz." Abdulmuttalib dedi: "Baxarsan." [1] Abdulmuttalibin dediyi kimi də olur və Evin Rəbbi Öz evini qoruyaraq Əbrəhənin hiyləsini və onun qoşununu dolaşığa salır. Uca Allah buyurur: **"Onların üzərinə qatar-qatar quşlar göndərdi, onların üstünə bərk gildən daşlar yağdırdı, onları sanki yeyilmiş əkin yarpağına döndərdi."** [2]

Abdulmuttalib olduqca əxlaqlı, dürüst bir insan idi. O, öz övladlarına zülmdən, haqsızlıqdan uzaq durmağı, yaxşı işlər görüb pis işlərdən çəkinməyi əmr edərdi. [3] Abdulmuttalib səksən yaşın üzərində dünyasını dəyişmişdir. Həmin vaxt Peyğəmbərin ﷺ səkkiz yaşı var idi. Bu da o deməkdir ki, o təxminən miladi tarixlə 578-ci ildə vəfat etmişdi. [4] Deyilənə görə o vəfat etdikdə Məkkədə bir müddət bazar fəaliyyət göstərməmişdi. [5]

### 4. Əbu Talib Əli ibn Əbu Talibin ﷺ atasıdır:

Əbu Talib ibn Abdulmuttalibin ailəsi böyük, özü isə kasib idi. Rəsulullah ﷺ onun ailəsində tərbiyə alaraq boya-başa çatmışdı. O, öz qardaşı oğlunu olduqca çox sevirdi. Çıxdıqda onunla birlikdə çı-

---

[1] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/49; "əl-Murtəda" əsəri, səh. 23.
[2] "əl-Fil" surəsi, 3-5.
[3] "Buluğ əl-Ərab fi Mərifəti Əhval əl-Arab" əsəri, 1/324.
[4] "əl-Mufəssəl fi Tarixi əl-Arab Qablə əl-İslam" əsəri, 4/78.
[5] əl-Bəlazrinin "Ənsab əl-Əşraf" əsəri, 1/37.

xardı. Babasından sonra Peyğəmbərə ﷺ himayədarlıq edən o olmuşdu.[1] Peyğəmbər ﷺ islama dəvət edərək bunu açıq şəkildə elan etdikdə Əbu Talib onun yanında olmuş və onu müdafiə etmişdi. Qureyşlilər də bundan hiddətlənərək çox qəzəblənmişdilər.[2]

Beləcə Əbu Talib bütün təhdidlərə baxmayaraq qardaşı oğluna yardım etməkdə davam edir. Bu zaman xalqı ittifaq edir ki, onlardan qız alıb qız verməsinlər, onlarla ticarət etməsinlər, onlara heç bir şey satmasınlar. Hətta bununla bağlı bir səhifəyə də yazıb Kəbənin içindən asırlar. Xalqı Haşim oğulları ilə Muttalib oğullarını da Əbu Talibə qatırlr.[3] Bu hadisə peyğəmbərliyin yeddinci ilində məhərrəm ayında baş vermişdi.

Beləliklə Haşim oğulları üç il blokada vəziyyətində yaşadı və onlara heç bir şey verilmədi. Yalnız gizlicə nə isə əldə edə bilirdilər. Sonra səhifənin həşaratlar tərəfindən yeyilməsi hadisəsi baş verdi və bu xəbəri Peyğəmbər ﷺ Əbu Talibə çatdırdı.[4] Bundan sonra səhifə etibarsız hesab edildi. Əbu Talib peyğəmbərliyin onuncu ilində şəvval ayının ortalarında vəfat edir. Həmin vaxt onun səksəndən çox yaşı var idi. Lakin Əbu Talib islamı qəbul etmədi.[5] Əbu Talib vəfat edən il Peyğəmbərin ﷺ xanımı Xədicə də vəfat etmişdi. Beləliklə Peyğəmbərin ﷺ başına bir müsibətin ardından ikinci bir müsibət baş gəldi. Odur ki, həmin il hüzn ili adlandı.[6]

**5. Möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ anası:**

O, möhtərəm səhabə Fatimə bint Əsəd ibn Haşim ibn Abdumənaf ibn Qusey əl-Haşimiyyədir.[7] O, haşimi qadınlar arasında dün-

---

[1] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/179; "əl-Murtəda" əsəri, səh. 24.

[2] əl-Ğədbanın "Fiqhu əs-Siyratu ən-Nəbəviyyə" əsəri, səh. 184.

[3] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/350-351.

[4] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/373-377; "əl-Murtəda" əsəri, səh. 26.

[5] "Buluğ əl-Ərab" əsəri, 1/324.

[6] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/45-46; "əl-Murtəda" əsəri, səh. 26.

[7] "Nəsəbu Qureyş" əsəri, səh. 40; "Fədail əs-Səhabə" əsəri, 2/685.

yaya haşimi oğlan uşağı gətirən ilk qadındır.[1] Əbu Talib atası Abdulmuttalibin vəsiyyəyinə əsasən Peyğəmbəri ﷺ öz himayəsinə götürdüyü zaman Fatimə bint Əsəd onun qulluğunda durmuşdu. Anasından sonra Peyğəmbərə ﷺ analıq etmiş, bacardığı qədər onun qulluğunda durmuşdu. Peyğəmbər ﷺ təxminən ömrünün iyirmi ilə yaxın bir dövrünü onun yanında keçirmişdir. O, islamı ilk əvvəl qəbul edənlərdən olmuş və fəzilət baxımından bir çoxlarını üstələyə bilmişdi.

**6. Əli ibn Əbu Talibin ﷺ qardaş və bacıları:**

Əbu Talibin dörd oğlu var idi: Talib (hansı ki, ona bu oğlunun adı ilə bağlı kunyə verilmişdi), Əqil, Cəfər və Əli. Həmçinin iki qızı da var idi: Ummu Hani və Cümanə. Hamısının anası Fatimə bint Əsəd idi. Onların hər biri qardaşından on il kiçik idi. Talib Əqildən on yaş böyük, Əqil Cəfərdən on yaş böyük, Cəfər də Əlidən on yaş böyük idi.[2]

- **Talib ibn Əbu Talib:**

Talib Bədr döyüşündən sonra müşrik kimi həlak olmuşdu. Deyilənə görə o, harasa getmiş və bir daha geri qayıtmamışdı. Nə onun getdiyi yer barəsində, nə də özü barəsində heç bir məlumat yoxdur. O, yer üzərində itib-batmış kəslərdən biri idi. O, Rəsulullahı ﷺ çox sevirdi. Hətta ona təriflər belə demişdi. [3]

- **Əqil ibn Əbu Talib ﷺ:**

Onun kunyəsi Əbu Yezid idi. O, İslamı Məkkənin fəthi günü qəbul etmişdi. Deyilənə görə o, Hudeybiyyə sülhündən sonra İslamı qəbul etmiş və hicrətin səkkizinci ilinin əvvəlində hicrət etmişdi. Bədr döyüşündə o, əsir düşmüş və əmisi Abbas onu azad etmişdi. Mutə döyüşündə də iştirak etmişdi. Məkkənin fəthi və Huneyn döyüşlərində isə onun barəsində heç bir məlumat qeyd olunmamışdır.[4]

---

[1] "Fədail əs-Səhabə" əsəri, 2/685.
[2] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/223; "əl-Murtəda" əsəri, səh. 26.
[3] "əl-Cəvhəra fi Nəsəbi ən-Nəbiyyi və Əshabihi əl-Əşəra" əsəri, səh. 204.
[4] "əl-İsabə fi Təmyiz əs-Səhabə" əsəri, 4/531.

- **Cəfər ibn Əbu Talib ﷺ:**

İslamı ilk əvvəl qəbul edənlərdən biridir, Həbəşistana hicrət etmişdir. Nəcaşi və əyanları onun vasitəsilə İslamı qəbul etmişdilər. O, Şam diyarında Mutə döyüşündə döyüş zamanı şəhid olmuşdu.[1]

- **Ummu Hani bint Əbu Talib ﷺ:**

Onun məşhur olan adı Faxitədir. O, Həbira ibn Amr ibn Aiz əl-Məxzumi ilə evlənmişdir. Ummu Hanidən kutubus-sittədə və digər əsərlərdə hədislər nəql olunmuşdur. Tirmizi və başqaları demişlər: "O, Əlidən sonra bir müddət yaşamışdır."[2]

- **Cümanə bint Əbu Talib ﷺ:**

O, Ummu Abdullah ibn Əbu Sufyan ibn əl-Haris ibn Abdulmuttalibdir. Əbu Sufyan ibn əl-Harislə evlənmiş və ondan oğlu Cəfər ibn Əbu Sufyanı dünyaya gətirmişdir.[3]

**7. Möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ zövcələri və övladları:**

Möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ bir neçə zövcəsi olmuşdur. Lakin o, Peyğəmbərin ﷺ qızı Fatimənin üzərinə ikinci zövcə almamışdı. Fatimə vəfat etdikdən sonra isə digər xanımlarla ailə həyatı qurmuşdu. Aşağıda onun zövcə və övladlarının adlarını qısa şəkildə qeyd edək:

- Rəsulullahın ﷺ qızı Fatimə. Ondan övladları: Həsən, Hüseyn, Zeynəb əl-Kubra, Ummu Gülsüm əl-Kubra.
- Xaulə bint Cəfər ibn Qeys ibn Məsləmə. Ondan övladları: Muhəmməd əl-Əkbər (Muhəmməd ibn əl-Hənəfiyyə).
- Təmim oğulları qəbiləsindən olan Leyla bint Məsud ibn Xalid. Ondan övladları: Ubeydullah və Əbu Bəkr.
- Ummu əl-Bənin bint Haram ibn Xalid ibn Cəfər ibn Rabiə. Ondan övladları: əl-Abbas əl-Əkbər, Osman, Cəfər əl-Əkbər və Abdullah.

---

[1] "əl-İsabə" əsəri, 1/485.

[2] "əl-İsabə fi Təmyiz əs-Səhabə" əsəri, 8/317.

[3] "əl-İsabə" əsəri, 7/553.

- Əsma bint Umeys əl-Xusəmiyyə. Ondan övladları: Yəhya, Ovn.
- əs-Səhba.[1] Ondan övladları: Ömər əl-Əkbər və Ruqayyə.
- Uməmə bint əl-As ibn ər-Rabi. Ondan övladları: Muhəmməd əl-Əvsat.
- Ummu Səid bint Urva ibn Məsud əs-Səqafi. Ondan övladları: Ummu əl-Hüseyn və Ramlə əl-Kubra.[2]

Ummu Vələd[3] sayılan qadınlardan – cariyələrdən – olan övladları: Muhəmməd əl-Əsğar, Ummu Hani, Meymunə, Zeynəb əs-Suğra, Ramlə əs-Suğra, Ummu Gülsüm əs-Suğra, Fatimə, Umamə, Xədicə, Ummu əl-Kiram, Ummu Sələmə, Ummu Cəfər, Cumanə, Nəfisə.

Həmçinin Mihyat bint İmru əl-Qeysdən bir qızı olmuş, lakin o, uşaq ikən tələf etmişdir. İbn Səd demişdir: "Əlinin ﷺ bunlardan başqa övladının olması bizlərə məlum deyil. Əli ibn Əbu Talibin ﷺ bütün övladları on dörd oğlan, on doqquz qız olmuşdur. Onun nəsli beş oğlundan davam etmişdir: Həsən, Hüseyn, Muhəmməd ibn əl-Hənəfiyyə, Abbas ibn əl-Kilabiyyə, Ömər ibn ət-Təğlubiyyə."[4]

**8. Əli ibn Əbu Talibin ﷺ vəsfi:**

Uca Allah Əli ibn Əbu Talibə ﷺ güclü bədən vermişdi və bununla da o, döyüşlərdə qəhrəmanlıqlar göstərmiş, çətinliklərə sinə gərmiş, pəhləvanları məğlub etmiş və onlara qalib gələ bilmişdi.

İbn Abdul-Bərr ﷺ demişdir: "Əli ibn Əbu Talib ﷺ ortaboylu, qaragözlü, on dörd gecəlik ay kimi gözəl simalı, iri bədənli, enlikürək, əlləri sərt, qəd-qamətli, boynunun dərisi zərif, saçları seyrək və uzun, uzunsaqqallı, çiyinləri iri, bazusu çiyninə sıx bitişik, cüssəli,

---

[1] Bu, Ummu Həbib bint Rabiə ibn Bəcirdir. Bu qadın Əbu Bəkrin ﷺ xilafəti dövründə Ayn ət-Təmr (İraqda yer adıdır) döyüşü zamanı əldə olunan əsirlərdən olmuşdur.

[2] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/332.

[3] "Ummu Vələd" sözü ərəb sözü olub hərfi tərcüməsi uşağın anası deməkdir. Bu sözü öz ağasından dünyaya uşaq gətirən qadına deyirdilər. Əgər qul olmuş qadın öz ağasından dünyaya uşaq gətirərdisə, onda onu qul kimi satmaq olmazdı. Həmin qadın ağası öldükdən sonra azad qadın sayılırdı.

[4] "ət-Təbəqat", 3/20; "əl-Bidayə və ən-Nihayə", 7/331-333.

qolları çox möhkəm, özü də qorxu bilməyən, olduqca qüvvətli və şücaətkar bir adam idi. Yeridikdə ləngər vurar, birisinin qolundan tutduqda onun nəfəsini kəsər, döyüşlərdə də, öndə gedərdi. Kök deyildi, əlləri və qolları qüvvətli idi, döyüşə getməyə tələsərdi, sakit, güclü və cəsarətli idi.” [1]

## İslamı qəbul etməsi:

Əli ibn Əbu Talib ﷺ Peyğəmbərin ﷺ evində böyüyüb boya-başa çatmışdı. Məhz peyğəmbərliyin kölgəsində həyata ilk qədəmlərini qoymuş, ondan atalıq və peyğəmbərlik tərbiyəsini almışdı. Bununla da onun qədərində ən xeyirli insanın yanında olmaq var idi. Bu xeyirə əsaslanaraq o, daha böyük xeyirlərə nail ola bilmişdi.

Əli ﷺ həyatının ilk illərini Muhəmmədə ﷺ oğul, müşavir, dost, qəlbinə və fikrinə olduqca yaxın bir şəxs kimi yaşamışdı.

O, atası Əbu Taliblə birlikdə həyatın çətinliklərinə sinə gərmişdi. Onun ətrafındakılar da onun hansı çətinliklərdən keçdiyini görmüşdülər.

Əbu Talibin övladı çox, maddi imkanı isə az idi. Qureyşə quraqlıq üz verdikdə Peyğəmbər ﷺ əmiləri Həmzə ilə Abbasdan xahiş etmişdi ki, Əbu Talibə yardım etsinlər. Beləliklə Abbas Talibi, Həmzə Cəfəri, Peyğəmbər ﷺ isə Əlini ﷺ öz himayəsinə götürmüşdü.[2]

İbn İshaq öz isnadı ilə Mücahiddən rəvayət edərək demişdir: “Qureyşlilərə quraqlığın üz verməsi İzzət və Cəlal Sahibi olan Allahın Əli ibn Əbu Talibə ﷺ bəxş etdiyi nemət idi. Belə ki, o zaman Əbu Talibin böyük ailəsi var idi. Quraqlıq üz verdikdə Peyğəmbər ﷺ Haşim oğullarının ən sadəsi olan əmisi Abbasa müraciət edib dedi: “Ey Abbas, qardaşın Əbu Talibin ailəsi çox böyükdür. Görürsən ki, insanların başına necə bir müsibət gəlib. Gedək bizimlə onun yükünü yüngülləşdirək. Hərəmiz onun övladlarından birini götürək bir az yüngülləşsin.”

---

[1] “əl-İstiyab fi Mərifəti əl-Əshab” əsəri, 3/1123.

[2] “Əli ibn Əbu Talib əl-Xaliyfətu əl-Muftəra Aleyhi” əsəri, səh. 10.

Abbas dedi: "Bəli gedək." Onlar Əbu Talibin yanına getdilər və ona dedilər: "İstəyirik ki, bu müsibət aradan qalxanadək sənin yükünü bir az azaldaq." Əbu Talib dedi: "Əqili mənə saxlayın, başqa nə istəyirsinizsə edin." Rəsulullah ﷺ Əlini götürüb qucaqladı. Abbas isə Cəfəri götürüb qucaqladı. Beləcə Əli ibn Əbu Talib رضي الله عنه Rəsulullaha ﷺ peyğəmbərlik verilənədək onun yanında qaldı. Bundan sonra da Əli dərhal ona iman gətirdi və ona tabe oldu. Cəfər də Abbasın yanında qaldı, sonradan İslamı qəbul etdi və ondan ayrıldı."[1]

Göründüyü kimi Peyğəmbər ﷺ babası Abdulmuttalibin vəfatından sonra onu himayə edən Əbu Talibin ona etdiyi yaxşılığın əvəzini vermək istəmişdi. Bu da Uca Allahın Əliyə bəxş etdiyi ən böyük nemətlərdən biridir. Belə ki, Uca Allahın tərbiyələndirdiyi bir kəs, yəni Allahın Rəsulu ﷺ ona tərbiyə verərək onu böyütdü. Hansı ki, onun əxlaqı Quran idi. Həmin Quran əxlaqı da Əlidə özünü biruzə verdi. Peyğəmbərin ﷺ Əliyə verdiyi bu tərbiyə kifayət edir. O, İslamın beşiyində böyüyüb-başa çatmış, onun sirlərinə kiçik yaşlarından yiyələnmişdi. Bu hələ dəvət açıq şəkildə yayılmamışdan öncə baş vermişdi. Sonradan İslam geniş yayılmış, insanlar zülmətdən nura çıxmağa başlamışdı.

Alimlər möminlərin anası Xədicə bint Xuveyliddən رضي الله عنها sonra İslamı ilk qəbul edən insanın Əbu Bəkr, yoxsa Əli olması barəsində ixtilaf etmişlər. Alimlərin sözlərindən mənim ən çox meyl etdiyim rəy odur ki, kişilərdən İslamı ilk qəbul edən Əbu Bəkr, uşaqlardan Əli, qadınlardan isə Xədicə olmuşdur. Ümumən hamıdan öncə ilk iman gətirən şəxsə gəldikdə bu Xədicə olmuşdu. Kölələrdən isə ilk öncə Zeyd İslamı qəbul etmişdi.[2] Beləliklə uşaqlardan ilk İslamı qəbul edən şəxs Əli ibn Əbu Talibdir رضي الله عنه.

---

[1] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/245.

[2] "əl-Bidayə və ən-Nihayə", 3/26-28; "əl-Əvail min əs-Səhabəti və zul-Fadli minhum vən-Nəcabə", səh. 23.

İbn İshaq rəvayət edir ki, Xədicə bint Xuveylid ﷺ İslamı qəbul etdikdən sonra Əli ibn Əbu Talib ﷺ onların yanına gəldi və onların ibadət etdiklərini görüb: "Bu nədir, ey Muhəmməd?"– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Bu, Allahın Özü üçün seçdiyi və onu elçilərinə tapşırıb ümmətlərə göndərdiyi bir dindir. Odur ki, mən səni Tək Allahı qəbul edib yalnız Ona ibadət etməyə, üstəlik, Lat və Uzzanı inkar etməyə çağırıram." Onda Əli ibn Əbu Talib ﷺ dedi: "Mən bu günədək bu haqda heç nə eşitməmişəm. Odur ki, atamla məsləhətləşməmiş heç bir qərar verə bilmərəm." Peyğəmbər ﷺ öz sirrinin aşkara çıxacağından ehtiyat etdiyinə görə, ona belə buyurdu: "Ey Əli, əgər İslam dinini qəbul etmək fikrin olmasa, bunu heç kəsə bildirmə!" Elə həmin gecə Uca Allah ona hidayət verdi və səhəri gün o, Peyğəmbərin ﷺ yanına gəlib: "Mənə nə buyurursan ey Muhəmməd?" - dedi. Peyğəmbər ﷺ də ona belə buyurdu: "Allahdan başqa *haqq* məbud olmadığına, Onun Tək, şəriksiz olduğuna şahidlik etməli, üstəlik, Lat və Uzzanı inkar etməli, habelə, başqa *batil* ilahlardan da, uzaq durmalısan." Əli ibn Əbu Talib ﷺ Peyğəmbərin ﷺ dəvətini qəbul edib müsəlman oldu və *bir müddət* bu haqda heç kəsə bir şey bildirmədi." [1]

### Əli ﷺ ilə Əbu Talibin arasında *olan münasibət*:

İnsanın həyatda malik olduğu ən dəyərli nemət dində sabit qalmaqdır. Odur ki, insanın öz ruhunu din yolunda fəda etməsində, qanını axıtmasında təəccüblü heç bir şey yoxdur. İnsan başına nə cür müsibətlər gəlsə də, hətta mişarla tikə-tikə doğransa belə dində sabit olmalıdır. Çünki iman qəlbə daxil olduqda nəfslərdə öz işini görmüş olur. Əlinin ﷺ halı da belə idi. O, əsla dində həddini aşmaz, sevimli Peyğəmbərini ﷺ tərk etməz, Allah onun qəlbini nurlandırdıqdan, köksünü İslama açdıqdan sonra əsla bütpərəstlik dininə qayıda bilməzdi. Aşağıda qeyd olunacaq hadisə də dediklərimizi isbat edir:

---

[1] İbn İshaqın "əs-Siyra" əsəri, 2/118.

İbn İshaq demişdir: "Bəzi alimlər qeyd etmişdilər ki, Rəsulullah ﷺ namaz vaxtı gəldiyi zaman Məkkənin kənarına çıxardı. Həmin vaxt Əli رضي الله عنه də atası Əbu Talibdən, əmilərindən və qövmündən xəbərsiz onunla birlikdə çıxardı. Onlar gedib birlikdə namaz qılardılar. Axşam isə geri qayıdıb birlikdə uzun-uzadı oturardular. Bir dəfə onlar yenə namaz qılarkən Əbu Talib onları gördü və Rəsulullaha ﷺ belə dedi: "Ey qardaşım oğlu, etiqad etdiyin bu din nədir?" O, dedi: "Əmi, bu Allahın, Onun mələklərinin, elçilərinin və babamız İbrahimin dinidir." Allah məni insanlara elçi olaraq göndərdi. Sən isə ey əmi, nəsihətə daha çox layiq olan birisisən. Mən səni hidayətə səsləyirəm ki, mənə cavab verəsən və yardım göstərəsən."

Əbu Talib dedi: "Ey qardaşım oğlu, mən dədə-babamın dinini tərk edə bilmərəm, lakin məlumun olsun ki, mən nə qədər ki sağam sənə heç kim heç nə edə bilməz." Sonra Əliyə dedi: "Oğlum, sənin sitayiş etdiyin bu din nədir?" O dedi: "Atacan, mən Allaha, Onun Rəsuluna iman gətirib onları təsdiq etdim. Onun gətirdiklərini təsdiqlədim və onunla namaz qıldım." Deyilənə görə Əbu Talib ona belə dedi: "O, səni yalnız xeyirə dəvət edə bilər. Elə isə ona tabe ol."[1]

Bəli bu, imanın sadiqliyi, əqidənin sabitliyi və bu yolda qurbanlar fəda etməkdir. Bəli bu, mövqenin aydınlığı və Uca Allahın vədinə inam və tabeçilikdir.

Bütün bu amillər Əbu Talibi heç bir güzəşt qəbul etməyən bu gənc qəhrəmana və aslana tabe olmağa vadar etdi. Bunun da əsas məqsədi tabesizlik deyil, dinin mühafizə olunması, əbədi həyatın fani dünyaya, qiymətlinin dəyərsizə tərcih edilməsi idi.

---

[1] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 1/246.

# Əlinin ﷺ fəzilətlərindən və vəsflərindən müxtəsər parçalar

Əli ibn Əbu Talibin ﷺ sifətləri və fəzifətləri o qədər çoxdur ki, onlarıın hamısını qələmə almaq mümkün deyildir. Aşağıdakı sadalayacaqlarımız isə dənizdən bir damla, bir nöqtədir.

**a) Onun bəzi fəzilətləri:**

Hafiz ibn Kəsir demişdir ki, onun fəzilətlərindən biri onun Cənnətlə müjdələnmiş on nəfər arasında nəsəb baxımından Peyğəmbərə ﷺ ən yaxın olmasıdır. Belə ki o, Rəsulullahın ﷺ əmisi oğludur. Onun atası Rəsulullahın ﷺ atasının doğmaca qardaşıdır.[1]

**– Əli ﷺ barədə varid olmuş fəzilətlərin bəzisi aşağıdakılardır:**

- **Onu sevmək imandan və ona nifrət etmək isə nifaqdandır:**

Zur ibn Hubeyş demişdir: Əli *ibn Əbu Talib* ﷺ demişdir: "Toxumu çatladıb cücərdən və insanı yaradan *Allaha* and olsun ki, yazıb-oxumağı bacarmayan Peyğəmbər ﷺ mənə bildirmişdir ki: "Məni yalnız mömin sevər və mənə yalnız münafiq nifrət edər."[2]

- **Şəhid kimi ölməsi:**

Əbu Hureyra ﷺ demişdir: "Bir gün Rəsulullah ﷺ, Əbu Bəkr, Ömər, Osman, Əli, Talhə və Zubeyr ﷺ Hira dağının üstündə ikən dağ silkələndi. Onda Rəsulullah ﷺ buyurdu: "Sakit ol, ey Hira! Həqiqətən, sənin üzərində, bir Peyğəmbər, bir siddiq və şəhidlər vardır."[3]

---

[1] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/333.

[2] "Səhih Muslim", İman kitabı, Ənsarı və Əlini ﷺ sevməyin imandan və iman əlamətlərindən, onlara nifrət etməyin isə münafiqlik əlamətlərindən olmasına dair dəlillər" fəsli, № 78.

[3] "Səhih Muslim", Səhabələrin fəzilətləri kitabı, Talhə və Zubeyrin ﷺ fəzilətləri fəsli, № 2417.

- **Cənnət əhlindən olması:**

Abdurrəhman ibn Aufdan ﷺ rəvayət olunan hədisdə, Rəsulullah ﷺ demişdir: "Əbu Bəkr cənnətlikdir. Ömər cənnətlikdir. Osman cənnətlikdir. Əli cənnətlikdir. Talhə cənnətlikdir. Zubeyr cənnətlikdir. Abdurrəhman ibn Auf cənnətlikdir. Səd ibn Əbu Vəqqas cənnətlikdir. Səid ibn Zeyd ibn Amr ibn Nufeyl cənnətlikdir. Əbu Ubeydə ibn əl-Cərrah cənnətlikdir."[1]

- **Ona əziyyət vermək Peyğəmbərə ﷺ əziyyət hesab olunur:**

Səd ibn Əbu Vəqqas ﷺ demişdir: "Bir dəfə mən iki nəfərlə birlikdə məsciddə oturmuşduq. O vaxt bir az Əlinin barəsində danışdıq. Bu zaman Rəsulullah ﷺ qəzəbli halda bizə tərəf çevrildi. Onun üzündəki qəzəb hiss olunurdu. Mən onu qəzəbləndirməkdən Allaha sığındım. O dedi: "Sizin mənimlə nə işiniz var? Əliyə əziyyət verən kimsə mənə əziyyət vermiş olar." [2]

- **Onu sevmək Peyğəmbəri ﷺ sevmək, ona nifrət etmək Peyğəmbərə ﷺ nifrət etməkdir:**

Rəvayət edilir ki, Ummu Sələmə ﷺ demişdir: "Mən şahidlik edirəm ki, Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Əlini sevən kimsə məni sevmiş, məni sevən kimsə də, Allahı sevmiş olar. Həmçinin, Əliyə nifrət edən kimsə, mənə nifrət etmiş, mənə nifrət edən kimsə də, Allaha nifrət etmiş olar." [3]

---

[1] İmam Əhmədin "Musnəd" əsəri, № 1675; Tirmizinin "Sünən" əsəri, № 3747. Hədisi şeyx Albani səhih hesab etmişdir.

[2] Əbu Yəlanın "Musnəd" əsəri, 2/109, № 770; Bəzzarın "Musnəd" əsəri 3/366, № 1166. Hədisi şeyx Albani "Silsilətul əhadis əs-səhihə" əsərində 5/373 səhih hesab etmişdir.

[3] Təbəraninin "əl-Mucəm əl-Kəbir" əsəri, 23/380, № 901. Hakimin "Mustədrak" əsərində 3/141, № 4648, Salmanın hədisi də bu hədisin şahididir. Hədisi şeyx Albani "Silsilətul əhadis əs-səhihə" əsərində 3/288 səhih hesab etmişdir.

- **Harun  Musaya  yaxın olduğu kimi o da Peyğəmbərə  yaxın idi:**

Səd ibn Əbu Vəqqas  rəvayət edir ki, Peyğəmbər  Təbuka yola düşərkən Əlini öz yerinə başçı təyin etdi. Onda Əli dedi: "Doğrudanmı sən məni uşaqların və qadınların yanında qoyub getmək istəyirsən?!" Peyğəmbər  buyurdu: "İstəmirsən ki, Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxın olasan?! Fəqət məndən sonra peyğəmbər gəlməyəcək." [1]

- **O, Allah və rəsulunu sevirdi, Allah və rəsulu da onu sevirdi:**

Səhl ibn Səd  rəvayət edir ki, Rəsulullah  Xeybər döyüşü günü demişdir: "Mən bu bayrağı elə bir adama verəcəyəm ki, Allah onun əli ilə *müsəlmanlara* zəfər bəxş edəcək. O Allahı və Onun rəsulunu  sevir, Allah və Onun rəsulu  da onu sevir." Səhabələrdən hər biri bayrağın ona veriləcəyinə ümid edərək gecəni keçirdilər. Ertəsi gün onlar Peyğəmbərin  yanına gəldikdə, onlardan hər biri bayrağın ona veriləcəyinə ümid edirdi. Lakin Peyğəmbər : "Əli ibn Əbu Talib haradadır?" deyə soruşdu. Ona dedilər ki, Əlinin gözləri ağrıyır. Onda Peyğəmbər  onun çağırılmasını əmr etdi. Peyğəmbər  Əlinin gözlərinə yüngülcə tüpürdü, onun üçün dua etdi və Əlinin gözləri sağaldı, elə bil heç ağrımırdı. Sonra Peyğəmbər  bayrağı ona verdi. Əli dedi: "Ya Rəsulullah! *Xeybərlilər* bizim kimi *müsəlman* olanadək onlarla vuruşacam." Peyğəmbər  buyurdu: "Onların yurduna gedib çatanadək tələsmə. Sonra onları İslama dəvət et və Allahın onların üzərində olan haqqını onlara bildir. Vallahi, əgər Allah sənin vasitənlə bir nəfəri doğru yola yönəltsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar." [2]

---

[1] "Səhih əl-Buxari" Hərbi yürüşlər kitabı, Təbuk döyüşü fəsli, № 4416; "Səhih Muslim" Əshabələrin üstünlükləri kitabı, Əli ibn Əbu Talibin  üstünlükləri fəsli, № 2404.

[2] "Səhih əl-Buxari" Əshabələrin üstünlükləri kitabı, Əli ibn Əbu Talibin  tərifəlayiq xüsusiyyətləri fəsli, № 3701; "Səhih Muslim" Əshabələrin üstünlükləri kitabı, Əli ibn Əbu Talibin  üstünlükləri fəsli, № 2406. Ləfz Muslimindir.

- **Onun qəlbi hidayətə varmış, dili isə sabit idi:**

Rəvayət edilir ki, Əli ibn Əbu Talib ﷺ demişdir: "Rəsulullah ﷺ məni Yəmənə qazı olaraq göndərdiyi zaman mən dedim: "Ya Rəsulullah, sən məni *Yəmənə* göndərirsən, halbuki, mən hələ gəncəm və qazılıqdan da elmim yoxdur." Onda Rəsulullah ﷺ əlini mənim sinəmin üstə qoydu və dedi: "Allahım, onun dilini doğru qərar verməyə müvəffəq et, qəlbini də, haqqa yönəlt!" Sonra buyurdu: "Ey Əli, sənin yanına iki mübahisəçi gəldiyi zaman, birincini dinlədiyin kimi, ikincini də dinləməyincə onların arasında hökm vermə. Şübhəsiz ki, hər iki tərəfi dinləməyin, verəcəyin qərarın sənə *gözəl şəkildə* aydın olması üçün daha münasibdir." Əli ibn Əbu Talib ﷺ dedi: "Bundan sonra mən heç bir məsələdə səhf qərar vermədim." [1]

Onun fəziləti ilə bağlı bir sıra rəvayətlər vardır ki, onları zikr etsək söhbət uzanacaqdır. Ümid edirik ki, qeyd olunan rəvayətlər Əlinin ﷺ fəzilətini yetərincə əhatələyir.

**b) Onun vəsfləri:**

Əli ﷺ bir sıra müsbət keyfiyyətlərə malik idi. Həmin vəsflərdən bəziləri aşağıdakılardır:

**1 – Dində elmli və fəqih olması:**

Möminlərin əmiri Əli ibn Əbu Talib ﷺ səhabələrin böyük alimlərindən idi. O, elm tələb etməyə, maariflənməyə, sual verib öyrənməyə, zamanının elm tələb etmə üsullarından istifadə edərək yazma və davamiyyət kimi məsələlərə ciddi yanaşar və Peyğəmbərlə ﷺ birlikdə olmağa olduqca həris idi.

Əli ﷺ utanmaq səbəbindən elmi tərk etməkdən insanları çəkindirərdi. O demişdir: "Utanan öyrənə bilməz." [2] Möminlərin əmiri Əli ibn Əbu Talib ﷺ İslamın ilk dönəmlərində müsəlmanların az-

---

[1] Əbu Davudun "Sünən" əsəri, № 3582; Nəsainin "Sünən əl-Kubra" əsəri, 5/117, № 8420; İmam Əhmədin "Musnəd" əsəri, № 1341. Hədisi şeyx Albani həsən hesab etmişdir.

[2] İbn Əbu Şeybənin "Musannəf" əsəri, 7/101.

lıq təşkil etdiyi bir zamanda yazmağı bacaran insanlardan biri idi. Hətta o, Rəsulullahın ﷺ vəhy katiblərindən biri idi. Əlinin ﷺ bu oxuma və yazma bacarığı ona şəri elmləri dərindən öyrənməsinə səbəb olmuşdu.[1]

O, hesab edirdi ki, əsl alim öz elminə əməl edəndir. O, elmli adamlara xitabən demişdi: "Ey elm əhli! Elminizə əməl edin. Çünki alim o kəsdir ki, elminə əməl etsin və elmi əməlinə uyğun gəlsin."[2]

Əli ﷺ Rəsulullahın ﷺ səhabələri arasında ondan çox rəvayət edənlərdən biri idi. İbn əl-Qeyyim demişdir: "Rəsulullahın ﷺ səhabələri arasında fətva öyrəndiyim kəslərin sayı yüz otuzdan artıqdır. Onların arasında kişi də var qadın da var. Onların arasında ən çox hədis rəvayət edən əsas yeddi nəfər idi. Ömər ibn əl-Xəttab, Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Möminlərin anası Aişə, Zeyd ibn Sabit, Abdullah ibn Abbas, Abdullah ibn Ömər ﷺ."[3]

O, elmdə elə bir səviyyəyə çatmışdı ki, İraqda olarkən insanlara deyirdi: "Məndən soruşun." Yəhya ibn Səid demişdir: "Peyğəmbərin ﷺ səhabələrindən Əli ibn Əbu Talibdən ﷺ başqa heç kəs: "Məndən soruşun" – deməzdi.[4] Həm səhabələr, həm də tabiinlər onun elminə etibar edirdilər. İbn Abbas ﷺ demişdir: "Əlidən bizə bir xəbər çatdıqda onu digər xəbərlərə tərcih edərdik."[5]

**2 – Zahidliyi:**

Əli ibn Əbu Talib ﷺ zahidlikdə bizlər üçün ən gözəl misallar qoyub getmişdir. Həsən ibn Saleh ibn Hey demişdir: "Zahid insanlar barəsində Ömər ibn Abduləzizin yanında söhbət açdıqda o dedi: "Dünyada ən zahid olan insan Əli ibn Əbu Talibdir."[6]

---

[1] "Bəyan əl-Elmi və Fadlih" əsəri, səh. 285.

[2] Dariminin "Sünən" əsəri, 1/118, № 382. Hədisin isnadında zəiflik vardır.

[3] "İlam əl-Muvaqqiin " əsəri, 1/12.

[4] İbn Əbu Şeybənin "Musannəf" əsəri, 5/312.

[5] "əl-İstiab" əsəri, 1/340; Beyhəqinin "əl-Mədxal ilə əs-Sunən əl-Kubra" əsəri, səh. 131.

[6] "Tarix Diməşq" əsəri, 42/489.

Əbu Ubeyd "əl-Əmval" əsərində Əlinin ﷺ bir ildə üç dəfə pay bölgüsü həyata keçirdiyini rəvayət etmişdi. Sonra ona İsfahandan mal gəldikdə dedi: "Gedin dördüncü dəfə pay bölüşdürün. Mən sizin üçün xəzinədar deyiləm." Sonra o payları bölüşdürdü. Bəziləri o paydan götürdü bəziləri isə aldıqlarını geri qaytardı.[1]

Bir dəfə Əli ﷺ insanlara xütbə verərək dedi: "Ey insanlar, Özündən başqa ilah olmayan Allaha and olsun ki, sizin malınızın nə azından nə də çoxundan götürmərəm. Yalnız bundan başqa." Bunu deyib o, köynəyinin qolundan bir qab ətir çıxardı və dedi: "Bunu mənə Dehqan hədiyyə edib." Başqa bir rəvayətə görə isə o, belə demişdir: "Sizin qənimətlərinizdən bu qabdan başqa heç bir şey götürməmişəm. Bunu mənə Dehqan hədiyyə edib." Sonra o, beytul malın yanına gəlib dedi: "Götür bunları." Sonra dedi:

Xoş halına yalnız bircə qabı olanların,
Həmin qabda gündə bir dəfə yemək yeyənlərin.[2]

Onun bariz şəkildə zahid olmasına rəğmən o, qaş-qabaqlı birisi deyildi. Əksinə o, gülərüz və mehriban birisi idi. Onun vəsfində deyilir: "Onun gözəl siması var idi, özü də üzügülər və asta yerişləri olan birisi idi."[3]

O, zahidlik barəsində demişdir: "Ey insanlar, zahidlik: ümidləri qısa, nemətlərə şükür etmək, haram məsələlərə diqqətlə yanaşmaqdır."[4]

Ümidin qısalığı insanı həm bu dünyada, həm də axirətdə Uca Allahın razılığını əldə etməyə sövq edir. Bunun əksi olan uzun-uzadı ümidlərə qapılmaq isə insana axirəti unutdurur. Nemətlərə şükr etmək isə Allahın maddi və mənəvi, zahiri və batini nemətləri-

---

[1] Əbu Ubeydin "əl-Əmval" əsəri, Qənimətlərin çıxarışı kitabı, Qənimətlərin müsəlmanlara verilməsi fəsli, 2/131, № 578. İmam Əhmədin "Fədail əs-Səhabə" əsəri, 1/531, № 882.

[2] "Tarix Diməşq" əsəri, 42/480; "Tarix əl-Kubra" əsəri, 7/30.

[3] "Tarix Diməşq" əsəri, 42/25; "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/223.

[4] Muhəmməd Rəşid Ridanın "Əli ibn Əbu Talib" əsəri, səh. 304.

ni hiss edən rəbbani müsəlmanın vəsflərindəndir. Bu nemətlərin qarşılığı isə İzzət sahibi və Bəxş edən Allaha şükür etməkdir. Möminlərin əmirinin bu tərifi zahidliyin mahiyyətini açıqlayır. Şəkk yoxdur ki, Əmirəlmuminin Əlinin ﷺ zahidliyi ətrafındakılara da təsirsiz ötüşməmişdi. Beləcə o, bu ümmətin tarixində təsirli bir məktəbə çevrilmişdi.

**3 – Təvazökarlığı:**

Əbus-Sibteyn Əli ibn Əbu Talibin ﷺ şəxsiyyətində təşəkkül tapmış Qurani əxlaqlardan biri də təvazökarlıqdır. O, təvazökarlıq barədə demişdir: "İnsanın təvazökarlığı onun hörmətini artırır." [1] İnsan nə qədər Quran və Sünnə elmlərini mənimsəyib onlara əməl etsə, bir o qədər özünün mahiyyətini dərk etmiş olar, Uca Allaha və məxluqata qarşı da təvazökarlığı artar.

Rəvayət olunur ki, Əli ﷺ bir dirhəmlik xurma alır və onu xurcunda daşıyır. Ona deyirlər ki: "Ey möminlərin əmiri ver biz daşıyaq." O buyurur: "Xeyr, ailə başçısı daşımağa daha layiqdir." [2] Bu, onun təvazökarlığına bir misaldır. Belə ki, o, möminlərin əmiri və yaşlı olmasına baxmayaraq öz yükünü özü daşıyırdı. Demək o, insanların ona xidmət göstərməsini qəbul etməmişdi. Bununla da o, təvazökarlıq xüsusunda müsəlmanlara gözəl bir nümunə olmuşdu.[3]

**4 – Səxavətli və comərd olması:**

Səxavətli və comərd olmaq Əli ibn Əbu Talibin ﷺ xüsusiyyətlərindən idi. əl-Əsbağ ibn Nəbatə demişdir: "Bir kişi Əli ibn Əbu Talibin ﷺ yanına gəlib dedi: "Ey möminlərin əmiri, mənim sənə bir işim düşüb. Amma bu ehtiyacımı səndən öncə Allahdan istədim. Əgər mənim ehtiyacımı ödəmiş olsan Allaha həmd, sənə isə

---

[1] "Minhəc Əmiralmumininə Əli Fid-dəvəti" əsəri, səh. 523.

[2] Buxarinin "Ədəb əl-Mufrad" əsəri, səh. 194; İmam Əhmədin "əz-Zuhd" əsəri, səh. 133. Bu hədisi şeyx Albani "Ədəb əl-Mufrad" əsərinin qeydlərində zəif hesab etmişdir.

[3] Humeydinin "ət-Tarix əl-İslami" əsəri, 17/64.

təşəkkür edərəm. Yox əgər edə bilməsən, yenə Allaha şükür edər, səni isə üzürlü sayaram."

Əli ﷺ dedi: "Ehtiyacını yerə yaz. Çünki mən sənin üzündə istəməyindən dolayı *meydana çıxan* xəcaləti görmək istəmirəm." O da yazdı: "Mən möhtacam." Əli ﷺ dedi: "Mənə bir zinət əşyası gətirin." Zinət əşyasını gətirdikdən sonra Əli ﷺ onu alıb kişiyə verdi. Kişi də onu əyninə taxdı və dedi:

Elə bir zinət əşyası verdin ki, işıq saçır,
Mən səni təriflərlə bəzəyərəm.
Təriflərimə nail olsan şərəflənərsən,
Söylədiyimin əvəzini istəmərəm.
Tərif sahibini diriltmək üçündür,
Necə ki, yağış yağdıqda dağ-daş dirilər.
Əsla zamana aşkarda olanla söz söyləmə,
Hər bir bəndə etdiyinin qarşılığını görər.

Əli ﷺ dedi: "Mənə dinarlar gətirin." Ona yüz dinar gətirdilər və onu kişiyə verdi. Əl-Əsbağ dedi: "Ey möminlərin əmiri, həm zinət əşyası, həm də yüz dinar?" Əli ﷺ dedi: "Bəli! Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "İnsanlara layiq olduqları məqama uyğun dəyər verin." Bu adamın da məqamı mənə görə belədir.[1]

Bu, möminlərin əmiri Əli ibn Əbu Taliblə ﷺ bağlı möhtəşəm bir hadisədir. O, hər zaman ehtiyacı olanların ehtiyaclarını ödəyər, insanların ehtiyacları ilə maraqlanardı. Bu hədisdə ən önəmli məqam onun: "Ehtiyacını yerə yaz. Çünki mən sənin üzündə istəməyindən dolayı *meydana çıxan* xəcaləti görmək istəmirəm." – deməsidir. Nə qədər yoxsul insanlar vardır ki, onlar imkanlı şəxslərin önündə alçalmağa məhkum olunurlar. Hətta bəzən nə isə demək istəyirlər lakin deyə bilmirlər.

Həmin möhtac insan Əli ﷺ ilə görüşdükdə olduqca ağır durumda idi. Əli də onunla bu cür gözəl davrandı. O da hisslərini bir

---

[1] "Tarix Diməşq" əsəri, 42/522-523.

neçə beyt şeir ilə dilə gətirdi.[1] Əli ﷺ yanına qonaqların gəlişinə sevinirdi. O, hər zaman öz qardaşlarını mükafatlandırar və onlar haqqında maraqlanardı. Əli ﷺ belə demişdir: "Yeddi gündür ki, mənim yanıma qonaq gəlmir. Qorxuram ki, Allahın məni alçaltmış olsun."[2]

**5 – Uca Allahdan həya etməsi:**

Əli ibn Əbu Talib ﷺ Allahdan olduqca çox həya edən birisi idi. Buna dəlil onun aşağıdakı sözüdür: "Allahdan utanıram ki, birdən bir günahım əfvimdən daha böyük, cahilliyim istəyimdən daha əzəmətli, gürünən səhvim görünməyəndən daha böyük olsun və səhvimi yaxşılığım qarşılamasın."[3]

Beləcə Əli ibn Əbu Talib ﷺ bu dörd naqis xüsusiyyəti dörd kamil xüsusiyyətlə müqayisə edir. İzzət və Cəlal Sahibi olan Allahdan həya etmək insanı mümkün qədər əfv etməyə vadar edir. Təbii ki, burada Allahın haram buyurduğu məsələlərdən söhbət getmir. *Həmçinin Allahdan həya etmək insanı* başqalarının cahilliyini üstələyən elmə sahib olmağa, insanların eyiblərini örtməyə və insanların ehtiyaclarını qarşılayan səxavətə malik olmağa vadar etsin.

Bu hikmətlərə lazımi qiymət verən daha bir amil Əlinin ﷺ həyalı olması idi. Belə ki, onun əsas məqsədi İzzət və Cəlal Sahibi olan Allahın razılığını qazanmaq idi. Şəkk yoxdur ki, belə bir hədəfi olan kəsin bu keyfiyyətlərə malik olması dünyavi hədəfləri olandan daha yüksəkdir.[4]

**6 – Onun ibadətinin, səbrinin və Uca Allaha olan səmimiyyətinin gücü:**

Əli ﷺ həyatını ibadətə həsr etmiş bir insan idi. O, gecələri o qədər ibadət edərdi ki, təhəccüd əhlindən sayılardı. Məhz təhəccüd

---

[1] Humeydinin "ət-Tarix əl-İslami" əsəri, 17/128.

[2] "Fəraid əl-Kəlam" əsəri, səh. 402; "Məuizatu əl-Muminin" əsəri, 2/252.

[3] "Tarix Diməşq" əsəri, 42/517.

[4] Humeydinin "ət-Tarix əl-İslami" əsəri, 20/275.

əhli barəsində Uca Allah buyurur: "**Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər.**"[1] Həmçinin buyurur: **"Şübhəsiz ki, müttəqilər cənnətlərdə və bulaqlar başında olacaqlar, öz Rəbbinin onlara verdiyini alacaqlar. Həqiqətən, onlar bundan əvvəl yaxşı iş görən adamlar olmuşdular. Onlar gecələr *ibadət edib* az yatırdılar. Sübh çağı isə bağışlanma diləyirdilər."**[2]

Dirar ibn Damira əl-Kinani, Əli ibn Əbu Talibi ﷺ Müaviyə ibn Əbu Sufyana ﷺ vəsf edərək deyir: "O, dünya və onun nemətlərindən uzaq olan birisi idi. O, gecənin zülmət qaranlığını xoşlayardı... Allahı şahid tuturam ki, mən onun bəzən gecənin qaranlığında ulduzlar parlayarkən öz mehrabında namaz qıldığını görərdim. O, saqqalını tutaraq hönkür-hönkür ağlayardı. Sanki mən onu indi də eşidirəm, o "Ey Rəbbim, ey Rəbbim." – deyərək Allah qarşısında acizanə olduğunu bildirərdi. Sonra isə dünya haqqında deyərdi: "Məni aldatmaq istəyirsən, hayıf, hayıf, get başqasını aldat. Səni üç dəfə boşayıram. Ömrün qısa, məqamın alçaq, mənzilin bəsitdir. Ah, azuqəm necə də az, səfərim necə də uzaq, yolum isə vəhşətlidir."

Müaviyə özünü saxlaya bilmədi və onun göz yaşları saqqalının üzərinə axdı. O, qolu ilə göz yaşlarını silməyə başladı. İnsanlar da göz yaşları içərisində boğuldular. Sonra Müaviyə ﷺ dedi: "Əbul-Həsən belə bir insan idi, Allah ona rəhmət eləsin. Ey Dirar sən necə baxırsan?" Dirar dedi: "Bunları eşidən kəsin göz yaşları qurumaz, kədəri azalmaz." Bunu dedikdən sonra o çıxıb getdi.[3]

**7 – Uca Allaha şükür etməsi:**

Əli ibn Əbu Talib ﷺ böyük və ya kiçik olmasından asılı olmayaraq bütün işlərində Allaha çoxlu şükür edərdi. Rəvayət olunur

---

[1] "əs-Səcdə" surəsi, 16.

[2] "əz-Zariyat" surəsi, 15-18. Hilyətul-əvliya

[3] "Hilyətul-əvliya" əsəri, 1/84-85; "ər-Riqqa və əl-Bukə" əsəri, səh. 198; "Tarix Diməşq" əsəri, 24/401.

ki, Həmədan əhlindən olan bir kişiyə o belə demişdir: "Hər bir nemət şükürlə bağlıdır. Şükür etdikdə isə nemətin artımı baş verir. Bu iki amil bir-biri ilə sıx bağlıdır. Bəndənin şükrü dayanmadıqca İzzət və Cəlal Sahibi olan Allahın artımı da dayanmaz." [1]

Həmçinin o, hesab edirdi ki, qarşı tərəfi əfv etmək nemətə şükür etmək anlamındadır. Əli ﷺ demişdir: "Düşməninə qalib gəldikdə onu əfv etməklə bu qələbəyə şükür etmiş ol." [2]

**8 – Uca Allaha dua etməsi:**

Əli ibn Əbu Talib ﷺ Rəsulullahla ﷺ çox zaman birlikdə olardı. Buna görə də Rəsulullahın ﷺ nə cür Allaha dua edib ona yalvarmasını, Ondan mədəd diləməsini də görmüşdü. Əli ﷺ bu ibadəti Peyğəmbərdən ﷺ öyrənməyə həris idi ki, etdiyi duaları və zikrləri Peyğəmbərin əmr etdiyi formada olsun.

Əlinin ﷺ duaları hər zaman qəbul olunardı. Zazan Əbu Ömərdən rəvayət olunur ki, bir kişi gəlib Əli ﷺ ilə söhbət etdi. Əli dedi: "Məncə sən mənə yalan danışırsan." Kişi dedi: "Mən yalan danışmıram." Onda Əli ﷺ dedi: "Əgər yalan danışırsansa sənə bəddua edərəm." Həmin kişi dedi: "Et." Əli də bəddua etdi. Az sonra həmin kişi kor oldu.[3] Həmçinin Əli tərif olunduqda deyərdi: "Allahım onların bilmədikləri işlərdə məni bağışla, onların söylədiklərinə görə məni məsul tutma, məni onların düşündüklərindən daha xeyirli birisi et."[4]

Bu onun bəzi vəsfləridir ki, bu məqamda qeyd edə bildik. Əslində isə Əbus-Sibteynin buna bənzər o qədər üstün vəsfləri, mübarək xüsusiyyətləri vardır ki, onları qeyd etmək üçün yüzlərlə vərəqə ehtiyac var. Necə də olmasın, axı o, Rəsulullahın ﷺ tələbəsi olmuş, onun yanında tərbiyə almış, onun elmindən, mülayimliyindən və kamil əxlaqından bəhrələnmişdi.

---

1 İbn Əbu Dunyənin "əş-Şukr" əsəri, səh. 11.

2 "Nəsr əd-Durr" əsəri, 1/199; "Nihayətu əl-Ərab" əsəri, 3/241.

3 əl-Laləkainin "Kəramətu əl-Övliya" əsəri, 126; "Tarix Diməşq"əsəri, 42/491.

4 "İhya Ulum əd-Din" əsəri, 3/161.

# Əli ﷺ İslam dinini öyrənmək üçün Məkkəyə gələnlərin yardımçısıdır

Əli ﷺ hər zaman haqqı axtarmaq və İslam dinini öyrənmək ümidi ilə Məkkəyə gələn heyətlərin yardımçısı olmuş və onları Rəsulullahın ﷺ hüzuruna gətirmişdi. Əli ﷺ Haşimi oğullarının malik olduğu güclü zəkaya və dərrakəyə malik idi. Buxari Əbu Zərr əl-Ğifarinin ﷺ İslamı qəbul etməsi barədə rəvayət etdiyi hədisdə İbn Abbasın ﷺ belə dediyini nəql etmişdir: "Əbu Zərrə Muhəmməd ﷺ aldı bir şəxsin peyğəmbər olaraq göndərildiyi xəbəri çatdıqda qardaşına belə dedi: "Atına minib filan vadiyə get və mənə peyğəmbər olduğunu iddia edən o kişidən bir xəbər öyrənib gətir. O, iddia edir ki, ona səmadan xəbərlər gəlir. Get onun söylədiklərini dinlə, sonra da gəlib mənə xəbər ver." Qardaşı gedib onun danışdıqlarına qulaq asdı. Sonra da Əbu Zərin yanına qayıtdı və dedi: "Gördüm ki, o, gözəl əxlaq sahibi olmağa çağırır və şerə bənzəməyən kəlamlar danışır." Əbu Zərr dedi: "Sən mənə lazım olan xəbərləri gətirməmisən."

O, bir cürdək su və bir az azuqə götürüb Məkkəyə getdi. Əbu Zərr məscidə gəlib Peyğəmbəri ﷺ axtarmağa başladı. Lakin o Peyğəmbəri ﷺ tanımırdı və heç kəsdən də onun haqqında soruşmaq istəmirdi. Nəhayət axşam düşdü və bir kənarda dirsəklənib oturdu. Bu zaman Əli onu görüb onun qərib olduğunu anladı və onu evinə apardı. Onlardan heç biri digərindən bir şey soruşmadı. Nəhayət səhər açıldı və Əbu Zərr azüqəsini və suyunu götürüb yenə məscidə yollandı. Lakin həmin gün də axşamadək Peyğəmbəri ﷺ görə bilmədi. O, yenə həminki yerdə dirsəklənib oturmuşdur ki, Əli onun yanından keçdi və soruşdu: "Sən qonaq qalacağın yeri hələ də tapa bilməmisən?" Beləcə onu qaldırıb birlikdə getdi. Yolda yenə onlardan heç biri digərindən bir şey soruşmurdu.

Üçüncü gün yenə Əli onun yanına gəldi və dedi: "Mənə söyləməyəcəksənmi səni bura gətirən nədir?" O dedi: "Mənə söz ver ver

ki, mənə yol göstərəcəksən. O zaman deyərəm." Əli ona söz verdi və o da məqsədini ona bildirdi. Əli dedi: "Bu bir haqqdır, o, Allahın elçisidir. Səhər açıldıqda mənim ardımca gələrsən. Əgər yolda sənə xətər toxundura biləcək birisini görsəm dayanacam ki, guya su süzürəm. *Sən isə yoluna davam edərsən.* Mən yoluma davam etsəm yenə ardımca gələrsən və mən hara girsəm sən də ora girərsən. O, belə də etdi. Əli gedib Peyğəmbərin ﷺ yanına daxil oldu, Əbu Zərr də onunla birlikdə daxil oldu. Onun dediklərinə qulaq asıb dərhal müsəlman oldu."[1]

Qeyd olunanlardan hər bir ağıl sahibinə aydın olur ki, Əli رضي الله عنه böyük bir gücə, zəkaya və dərrakəyə sahib idi. Həmçinin o, vəziyyətlərdən çıxış yolu tapmaqda, onlardan faydalanmaqda əvəzolunmaz bir şəxsiyyət idi. Üstəlik o, elə bir hissiyyata malik idi ki, hər zaman düzgün məlumatı doğru yerinə qoyardı.

### Fədakar və qəhrəman Əli رضي الله عنه:

Qureyş qəbiləsi Dar ən-nədvada toplanaraq peyğəmbəri ﷺ qətlə yetirib ondan yaxa qurtarmaq barədə qərar qəbul etdikdə Uca Allah bu barədə öz peyğəmbərinə ﷺ xəbər verdi. Peyğəmbər ﷺ də məxluqatın ən hikmətlisi idi. Onlar onun evinə hücum edərək onu yatağında qətlə yetirmək istəyirdilər. Bu vaxt o, Əli ibn Əbu Talibə رضي الله عنه əmr etdi ki, onun yerində uzansın. Düşmənlər peyğəmbəri qətlə yetirmək üçün evi əhatəyə aldığı bir vaxtda onun yatağına uzanmağa kim cürət edə bilərdi? Evdə olan həmin adam çox gözəl bilirdi ki, düşmənlər yataqda yatan adamın Əli, yoxsa peyğəmbər olduğunu ayırd edə bilməzdilər. Bunu Allahın lütfü ilə yalnız kişilərdən qəhrəman və cəsur olan birisi edə bilərdi.

Həmçinin Peyğəmbər ﷺ ona əmr edir ki, özündən sonra bir neçə gün Məkkədə qalsın və Peyğəmbərin ﷺ yanında qoyulan əmanətləri düşmənləri olsa da belə kamil şəkildə öz sahiblərinə

---

[1] "Səhih əl-Buxari" əsəri, Səhabələrin fəzilətləri kitabı, Əbu Zərr əl-Ğifarinin müsəlman olması fəsli, № 3861.

qaytarsın. Bu da ən əzəmətli ədalət hesab olunur ki, əmanətlər öz sahiblərinə qaytarılsın.[1]

Bir rəvayətdə deyilir ki, Rəsulullah Əliyə belə demişdir: "Mənim yatağımda yat, mənim bu yaşıl hədrami libasıma bürünüb yat. Sənə onlardan heç bir xətər gəlməyəcək."[2]

İbn Həcər demişdir: "Musa ibn Uqba İbn Şihabdan belə rəvayət etmişdir: "Beləcə Əli Rəsulullahın yatağında onun əvəzinə uzandı. Bu zaman qureyşlilər öz aralarında mübahisə edirdilər ki, ilk hücumu kim etsin. Onlar hücum etdikdə yataqda Əlini gördülər. Ondan soruşduqda o dedi: "Mən bilmirəm." Onlar anladılar ki, Peyğəmbər artıq çıxıb gedib."[3]

**Bu hadisədə bir sıra faydalar və dərslər vardır:**

1 – Rəsulullahın cızdığı hicrət planına əsasən onu evdə əvəz edəcək şəxs evin daxilində hərəkət etməli idi ki, bu, evi mühasirə edən Qureyş müşriklərinin gözlərini yayındırsın. Belə ki, bu hiylə Rəsulullahın çölə çıxa bilməsinə və dostu Əbu Bəkrlə birlikdə təhlükəli ərazidən uzaqlaşmasına zəmin yaratdı.[4]

2 – Əlinin Peyğəmbərin əmrinə tabe olması sədaqətli əsgərin mütiliyinə bənzəyirdi. O, İslam dəvətinin yayılmasına sadiq idi. Belə ki, o, öz həyatını rəhbərinin yolunda fəda etmişdi. Çünki rəhbərin salamatlığı dəvətin də salamatlığı anlamındadır. Rəhbərin həlak olması isə dəvətin də məhv olması idi.

Hicrət gecəsi Əlinin Peyğəmbərin yatağında uzanması olduqca böyük bir fədakarlıqdır. Belə ki, Qureyşli gənclər qılınclarını siyirib onun başına zərbə endirə bilərdilər. Lakin Əli buna əhəmiyyət vermədi. O, dəvətin rəhbəri və ümmətin Peyğəmbərinə təslim olmaqla kifayətləndi.[5]

---

[1] əl-Qahtaninin "əl-Hikmətu fid-Dəvati İləllahi Təalə" əsəri, səh. 235; "ət-Təbəqat əl-Kubra" əsəri, 3/22; Suyutinin "Tarix əl-Xuləfa" əsəri, səh. 166.

[2] İbn Hişamın "əs-Siyra" əsəri, 2/91; "Fəth əl-Bari" əsəri, 7/236.

[3] "Fəth əl-Bari" əsəri, 7/237.

[4] "Xuləfa ər-Rəsul" əsəri, səh. 296.

[5] əs-Sibainin "əs-Siyrahu ən-Nəbəviyyə" əsəri, səh. 345.

3 – Bu əzəmətli hadisə Əlinin şücaətinə dəlildir. O, bu işi gördüyü zaman özünü təhlükəyə atdığını bilirdi. Çünki o, hücuma məruz qalaraq tanınmadan ölə bilərdi. Həmçinin ola bilərdi ki, o səhərin alaqaranlığında evdən çıxardı, onlar da onun kimliyini dəqiq bilmədən hücum edərdilər. Gecə səhərə qədər keşikdə duran Qureyşlilər həmin an elə bir vəziyyətdə idilər ki, onun Muhəmməd yoxsa Əli olduğunu dəqiqləşdirmədən onu qətlə yetirə bilərdilər.

Yəqin ki, bütün bunlar Əlinin ağlına da gəlmişdi. Lakin buna rəğmən o, əmri icra etməyə tələsmişdi. Birincisi: o, Allah və Onun Rəsulunu səmimi qəlbdən sevirdi. Onun ən əsas hədəfi həyatı bahasına olsa belə Rəsulullahı xilas etmək idi.

İkinci: Bu elə bir əməliyyat idi ki, Rəsulullah burada düşmənlərinin tədbirindən sağ çıxmalı və İslamı hər yerə yaymalı idi. Demək burada hər bir halda İslamın xeyrinə bir məqsəd var idi. Bütün bu ehtimallara baxmayaraq Əli Rəsulullahın yatağında yatdı. Bu da onun nə dərəcədə qəza və qədərə iman gətirdiyinin və əsl mömin olduğunun göstəricisidir. Uca Allah buyurur: **"De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"**[1]

Həmçinin Rəsulullahın Əlini seçməsi ona tam bir şəkildə etibar etməsinə görə idi. Həmçinin o, Əlinin xüsusi bacarıqlarına və xüsusiyyətlərinə bələd idi. Rəsulullah onu yerində yatmağa çağırdıqda o, qarşıda onu müşriklərdən olan gənclərin hazırladığı ölüm gözlədiyini bildiyi halda heç bir tərəddüd etməmişdi. O, heç aqibəti barədə nəfsinə düşünməyə belə icazə verməmişdi. Çünki o, bilirdi ki, Rəsulullaha canını qurban verməklə o heç kəsin əldə edə bilmədiyi şərəfə nail olmuş olur.[2]

---

[1] "ət-Tövbə" surəsi, 51.

[2] "Cəvlə Tarixiyyə fi Asri əl-Xuləfa" əsəri, səh. 426.

# Əlinin hicrəti:

Səhər açıldıqda Əli Rəsulullahın ﷺ yatağından qalxdı və müşriklər onu tanıdılar və Rəsulullahın ﷺ artıq xilas olduğunu yəqin etdilər. Onlar Əlidən soruşdular: "Dostun haradadır?" O: "Bilmirəm, məgər mən onun üzərində nəzarətçiyəm? Siz ona çıxıb getməyi əmr etdiniz, o da çıxıb getdi" – deyə cavab verdi. İnsanlar da bu cürətli cavabdan sıxıldılar. Rəsulullahın ﷺ onların əlindən çıxması onları çox hirsləndirdi. Onlar kor olub onu görə bilməmişdilər. Onlar hiddətlənib Əlini vurdular və məscidə apararaq həbs etdilər, bir müddət sonra isə sərbəst buraxdılar.[1]

Əli də Allah yolunda başına gələnlərə səbir etdi. Rəsulullahın ﷺ xilas olması onun üçün hər bir əziyyətdən daha üstün olduğu üçün sevinirdi. O isə zəiflik göstərmədən Rəsulullahın yerini göstərməmişdi.

Əli bir müddət Məkkədə qalır və Rəsulullahın ﷺ verməli olduğu əmanət sahibləri ilə görüşür və əmanətləri öz sahiblərinə qaytarır. O, bütün əmanətləri qaytararaq Rəsulullahın ﷺ tapşırığını yerinə yetirir. Üç gün Məkkədə qaldıqdan sonra Rəsulullahın ﷺ ardınca hicrət etməyin özü də təhlükəli idi.[2]

Əli hicrət əsnasında gündüzlər gizlənir, gecələr isə hərəkət edirdi. Beləcə o, Mədinəyə gəlib çatdı. Onun ayaqları cadar-cadar olmuşdu.[3] Əli hicrət etdiyi zaman olduqca çox əziyyət çəkmişdi. Hicrət üçün onun miniyi belə yox idi. Gündüz o vaxt o qədər isti idi ki, o hərəkət edə bilmirdi. Gecənin zülmət qaranlığında hərəkət etmək isə olduqca qorxulu və təhlükəli idi. Bundan əlavə o, bütün yolu piyada və yanında yol yoldaşı olmadığı halda, yəni tək hicrət etmişdi. Bu barədə düşündükdə onun səfərinin nə dərəcədə

---

[1] "Tarix ət-Təbəri" əsəri, 2/374.

[2] "Tarix ət-Təbəri" əsəri, 2/382, "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/335, "Cəvlə Tarixiyyə" əsəri, səh. 424.

[3] əl-Kamil, 2/106.

ağır olduğu bəlli olur. İzzət və Cəlal Sahibi olan Allahın razılığını qazanmaq üçün o, səfərin çətinliklərinə sinə gərmişdi. Çünki o, bilirdi ki, nəticə etibarı ilə Rəulullaha ﷺ qovuşacaq və Mədinədə onunla birlikdə əmin-amanlıqda olacaq.

Əli ﷺ Mədinəyə çatmasına bir az qalmış Amr ibn Auf oğullarından Kulsum ibn əl-Hədəmin yanına getdi. Rasulullah ﷺ da ora getmişdi.[1]

Möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ hicrəti beləcə fədakarlıq və əziyyətlə dolu idi. O, hicrət zamanı bir çox çətinliklərlə üzləşmişdi. Lakin o, bütün bu məşəqqətlərə İzzət və Cəlal Sahibi olan Allahın razılığını qazanmaq naminə dözmüşdü. Beləcə o, Qiyamət gününədək dillər əzbəri olmuş nümunəyə çevrilmişdir. Allah səndən razı olsun ey Əbu Həsən. Şair sənin barəndə gözəl deyib:

Ey yataqda yerini qorumuş,
Cahillər cəhalər göstərdiyində,
Hicrət edərkən başlara torpaq tökmüş,
Gecənin zülmət qaranlığında.
Sən elə bir fədakarlıq etdin ki,
Vəfalılığın hər kəsi sevindirdi.
Məxluqatın ən xeyirlisinin əmanətini,
Ödədin və o, məramına yetişdi.
Başın uca hicrət edərək,
Allahı razı salmış oldun sən,
Ayaqla atlılar kimi piyada gedib,
Yolun çətinliyindən qorxmadın.
Budur peyğəmbərin əmioğlusu və dostu,
Budur Fatimənin təqvalı əri.[2]

---

[1] "ət-Təbəqat əl-Kubra" əsəri, 3/22; İbn Hişamın "əs-Siyra" əsəri, 2/129. Hədisi İbn İshaq isnadsız qeyd etmişdir, "Cəulə Tərixiyyə" əsəri, səh. 425.

[2] "Əli ibn Əbu Talibə məktub" adlı qəsidədən bir parça. Müəllifi şair Abdurrəhmən əl-Əşmavidir.

# Əli ibn Əbu Talib ﷺ Mədinədə

Rəsulullah ﷺ Mədinəyə köçdükdən sonra İslam Dövlətinin əsasını qoydu. O, mühacirlərlə ənsarları qardaş etdi, məscid inşa etdirdi, yəhudilərlə saziş bağladı, ilk dəfə azsaylı ordular göndərdi, yeni cəmiyyətdə iqtisadiyyat, təhsil və tərbiyə kimi məsələlərə önəm verdi. Əli ﷺ də hər zaman onunla birlikdə olur, onun göstərişlərini icra edir, hidayətini öyrənirdi.

**Qardaşlıq:**

İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsərində deyilir:

Rəsulullah ﷺ Əli ibn Əbu Taliblə ﷺ Səhl ibn Huneyfi[1] qardaş etdi. Qardaşlıq siyasəti Peyğəmbərin ﷺ mühacirlərlə ənsarları birləşdirdiyi və onlar arasında mehribanlıq yaratdığı bir siyasət növü idi. Mühacir və ənsarlar da öz növbələrində bu əmrə tabe olmaqda bir-biriləri ilə yarışırdılar.[2]

İbn Kəsir demişdir: "Siyər əhlindən İbn İshaq və başqaları qeyd etmişlər ki, Rəsulullah özünü özü ilə qardaş buyurdu. Bu barədə bir sıra rəvayətlər varid olmuşdur ki, onların nə isnadları, nə mətnləri səhih olmadığı üçün səhih deyildir. Həmin rəvayətlərin bəzisində deyilir: "Sən mənim qardaşım, varisim, xəlifəm və məndən sonra ən xeyirli birisisən." Bu hədis həm uydurma, həm də Buxari və Muslimin Səhih əsərlərində, habelə digər hədis kitablarında varid olmuş səhih rəvayətlərə müxalifdir. Daha doğrusunu Allah bilir."[3]

---

[1] İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 3/23.

[2] D. Abdulmunim əs-Seyyidin "Fusul min əs-Siyrati ən-Nəbəviyyə" əsəri, səh. 200.

[3] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/224.

## Əlinin ﷺ Fatimə[1] ﷺ ilə izdivacı:

### a) Mehri və cehizi:

Hicrətin ikinci ilində Rəsulullah ﷺ qızı Fatiməni Əliyə ﷺ ərə verdi. Əlinin Müsnədində onun Peyğəmbərin ﷺ qızı Fatimə ilə nişanlanması barədə təfsilatlı hədis qeyd olunur. İbn Abbas ﷺ demişdir: "Əli *ibn Əbu Talib* Fatimə ilə evləndikdə, Peyğəmbər ﷺ ona: "*Qızıma* mehr olaraq bir şey ver!"– deyə buyurdu. Əli: "Məndə heç nə yoxdur"– deyə cavab verdi. Peyğəmbər ﷺ soruşdu: "Hanı sənin hütəmiyyə[2] zirehin?"[3] Əli: "O məndədidr"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurdu: "Elə isə o zirehi ona ver!"[4]

### b) Toy mərasimi:

Bureydə əl-Əsləmi ﷺ demişdir: "Əli *ibn Əbu Talib* ﷺ Fatimə ﷺ ilə evləndiyi zaman Peyğəmbər ﷺ ona belə buyurdu: "Evliliyin elan edilməsi üçün ziyafət verilməlidir!" Onda Səd ﷺ dedi:

---

[1] O, müttəqilərin imamı və Adəm övladının ən xeyirlisi sayılan Rəsulullahın ﷺ qızıdır. Anası Xədicə bint Xuveyliddir ﷺ. Fatiməyə ﷺ "Ummu əbihə", yəni atasının anası kunyası verilmişdi. Peyğəmbərlikdən bir az öncə anadan olmuşdur. Peyğəmbər ﷺ onu hicrətin ikinci ilində Bədr döyüşündən sonra Əli ibn Əbu Taliblə ﷺ evləndirmişdir. Onların Həsən, Hüseyn, Zeynəb və Ummu Gülsüm adlı dörd övladları olmuşdur. Fatimə ﷺ Rəsulullahın vəfatından altı ay sonra vəfat etmişdir. Kim onun həyatı barədə geniş məlumat əldə etmək istəyirsə aşağıdakı mənbələrə müraciət etsin: "Əsd əl-Ğabə" əsəri, 5/520; "əl-İsabə" əsəri, 4/365; İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 8/26; "Hilyətul-əvliya" əsəri, 2/39, 43; "Siyar əlam ən-Nubəla" əsəri, 2/118, 134.

[2] Bu zirehin hütəmiyyə adlandırılmasının səbəbi budur ki, həmin zirehi Abdul-Qeys qəbiləsindən olmuş Hutəmə oğulları düzəldirlərmiş. Subul əs-Səlam, 2/219.

[3] Zireh: Ox və s. yaralayıcı silahlardan qorunmaq üçün döyüşçülərin üstdən geyindikləri dəmir tordan, yaxud qalın dəridən geyim.

[4] "Sunən Əbu Davud", 2125; "Sunən ən-Nəsai", 5541; "Səhih İbn Hibban", 6945; "Səhih Əbu Davud", 1842 və 1849.

“Bir qoyun mən gətirərəm.”[1] Başqa bir birisi də: “Mən də filan qədər buğda gətirərəm”– dedi.”[2]

Rəvayət edilir ki, toy gecəsi Peyğəmbər ﷺ dedi: “Ey Əli, zövcənin yanına girməzdən əvvəl yanıma gələrsən!” Nəhayət, Əli ﷺ Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ su gətizdirib dəstəmaz aldı. Sonra o, bu sudan Əlinin ﷺ üstünə səpdi və dua edib dedi: “Allahım, onlara xeyir-bərəkət nəsib et və onların bu evliliyini bərəkətli et!”[3]

**c) Əli ﷺ ilə Fatimənin ﷺ yaşayışı:**

Peyğəmbərin ən əziz yaxınları olan Əli ﷺ ilə Fatimə olduqca kasıb, səbirlə və zahid olaraq yaşamışdılar.

Hənnad Ətanın belə dediyini rəvayət etmişdir: “Əlinin ﷺ belə dediyini eşitmişəm: “Günlərlə oturardıq və yeməyə bir şey tapmazdıq. Peyğəmbərin ﷺ də yeməyə heç nəyi olmazdı. Bir dəfə çölə çıxdım və yerdə bir dinar pul gördüm. Bir az oturub öz-özümə düşündüm ki, bu pulu götürüm, yoxsa yox. Sonra elə bir vəziyyətdə idim ki, pulu götürəsi oldum. Mən Dəfatinə[4] gəldim və o pula un aldım. Sonra unu Fatiməyə gətirib verdim və dedim: Bundan xəmir yoğur və çörək bişir. O da taqətsiz halda güclə qalxıb xəmir yoğurdu və çörək bişirdi. Mən Peyğəmbərin ﷺ yanına gəlib bu barədə ona xəbər verdim. O dedi: “Gedin yeyin, bu İzzət və Cəlal Sahibi olan Allahın sizə bəxş etdiyi bir ruzidir.”[5]

Şəbi demişdir: “Əli ﷺ dedi: “Allahın Rəsulu Muhəmmədin ﷺ qızı Fatimə ilə evləndikdə bizim üzərində yatmağa döşəyimiz yox idi. Bircə dənə qoyun dərisi var idi ki, gecələr onun üzərində yatar,

---

[1] Bu, səhabələrin bir-birinə qarşı olduqca mehriban olduğundan xəbər verir.

[2] “Musnəd İmam Əhməd”, 5/359; “Səhih əl-Cami”, 2419.

[3] Təbəraninin “əl-Mocəm əl-Kəbir” əsəri, 1153; “Fədail əs-Səhabə” əsəri, 2/858. Hədisin isnadı səhihdir.

[4] Xaricdən un gətirib satan şəxslər. Lisan əl-Arab, 7/343.

[5] Hənnadın “Zuhd” əsəri, 2/387, № 752.

gündüzlər isə ondan başqa işlərimizdə istifadə edərdik. Bizim xidmətçimiz də yox idi."[1]

Mücahid demişdir: "Əli ﷺ dedi: "Bir dəfə mən Mədinədə dəhşətli dərəcədə acmışdım. Mən çıxıb Mədinənin ətrafında iş axtarmağa başladım. Gördüm ki, bir qadın quru palçıq toplayıb onu sulamaq istəyir. Mən gəlib vedrəsi bir xurma dənəsi müqabilində işə razılaşdım. Beləcə mən on altı vedrə daşıdım. İş o yerə gəlib çatdı ki, əllərim suluqladı. Sonra suyu gətirib *gördüm ki,* artıq bəs elədi. Sonra gəlib dedim ki, artıq kifayətdir. O da mənə on altı ədəd xurma verdi. Mən bu barədə gəlib Peyğəmbərə ﷺ xəbər verdim, o da mənimlə birlikdə bu xurmalardan yedi."[2]

Bütün bu rəvayətlər Əlinin ﷺ Mədinədə nə qədər məşəqqətli bir həyat sürdüyünün göstəricisidir. Biz ondan çətinlik zamanı nə cür səbir etməyi öyrənib ibrət almalıyıq. Belə ki, o, hər zaman özü işləyib pul qazanardı. Oturub gözləmirdi ki, insanlar ona gətirib sədəqə versin.

Həmçinin dəhşətli dərəcədə ac və gücsüz olmasına rəğmən qalxıb o çətin işi görməsi də *bizim üçün bir* ibrətdir.

Həmçinin o, dəhşətli dərəcədə ac olduqda belə, əziyyətlə qazanıb əldə etdiyi xurmaları tək yeməyib, gətirib Peyğəmbərlə ﷺ birlikdə yemişdi.[3]

---

[1] İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 8/22, Hənnadın "Zuhd" əsəri, 2/ 387.

[2] İmam Əhmədin "Müsnəd" əsəri, 1135. Şeyx Şueyb əl-Arnaut hədisi zəif hesab etmişdir.

[3] Humeydinin "Tarix əl-İslami" əsəri, 19/45, 50.

# Əlinin رضي الله عنه cihadı və döyüşləri

Şübhəsiz ki, qəhrəmanlıq mövqeyində yalnız şücaətli olanlar dura bilir. Cihadda yalnız qəhrəmanlar salnamələr yaradır. Bu salnamələr elə bir güclü tədarükdür ki, insanları oyadır, qəlbləri yerindən oynadaraq döyüşə təşviq edir. İnsanlar da canlarını Allah yolunda fəda etməyə hazır olurlar. Möminlərin əmiri Əli ibn Əbu Talibin رضي الله عنه qəhrəmanlıq salnaməsi ən güclü və ən nadir olan qəhrəmanlıq səlnaməsi, apardığı cihadı da ən xeyirli və ən şərəfli cihad hesab olunmaqdadır. İslam tarixində ən şücaətli şəxslərin adları sadalandıqda Əli ibn Əbu Talibin رضي الله عنه adı öndə çəkilir.

Əli ibn Əbu Talib رضي الله عنه İslamı qəbul etdikdən sonra həm gizlində, həm də aşkarda dəvətin yayılması naminə apardığı cihadda gözəl nümunələr qoyub getmişdir. Bununla da kifayətlənməyərək o, İslamın yayılmasından ötrü Rəsulullahın iştirak etdiyi bütün döyüşlərdə iştirak etmişdir. Hətta bir çox döyüşlərdə bayrağı özü daşımışdır. Aşağıdakı sətirlərdə bunu daha açıq şəkildə qeyd edəcəyik.

**1 – Böyük Bədr döyüşü[1] və Əli ibn Əbu Talibin رضي الله عنه döyüşdəki rolu:**

Əli ibn Əbu Talib رضي الله عنه Bədr döyüşündə iştirak etmiş mücahidlərdən biri idi. O, döyüşdə Rəsulullahın ﷺ bayrağını[2] daşımışdı. Döyüş vaxtı də böyük şücaət və qəhrəmanlıq göstərmişdi. Belə ki, döyüşçülər sıraya düzləndikdə Peyğəmbər ﷺ insanları döyüşə təşviq etdikdə müşriklərdən Utbə ibn Rabiə, qardaşı Şeybə və oğlu Vəlid qabağa çıxıb və müsəlmanlardan əvvəlcə təkbətək döyüş istədilər. Bu zaman ənsarlardan üç gənc döyüş üçün irəli çıxdı. Müşriklər de-

---

[1] Bu döyüş hicrətin ikinci ilində baş vermişdir. Uca və Nöqsansız Allah bu döyüşdə möminlərə kafirlər üzərində qələbə bəxş etmiş, bununla da İslamın dəvəti geniş vüsət almışdı. Ərəblər bu döyüşdən sonra İslam dininin əzəmətinə bələd olmuşdular.

[2] "ət-Təbəqat əl-Kubra" əsəri, 3/23.

dilər: "Siz kimsiniz?" Onlar: "Biz ənsarlarıq" – dedilər. Müşriklər dedilər: "Çox gözəl, lakin biz öz əmioğullarımızla döyüşmək istəyirik."

Peyğəmbər ﷺ onların döyüş bacarıqlarına gözəl bələd idi. Belə ki, onlar döyüş cəngavərləri idi. Qureyşdə onlar kimi bacarıqlı döyüşçülər çox idi. Lakin Rəsulullah ﷺ buyurdu: "Qalx, ey Həmzə! Qalx, ey Əli! Qalx, ey Ubeydə ibn əl-Haris ibn Abdul-Muttəlib!" Onların hər üçü Peyğəmbərin ﷺ ən çox sevdiyi və qohumluq baxımından özünə ən yaxın olan şəxslər idi. Onların hər üçü dərhal döyüş əmrinə razılıq verib irəli atıldılar və: "Biz hazırıq" – dedilər. Aralarında nisbətən daha yaşlı olan Ubeydə Utbə ilə, Həmzə isə Şeybə ilə döyüşdü. Əli isə Valid ibn Utbə ilə döyüşdü. Əli ilə Həmzə düşmənlərinə aman verməyərək döyüşdə qalib oldular. Ubeydə ilə Utbə isə hər ikisi bir-birini yaraladı. Həmzə ilə Əli Utbənin üzərinə atılıb onu öldürdülər. Yaralanmış Ubeydə az sonra şəhid oldu.[1]

Təkbətək mübarizə aparanlar barədə Uca Allah bu ayəni nazil etmişdir: **"Onlar öz Rəbbi barəsində höcətləşən iki dəstədir. Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir."[2]** Buxari öz "Səhih"ində Qeys ibn Abbaddan Əli ibn Əbu Talibdən ﷺ belə dediyini rəvayət etmişdir: "Mən Qiyamət günü Rəham olan Allahın qarşısına mübarizə apardığı kəslə birlikdə çıxarılacaq ilk adam olacağam." Qeys ibn Abbad dedi: **"Onlar öz Rəbbi barəsində höcətləşən iki dəstədir."** Burada Bədr günü təkbətək döyüşənlər nəzərdə tutulur: Həmzə, Əli və Ubeydə (və ya Əbu Ubeydə) ibn əl-Haris, həmçinin Şeybə ibn Rabiə, Utbə ibn Rabiə və Valid ibn Utbə."[3]

Bu döyüşdə cərəyan etmiş hadisələrdən Əli ibn Əbu Talibin ﷺ və onunla birlikdə təkbətək döyüşə çıxanların şücaəti bəlli olur. Onların rəqiblərini məğlub etmələri qələbənin əvvəli idi. Çünki bununla onlar müşriklərin qəlbinə qorxu salmış oldular və onlar

---

[1] İbn Hişamın "Siyra" əsəri, 3/172; "əl-Murtəda", səh: 47-48.

[2] "əl-Həcc" surəsi, 19.

[3] "Səhih əl-Buxari" əsəri, № 3965.

müsəlmanları ciddi bir rəqib kimi qəbul etdilər. Buna psixoloji müharibə deyilir ki, bununla düşmənin gücünü azaltmaq olur. Digər tərəfdən isə müsəlmanların qəlblərində özlərinə inam hissi güclənir və onlar müşriklərin saylarının çox olmasından və onların malik olduqları döyüş tədarükündən qorxmurdular.

**2 – Əli ﷺ Uhud döyüşündə[1]:**

Bu döyüşdən öncə də Əli ibn Əbu Taliblə ﷺ müşriklərin bayraqdarı Talhə ibn Əbu Talhə ilə təkbətək döyüşmüşdü. O, önə çıxaraq dəfələrlə təkbətək döyüş tələb etdikdən sonra Əli ibn Əbu Talib ﷺ önə çıxıb dedi: "Canım Əlində olan Allaha and olsun ki, qılıncımla Allah səni Cəhənnəmə göndərməyincə və ya Allah sənin qılıncınla məni Cənnətə göndərməyincə səndən əl çəkən deyiləm." Əli ﷺ döyüş zamanı zərbə endirərək onun ayağını kəsdi. Bu zaman o, yerə yıxıldı və övrəti açıldı və dedi: "Ey əmioğlu, səni and verirəm Allaha və qohumluq xatirinə məni öldürmə. Əli ﷺ də geri döndü və onu öldürmədi.

Bəzi səhabələr Əliyə ﷺ dedilər: "Nə üçün hücum edib onu öldürmədin?" O dedi: "Onun övrəti açıldı və qohumum olduğu üçün ona rəhmim gəldi və anladım ki, Allah onu artıq öldürüb."

Başqa bir rəvayətdə isə: "Peyğəmbər ﷺ ondan soruşdu: "Səni onu öldürməyə nə mane oldu?" O dedi: "O, Allaha and verdi və qohumluq xatirinə onu öldürməməyimi istədi." Peyğəmbər ﷺ dedi: "Get onu öldür." O da gedib onu öldürdü."[2] Əli ﷺ döyüş zamanı sağ cinahda döyüşürdü. Musab ibn Umeyr şəhid olduqdan sonra ondan bayrağı o götürdü.

---

[1] Uhud döyüşü hicrətin üçüncü ilinin şəvval ayında baş vermişdi. Həmin döyüşdə də Uca Allah müsəlmanlara qələbə bəxş etmişdi. Lakin oxçuların öz mövqelərini tərk edərək qənimət toplamaları qələbənin məğlubiyyətlə əvəz olunması ilə nəticələndi.

[2] İbn Kəsirin "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 3/39; "əs-Siyratu əl-Hələbiyyə" əsəri, 2/497, 498.

Bu döyüşdə müsəlmanlar nə qədər sıxıntıya və çətinliyə məruz qalsalar da belə Əli ﷺ müşriklərdən çoxlu sayda adamlar öldürdü. Xüsusən də o, Peyğəmbəri müdafiə edən çətinliklərə sinə gərdi.[1] Uhud döyüşündə Peyğəmbər ﷺ xəndəyə yıxıldıqda onun əlindən tutan da Əli ﷺ idi.[2]

Bu döyüşdə mühacir və ənsarların ən xeyirlilərinin çoxu şəhid oldu və bu Peyğəmbərin ﷺ qəlbində böyük bir kədər buraxdı. Həmçinin bu döyüşdə düşmən Peyğəmbəri ﷺ yaralayaraq şərəfli üzünü qana bulaşdıra da bilmişdi. Döyüşdən sonra qızı Fatimə və onun əri Əli ibn Əbu Talib ﷺ Peyğəmbərə ﷺ tibbi yardım göstərmiş, üzündən axıb saqqalına bulaşan qanın qarşısını ala bilmişdilər.[3]

Əlinin ﷺ həmin döyüşdəki şücaəti özünü büruzə vermişdi. Rəsulullahın ﷺ ölməsi şaiyəsi yayıldığı zaman Əli ﷺ onu axtarmağa başladı. O düşündü ki, Peyğəmbərdən ﷺ sonra yaşamağın heç bir xeyri yoxdur. O, qılıncını siyirib müşriklərin üzərinə şığıdı və onlar kənara çəkildilər. Rəsulullahın ﷺ sağ olduğunu gördükdə onu qəhrəmancasına müdafiə etdi.[4]

Müşriklərin ordusu döyüş meydanından çəkilib getdikdən dərhal sonra Peyğəmbər ﷺ Əli ibn Əbu Talibi ﷺ göndərdi ki, müşriklərin hansı tərəfə getmələrini öyrənsin. *Bu zaman* Peyğəmbər ﷺ ona dedi: "Onların ardınca get, bax gör onlar nə etmək istəyirlər, nə istəyirlər, əgər görsən ki, atlara deyil dəvələrə mindilər bil ki, Məkkəyə üz tutublar. Yox əgər atlara minib dəvələri qarşılarına alsalar o zaman bil ki, Mədinəyə üz tutublar. Canım Əlində olan Allaha and olsun ki, əgər Mədinəyə üz tutmuş olsalar onlara hücum edib qalib gələcəyəm."

---

[1] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/224.

[2] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 3/89.

[3] Buxari, 4075, Muslim, 1790.

[4] Əbu Yəlanın "Müsnəd" əsəri, 1/415, № 546; Hüseyn Səlim Əsəd hədisin isnadının həsən olduğunu demişdir.

Əli dedi : "Mən onların ardınca çıxdım ki, baxım görüm onlar nə etmək istəyirlər. Gördüm ki, onlar atları qoyub dəvələri minərək Məkkəyə üz tutdular."[1] Əli geri qayıdaraq Peyğəmbərə gördüklərini danışdı.

**3 – Əli Həmra əl-Əsəd[2] döyüşündə:**

Əli ibn Əbu Talib bu döyüşdə də Uhudda olduğu kimi bayraqdar idi.[3] Müsəlmanlar Peyğəmbərin başçılığı altında Mədinədən on üç mil aralıda yerləşən Həmra əl-Əsd deyilən yerə gəlib çatdılar. Onlar miniklərini orada saxladılar. Müsəlmanların bu hərəkəti yəhudiləri və münafiqləri dəhşətə gətirmişdi. Çünki bu olduqca böyük bir şücaət və cürət tələb edən bir iş idi. Onlar əmin oldular ki, müsəlmanlar olduqca yüksək mənəvi ruha malikdirlər. Əgər müsəlmanlar həqiqətən məğlub olmuş olsaydılar qureyşliləri qovmağa çalışmazdılar.[4]

Həmçinin Peyğəmbərin Həmra əl-Əsdə çıxması düşmənə qalib gəlmək üçün mənəvi ruh yüksəkliyinin roluna işarədir. Beləliklə Peyğəmbər qoşunla birlikdə Həmra əl-Əsdə çıxaraq orada

---

[1] İbn İshaqın "Siyra" əsəri, 3/513.

[2] Bu döyüş Uhud döyüşünün tamamı hesab olunur. Müsəlmanlar hicrətin üçüncü ili şəvval ayının on beşi şənbə günü axşam uhuddan geri qayıtdılar. Səhər açıldıqda müsəlmanlar fəcr namazını qıldıqdan sonra Peyğəmbərin müəzzini azan verərək müsəlmanları müşrikləri qovmağa çağırdı. Əmr olundu ki, yalnız Uhud döyüşündə iştirak edənlər çıxsınlar. İnsanlar da yaralı və yorğun olmalarına baxmayaraq Peyğəmbərin bu çağırışına cavab verdilər. Peyğəmbərin özü də öndə idi. O, Abdullah ibn Ubeyyə və Uhudda iştirak etməyənlərə çıxmağa icazə vermədi. Yalnız atası uhud döyüşündə şəhid olmuş Cabir ibn Abdullah ibn Amr ibn Harama icazə verdi. Çünki ona Bədr və Uhud döyüşlərində iştirak etməsinə icazə verməmişdi ki, qalıb bacılarının qayğısını çəksin. Beləcə Peyğəmbərin arxasınca müsəlmanlar döyüşə çıxdılar.

[3] Əli Bədr döyüşündən Mədinəyə qayıtdıqdan yeddi gün sonra Kudər döyüşündə də Peyğəmbərin bayrağını daşımışdı.

[4] Əhməd Seyyid ər-Rifainin "Əli ibn Əbu Talib" əsəri, səh. 1-10; Zəhəbinin "Tarix əl-İslam" əsəri, əl-Məğazi, səh. 226.

üç gün qaldı. Orada odlar qalamağa əmr verdi. Həmin odların işığı uzaq məsafələrdən belə müşahidə edilirdi. Qureyşlilər bu odları görüb güman etdilər ki, müsəlmanların sayı elə çoxdur ki, onlara qalib gələ bilməzlər. Beləcə onlar qorxmuş halda oranı tərk etdilər.[1]

**4 – Əli ﷷ Bənu ən-Nədir döyüşündə:**

Bu döyüş Uhud döyüşündən sonra hicrətin dördüncü ili Rəbiul-əvvəl ayında baş vermişdi. Bu döyüşdə səhabələr bir gecə Əli ibn Əbu Talibi ﷷ itirirlər. Onda Peyğəmbər ﷺ dedi: "O, sizin bəzi işlərinizi görməyə gedib." Az sonra Əli ﷷ Əzvakın[2] başını gətirib gəldi. O, bir neçə yəhudi ilə birlikdə müsəlmanlara qarşı vuruşmaq üçün çıxmışdı. O, olduqca şücaətli bir atıcı idi. Əli ﷷ ona hücum edərək onu qətlə yetirmişdi. Onunla birlikdə olanlar isə qaçmışdılar.[3]

Onu da qeyd etmək lazımdır ki, bu döyüşdə Peyğəmbər ﷺ Əli ibn Əbu Talibə ﷷ böyük bir etimad göstərmişdi. Belə ki, o, yəhudi Əzvakı məhz ona tapşırmışdı. Bu onların ikisinin arasındakı bir sirr idi və bu barədə başqa heç kimin məlumatı yox idi. Əli ibn Əbu Talibin ﷷ şücaəti müsəlmanların bu döyüşə atılmalarına şərait yarandı. O, bu qələbəsi ilə düşmənlərinə qalib gəldi və yəhudilər qaçmağa başladılar.

**5 – Əli ﷷ Əhzab[4] döyüşündə:**

Əhzab döyüşündə də Əli ﷷ qəhrəmanlıq göstərmişdi. Onun bu qəhrəmanlığı Peyğəmbərin ﷺ səhabələrinin qəlblərində əqidə-

---

[1] Əbu Farisin "Ğazvatu Uhud" əsəri, səh. 51; İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 2/49.

[2] O, yəhudilərdən olan mahir bir ox atıcısı idi. Hətta onun atdığı bəzi oxlar Peyğəmbərin ﷺ yaxınlığına da gedib çatırdı.

[3] "Subul əl-Hudə və ər-Rəşad" əsəri, 4/322.

[4] Xəndək döyüşü Əhzab döyüşü də adlanır. Bu döyüş hicrətin beşinci ili şəvval ayında baş vermiş və İslam tarixinə və müsəlmanlara böyük təsir bağışlamışdır. Döyüş olduqca ağır şərtlərdə baş vermiş və müsəlmanlar heç vaxt üzləşmədikləri bir imtahana çəkilmişdilər. Döyüş haqqında ətraflı məlumatı İbn Hişamın "Siyratu ən-Nəbəviyyə" əsərindən əldə edə bilərsiniz.

nin möhkəmlənməsinə, ona dəvət etməyə, həmin əqidə uğrunda şəhid olmağa və buna müxalif olanlardan uzaqlaşmağa səbəb olmuşdu.

İbn İshaq demişdir: "Əli ibn Əbu Talib ﷺ bir neçə müsəlmanla birlikdə çıxaraq müşriklərin xəndəkdə açdıqları cığıra hücum edib oranı tutdular. O cığır ki, oradan müşriklərin atları içəri keçə bilmişdi.

Amr ibn Abdu Vudd Qureyş cəngavəri idi. O, Bədr döyüşündə *müsəlmanlara qarşı* vuruşmuş və ağır yaralanmışdı. Elə bu səbəbdən də, Uhud döyüşündə iştirak edə bilməmişdi. Əhzab döyüşündə isə, yeri bilinsin deyə, müttəfiqlərə qoşuldu. Nəhayət, *müsəlmanlara yetişdikdə,* atını sürüb *onların qabağına* çıxdı və: "Təkbətək döyüşən varmı?"– dedi. Onda Əli ibn Əbu Talib ﷺ onun qarşısına çıxıb dedi:

– Ey Amr, sən qureyşlilər barədə Allaha söz vermisən ki, onlardan hər hansı biri səni iki şeydən birinə dəvət etsə, bunlardan birini mütləq qəbul edəcəksən.

– Elədir ki, var!

– Elə isə mən səni Allaha ﷻ və Onun rəsuluna ﷺ iman gətirməyə – İslama dəvət edirəm!

– Mənim buna ehtiyacım yoxdur.

– Onda mən səni döyüşə çağırıram.

– Niyə, qardaş oğlu? Vallahi ki, mən səni öldürmək istəmirəm.

– Lakin mən səni öldürmək istəyirəm.

Bunu eşidəndə Amr bərk qəzəbləndi, dərhal atdan sıçrayıb yerə endi və qılıncını siyirib Əlinin ﷺ üstünə cumdu. Hər ikisi birə-birinə bir neçə qılınc zərbəsi endirdi və nəhayət, Əli ﷺ onu qətlə yetirdi."[1]

Müşriklər atlarını minib xəndəkdən qaçmağa başladılar.[2]

---

[1] "Sunən əl-Beyhəqi", 6/308; 9/132; "Mustədrək əl-Hakim", 3/32-33; "əs-Siyratu ən-Nəbəviyyə" İbn Kəsir, 3/203-205.

[2] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 4/182-183.

Bundan sonra döyüş səngiməyə başladı. Belə ki, qureyşlilərlə onlarla əhd bağlamış Qureyza oğulları arasında mübahisə yarandı. Bu zaman Uca Allah düşmən ordularının üzərinə güclü bir külək göndərmişdi. Soyuq bir gecədə əsən bərk külək müşriklərin mövqelərini viran qoymuşdu.

Bundan sonra müşriklər daha müsəlmanlara hücum etmədilər. Rəsulullah dedi: "Bundan sonra onlar bizə deyil, biz onlara hücum edəcəyik."[1]

**6 – Əli Bənu Qureyza döyüşündə:**

Əli ibn Əbu Talib bu döyüşün önündə Rəsulullahın bayrağını daşımış və öndə gedənlərdən olmuşdur.[2]

Müsəlmanlar qureyzəlilərin qalasını mühasirəyə aldıqda, Əli ibn Əbu Talib və Zubeyr ibn əl-Əvvam qabağa çıxdı, sonra Əli uca səslə möminləri səsləyib dedi: "Ey mömin mücahidlər! Vallahi, biz ya Həmzənin daddığını dadacaq,[3] ya da bunların qalasını darmadağın edəcəyik." Bu sözləri eşidən qureyzəlilər *təslim oldular* və dedilər: "Ey Muhəmməd, biz ancaq Səd ibn Muazın verəcəyi hökmlə razılaşacağıq."[4]

Uca Allah beləcə həmin təqvalı pak gəncin vasitəsilə əqidə və din düşmənlərinin qəlbinə qorxu saldı. O, Allah yolunda ölməyi və Uca Allahın dininin uca tutulmasını hər şeydən çox istəyirdi. O, öz dəstəsini Uca Allahın öz qullarını çağırdığı ən sevimli adlardan biri ilə yəni imanla çağırmış, onların da etiqadda nə dərəcədə sədaqətli, əməlisaleh və Allah yolunda cihadı sevən olmaları məlum olmuşdu.

---

[1] "əl-Bidayə və ən-Nihayə" əsəri, 4/115, Bu hədisi Buxari "Səhih" əsərində rəvayət etmişdir, № 4110.

[2] İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 4/193.

[3] Burada Əli ibn Əbu Talib şəhid olmağı təmənna edir.

[4] "ər-Rəhiq əl-Məxtum", 1/298; "əs-Siyra" İbn Kəsir, 3/234; "əs-Siyratu ən-Nəbəviyyə" İbn Hişam, 2/240; "Səhih əl-Buxari" № 3043.

Səd ibn Muaz onları qətlə yetirmək, qadınlarını və uşaqlarını əsir götürmək, mallarını bölüşdürmək barədə hökm verdikdə döyüşə ilk atılanlar arasında Əli ibn Əbu Taliblə Zubeyr də var idi.[1]

**7 – Əli Hudeybiyyə[2] sülhündə:**

Hüdeybiyyə sülhündə sülhdən öncə bəzi kölələr Məkkədən çıxaraq Rəsulullahın ﷺ yanına pənah aparırdılar. Onların sahibləri isə Peyğəmbərə ﷺ xəbər göndərdilər ki, onları geri qaytarsınlar. Peyğəmbər ﷺ isə onları geri qaytarmaqdan imtina etdi və dedi: "Ey qureyşlilər, ya bu işə son qoyacaqsınız, ya da Allah sizin üzərinizə boynunuzu din uğrunda qılıncla vuracaq kəs göndərəcək, Allah onun qəlbini iman yolunda imtahan etmişdir." Səhabələr soruşdular: "Kimdir o, ey Allahın rəsulu?" Hər kəs Peyğəmbərin ﷺ şahidlik etdiyi bu əzəmətli bir məqama çatmağı təmənna edirdi. Peyğəmbər ﷺ dedi: "O, ayaqqabı təmirçisidir." Peyğəmbər ﷺ ayaqqabısını Əliyə vermişdi ki, onu təmir etsin.[3]

Müsəlmanlarla Qureyş müşrikləri arasında sülh tamamlandıqda onlar arasında müqaviləni Əli yazdı. *Müqavilədə Əli belə yazmışdı*: "Allahın rəsulu Muhəmməd." Müşriklər dedilər: "Allahın rəsulu Muhəmməd yazma, sən Allahın rəsulu olsaydın sənə qarşı vuruşmazdıq." Peyğəmbər ﷺ Əliyə dedi: "Sil onu." Əli dedi: "Mən bunu silə bilmərəm." Peyğəmbər ﷺ öz əli ilə onu sildi.

Onlar sülh bağladılar ki, Peyğəmbər ﷺ səhabələri ilə birlikdə üç günlük Məkkəyə daxil olsunlar. Bu zaman onların əlində yalnız qılınclarının qınları ola bilər.[4] Əlinin "Allahın rəsulu Muhəm-

---

[1] Məqrizinin "İmta əl-Əsma" əsəri, 1/347; "əs-Siyratu əl-Hələbiyyə", əsəri, 2/668.

[2] Hüdeybiyyə sülhü hicrətin altıncı ilində Zülhiccə ayında baş vermişdir.

[3] Hafiz əl-Həkəminin "Mərviyyat Ğazvatu əl-Hudeybiyyə" əsəri, səh. 183; Tirmizi, № 3715; Hakim, № 2614; Təbərani "əl-Əvsat" əsəri, № 3862. Şeyx Albani hədisi həsən hesab etmişdir. "Silsilətu əl-Əhadis əs-Səhihə, 5/639, № 2487.

[4] "Səhih əl-Buxari" № 2698; "Səhih Muslim" № 1783.

məd" sözlərini silməkdən imtina etməsinin səbəbi Peyğəmbərə bəslədiyi sonsuz sevgi və ehtiram idi. [1] Bu onun dininə, ədalətinə və imanına əsla xələl gətirə bilməz!!

**8 – Əli Xeybər döyüşündə[2], hicrətin 7-ci ili:**

Bu döyüşdə də Əli ibn Əbu Talibin qəhrəmanlığı və Uca Allah və Rəsulu yanındakı məqamı görsənmişdir. Belə ki, Allahın qədəri ilə məhz onun qəhrəmanlığı sayəsində böyük hərbi strateji mövqe hesab olunan yəhudi məskəni Xeybər fəth olunmuşdu.

Xeybər qalalarla əhatələnmiş yəhudi məntəqəsi idi. Həmçinin yəhudilərin hərbi dayaq məntəqəsi də məhz burada yerləşirdi. Bu onların Ərəbistan yarımadasındakı son mövqeləri idi. Onlar kənardan müsəlmanlara nəzarət edir, həm Mədinə yəhudiləri ilə, həm də Mədinədən kənarda olan yəhudilərlə əməkdaşlıq edərək Mədinəyə hücum hazırlayırdılar. Peyğəmbər onlardan birdəfəlik yaxa qurtarmaq və onlar tərəfdən toxuna biləcək xətərdən əmin-aman olmaq istəyirdi. Xeybər Mədinənin şimal-şərqində yetmiş mil aralıda yerləşirdi.

Peyğəmbər ordusunu Xeybərə tərəf yeritdi. Ordunun əsgərlərinin sayı min dörd yüz nəfər idi. Xeybərin qalalarına hücum edərək onları bircə-bircə fəth etdi. Yalnız əl-Qumus adlı qalanı fəth etmək müsəlmanlara müyəssər olmadı.

---

[1] "əl-İntisar Lissuhubi Vəlal" əsəri, səh. 262-274.

[2] İbn İshaq bu döyüşün hicrətin yeddinci ilinin məhərrəm ayında baş verdiyini demişdir. Vaqidi isə döyüşün hicrətin yeddinci ilinin Səfər və ya Rabiul-əvvəl ayında Hudeybiyyə sülhündən qayıtdıqdan sonra baş verdiyini demişdir. İbn Səd isə onun hicrətin yeddinci ilində Cumadəl-ulə ayında baş verdiyini demişdir. İmam Zuhri ilə imam Malik döyüşün hicrətin altıncı ilinin Məhərrəm ayında baş verdiyini demişlər. İbn Həcər isə İbn İshaqın rəyini Vaqidinin rəyinə tərcih etmişdir. Bax: İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 3/455; "əl-Məğazi" əsəri, 2/634; "ət-Təbəqat" əsəri, 2/106; "Tarixi Diməşq" əsəri, 1/33; "əl-Fəth" əsəri, 16/41; "əs-Siyratu ən-Nəbəviyyə fi Dau əl-Məsadir əl-Asliyyə" əsəri, səh. 500.

*Həmin gün* Əli ibn Əbu Talibin ﷺ gözləri ağrıyırdı. Peyğəmbər ﷺ dedi: "Mən sabah bu bayrağı elə bir adama verəcəyəm ki, Allah onun əli ilə *müsəlmanlara* zəfər bəxş edəcək. O kimsəyə ki, Allahı və Onun rəsulunu ﷺ sevir, üstəlik, Allah və Onun rəsulu ﷺ da onu sevir." Səhabələrdən hər biri bayrağın ona veriləcəyinə ümid edərək qalxıb getdi. Ertəsi gün onlar Peyğəmbərin ﷺ yanına gəldikdə, onlardan hər biri bayrağın ona veriləcəyinə ümid edirdi. Lakin Peyğəmbər ﷺ: "Əli ibn Əbu Talib haradadır?"– deyə soruşdu. Ona dedilər ki, Əlinin gözləri ağrıyır. Onda Peyğəmbər ﷺ onun çağırılmasını əmr etdi. Peyğəmbər ﷺ Əlinin gözlərinə yüngülcə tüpürüb onun üçün dua etdi və onun gözləri sağaldı, elə bil heç ağrımırdı. Peyğəmbər ﷺ bayrağı ona verdi. Sonra Əli dedi: "*Xeybərlilər* bizim kimi *müsəlman* olanadək onlarla vuruşacağıq." Peyğəmbər ﷺ buyurdu: "Onların yurduna gedib çatanadək tələsmə. Sonra onları İslama dəvət et və özlərinə vacib buyrulan Allahın haqqlarını onlara bildir. Vallahi, əgər Allah sənin vasitənlə bir nəfəri doğru yola yönəltsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar."[1] Beləcə Əlinin rəhbərliyi ilə Xeybər fəth olundu.

Əlinin ﷺ qəhrəmanlıq səlnaməsindən biri də o idi ki, Peyğəmbər ﷺ bayrağı ona verdikdən *bir qədər* sonra *xeybərli kafir* Mərhəb qabağa çıxdı və dedi:

*Artıq Xeybər tanıdı, bildi ki Mərhəbəm mən,*
*Müharibə başlayıb döyüş alovlanarkən,*
*Mahir silah ustası, təcrübəli ərəm mən.*

Əli ﷺ isə ona belə cavab verdi:

*Anamın Heydər adlandırdığı mənəm,*
*Meşələr şiri tək zəhmli görkəmliyəm,*
*Düşməni pərən-pərən salıb tez öldürərəm.*

---

[1] "Səhih əl-Buxari", 2/229-230, № 3701; "Səhih Muslim", 4/1882, № 2406.

Əli ﷺ Mərhəbin baş nahiyəsinə qılınc zərbəsi endirib onu öldürdü. Xeybər də, məhz Əlinin ﷺ əli ilə fəth olundu."[1]

Yuxarıda qeyd olunan hədisdən bəlli olur ki, hədis heç də Əlinin ﷺ xəlifə elan olunmasına dəlalət etmir. Bəziləri iddia edirlər ki, Peyğəmbərdən ﷺ sonra xəlifə Əli ﷺ olmalı idi. Buna da dəlil kimi onun fəziləti ilə bağlı bir sıra hədisləri gətirmişlər. Halbuki həmin hədislər onun xəlifəliyə başqalarından daha çox layiq olduğuna dəlalət etmir. Həmin hədislərdən biri də bu hədisdir ki, ona bəzi batil əlavələr etmişlər. Hədis alimləri həmin əlavələri səhih hesab etməmişlər.

Digər tərəfdən Allah və Rəsulunun ﷺ Əlini ﷺ sevməsi və Əlinin də Allah və Rəsulunu ﷺ sevməsi ilə onun xəlifə olması arasında heç bir əlaqə yoxdur. Çünki Allah və Rəsulunun ﷺ onu sevməsi başqalarını sevməməsi anlamına gəlmir. Uca Allah Əbu Bəkr ﷺ haqqında buyurur: **"Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah *onun əvəzinə* Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər."**[2] Bədr əhli barəsində isə buyurur: **"Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir."**[3] Şəkk yoxdur ki, Allahın sevdiyi kəsi Rəsulu ﷺ da sevir. Həmçinin möminlərdən kim Allahı sevirsə Onun Rəsulunu ﷺ da sevir. Uca Allah Quba məscidinin əhli barəsində buyurur: **"İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir."**[4] Rəsulullahdan ﷺ: "İnsanlardan ən çox kimi sevirsən?" – deyə soruşulduqda o: "Aişə" – de-

---

1 "Səhih Muslim", 3/1441, № 1807.

2 "əl-Maidə" surəsi, 54.

3 "əs-Saff" surəsi, 4.

4 "ət-Tövbə" surəsi, 108.

yə cavab verdi. Sonra: "Bəs kişilərdən?" – deyə soruşulduqda o: "Onun atası" – deyə cavab verdi.[1]

Deməli bu hədisdə zikr olunan qarşılıqlı məhəbbətin Əlidə ﷺ mövcud olmasının bir incəliyi var. Burada yalnız "Allah onun əlləri ilə fəthi gerçəkləşdirəcək" – ifadəsi işlənsəydi Əlinin ﷺ fəzilətinə dəlalət etməzdi. Çünki Peyğəmbər ﷺ demişdir: "Şühəsiz ki, Allah bu dini günühkar bəndəsinin əli ilə belə izzətləndirir."[2]

Bu iki vəsf birlikdə qeyd olunduğu üçün həmin fikir aradan qalxmış olur. "Allah onun əli ilə fəthi gerçəkləşdirəcək" ifadəsi ilə Allah və Rəsulunun ﷺ Əlini sevməsi bu ehtimalı aradan qaldırmış olur.[3]

### 9 – Əli ﷺ Məkkənin[4] fəthində:

Əli ﷺ Məkkənin fəthində müxtəlif mövqelərdə iştirak etməklə yadda qalmışdır:

**a) Hatibin ﷺ məktubunun Qureyşə çatmasının qarşısını almaq:**

Rəvayət edilir ki, Əli ibn Əbu Talib ﷺ demişdir: "*Bir gün* Rəsulullah ﷺ mənə, Zubeyrə və Miqdad ibn Əsvada atlanıb *Məkkəyə* yollanmağı buyurdu və: "Filan bağçaya yetişənədək gedin. Həmin bağçada bir qadın görəcəksiniz. O qadında Hatibin müşriklərə yazdığı məktubu var.[5] Onu yanıma gətirin!"– dedi.[6]

---

[1] Buxari, 3662, Muslim, 2384.

[2] Buxari, 3026, Muslim, 111.

[3] "Muxtəsər ət-Tuhfətu əl-İsney Aşariyyə" əsəri, səh. 70.

[4] Məkkənin fəthi hicrətin səkkizinci ilində baş vermişdi. Onun səbəbi qureyşlilərin Peyğəmbərlə bağladıqları sülhü pozmaları və Peyəmbərlə saziş bağlamış bəzi qəbilələrə hücum etmələri idi. Peyğəmbər çoxsaylı ordu ilə səfərə çıxır və Məkkəni fəth edir.

[5] Peyğəmbərin ﷺ bu sözü onun peyğəmbərlik möcüzələrindəndir.

[6] Buxarinin "Səhih"ində (4890) Əli ibn Əbu Talib ﷺ demişdir: "Peyğəmbər ﷺ mənə, Zubeyrə və Miqdada dedi: "Rövdətü Xaxa (Mədinə ilə Məkkə arasında yerləşən bir yerə) gedin! Orada kəcavənin içində gedən, özü ilə məktub aparan bir qadına rast gələcəksiniz. Məktubu ondan götürün."

Biz Peyğəmbərin ﷺ vəsf etdiyi yerdə, həmin qadına dəvəsinin üstündə *kəcavənin*[1] *içində* gedərkən çatdıq və *ondan*: "Apardığın məktub haradadır?"– deyə soruşduq. Qadın dedi: "Məndə məktubzad yoxdur." Biz həm onu, həm də onun dəvəsini axtardıq.[2] Zubeyr dedi: "Mən heç nə görmürəm." Mən dedim: "Peyğəmbər ﷺ yalan danışmaz.[3] Canım Əlində olan *Allaha* and olsun ki, ya səni soyunduracağam, ya da məktubu *öz xoşunla* çıxaracaqsan." Qadın əlini əynindəki yun izarın[4] qurşağına salıb məktubu çıxartdı.[5] Biz *məktubu götürüb* Peyğəmbərin ﷺ yanına qayıtdıq. Ömər dedi: "Hatib Allaha, Onun rəsuluna ﷺ və möminlərə xəyanət etdi. Burax, onun boynunu vurum!"[6] Peyğəmbər ﷺ dedi: "*Bu işi görməyə* səni vadar edən nədir, *ey Hatib*?"[7] Hatib dedi: "Mən Allaha iman gətirmiş ada-

---

[1] Kəcavə: Səfərə çıxan adam üçün minik heyvanlarının, adətən, dəvənin üstündə düzəldilən örtülü yer.

[2] Burada "onu axtardıq" deyildikdə, qadının zahiri – əli, ayaqqabısının içi və s. nəzərdə tutulur.

[3] Rəsulullah ﷺ heç vaxt yalan danışmayıb. Abdullah ibn Məsud ﵁, Əbu Hureyrə ﵁ və digərləri Rəsulullahdan ﷺ hədis rəvayət edərkən bəzən deyərdilər: "Doğru danışan və doğruluğu təsdiq edilmiş Rəsulullah ﷺ bizə belə rəvayət etmişdir:" Həmçinin, Rum imperatoru Herakl, Əbu Sufyandan: "*Peyğəmbərlik iddia edən bu adam* söylədiklərini deməzdən, *bu dinə dəvət etməzdən* əvvəl heç onu yalan danışmaqda ittiham etmişdinizmi?"– deyə soruşduqda, Əbu Sufyan ona: "Xeyr!"– deyə cavab vermişdir". Səhih əl-Buxari, 7.

[4] İzar: qurşaqdan aşağı bədən əzalarını örtmək üçün belə bağlanan parça; fitə.

[5] Bu məktubda Hatib ibn Əbu Bəltəə ﵁ Məkkə müşriklərindən olan bir dəstəyə Peyğəmbərin ﷺ onlara qarşı hazırladığı işlər barədə xəbər vermişdir. Onun bu əməli zahirən münafiqlərin əməlinə bənzəmiş olsa da, əsl məqsədi xəyanət etmək olmamışdır.

[6] Burada Ömər ibn Xattab ﵁ onun zahirinə hökm verir, onu Allaha, Onun rəsuluna ﷺ və möminlərə xəyanət etməkdə ittiham edir, dolayısıyla onun münafiq olduğunu bildirir və buna əsasən dərhal ona cəza tətbiq etmək istəyir. Bu da, Ömərin ﵁ Allaha və Onun rəsuluna ﷺ nə dərəcədə sadiq olduğunu bir daha sübuta yetirir.

[7] Rəsulullah ﷺ Hatibin ﵁ mömin olduğunu bilir deyə, dərhal qərar çıxarmağa tələsmir. Beləliklə də, o, İslam ümmətinə gələcək işlərində belə hallarda dərhal qərar çıxarmamağı, məsələni əməlli-başlı araşdırıb dəqiqləşdirdikdən sonra hökm verməyi öyrədir.

mam. Lakin müşriklər *Məkkədə qalmış* yaxınlarıma dəyməsinlər de-yə, belə etdim."[1] Peyğəmbər dedi: "O, doğru deyir, ey Ömər! Məgər o, Bədrdə iştirak etməyibmi?! Məlumun olsun ki, qüdrətli və əzəmətli Allah Bədrdə döyüşənlərə baxıb demişdir: **"İstədiyinizi edin! Artıq Cənnətə girmək sizə vacib edildi."[2]** Ömərin gözləri yaşla doldu və o: "Allah və Onun rəsulu daha yaxşı bilir![3]"– dedi."[4]

**b) Əli ishahedici tapşırıqda:**

Peyğəmbər Əlini Bənu Cəzimə qəbiləsinin yanına göndərdi ki, Xalid ibn Vəlidin səhvini düzəltsin. Abdullah ibn Ömər demişdir: "*Hicrətin səkkizinci ilində Məkkənin fəthindən dərhal sonra* Peyğəmbər Xalid ibn Vəlidi Bənu Cəzimə qəbiləsinin yanına göndərmişdi ki, onları İslama dəvət etsin. Amma onlar: "Müsəlman olduq!"– demədilər, *əvəzində*: "Döndük[5], döndük!"– dedilər. Onda Xalid onların *bir çoxunu* öldürdü *yerdə qalanını da* əsir götürdü və bizim hər birimizə bir əsir bağışladı. Nəhayət, günlərin bir

---

[1] Buxarinin "Səhih"ində (4890) rəvayət edilir ki, Hatib demişdir: "Məni (qınamağa) tələsmə, ya Rəsulullah! Mən qureyşdən idim, lakin onların nəslindən deyildim. Səninlə birlikdə *hicrət etmiş* mühacirlərin qohum-əqrəbası onların Məkkədəki ailələrini və mallarını himayə edir. Onların arasında mənim qohumlarım yoxdur deyə, mən onları qorumaq üçün belə etmək istəyirdim. Mən bunu kafir olmaq və ya dindən dönmək məqsədilə etməmişəm."

[2] Demək, Allah yolunda aparılan ilk döyüşdə vuruşanlar fəzilət baxımından, sonrakı döyüşlərdə iştirak edənlərdən üstündürlər. Bu xüsusda, Uca Allah buyurur: **"Sizlərdən *Məkkənin* fəthindən əvvəl *malını* xərcləyib *Allah yolunda* vuruşanlar *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib vuruşanlardan daha üstündür. Lakin Allah onların hamısına ən gözəl olanı vəd etmişdir".** (əl-Hədid, 10).

[3] Bu cavab Ömər ibn Xattabın nə dərəcədə itaətkar olduğuna dəlalət edir.

[4] "əl-Ədəbul-Mufrad", 438;

[5] Bunu deməklə onlar müsəlman olduqlarını bildirmişdilər. Belə ki, o vaxt müşriklər dədə-babalarının dinindən dönüb Peyğəmbərə qoşulanlara "sabii" (dininə dönük çıxmış adam) deyirdilər. Bu hədisdə də İslam dinini qəbul etmək istəyən müşriklər öz terminlərinə uyğun olaraq: "Sabənə, sabənə" yəni, "Dinimizi tərk edib müsəlman olduq"- dedilər.

günü Xalid bizim hər birimizə *əlinin altında olan* əsirini öldürməyi əmr etdi. Dedim: "Vallahi ki, nə mən, nə də dostlarımdan bir kimsə öz əsirini öldürməyəcəkdir." Nəhayət, biz Peyğəmbərin ﷺ yanına gəlib bu hadisəni ona danışdıqda Peyğəmbər ﷺ əllərini *göyə* qaldırıb iki dəfə dedi: "Allahım, həqiqətən də, mən Xalidin etdiyi əməldən uzağam!" [1]

Peyğəmbər ﷺ Əlini ﷺ onların yanına göndərir ki, onların işi ilə məşğul olsun. Onunla birlikdə pul da göndərir. Əli də gözəl şəkildə bu işlə məşğul olur. Onlardan ölənlərin yaxınları ilə görüşür və onlara qan bahası pul verir. Hətta o, itin yaladığı qaba qədər onlara qaytarır. Sonra deyir: "Aranızda elə birisi qaldımı ki, qan bahasını almış olmasın?" Onlar dedilər: "Xeyr." Əli ﷺ dedi: "Əlimdə qalan bu pulları da ehtiyat üçün sizə verirəm. Ola bilsin ki, sizin və ya Peyğəmbərin ﷺ bilmədiyi bir şey daha olsun." Sonra o pulu onlara verdi. Peyğəmbərin ﷺ yanına qayıtdıqda ona etdikləri barədə xəbər verdi. Peyğəmbər ﷺ dedi: "Doğru və lap yaxşı etdin."[2]

Bu çətin işin öhdəsindən gəlməklə Əli ﷺ Peyğəmbər ﷺ üçün ağır olan bir müşkülü həll etmiş oldu. [3] Bu minvalla Peyğəmbər ﷺ Bənu Cəzimə qəbiləsinin könüllərini aldı və qəlblərindəki hüznü apardı. [4] Xalidin onları qətlə yetirməsi səhv ictihad idi. Buna da sübut Peyğəmbərin ﷺ onu cəzalandırmaması[5] və vəzifəsindən azad etməməsi idi.

### 10 – Əli ﷺ Huneyn döyüşündə:

Hicrətin səkkizinci ilində baş vermiş Huneyn döyüşü də Əlinin ﷺ döyüş təcrübəsinin, cihadının və şücaətinin göstəricisi idi. Hə-

---

[1] Buxari, 4339.

[2] İbn Hişamın "Siyratu ən-Nəbəviyyə" əsəri, 4/72, 73. İsnadı zəif olsa da hədisin şahidləri vardır.

[3] "Xilafətu Əli ibn Əbu Talib" əsəri, səh. 46.

[4] Əbu Şəhbənin "Siyratu ən-Nəbəviyyə" əsəri, 3/465.

[5] "əs-Siyratu ən-Nəbəviyyə fi Dau əl-Məsadir əl-Asliyyə" əsəri, səh. 579.

min döyüşdə Peyğəmbər ﷺ bəzi mühacir və ənsarlarla birlikdə geri çəkilmədən sabit qalır. Həvazinlilərin ordusunda qırmızı dəvə üzərində oturmuş, əlində isə qara bayraq tutmuş bir nəfər var idi. O, qarşısına çıxanı nizə ilə vurur, insanları keçdikdən sonra isə nizəsini geriyə çevirir, insanlar da onun arxasınca gəlirdilər.

Əli ﷺ böyük hərbi təcrübəsi sayəsində ona çatır. Çünki o bilirdi ki, həvazinlilər bu adama böyük önəm verirlər. Əli ﷺ ilə ənsarlardan biri ona tərəf çevrilərək onu dəvənin üzərindən yerə yıxıb öldürə bildilər. Az keçmədi ki, düşmən məğlub oldu və onlar qaçmağa başladılar. Beləcə müsəlmanlar qalib gəldi.[1]

**11 – Tay diyarındakı Fils adlı bütü dağıtmaq üçün Əlinin ﷺ qoşunu:**

Peyğəmbər ﷺ Beytülharamın içərisini bütlərdən təmizlədikdən sonra cahiliyyət dövründən qalmış, uzun müddət sitayiş olunan digər şirk ocaqlarını da dağıtmaq istədi.[2] Peyğəmbər ﷺ bir birinin ardınca ordular göndərdi ki, Ərəbistan yarımadasını bütlərdən təmizləsin. Əlinin payına da Tay diyarındakı Fils adlı büt düşmüşdü.

Rəbiul-əxir ayında Əli ibn Əbu Talib ﷺ ordusu ilə birlikdə Taylıların bütü Filsə tərəf yola düşdü ki, gedib onu dağıtsın. Onunla birlikdə yüz əlli ənsar var idi. Onlardan yüzü dəvə, əllisi isə atla səfərə çıxmışdı. Onların əlində böyük qara bayraq və kiçik ağ bayraq var idi. Onlar səxavəti barəsində söhbət yayılmış Hatim ət-Tainin mövqeyinə sübh çağı hücum edib Fils bütünü dağıtdılar və çoxsaylı mal-qara, qoyun və kəniz əldə etdilər. Kənizlərin arasında Adiy ibn Hatimin bacısı da var idi. Adiyin özü isə Şama qaçdı.[3]

---

[1] Əbu Yəlanın "Musnəd" əsəri, 3/388; İsnadı həsəndir, əl-Ədəvinin "Səhih əl-Musnəd" əsəri, səh. 141.

[2] "Muəyyin əs-Siyra" əsəri, səh. 649.

[3] Zəhəbinin "Tarix əl-İslam" əsəri, səh. 624.

**12 - Təbuk[1] döyüşündə Peyğəmbərin ﷺ Əlini ﷺ Mədinəyə başçı təyin etməsi, hicrətin 9-cu ili:**

Təbuk döyüşü hicrətin 9-cu ilində, rəcəb ayında başlamışdır. Rəsulullah ﷺ bu döyüşə çıxmazdan qabaq Əli ibn Əbu Talibi ﷺ Mədinə şəhərinə müvəqqəti başçı təyin edir. Bu fürsətdən istifadə edən münafiqlər, Əliyə ﷺ olan nifrətlərindən dolayı onun barəsində nalayiq sözlər deməyə başlayırlar. Onların dedikləri sözlərdən biri də belə idi: "Bu döyüş Əli üçün ağır gələcək deyə onu Mədinədə tərk etdilər." Həmin adamların Əli barəsində söylədikləri elə bu nalayiq sözün özü də onların açıq-aydın münafiq olmalarını göstərən əlamətdir. Həqiqətən də, Peyğəmbərin ﷺ onun barəsində dediyi sözü öz təsdiqini tapır. Bu xüsusda Əli ibn Əbu Talib ﷺ demişdir: "Toxumu çatladıb cücərdən və insanı yaradan Allaha and olsun ki, yazıb-oxumağı bacarmayan Peyğəmbər ﷺ mənə demişdir: "Səni yalnız mömin sevər və sənə yalnız münafiq nifrət edər."[2] Həmin vaxt Əli ibn Əbu Talib ﷺ Peyğəmbərin ﷺ yanına gəlib deyir: "Ya Rəsulullah, Doğrudanmı sən məni uşaqların və qadınların yanında qoyub getmək istəyirsən?!" Peyğəmbər ﷺ də ona belə cavab verir: "İstəmirsən ki, Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxın olasan?! Fəqət məndən sonra peyğəmbər gəlməyəcək."[3]

Bu hədis heç də bəzilərinin iddia etdiyi kimi Əlinin Peyğəmbərdən ﷺ sonra xəlifə olmsına dəlalət etmir. Çünki Peyğəmbər ﷺ Əlinin xətrini xoş etmək üçün bu sözləri demişdi. Çünki o, gəlib peyğəmbərə şikayət etmişdi ki, insanlar onun barəsində belə deyir.[4]

---

[1] Təbuk: Vadil-Qura ilə Şam arasında yerləşən kənddir. "Mocəm əl-Buldan", 2/14.

[2] "Səhih Muslim", 78.

[3] "Səhih əl-Buxari", 4416; "Səhih Muslim", 2404; "Musnəd Əhməd", 1/184-185.

[4] Necə ki İmam Əhməd rəvayət edib, 14679. Şeyx Şueyb hədisin isnadını səhih hesab etmişdir.

Peyğəmbər ﷺ də ona bəyan etmişdir ki, onu Mədinədə qoyub getməsi nə ona nifrət etməsinə görə deyil, nə də onun şəninə əksiklik gətirmir. Necə ki, Musa ﷺ da Uca Rəbbi ilə görüşə gedərkən Harunu ﷺ qövmünün yanında buraxmışdı. Bu tərk etmə Haruna nifrət etdiyinə görə və ya onun şəninə əksiklik gətirmək üçün olmamışdır.

Həmçinin bu hədis Əlinin ﷺ Peyğəmbərdən ﷺ sonra xəlifə olmasına dəlalət etsəydi onda nə üçün o, ağlayaraq Peyğəmbərin ﷺ yanına gəlib onu Mədinədə tərk etməsinin səbəbini soruşurdu.[1] Məgər Əli ﷺ bunu anlamamışdı, bizlər isə anlayırıq?![2]

Bütün bu qeyd olunanlar cəngavər və qəhrəman Əlinin ﷺ cihadı, onun İslam tarixindəki döyüşlərdə əvəzsiz rolu barədə qısa məlumatlar idi. Qeyd olunanlar onun bu dini nə dərəcədə səmimi qəlbdən qəbul etdiyini, haqqı müdafiə etdiyini, düşmənlərlə mübarizə apardığını və cinayətkarları məğlub etdiyini göstərir.

---

[1] Necə ki İmam Əhməd rəvayət edib, 1463. Şeyx Şueyb hədisin isnadını səhih hesab etmişdir.

[2] Bu hədisin Əlinin ﷺ Peyğəmbərdən ﷺ sonra xəlifə olmasına dəlalət etdiyini iddia edənlərə verilən geniş cavabla tanış olmaq üçün Şeyx Osman əl-Xəmisin "Huqba min ət-Tarix" əsərinə bax, səh. 263-266.

# Təbliğ və dəvət *xarakterli* tapşırıqlar

**1 – Hicrətin 9-cu ilində Əbu Bəkrin رضي الله عنه həcci zamanı Əlinin رضي الله عنه rolu:**

Həcc mövsümü yaxınlaşdıqda Peyğəmbər ﷺ həcc ziyarəti etmək istədi və dedi: "Kəbənin ətrafında müşriklər lüt-üryan təvaf edirlər. Bu vəziyyət aradan qalxmayınca həcc etmək istəmirəm." Bu hadisə hicrətin 9-cu ilində baş vermişdi.

Əbu Bəkr رضي الله عنه çoxsaylı səhabələrlə birlikdə yola düşür.[1] Onlar özləri ilə birlikdə qurbanlıq heyvanlar da götürmüşdülər. Əbu Bəkr əs-Siddiq رضي الله عنه həccə gedənlərin yola düşmə yerinə çatdıqda Tövbə surəsi nazil oldu. Bu vaxt Peyğəmbər Əlini رضي الله عنه çağırıb özünü Əbu Bəkrə رضي الله عنه yetişdirməsini buyurdu. Əli رضي الله عنه Peyğəmbərin ﷺ Adbə adlı dəvəsinin üzərində yola düşərək gəlib Zulhuleyfədə Əbu Bəkrə رضي الله عنه yetişdi. Əbu Bəkr رضي الله عنه onu görüb dedi: "Əmir olaraq gəlmisən yoxsa məmur?" O dedi: "Məmur olaraq." Sonra onlar getdilər. Əbu Bəkr رضي الله عنه cahiliyyət dövründə insanlar həccə getdiyi yerdə insanları yerləşdirdi. Bu il həcc mərasimi səhih rəvayətlərdə göstərildiyi kimi zilhiccə ayında baş vermişdi. Bəzilərinin dediyi kimi zilqidə ayında baş verməmişdi.

Əbu Bəkr əs-Siddiq رضي الله عنه Tərviyədən öncə,[2] Arafa günü, qurban bayramı günü və *qurban bayramından sonrakı* ilk günü xütbə verdi və insanlara həccin ayinlərini öyrətdi. Öyrətdi ki, Ərəfatda necə dayanacaqlarını, təvafı necə edəcəklərini, qurbanı necə kəsəcəklərini, daşı necə atacaqlarını və digər əməlləri bilsinlər. Bu zaman Əli رضي الله عنه onun yanında olur və Tövbə surəsinin əvvəlini oxuyurdu. Sonra da o insanları dörd şeyə səsləyirdi: Cənnətə yalnız mömin kəslər daxil olacaqdır, Kəbənin ətrafında çılpaq təvaf etmək olmaz, kimin Peyğəmbərlə ﷺ arasında bir əhdi varsa həmin əhd müddəti tamam

[1] "əd-Durar fi İxtisar əl-Məğazi və əs-Siyər" əsəri, səh. 267.

[2] Tərviyə – zülhiccə ayının səkkizinci günü. Yəni, həccə başlamamışdan öncə.

olana qədər qüvvədədir, bu ildən etibarən müşriklərlə müsəlmanlar birlikdə həcc etməyəcəklər.[1] Əbu Bəkr ﷺ bir qrup səhabəyə əmr etdi ki, gedib Əli ibn Əbu Talibə ﷺ bu tapşırığı yerinə yetirməkdə yardım etsinlər.[2]

Peyğəmbər ﷺ Əliyə ﷺ tapşırmışdı ki, müşriklərlə olan əhdin pozulduğunu həcc vaxtı müşriklərin nəzərinə çatdırsın. Bildirsin ki, ərəblərin əhdlə bağlı qayda-qanunlarına riayət olunacaqdır. Bu işi yalnız qəbilə başçısı və ya onun adamlarından biri görməli olacaq. Bu adət isə islama müxalif deyildi. Bu baxımdan Peyğəmbər ﷺ Əlini ﷺ təcili olaraq bu işi görmək üçün göndərmişdi. Buna görə də ona tapşırmışdır ki, gedib Tövbə surəsinin əvvəlini insanlara təbliğ etsin. Bəziləri iddia edirlər ki, guya bu rəvayətlər Əlinin ﷺ xəlifəliyə Əbu Bəkrdən ﷺ daha haqlı olmasına bir işarədir. Əslində isə bu iddia doğru deyildir. Doktor Muhəmməd Əbu Şəhbə bu məsələyə əlavə olaraq demişdir: "Bilmirəm Əbu Bəkr əs-Siddiqin: "Əmir kimi gəlmisən yoxsa məmur kimi?" – sözlərinə bunlar niyə diqqət etmirlər. Məmur olan kəs xəlifəliyə əmirdən daha layiq necə ola bilər?"[3]

Bu həcc mərasimi böyük Vida həccinə hazırlıq xarakteri daşıyırdı. Əbu Bəkrin ﷺ həcci zamanı bəyan olundu ki, bütpərəstlik dövrü artıq bitmişdir və artıq yeni mərhələ başlamışdır. İnsanlar Allahın şəriətinə tabe olmalıdırlar. Bu elandan sonra xəbər bütün Ərəbistan yarımadasında qəbilələr arasında yayıldı. Qəbilələr də məsələnin ciddiliyinin fərqinə varmış oldular. Onlar anladılar ki, bütpərəstlik dövrü artıq bitmişdir. Qəbilələr də öz nümayəndələrini göndərərək İslam dinini və tövhidi qəbul etdiklərini elan etdilər.[4]

---

[1] İmam Əhmədin "Müsnəd" əsəri, № 594. Şeyx Şüeyb hədisi səhih hesab etmişdir, Hədisin əsli Buxaridədir, № 369.

[2] Buxaridəki hədisə bax, № 369.

[3] Əbu Şəhbənin "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, 2/540.

[4] "Qiraə Siyasiyyə Li əs-Siyra ən-Nəbəviyyə" əsəri, səh. 283.

**2 – Hicrətin 10-cu ilində Əli ﷺ Yəmənə qazi və dəvətçi kimi göndərilir:**

Məkkənin fəthindən sonra ərəb qəbilələri İslam dinini qəbul etdiklərini elan etdilər. Peyğəmbər ﷺ İslamı qəbul etməmiş qəbilələrə isə öz dəvətçilərini göndərirdi. O, Əlini ﷺ Yəmənin Həmədan bölgəsinə göndərdi. Peyğəmbər ﷺ onunla birlikdə Bəra ibn Azibi ﷺ də göndərdi. Bəra ibn Azib ﷺ bu səfərdə öz başlarına gələnləri bizlərə nəql edərək demişdir: "Biz gəlib Yəmənə çatdıqda qövmə bizim gəlişimiz barədə xəbər çatdı və onlar bir yerə toplandılar. Əli ﷺ bizə fəcr namazını qıldırdı. Namazı bitirdikdən sonra o, bizləri bir sıraya düzdü və önümüzdə dayandı. O, Allaha həmd-sənalar etdikdən sonra Peyğəmbərin ﷺ məktubunu onlara oxudu. Beləcə həmədanlılar bir günün içərisində İslamı qəbul etdilər. O, bu bardə Peyğəmbərə ﷺ məktub yazıb göndərdi. Peyğəmbərə ﷺ onun məktubu oxunduqda səcdə etdi və dedi: "Salam olsun Həmədana, salam olsun həmdana."[1]

Rəsulullah ﷺ Əliyə ﷺ əmr etmişdi ki, Yəməndə insanlar arasında qazilik etsin. Əli ﷺ bu barədə özü demişdir: "Rəsulullah məni Yəmənə göndərdi. Mən ona dedim: "Ey Allahın elçisi, sən məni məndən yaşlı insanların yanına göndərirsən, mən isə qazilik məsələsində yeniyəm, bunu yaxşı bilmirəm." Sonra o, əlini sinəmin üstünə qoyub dedi: "Allahım, onun dilini sabit et, qəlbinə də hidayət ver." *Sonra dedi:* "Ey Əli, sənin yanına iki nəfər gəlib aralarında hökm çıxarmanı istədikdə hər iki tərəfi dinləmədən onların arasnda hökm vemə. Bunu etsən hökm çıxarmaq üçün sənə hər şey aydın olacaq." Əli ﷺ deyir ki, bundan sonra heç bir vaxt qazilikdə çətinlik çəkmədim və ya hökm verdikdə heç bir problemlə üzləşmədim."[2]

---

[1] Hədisi Beyhəqi "Sünən əl-Kubra" əsərində 2/369, № 4102, və "Mərifətu əs-Sunən və əl-Əsar" əsərində, 3/487, № 1260 rəvayət etmiş və demişdir: "Bu isnad səhihdir, Buxari də hədisin əvvəlini rəvayət etmiş, sonunu isə qeyd etməmişdir.

[2] "Fədail əs-Sahəbə" əsəri, 2/871, № 1995, isnadı həsəndir.

**Əlinin رضي الله عنه Yəməndə hökm verdiyi məsələlərdən bəziləri:**

Təmiz halda olan bir qadınla üç kişi yaxınlıq edir. Zeyd ibn Ərqamdan رضي الله عنه rəvayət olunur ki, Əli رضي الله عنه Yəməndə olarkən üç nəfər bir təmizlik zamanı yaxınlıq etdikləri bir qadın barəsində mübahisə edib onun yanına gəldi. Əli رضي الله عنه bu üç nəfərin ikisindən soruşdu: "Bu uşağın o birisinin (üçüncünün) olduğunu təsdiq edirsizmi?" Bu iki nəfər "xeyr" – deyə cavab verdilər. Beləliklə Əli رضي الله عنه onlardan iki-iki soruşmaqla hamısına eyni sualı verdi. Hər dəfə onlardan ikisi xeyr – deyə cavab verdilər. Sonra onların arasında püşk atdı. Uşağı da püşkdə qalib gələnə verdi. Üstəlik onun üzərinə qanbahasının üçdəikisini də qoydu. Sonradan bu barədə Peyğəmbərə xəbər verildikdə, o, arxa dişləri görünənədək güldü.[1]

Peyğəmbərin ﷺ gülməsinin səbəbi Uca Allahın müvəffəqiyyəti sayəsində Əlinin رضي الله عنه doğru qədar verməsinə sevinməsi idi. Elə buna görə də hökmü təsdiq etmişdi. Həmçinin ehtimal olunur ki, o üç nəfərin başına gələnlər İslamdan qabaq baş vermişdi. Çünki Uca Allahın dinində belə bir iş görmək haramdır.[2]

**3 – Əli رضي الله عنه vida həccində:**

Vida həccində Əli رضي الله عنه Rəsulullahın ﷺ yanında idi. Peyğəmbər ﷺ altmış üçü dəvəni öz əli ilə qurban kəsmişdi. Onun kəsdiyi dəvələrin sayı yaşının sayı qədər idi. Sonra dayanıb Əliyə رضي الله عنه əmr etdi ki qalan dəvələri o kəssin. Beləcə Əli رضي الله عنه digər dəvələri kəsərək yüz dəvəni tamamladı.[3]

Əli رضي الله عنه Peyğəmbərin ﷺ həcc ziyarəti ilə bağlı əmrlərini müsəlmanlara təbliğ edirdi. Amr ibn Səlim anasının belə dediyini rəvayət etmişdir: "Biz Minada olarkən Əli ibn Əbu Talib رضي الله عنه gəlib dedi: "Rəsulullah ﷺ belə demişdir: "Bu günlər yemək və içmək günləri-

---

[1] Əbu Davud, № 2270, 2269; Nəsai, № 3488; İbn Macə, № 2348. Şeyx Albani hədisi səhih hesab etmişdir.

[2] "Mənhəc Əli ibn Əbu Talib fi əd-Dəvəti İləllah" əsəri, səh. 88.

[3] Nədəvinin "əl-Murtəda" əsəri, səh. 57; Muslim, № 1218.

dir, bu günləri oruc tutmayın." İnsanlar da onun dediklərinə tabe oldular. O, bu sözləri uca səslə deyirdi.[1] Bu rəvayətlər Əli ibn Əbu Talibin ﷺ Vida həccindəki rolunu göstərir. Həmin həcc vaxtı o, əsas parlayan ulduzlardan biri idi. İslam ümməti də qiyamət gününədək onun dediklərini yerinə yetirməkdədir.

**Əlinin ﷺ böhtan hadisəsində mövqeyi:**

Münafiqlərin Aişəyə iftira yaxmaları barədə varid olmuş hədisdə deyilir ki, Peyğəmbər ﷺ Əli ﷺ ilə Usaməni yanına çağıraraq əhlindən ayrı yaşaması barədə məsləhətləşdi. Bu xüsusda söz-söhbət çoxaldıqda Peyğəmbər ﷺ çox məyus olmuşdu. Hadisə ilə əlaqədar vəhy də nazil olmamışdı. Usamə ona məsləhətində bildirdi ki, Aişənin günahsızlığından əmindir. O dedi: "Ey Allahın rəsulu, sənin əhlin barəsində xeyirdən başqa bir şey bilmirik."

Əli ibn Əbu Talib ﷺ isə belə dedi: "Ey Allahın rəsulu, Allah sənə məhdudiyyət qoymayıb, nə çoxdur başqa qadınlar. Lakin hər halda onun cariyəsini sorğu-sual et, o sənə həqiqəti söyləyər. Peyğəmbər ﷺ Bəriranı yanına çağırıb dedi: "Ey Bərira, səni şübhəyə salan bir şeyin şahidi olmusanmı?" Bərira dedi: "Səni haqq olaraq göndərən Allaha and olsun ki, xeyr, onun barəsində yalnız onu ayıb tuta bilərəm ki, yaşı azdır, hərdən yatıb qalır və xəmiri yaddan çıxarır, qoyun da gəlib xəmiri yeyir."

Bundan sonra Peyğəmbər ﷺ Abdullah ibn Ubey ibn Səlula xəbərdarlıq etdi. O, minbərə qalxıb dedi: "Vallahi ki, mən öz əhlim barəsində yalnız gözəl zəndəyəm. Həmçinin mənə elə bir şəxsin[2] adını çıkiblər ki, onun da barəsində yalnız gözəl zəndəyəm. O, yalnız mən evdə olduqda bizə gələrdi."[3]

Əlinin ﷺ söylədiyi fikirə Peyğəmbər ﷺ də üstünlük verdi. Əli İnsanların yaydıqları söz-söhbətdən dolayı Peyğəmbərin ﷺ bikef

---

[1] İmam Əhmədin "Musnəd" əsəri, 2/9, № 567. İsnadı səhihdir.

[2] Safvan ibn Muattil əs-Suləmi.

[3] Buxari, № 4750.

olduğunu görüb bu məsləhəti vermişdi. O, olduqca qısqanc birisi idi. Əli əvvəlcə düşündü ki, Aişənin təmizliyi bəlli olanadək ondan ayrılsa üzgünlüyü aradan qalxar. Sonra isə onu qaytarar. Bununla da iki ziyandan daha yüngülünü etmiş olar.[1]

Nəvəvi demişdir: "Əli ﷺ Peyğəmbərin ﷺ üzgünlüyünü gördükdə belə düşünmüşdü ki, bu Peyğəmbər ﷺ üçün daha məsləhətlidir. Buna görə də ona belə bir tövsiyə vermişdi. O, Peyğəmbərin ﷺ rahatlığını istəyirdi.[2] Bundan əlavə Əli ﷺ Aişnin ﷺ əxlaqını şübhə altına alacaq bir kəlmə belə deməmişdi.[3] Əksinə bu rəy onun xeyrinə idi. Demək istəyirdi ki, problemdən yaxa qurtarmaq istəyirsənsə başqa qadınlar da var. Həmçinin həqiqətə çatmaq istəyirsənsə Aişənin ﷺ cariyəsindən soruş o sənə həqiqəti çatdıracaq. Bununla da Aişnin ﷺ təmizliyi bəlli olacaq.

Bundan sonra isə Peyğəmbər ﷺ insanlara xütbə verərək Aişnin ﷺ təmizliyini bəyan etmişdi. Həmçinin Aişə ﷺ barədə zölm və böhtan xarakterli nalayiq ifadələr işlədənlərinin halının təhlükəli olması barədə xəbər vermişdi. Beləliklə həm Əlinin ﷺ, həm də Usamənin ﷺ tövsiyələri Aişə ﷺ barəsində müsbət idi. Həmin tövsiyələrdən sonra Peyğəmbərin ﷺ öz ailəsi barəsində yəqinliyi daha da artdı.[4]

Gərək hörmətli oxucular Əlinin ﷺ böhtan hadisəsində Aişəyə nalayiq söz işlətməsi barədə iddia olunan batil rəvayətlərdən həzər etsin. Bəzi dırnaqarası yazarlar iddia edirlər ki, guya Aişə ﷺ bu sözlərə görə Əliyə ﷺ qəzəblənmiş, ona nifrət bəsləmiş, sonradan da onu Osmanın qətlində günahkar saymışdır. Müsəlmanların da bir qismini guya Əliyə qarşı çıxarmışdı. Əslində isə Əli ibn Əbu Taliblə ﷺ Möminlərin anası Aişə ﷺ arasındakı əlaqələr olduqca möhkəm idi. Bu barədə Cəməl döyüşü bəhsində söhbət açacağıq.

---

[1] Əsmə Muhəmməd Ziyadənin "Dəvru əl-Məratu əs-Siyasiy" əsəri səh. 462.

[2] Nəvəvinin "Səhih Muslim" əsərinə olan şərhi, 5/634.

[3] "Dəvru əl-Məratu əs-Siyasiy" əsəri səh. 462.

[4] "Dəvru əl-Məratu əs-Siyasiy" əsəri səh. 463.

**Əli ﷺ Peyğəmbəri ﷺ qüsl etmək və onu dəfn etmək şərəfinə nail olur:**

Peyğəmbər ﷺ vəfat etdikdə Əli ﷺ Fadl ibn Abbas və Usamə ibn Zeydlə ﷺ birlikdə onu qüsl etmişdilər.[1] Əli ﷺ demişdir: "Mən Rəsulullahı ﷺ yuduqdan sonra onun meyitinə baxdım. Onun bədənində heç bir dəyişiklik yox idi. O, həm diri ikən, həm də ölü ikən gözəl idi."[2] Başqa rəvayətdə isə demişdir: "Necə də gözəlsən həm ölü ikən, həm də diri ikən."[3]

Səhabələr Peyğəmbəri ﷺ o qədər çox sevirdilər ki, onun ölüm xəbəri onlara ildırım zərbəsi kimi gəlmişdi. Çünki onlar Peyğəmbərlə ﷺ birlikdə həyat sürməyə, oğul ata ilə birlikdə yaşadığı kimi, hətta ondan da çox öyrəşmişdilər. Təbii ki, əhli beytin və haşimi ailəsinin, ələlxüsus da Peyğəmbərin ﷺ qızı Fatimə ilə Əli ibn Əbu Talibin ﷺ halı daha fərqli idi. Çünki onlar fitrət baxımından həm də qohum idilər. Bu baxımdan onlar daha çox ağrı çəkirdilər. Onların bəslədikləri güclü sevgi, incə hisslər daha özəl idi. Onlar imanlarının gücü, Allahın qəza və qədərinə razı qalmarı və Onun əmrinə təslim olmaları sayəsində bu müsibətə səbr etdilər.[4]

---

[1] Əbu Davud, 3/213, № 3209. Albani hədisi səhih hesab etmişdir.

[2] Beyhəqinin "Sunən əl-Kubra" əsəri, 3/388, № 6866; Nəvəvinin "əl-Xulasə" əsəri, 2/936; Hədisi Beyhəqi səhih isnadla rəvayət etmişdir.

[3] İbn Macənin "Sunən" əsəri, 1/362, № 1467. Hədisi Albani "Əhkam əl-Cənaiz" əsərində səhih hesab etmişdir, səh. 50.

[4] Nədəvinin "əl-Murtəda" əsəri, səh. 59.

# Əli ibn Əbu Talib رضي الله عنه raşidi xəlifələr dönəmində.

Əli ibn Əbu Taliblə رضي الله عنه digər raşidi xəlifələr arasındakı əlaqələrə nəzər salan kəs onlar arasında nə qədər sevgi, mehribanlıq və islam qardaşlığının olduğunun şahidi olacaqdır. Heç bir vaxt onun saflığını poza biləcək heç bir hadisə baş verməmişdir. Əli رضي الله عنه onlara öz razılığı ilə beyət etmiş, sonra da onlara vəzir və müşavir kimi çalışmışdır. Onların aralarındakı əlaqələr qohumluqdan da artıq idi. Onlar arasındakı sevginin daha bir göstəricisi övladlarına onların adlarını verməsi idi. İnsan öz övladına yalnız sevdiyi kəsin adını verə bilər. İndi biz tərtiblə hər raşidi xəlifənin dövründə Əli ibn Əbu Talib رضي الله عنه barədə ayrıca söhbət açacağıq.

**Birinci: Əbu Bəkr əs-Siddiq رضي الله عنه dönəmində:**

Əli ibn Əbu Taliblə رضي الله عنه Əbu Bəkr əs-Siddiq رضي الله عنه arasında olduqca möhkəm əlaqələr mövcud idi. Əli رضي الله عنه ona insanların arasında razılıqla beyət etmişdi. O, Peyğəmbəri ﷺ sevdiyi üçün, bir də İslam üçün etdikləri işlərə görə onu sevirdi. Xilafəti dövründə ona daim dəstək vermişdir. Mürtədlərə qarşı aparılan döyüşlərdə Əli رضي الله عنه Əbu Bəkrin رضي الله عنه sağ əli idi. Vəfat etdikdə də ona öz sevgisini izhar etmişdi. O, həmin vaxt elə sözlər işlətmişdi ki, bunu heç kəs inkar edə bilməz. Həmin sözlər onu nə dərəcədə sevdiyinin, onun üçün nə qədər dəyərli bir insan olduğunun göstəricisi idi. Aşağıdakı hadisələr onlar arasındakı sevginin təzahürlərindəndir:

**1 – Əlinin xilafət xüsusunda Əbu Bəkrə رضي الله عنهما beyət etməsi:**

Əlinin رضي الله عنه Əbu Bəkr əs-Siddiqə رضي الله عنه gec beyət etməsi barədə müxtəlif rəvayətlər mövcuddur. Zubeyr ibn Avvamın رضي الله عنه da gec beyət etməsi deyilir. Bütün bu xəbərlər həqiqətə uyğun deyil. Bunun müqabilində səhih rəvayətlər vardır ki, Əli ilə Zubeyr رضي الله عنهما Əbu Bəkrə رضي الله عنه tez beyət etmişlər.

Əbu Səid əl-Xudri ﷺ demişdir: "Peyğəmbər vəfat etdikdə ənsardan qalxıb danışdılar.." Əbu Səid əl-Xudri ﷺ Səqifə beyətini xatırlatdı və dedi: "Sonra insanlar getdilər. Əbu Bəkr ﷺ minbərin üzərində oturmuş ikən insanların arasında Əlini ﷺ görməyib onu soruşdu. Ənsarlardan bəzisi gedib Əlini ﷺ çağırıb gəldilər. Əbu Bəkr ﷺ dedi: "Ey Peyğəmbərin ﷺ əmisi oğlu və kürəkəni, müsəlmanların birliyini pozmaqmı istəyirsən?" O dedi: "Əlbəttə ki yox ey Rəsulullahın ﷺ xəlifəsi." O bunu deyərək Əbu Bəkrə beyət etdi.

Sonra o, Zubeyr ibn Avvamı da görməyib onun barəsində soruşdu. Səhabələr onu da çağırdılar. Əbu Bəkr ﷺ dedi: "Ey Peyğəmbərin ﷺ bibisi oğlu və həvarisi, müsəlmanların birliyini pozmaqmı istəyirsən?" O da dedi: "Əlbəttə ki yox ey Rəsulullahın ﷺ xəlifəsi." O bunu deyərək Əbu Bəkrə ﷺ beyət etdi.[1]

Bu hədisin əhəmiyyətinə dəlalət edən daha bir hadisə Buxarinin Səhih əsərindən sonra ən səhih kitab hesab olunan "əl-Cami əs-Səhih" əsərinin müəllifi İmam Muslim ibn Həccacın öz şeyxi, Səhih İbn Xuzeymə əsərinin müəllifi Muhəmməd ibn İshaq ibn Xüzeymənin yanına gələrək bu hədis barədə soruşmasıdır. İbn Xuzeymə də ona bu hədisi onun üçün yazdı və oxudu. *Hədisi eşidən* Muslim şeyxi İbn Xuzeyməyə belə dedi: "Bu hədis bir dəvəyə bərabərdir."

İbn Xuzeymə isə belə dedi: "Bu hədis təkcə bir dəvəyə deyil, *içərisində min (və ya on min) dinar olan* bir kisə pula bərabərdir."

İbn Kəsir isə bu hədisə əlavə edərək demişdir. Hədisin isnadı səhihdir və orada böyük bir fayda vardır ki, o da Əli ibn Əbu Talibin ﷺ Peyğəmbərin ﷺ vəfatından bir və ya iki gün sonra tez bir zamanda beyət etməsidir. Həqiqət də budur. Çünki Əli ibn Əbu Talib ﷺ Siddiqdən ﷺ heç vaxt ayrı olmamışdır. O, hər zaman onun arxasında namaz qılmışdır.[2]

---

[1] "əl-Mustədrak" əsəri, 3/76; "əs-Sunən əl-Kubra" əsəri, 8/143. Hər iki hədisin isnadı səhihdir.

[2] "əl-Bidayə və ən-Nihayə" əsəri, 5/249.

Amr ibn Hureys Səid ibn Zeydə ﷺ belə demişdir: "Əbu Bəkrə ﷺ nə vaxt beyət olundu?" Səid dedi: "Rəsulullah vəfat etdiyi gün. Çünki müsəlmanlar bir an belə başçısız qalmaqdan qorxdular." Amr soruşdu: "Əbu Bəkrə ﷺ kimsə müxalif oldumu?" Səid dedi: "Xeyr, yalnız mürtədlər və az qala mürtəd olacaq kimsələr. Allah ənsarları xilas etdi və onlar toplanaraq Əbu Bəkrə ﷺ beyət etdilər." Amr dedi: "Bəs mühacirlərdən beyət etməyən oldumu?" Səid dedi: "Xeyr, mühacirlər də sıra ilə ona beyət etdilər."[1] Həmçinin Əli ﷺ Kufədə minbər üzərindən Əbu Bəkrlə ﷺ Öməri ﷺ tərif edərək belə demişdi: "Müsəlmanlar onlara müti şəkildə beyət etmişdilər, Abdulmuttalibin övladlarından ona ilk beyət edən mən olmuşam."[2]

Bir sıra başqa rəvayətlər də vardır ki, Əlinin ﷺ Əbu Bəkrə ﷺ ilk əvəl beyət etdiyinə dəlalət edir. İbrahim ibn Abdurrəhman ibn Auf demişdir: "Bir dəfə Abdurrəhman ibn Auf Ömər ibn əl-Xəttabla ﷺ birlikdə idi. Bu vaxt Əbu Bəkr ﷺ qalxıb insanlara xütbə verərək üzrxahlıq edib dedi: "Vallahi ki, mən rəhbərliyə bir gün belə həris olmamışam, heç zaman da buna rəğbət bəsləməmişəm. İzzət və Cəlal Sahibi olan Allahdan bunu nə gizlində, nə də aşkarda istəməmişəm. Lakin mən fitnədən qorxdum. Bilirəm ki, rəhbərlik etdiyim vaxt rahat olmayacağam. Elə bir böyük işin altına girmişəm ki, İzzət və Cəlal Sahibi olan Allah mənə güc və qüvvət verməsə mən bunun öhdəsindən gələ bilmərəm. İnsanları öz yerimə qoymağımı çox istəyirəm." Mühacirlər onun sözlərini və üzrxahlığını qəbul etdilər. Əli ilə Zubeyr ﷺ isə dedilər: "Bizi qəzəbləndirən yeganə iş məşvərətin bu qədər gecikməsidir. Biz də hesab edirik ki, Peyğəmbərdən ﷺ sonra xəlifəliyə ən çox layiq olan kəs Əbu Bəkrdir. O Peyğəmbərin ﷺ mağara yoldaşı, iki şəxsdən biridir. Biz bu şərəfin

[1] "Tarix ət-Təbəri", 3/207, hədisin isnadı zəifdir. Abdulaziz Suleymanın "Xilafətu Əbi Bəkr əs-Siddiq" əsərinə səh. 66-ya bax.

[2] "Əsəd əl-Ğabə" əsəri, 4/166-167; Bax: "Xilafətu Əbi Bəkr əs-Siddiq" əsəri, səh. 66.

böyüklüyünü gözəl anlayırıq. Peyğəmbər ﷺ hələ sağ ikən Əbu Bəkrə əmr etmişdi ki, insanlara namazda imamlıq etsin."[1]

Qeys əl-Abdi demişdir: "Bir dəfə mən Bəsrədə Əlinin ﷺ xütbəsinə qulaq asdım, o Allaha həmd sənalar edərək Peyğəmbər ﷺ barədə danışdı və onun insanları necə islah etməsindən söhbət açdı *və sonra dedi*: "Sonra İzzət və Cəlal Sahibi olan Allah onu öz yanına apardı. Sonra müsəlmanlar Əbu Bəkri seçərək ona beyət etdi və onunla əhd bağlayaraq ona tabe oldular. Mən də ona beyət etdim, onunla əhd bağlayaraq ona tabe oldum. Sonra İzzət və Cəlal Sahibi olan Allah onu da öz yanına apardı. Allah ona rəhmət eləsin."[2]

Əli ﷺ Əbu Bəkr əs-Siddiqdən ﷺ heç bir vaxt ayrı olmamış, müsəlman camaatını əsla tərk etməmişdir. Məşvərət zamanı və müsəlmanların işləri ilə bağlı məsləhətləşmələrdə Əli ﷺ hər zaman onun yanında olardı. İbn Kəsir və bir sıra elm əhlinin rəyinə görə Əli ﷺ Fatimənin ﷺ vəfatından sonra, yəni birinci beyətdən altı ay sonra öz beyətini yeniləmişdir. Bu beyət barədə səhih rəvayətlər varid olmuşdur.[3] Lakin ikinci beyət baş verdikdə bəzi ravilər elə başa düşüblər ki, Əlinin birinci beyəti olmayıb və bunu inkar etmişlər. İsbat inkardan üstündür.

Əli ﷺ Əbu Bəkrin ﷺ xəlifə olmasına razı olaraq beyət etmişdir. O, digər iki xəlifəyə Ömər ibn əl-Xəttab və Osman ibn Əffana da ﷺ eyni qaydada beyət etmişdir. Onların hər birinə ixlasla məsləhətlər vermişdir. İlk gün beyəti gec etməsinə gəlincə isə bunun səbəbi onun Peyğəmbərin ﷺ yuyulub dəfn olunması ilə məşğul olması idi.

---

[1] Hədisi Musa ibn Uqbənin "Məğazi" əsərində rəvayət etdiyini İbn Kəsir "əl-Bidayə və ən-Nihayə" əsərində 5/250 qeyd etmişdir. Hakimin "Mustədrak" əsəri, 3/70, № 4422; Beyhəqi "Sunən əl-Kubra" əsəri, 8/152, № 17030. Hakim hədisi rəvayət etdikdən sonra demişdir: "Bu hədisi Buxari və Muslim rəvayət etməsə də onların şərtlərinə görə səhihdir." Zəhəbi onun bu fikri ilə razılaşmışdır. İbn Kəsir demişdir: "Hədisin isnadı yaxşıdır."

[2] Abdullah ibn Əhmədin "əs-Sunnə" əsəri, 2/568. İsnaddakı ravilər etibarlıdır.

[3] "əl-Bidayə və ən-Nihayə" əsəri, 5/250, Əlinin ﷺ altı ay sonra beyət etməsi Buxarinin Səhih əsərində yer almaqdadır, № 4240, 4241.

**2 – Əlinin ﷺ mürtədlərə qarşı döyüşlərdə Əbu Bəkrə ﷺ dəstək verməsi:**

Əli ﷺ Əbu Bəkr ﷺ üçün nəsihət xurcunu misalında idi. O hər zaman İslam və müsəlmanların xeyrinə məsləhətlər verərdi. O, hər zaman Əbu Bəkrə ﷺ qarşı səmimi olmuş, müsəlmanlara nəsihətlər etmiş, xilafətin qalmasına və müsəlmanların birliyinə həris olmuşdur. Buna da dəlil kimi Zul-qissa adlı yerdə mürtədlərə qarşı döyüşmək barədə Əbu Bəkrə ﷺ nəsihət etməsi idi. O, həmin döyüşlərdə ordulara şəxsən başçılıq edirdi. Belə ki, o mürtədlərin İslam üçün nə qədər təhlükəli olduğunu gözəl anlayırdı.[1]

Abdullah ibn Xəttab ﷺ demişdir: "Əbu Bəkr əs-Siddiq ﷺ mürtədlərlə vuruşmaq üçün Zil-qissaya gedərək miniyinə mindikdə Əli ibn Əbu Talib ﷺ onun miniyinin ovsarından tutub dedi: "Hara gedirsən ey Rəsulullahın ﷺ xəlifəsi?! Mən sənə Rəsulullahın ﷺ Uhud günü dediklərini deyəcəyəm, qılıncını qınına qoy və bizlərə öz faciəni yaşatma. Mədinəyə qayıt, vallahi ki, səni itirmiş olsaq İslamın nizamı aradan qalmış olar."[2]

Əgər Əli ﷺ – Allah qorusun – Əbu Bəkri ﷺ sevməsəydi və məcburən ona beyət etmiş olsaydı bu Əli ﷺ üçün gözəl bir fürsət idi ki, ondan istifadə etsin, Əbu Bəkri ﷺ başlı başına buraxsın ki, onun başına bir iş gəlsin, onun isə yolu açılsın.

Bundan əlavə əgər Əli ﷺ – Allah eləməsin – Əbu Bəkrdən ﷺ yaxa qurtarmaq istəsəydi siyasət adamlarının öz rəqiblərinə qarşı etdiyi kimi birinə sifariş edərək ona suiqəsd hazırlayardı.[3]

Əlinin ﷺ fikri isə mürtədlərə qarşı vuruşmaq idi. Əbu Bəkr ﷺ Əlidən ﷺ: "Ey Əbu Həsən bu barədə nə deyirsən?"- deyə so-

---

[1] ən-Nədəvinin "əl-Murtəda" əsəri, səh. 97.

[2] Hədisi Daraqutni "Ğaraib Malik" əsərində və Xiləi "Xiləiyyat" əsərində rəvayət etmişdir. Bunu əl-Muttəqi əl-Hindi "Kənz əl-Ummal" əsərində, 5/871 qeyd etmiş və demişdir: "Hədisin isnadında Əbu Ğaziyyə Muhəmməd ibn Yəhya əz-Zuhri vardır ki, o da tərk olunan ravidir."

[3] Nədəvinin "əl-Murtəda" əsəri, səh. 97.

ruşduqda Əli dedi: "Rәsulullahın götürdüyü bir şeyi biz onlardan götürmәsәk o zaman sәn Peyğәmbәrin sünnәti üzәrindә olmayacaqsan." Əbu Bәkr dedi: "Elә deyirsәnsә әvvәllәr verdiklәri bir kәndiri belә indi vermәsәlәr onlara qarşı vuruşacağam."[1]

**3 – Əlinin Əbu Bәkri *hәr kәsdәn* önә çәkmәsi:**

Əlinin Əbu Bәkri hәr kәsdәn üstün tutması vә onu önә çәkmәsi ilә bağlı rәvayәtlәr mütәvatirdir. Onlardan bәzilәri aşağıdakılardır:

1 – Muhәmmәd ibn Hәnәfiyyә demişdir: "Mәn atamdan soruşdum: "Rәsulullahdan sonra әn xeyirli insan kimidr?" O dedi: "Əbu Bәkr." Mәn soruşdum: "Sonra kimdir?" O dedi: "Ömәr." Mәn qorxdum ki, bundan sonra Osmanın adını çәkәcәk vә dedim: "Sonra isә sәnsәn elә deyilmi?" O dedi: "Mәn adi müsәlmanlardan biriyәm."[2]

2 – Əli demişdir: "Sizlәrә Peyğәmbәrdәn sonra bu ümmәtin әn xeyirlisi barәdә xәbәr verimmi? *Bu* ƏbuBәkr әs-Siddiqdir ." Sonra dedi: "Sizә Peyğәmbәrdәn vә Əbu Bәkrdәn sonra bu ümmәtin әn xeyirlisi barәdә xәbәr verimmi? Bu Ömәrdir ."[3]

3 – Əbu Vail Şәqiq ibn Sәlәmә demişdir: "Əli ibn Əbu Talibdәn soruşdular: "Bizә özündәn sonra bir xәlifә tәyin etmәyәcәksәnmi?" O dedi: "Rәsulullah özündәn sonra bir xәlifә tәin etmәdi, mәn necә tәyin edim? Allah insanlara xeyir dilәsә mәndәn sonra onları әn xeyirli insanın әtrafında toplayacaqdır. Necә ki, Peyğәmbәrdәn sonra onları әn xeyirli insanın әtrafında topladı."[4]

---

[1] "әr-Riyad әn-Nәdira" әsәri, sәh. 68.

[2] Buxari, "Sәhabәlәrin fәzilәti" kitabı, "Peyğәmbәrin : "Əgәr özümә dost seçmiş olsaydım..." demәsi" fәsli, № 3468.

[3] Əhmәdin "Musnәd" әsәri, 1/127, 110, 106. Əhmәd Şakir bu hәdisin bir çox rәvayәtlәrini sәhih hesab etmişdir. Şeyx Şueyb dә hәdisi hәsәn hesab etmişdir.

[4] "әl-Mustәdrak" әsәri, 3/84, № 4467. Hakim demişdir: "Bu hәdisin isnadı sәhihdir, lakin Buxari ilә Muslim onu rәvayәt etmәmişlәr. Zәhәbi dә onun bu fikri ilә razılaşmışdır. Beyhәqinin "әd-Dәlail" әsәri, 7/223; İbn Kәsir "әl-Bidayә vә әn-Nihayә" әsәrindә demişdir: İsnadı yaxşıdır, lakin onu rәvayәt etmәmişlәr, 5/251.

Bundan əlavə başqa rəvayətlər də vardır ki, Əli ilə Əbu Bəkr arasındakı gözəl münasibətə dəlildir. Onlardan bəziləri aşağıdakılardır:

a) Uqba ibn Haris demişdir: "Peyğəmbərin vəfatından bir neçə gün sonra mən Əbu Bəkr əs-Siddiqlə birlikdə əsr namazından sonra çıxdım. Əli də onun yanında gedirdi. *Bu vaxt* o gördü ki, Həsən ibn Əli yolda uşaqlarla oynayır. Əbu Bəkr Həsəni götürüb boynuna qaldırdı və dedi: "Atam sənə qurban, sən Əlidən çox Peyğəmbərə oxşayırsan." Əli də kənardan baxıb gülürdü."[1]

b) Rəvayət olunur ki, Əli demişdir: "Kim camaatdan bir qarış ayrılarsa, İslamın ipini boynundan çıxarmış olar."[2]

Heç Əli belə edə bilərdimi? O, ixtilaf və təfriqəyə qarşı idi və camaatla olmağa həris idi. əl-Qurtubi demişdir: "Kim Əbu Bəkrlə Əli arasında baş vermiş söhbətlər əsnasındakı üzrxahlıqları insafla nəzərdən keçirsə görəcək ki, onlar daim bir-birlərinin fəzilətlərini etiraf etmişlər. Onların qəlbləri ehtiram və sevgi ilə dolu idi. Hərdən insanın beyninə müxtəlif fikrilər gəldikdə isə din insanı doğru yola yönəldir. Müvəffəq edən Allahdır."[3]

c) Şeyxulislam İbn Teymiyyə demişdir: "Əli ibn Əbu Talibin belə dediyi mütəvatir olaraq rəvayət olunmuşdur: "Peyğəmbərdən sonra bu ümmətin ən xeyirlisi Əbu Bəkr, sonra isə Ömərdir." Bu hədis Əlidən müxtəlif rəvayətlərlə nəql olunmuşdur. Hətta deyilənə görə hədis səksən yolla nəql olunmuşdur. Həmçinin o, demişdir: "Məni Əbu Bəkr və Ömərdən daha üstün tutan birini yanıma gətirsələr ona iftira yaxan kəsin cəzasını verərək şallaqlayaram."[4]

---

[1] İmam Əhmədin "Musnəd" əsəri, 1/8, № 40. Şeyx Şueyb Arnaut onun səhih olduğunu demişdir. Hədisi həmçinin Buxari rəvayət etmişdir, № 3542. Sadəcə həmin rəvayətdə "bir neçə gün" sözü yoxdur.

[2] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 6/170; Əbu Sadiq əl-Əzdinin mürsəlidir. O isə etibarlı ravidir, hədisin isnadındakı digər ravilər də etibarlıdırlar.

[3] "Fəth əl-Bari" əsəri, 7/495.

[4] "Minhəc əs-Sunnə" əsəri, 6/137.

Həmçinin demişdir: "Heç kim mənim xəlifəliyə Əbu Bəkrdən daha layiq olduğumu deməsin. Habelə filankəs Əbu Bəkrdən xəlifəliyə daha layiqdir deməsin. Bunu yalnız, özündə ərəb və ya fars cahilliyinin əlaməti qalmış bir kəs, "Peyğəmbərin əhli beyti xəlifəliyə daha layiqdir" iddiası ilə deyər. Çünki ərəblər cahiliyyət dövründə rəhbərlərinin qohumlarını başqalarından üstün tuturdular. Həmçinin farslar da öz padşahlarının qohumlarını başqalarından üstün tuturdular." Buna işarə edən bir sıra rəvayətlər nəql olunmuşdur.[1]

**4 – Əlidən ﷺ ümmətin Siddiqinə haqq şahidliyi:**

Kişilərin qədrini yalnız kişilər bilər deyərlər. Əli ilə Əbu Bəkr əs-Siddiqin ﷺ timsalında bu məsəl aydın olur. Aşağıdakı sətirlərdə bu daha aydın olur:

Əbu Yəhya ibn Həkim ibn Səd demişdir: "Mən Əlinin ﷺ and içərək belə dediyini eşitdim: "Allah Əbu Bəkrin Siddiq ləqəbini səmadan nazil etmişdir."[2]

Sılə ibn Zəfər əl-Absi demişdir: "Əlinin yanında Əbu Bəkrin adı çəkildikdə belə deyərdi: "Hər kəsi hər işdə qabaqlayanımı deyirsiniz? Hər kəsi hər işdə qabaqlayanımı deyirsiniz? Canım əlində olana and olsun ki, hansı xeyirli işi görmək istəyirdiksə Əbu Bəkr həmin işi bizdən qabaq etmiş olurdu."[3]

Muhəmməd ibn Əqil ibn Əbu Talib demişdir: "Əli bizə xütbə verərək dedi: "Ey insanlar, insanların ən şücaətlisi kimdir?" Biz dedik: "Sənsən ey möminlərin əmiri." O dedi: "Xeyr, Əbu Bəkr əs-Siddiqdir. Bədr günü biz Peyğəmbər ﷺ üçün *kölgələnməyə* çardaq qurduq və dedik: "Kim onun yanında dayanar ki, müşriklərin ona yaxınlaşmasına imkan verməsin?" Əbu Bəkrdən başqa heç kim qalxmadı. O, qılıncını siyirib başı üzərinə qaldırmışdı. Hər dəfə kimsə

---

[1] "Minhəc əs-Sunnə" əsəri, 6/456; Əbu Məxnəfin rəvayətləri, səh. 309.

[2] Təbəraninin "əl-Mucəm əl-Kəbir" əsəri, 1/55, № 14. Hafiz İbn Həcər "Fəth əl-Bari" əsərində, 7/9 demişdir: "Hədisin raviləri etibarlı ravilərdir."

[3] Təbəraninin "əl-Əvsat" əsəri, 7/164. İsnadı zəifdir.

Peyğəmbərə ﷺ yaxınlaşdıqda Əbu Bəkr qılıncı ilə onun üzərinə şığıyırdı. Bir dəfə qureyşlilər Kəbənin yanında Peyğəmbərin ﷺ *yaxasından* tutub onu silkələyərək belə deyirdilər: "Bizim ilahlarımızı bir ilah edən sənsən? Allaha and olsun ki, bu zaman Əbu Bəkrdən savayı heç kim Rəsulullaha ﷺ yaxınlaşmadı. O zaman Əbu Bəkrin iki hörüyü var idi. O, müşriklərdən kimisinə zərbə vuraraq, kimisini də kənara itələyərək onlara belə dedi: "Vay sizin halınıza, Rəbbim Allahdır dediyinə görə adamı öldürəcəksinizmi? O sizə Rəbbinizdən açıq-aydın dəlillər gətirmişdir..." Həmin vaxt Əbu Bəkrin hörüklərindən biri kəsilmişdi."

Əli رضي الله عنه tərəfdarlarına belə demişdi: "Sizi Allaha and verirəm, bir mənə deyin görüm kim daha fəzilətlidir, Firon ailəsindən olan mömin kişi, yoxsa Əbu Bəkr?" İnsanlar susdular. Əli رضي الله عنه dedi: "Valahi ki, Əbu Bəkrin bir günü Firon ailəsindən olan mömin kişidən daha əfzəldir. Həmin kişi imanını gizli saxlamış, Allah da onu tərifləmişdir.[1] Əbu Bəkr isə canını və qanını Allah üçün sərf etmişdi."[2]

**5 – Əlinin رضي الله عنه namazlarda Siddiqə رضي الله عنه tabe olması və onun verdiyi hədiyyələri qəbul etməsi:**

Həqiqətən Əli رضي الله عنه Əbu Bəkrin رضي الله عنه xilafətindən razı idi və ona işlərində yardım edirdi. Həmçinin ondan hədiyyələr qəbul edər, şikayətlərini ona edər, onun arxasında namaz qılar, onu sevər və ona nifrət edənlərə də nifrət edərdi.

Yaqubi özünün "Tarix" əsərində Əbu Bəkr əs-Siddiqin رضي الله عنه xilafətindən bəhs edərək demişdir: "Əbu Bəkr رضي الله عنه rumlulara qarşı vuruşmaq istədikdə bu barədə Rəsulullahın ﷺ bir neçə səhabəsi ilə məsləhətləşir və onlar da müxtəlif fikirlər səsləndirirlər. Sonra o, Əli

---

[1] "Ğafir" surəsinin 28-ci ayəsinə bax.

[2] Hədisi Bəzzar "Musnəd" əsərində, 1/145, № 761; Əbu Nueym "Fədail əl-Xuləfə ər-Raşidin" əsərində, № 237 rəvayət etmişdir. Heysəmi "Məcmə əz-Zəvaid" əsərində 8/344 demişdir: "Hədisi Bəzzar rəvayət etmişdir, isnadında tanımadığım bir ravi var.

ibn Əbu Taliblə məsləhətləşir, o da ona dəstək verərək deyir: "Döyüşsən qalib gələcəksən." Əbu Bəkr deyir: "Məni xeyirlə müjdələdin." Sonra o, insanlara xütbə verərək onları rumlularla döyüşə hazırlaşmağı əmr edir."[1] Başqa bir rəvayətdə isə deyir: "Allah səni xeyirlə müjdələsin, bunu haradan bilirsən?" O dedi: "Mən Peyğəmbərin belə dediyini eşitmişəm: "Bu din hər tərəfə yayılanadək hər zaman üstün olmaqda davam edəcək. Beləcə bu din və ona mənsub olanlar üstün olacaqlar." O dedi: "Subhanallah, bu nə gözəl hədisdir, sən məni onunla sevindirdin, Allah da səni sevindirsin."[2]

Həmçinin Yaqubi demişdir: "Əbu Bəkrin zamanında Əli ibn Əbu Talib, Ömər ibn əl-Xəttab, Muaz ibn Cəbəl, Ubey ibn Kəb, Zeyd ibn Sabit və Abdullah ibn Məsud kimi şəxslərdən din öyrənilirdi."[3]

Bu da onların bir-biri ilə necə gözəl münasibətdə olmalarına dəlildir. Onlar məşvərət etdikdə və hökm verdikdə Əlinin fikrini hər zaman üstün tutardılar. Xalid ibn Vəlid Əbu Bəkrə məktub yazaraq demişdi: "Mən ərəb torpaqlarının ətrafında bir nəfərlə rastlaşmışam, insanlar qadınlara yaxınlaşdığı kimi, onunla da yaxınlıq edirlər." Bu vaxt Əbu Bəkr Rəulullahın səhabələrini, o cümlədən Əlini yanına topladı. Əli dedi: "Bu elə bir günahdır ki, bunu yalnız bir ümmət[4] etmişdi, Allah da onların başına bildiyiniz bəlanı vermişdi. Məncə onu odda yandırmaq lazımdır. Beləliklə Rəsulullahın səhabələri həmin adamın yandırılmasına razılıq verdilər. Əbu Bəkr də əmr etdi ki, onu odda yandırsınlar."[5]

---

[1] Yaqubinin "Tarix" əsəri, 2/132-133.

[2] "Tarixi Diməşq" əsəri, 2/64.

[3] Yaqubinin "Tarix" əsəri, 2/138.

[4] Burada Lut peyğəmbərin qövmü nəzərdə tutulur.

[5] Hədisi Beyhəqi "Sunən əl-Kubra" əsərində, 8/232 və "əş-Şuəb əl-İman" əsərində, 4/357; Acurri "Zəmm əl-Livat" əsərində, 41; İbn əl-Cövzi "Zəmm əl-Həva" əsərində, 203; Xaraiti "əl-Məsavi" əsərində, 1/455 rəvayət etmişlər. Beyhəqi demişdir: "Bu hədis mürsəldir." İbn Həcər "əd-Dirayə" əsərində 2/103 demişdir: "Bu çox zəif hədisdir."

Əli رضي الله عنه də hər zaman Əbu Bəkrin رضي الله عنه əmrlərinə tabe olardı. Kafirlərlərdən olan bir nümayəndə heyəti Mədinəyə gəldikdə müsəlmanların necə zəif və saylarının az olduqlarını görmüşdü. Həmin vaxt müsəlmanlar müxtəlif istiqamətlərdə mürtədlərə qarşı cihada getmişdilər. Bu vaxt Əbu Bəkr onlardan İslam paytaxtına və müsəlmanlara təhlükənin gələ biləcəyini hiss etmişdi. Ona görə də, o əmr etdi ki, müsəlmanlar Mədinənin ətrafında keşik çəksinlər. Keşikçilər də orduların olduğu yeri nəzarətə götürdülər. Əbu bəkr Əliyə, Zubeyrə, Talhəyə və Abdullah ibn Məsuda əmr etdi ki, həmin keşikçilərə rəhbərlik etsinlər. Onlar da təhlükə sovuşanadək belə etdilər.[1]

Onların arasındakı sevgi, ülfət və mehribanlığın mövcud olmasına görə əhli beytin rəhbəri və Peyğəmbərin ﷺ nəvələrinin atası olan Əli رضي الله عنه hədiyyələr də qəbul edirdi ki, aralarındakı qardaşlıq əlaqələri daha da möhkəm olsun. Həmçinin o, Aynut-təmr döyüşündən sonra əsir götürülmüş kənizi də hədiyyə kimi qəbul etmişdi. Həmin kənizdən onun Ömər və Ruqayyə[2] adlı övladları olmuşdu. Həmçinin Əbu Bəkr رضي الله عنه ona Yəmamə döyüşündə əsir götürülmüş Xəulə bint Cəfər ibn Qeysi də ona vermişdi. Həmin qadın da ona Həsənlə Hüseyndən sonra ən əfzəl övladı Muhəmməd ibn Hənəfiyyəni dünyaya gətirir. Xaulə riddə əhlindən əsir götürülmüşdü, ona görə də oğlu ona nisbət olunmuş və Muhəmməd ibn Hənəfiyyə kimi məşhurlaşmışdı.[3]

Həmçinin onun və övladlarının Əbu Bəkrdən رضي الله عنه müxtəlif hədiyyələr, xüms və qənimət payları qəbul etmələri barədə müxtəlif rəvayətlər mövcuddur. Əbu Bəkrin رضي الله عنه vaxtında xüms və qənimətləri bölən şəxs məhz Əli ibn Əbu Talib رضي الله عنه idi. Həmin malların hamısı Əlinin رضي الله عنه əlində idi. Sonra Həsənin رضي الله عنه, ondan sonra isə Hüseynin رضي الله عنه əlində olmuşdu. Daha sonra Həsən ibn Həsənin, sonra da Zeyd ibn Həsənin əlində olmuşdu. Əli رضي الله عنه beş vaxt namazla-

[1] Təbərinin "Tarix" əsəri, 4/64.

[2] "ət-Təbəqat" əsəri, 3/20, "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/331-333.

[3] "ət-Təbəqat" əsəri, 3/20.

rını məsciddə Əbu Bəkr əs-Siddiqin ﷺ arxasında, onun imamlığından razı qalaraq, onunla müttəfiq şəkildə qılırdı.

Həmçinin Əli ﷺ Əbu Bəkrdən ﷺ Rəsulullahın ﷺ bəzi hədislərini də rəvayət etmişdir. Əsma bint Həkəm əl-Fəzari demişdir: "Mən Əlinin ﷺ belə dediyini eşitmişəm: "Mən elə bir insanam ki, Rəsulullahdan ﷺ bir hədis eşitdikdə Allah mənə onun vasitəsi ilə xeyli faydalar bəxş edirdi. Səhabələrdən biri hədis danışdıqda isə mən ona and içdirərdim. And içdikdə ona inanardım. Bir dəfə - sadiq olan - Əbu Bəkr mənə danışdı ki, o Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: "Kim bir günah iş gördükdən sonra gözəl bir şəkildə dəstəmaz alıb, sonra iki rükət namaz qılıb Allahdan bağışlanma diləyərsə, Allah onun günahını bağışlayar."[1]

Rəsulullah ﷺ vəfat etdikdə səhabələr dedilər: "Gəlin onu Bəqi qəbiristanlığında[2] dəfn edək." Başqaları isə dedilər: "Cənazələrin qoyulduğu yerdə dəfn edək." Digərləri isə dedilər: "Onu səhabələrinin yanında dəfn edək." Əbu Bəkr ﷺ dedi: "Kənara çəkilin! Peyğəmbərin ﷺ yanında istər o diri olduğu halda olsun, istər də ölü ikən uca səslə danışmaq olmaz." Əli ﷺ dedi: "Bu işi Əbu Bəkrə həvalə edirik, qoyun o desin." Əbu Bəkr ﷺ dedi: "Rəsulullah ﷺ mənə demişdir ki, peyğəmbərlər vəfat etdikləri yerdə dəfn olunurlar."[3]

Bundan əlavə Əli ﷺ Əbu Bəkrin ﷺ Qurani Kərimin toplanmasında olan əvəzsiz rolunu qeyd etmişdir. Abdu Xeyr demişdir: "Mən Əlinin ﷺ belə dediyini eşitmişəm: "Quranın toplanması məsələsində ən böyük əcr sahibi Əbu Bəkr əs-Siddiqdir. İlk dəfə Quranı bir yerə toplayan o olmuşdur."[4]

---

[1] Əhmədin "Musnəd" əsəri, 56; Əbu Davud, № 1521. Şeyx Albani hədisi səhih hesab etmişdir.

[2] Mədinə şəhərində yerləşən məzarlıq.

[3] Hədisi İbn Səd "Təbəqat" əsərində, 2/292, müxtəlif rəvayətlərlə; İbn Macə, 1/520; Tirmizi, 3/338, № 1018 və başqaları rəvayət etmişdir. Şeyx Albani hədisi səhih hesab etmişdir.

[4] İbn Əbu Davudun "əl-Məsahif" əsəri, 1/48-50; İmam Əhmədin "Fədail əs-Səhabə" əsəri, 1/354; İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 6/148. Hafiz İbn Kəsir "Fədail əl-Quran" əsərində səh. 57-də demişdir: "Bu səhih isnaddır."

**6 – Siddiqlə Əli ibn Əbu Talib arasındakı qohumluq əlaqələri və Əlinin bəzi övladlarına Əbu Bəkr adı verməsi:**

Əli Əbu Bəkri o qədər sevirdi ki, övladlarından birinə Əbu Bəkr əs-Siddiqin adını vermişdi. Bu amil onların arasındakı qardaşlıq, sevgi və ehtiramın olmasının təzahürüdür. Onu da qeyd etmək lazımdır ki, Əlinin həmin oğlu məhz Əbu Bəkrin xəlifəliyi dövrünə və ya vəfatından sonrakı dövrə təsadüf etmişdir.[1] Əli öz oğluna yalnız Əbu Bəkrə olan ehtiramından, sevgisindən və vəfasından dolayı bu adı vermişdi. Haşimilərdə Əlidən qabaq övladına Əbu Bəkr adını verən olmamışdı.

Sonra Əli Əbu Bəkrə olan bu sevgisi və sədaqəti ilə kifayətlənməyərək Əbu Bəkrdən sonra onun yolunu davam etdirmişdir. Hətta Həsənlə Hüseyn də övladlarına Əbu Bəkr adı vermişdi. Bunu Yaqubi və Məsudi[2] qeyd etmişlər. Bu minvalla Əhli beyt mənsubları da sonradan övladlarına Əbu Bəkr adını verirdilər. Əli ibn Əbu Talibin qardaşı oğlu Abdullah ibn Cəfər ət-Təyyar ibn Əbu Talib də oğlanlarının birinə Əbu Bəkr adı vermişdi.

Bu da onlar arasındakı sevgi və mehribanlığın əlamətlərindən biridir.[3] Onlar sanki bir ailənin üzvləri idilər. Uca Allah onlar barədə buyurur: **"... öz aralarında mərhəmətidirlər."[4]** Həm gizlində, həm də aşkarda, çətinlikdə və rahatlıqda bir-birilərinə dəstək verirdilər. Deyilənlərin doğruluğuna haşimi ailəsinin böyük üzvlərindən biri olan Muhəmməd Baqir ləqəbi ilə tanınmış Muhəmməd ibn Əli ibn Hüseyn işıq salmışdır. Bir çoxları onun belə dediyini rəvayət etmiş-

---

[1] Çünki Əlinin Əbu Bəkr adlı həmin oğlu zövcəsi Leyla bint Məsuddandır. Onunla isə Əli Əbu Bəkrin xilafəti dövründə, daha dəqiq desək Əbu Bəkrin xilafətinin başlanmasından altı ay sonra evlənmişdir. Belə ki, Fatimə Əbu Bəkrin xilafəti başladıqdan altı ay sonra vəfat etmişdi. Hamıya məlumdur ki, Fatimənin vaxtında Əli ikinci bir qadınla evlənməmişdi.

[2] Yaqubinin "Tarix" əsəri, 2/228; Məsudinin "ət-Tənbih və əl-İşraf" əsəri, səh. 82.

[3] "əd-Durr əl-Mənsur min Turas Əhli əl-Beyt və əs-Səhabə", Seyyid Əlaəddin əl-Mudərris, səh. 38-44; Saleh ibn Abdullah əd-Dərviş "Ruhaməu Bəynəhum" əsəri.

[4] "əl-Fəth", surəsi 29.

dir: "Bir dəfə Əbu Bəkrin beli ağrıyırdı. Bu vaxt Əli odda bir şey qızdırıb onun belinə sürtürdü.[1] Uca Allah buyurur: **"Muhəmməd Allahın elçisidir, onunla birlikdə olanlar isə kafirlərə qarşı şiddətli, öz aralarında isə mərhəmətlidirlər."[2]**

Sadiq ləqəbli Cəfər ibn Muhəmməd ibn Əli ibn Hüseyn deyərdi: "Əbu Bəkr məni iki dəfə[3] dünyaya gətirmişdir." Onun anası Ummu Fərva bint Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiqdir. Qasim ibn Muhəmməd ibn Əbu Bəkr Mədinənin yeddi fəqih alimindən biri idi. O, möminlərin anası Aişənin رضي الله عنها yanında dərs almışdı. Ummu Fərvanın anası isə Əsma bint Abdurrəhmən ibn Əbu Bəkr əs-Siddiqdir. Allah onların hamısından razı olsun.

Cəfər və atası kiminsə Əbu Bəkr رضي الله عنه haqqında nalayiq söz danışdığını eşitdikdə qəzəblənərdilər. Urva ibn Abdullah demişdir: "Mən Əbu Cəfər Muhəmməd ibn Əlidən qılıncı bəzəmək barədə sual verdikdə o dedi: "Qılıncı bəzəmək olar. Əbu Bəkr əs-Siddiq də öz qılıncını bəzəyərdi." Urva dedi: "Sən ona Siddiq deyirsən?" O hirslənərək üzünü qibləyə çevirdi sonra da dedi: "Bəli Siddiqdir, bəli Siddiqdir, bəli Siddiqdir. Kim ona Siddiq demirsə Allahın onun nə bu dünyada, nə də axirətdə heç bir sözünü təsdiqləməsin."[4]

### 7 – Əli رضي الله عنه Siddiqin رضي الله عنه vəfatında:

Əbu Bəkr رضي الله عنه özündən sonra xəlifənin kim olması barədə bir neçə nəfərlə məsləhətləşmişdi. Həmin şəxslərdən biri də Əli رضي الله عنه idi. Əlinin رضي الله عنه məsləhəti isə Ömər əl-Faruq رضي الله عنه olmuşdu.[5]

---

[1] İmam Əhmədin "Fədail əs-Sahəbə" əsəri, 1/145; əl-Vahidinin "Əsbab ən-Nuzul" əsəri, səh. 282; İbn Əbu Hatimin "Təfsir" əsəri, 9/64; İbn Əsakirin "Tarix" əsəri, 30/338. Hədisin isnadında zəiflik vardır.

[2] "əl-Fəth" surəsi, 29.

[3] "Siyar Əlam ən-Nubəla" əsəri, 6/254; İbn Taqtaqinin "əl-Useyli" əsəri, səh. 149; İbn Ənbənin "Umdətu ət-Talib fi Nəsəbi Ali Əbi Talib" əsəri, səh. 345.

[4] İmam Əhməd "Fədail əs-Sahəbə" əsəri, № 655; əl-İsbahani "əl-Hilyə" əsəri, 3/184; Diya əl-Məqdisi "ən-Nəhyu an Səbb əl-Əshab" əsəri, səh. 13.

[5] İbn Əsirin "əl-Kamil" əsəri, 2/79; Zəməxşərinin "əl-Muxtəsər min Kitəbi əl-Muvafaqa" əsəri, səh. 70-100.

Əbu Bəkr ölüm ayağında olarkən onun danışdığı son sözlər Uca Allahın bu ayəsi idi: **"Məni müsəlman kimi öldür və məni əməlisaleh kəslərə qovuşdur."**[1] Mədinə əhalisi Əbu Bəkrin ölüm xəbərindən lərzəyə gəldi. Peyğəmbərin vəfatı günündən bəri Mədinədə o qədər ağlayan adam olmamışdı. Əli də bu xəbəri eşidər-eşitməz ağlayaraq: "innə lilləhi və innə ileyhi raciun"- dedi. O, Əbu Bəkrin olduğu evə gəlib dedi:

"Allah Əbu Bəkrə rəhmət eləsin, sən Rəsulullahın yolu ilə getdin, onun həmsöhbəti, sirr sahibi və məşvərətçisi oldun. İslamı ilk qəbul edən, ən yəqinliklə səmimi olan, Allahdan ən çox qorxan, İzzət və Cəlal Sahibinin dininə ən möhkəm sarılan, Rəsulullah üçün ən çox ehtiyat edən, İslamın ən çox qeyrətini çəkən, ən gözəl dost olan, ən çox fəziləti olan, ən çox yaxşı işləri və yüksək dərəcələri olan, ən yaxın vasitəçi, Rəsulullaha ən çox hidayət və yol baxımından bənzəyən, ən şərəfli mənzilə layiq olan, ən yüksəkdə olan, ən səxavətli olan sən idin. Rəsulullaha və İslama olan münasibətinə görə Allah səndən razı olsun.

İnsanlar Rəsulullahı yalançı hesab etdikləri zaman sən onu təsdiqlədin, sən onun üçün göz və qulaq kimi önəmli idin. Uca Allah səni öz kitabında Siddiq adlandırmışdır: **"Haqqı gətirən və onu təsdiq edənlər isə əsl müttəqilərdir."** [2] İnsanlar paxıllıq etdikdə sən səxavət göstərdin, insanlar oturduqları çətin vaxtlarda sən onunla birlikdə qalxdın, ən çətin vaxtlarda ona dust oldun, mağarada iki nəfərdən biri oldun, onu sakitləşdirdin, onun hicrət yoldaşı oldun, insanlar mürtəd olduqda sən gözəl şəkildə onun yolunu davam etdirdin, elə işlər gördün ki, heç bir peyğəmbərin xəlifəsi o işi görməyib, səhabələr oturduqda sən ayağa qalxdın, onlar sakit olduqda sən mübarizə apardın, onlar zəif olduqda sən güclü oldun, onlar zəiflik göstərdikdə sən Peyğəmbərin yolunu davam etdirdin,

---

[1] "Yusuf" surəsi, 101.

[2] "əz-Zumər" surəsi, 33.

Rəsulullahın ﷺ dediyi kimi sən bədəni arıq, Allah yanında isə güclü oldun, təvazökar lakin Allah yanında böyük oldun, insanların gözündə də möhtərəm bir şəxsiyyət oldun, heç kim sənin barəndə artıq-əksik dnışa bilməz, heç kimin haqqına girmədin, zəif olan sənin yanında güc tapdı və onun haqqını özünə verdin, yaxınla uzaq sənin yanında eyni idi, sənə ən yaxın olan adamlar Allaha daha çox itaət edib Ondan qorxanlar idi, sən yalnız haqqı söyləyər, doğru danışar və mülayim olardın, sözün hikmətli və dəqiq idi, olduqca böyük fəhmə sahib idin, elmin olduqca böyük idi, sənin vasitənlə dində adillik oldu, imanlar da sayəndə artdı, Allahın əmri zahir oldu, vallahi ki, hər kəsi qabaqladın, səndən sonra gələnləri yordun, xeyir üzərində qələbə çaldın. Biz Allah üçün yaşayırıq, dönüşümüz də Onadır, Allahın qəza və qədəri ilə razıyıq, Ona təslim oluruq, vallahi ki, müsəlmanlar Rəsulullahdan ﷺ sonra sənin kimi təsirlənməyəcəklər, sən dini izzətləndirdin, Allah səni öz Peyğəmbəri Muhəmmədə ﷺ qovuşdurdu, Allah sənin əcrindən bizləri məhrum etməsin, bizləri səndən sonra azdırmasın." Əli ﷺ sözlərini bitirənədək insanlar sakit durdu. Sonra onlar uca səslə ağladılar və dedilər: "Doğrudur."[1]

Digər rəvayətdə də deyilir ki, Əbu Bəkrin ﷺ üzü örtüldükdən sonra Əli ﷺ onun yanına daxil olduqda dedi: "Bu bürünmüşdən savayı kiminsə səhifəsi ilə Allahın hüzuruna çıxmaq istəmərəm."[2]

**İkinci: Ömər ibn əl-Xəttab (əl-Faruq) ﷺ dönəmində:**

Ömərin ﷺ rəhbərlik etdiyi dövlətdə Əli ﷺ Şura Məclisinin fəal üzvü idi. Hətta o, baş müşavir idi. Ömər Əlinin ﷺ hikmətinə, fiqhinə və fəzilətinə bələd idi, onun barədə də gözəl rəydə idi. O, Əli ﷺ haqqında demişdir: "Aramızda ən yaxşı hökm verən Əlidir."[3]

---

[1] İbn əl-Cəuzinin "ət-Təbsira" əsəri, 1/477-479.

[2] İbn Əsakirin "Tarixi Diməşq" əsəri, 30/442.

[3] Buxari, "Təfsir" kitabı, "əl-Bəqərə surəsinin: "Biz hər hansı bir ayəni nəsx etdikdə..." – ayəsinin təfsiri" fəsli, İbn Abbasın ﷺ rəvayəti, № 4481.

Məsruq demişdir: "Mən Rəsulullahın səhabələrini nəzərdən keçirdim və gördüm ki, onlardan ən elmliləri altıdır: Ömər, Əli, Abdullah, Muaz, Əbu Dərda, Zeyd ibn Sabit. Onlara da nəzər saldım və gördüm ki, onların ən elmlisi Əli və Abdullahdır."[1]

Həmçinin demişdir: "Elm üç yerdədir: biri Mədinədə, biri Şamda, biri də İraqda. Mədinənin alimi Əli ibn Əbu Talibdir, Kufənin alimi Abdullah ibn Məsuddur, Şamın alimi isə Əbu Dərdadır. Onlar görüşdükdə Şamın alimi ilə İraqın alimi Mədinənin alimindən soruşar, o isə onlardan soruşmazdı.[2] Əli də *Ömərə* yaxın şəxslərdən biri idi, o qardaşına dəstək olar, öz rəyini bildirməkdə paxıllıq etməzdi. O Ömərlə birlikdə gənc dövlətin nizama salınması ilə bağlı dəlil olmayan məsələlərdə birlikdə ictihad edərdi. Müxtəsər şəkildə Ömərlə Əli arasında nə dərəcədə gözəl qarşılıqlı münasibətin, hörmətin, yaxşılıq və təqva üzərində əməkdaşlığın, xilafət işlərinin asanlaşdırılmasının olmasına işarə edəcəyik. Həmin dəlillərin cüzi hissəsini qeyd edəcəyik.

Əbu Bəkr əl-Əbsi demişdir: "Bir dəfə mən Ömər ibn Xəttab və Əli ibn Əbu Taliblə birlikdə sədəqələrin saxlandığı tövləyə daxil oldum. Osman kölgədə oturub yazırdı. Əli də Osmanın başı üzərində durub Ömərin dediklərini ona imla edirdi. Ömər həmin vaxt şiddətli isti bir gündə günün altında dayanmışdı, əynində də iki qara bürüncəyi var idi, onlardan birinə bürünmüş, digərini isə başına bürümüşdü. O, dayanıb sədəqə olunmuş dəvələri, onların rənglərini və dişlərini sayırdı. Əli Osmana Allahın kitabındakı bu ayəni oxudu: "Qızlardan biri dedi: "Atacan! Onu muzdla işə götür, çünki o, muzdla işə götürdüklərinin ən yaxşısı,

---

[1] İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 2/351; Təbəraninin "əl-Kəbir" əsəri, 9/94; Əbu Zuranın "Tarix" əsəri, 96; İbn Əbu Xeysəmənin "Tarix" əsəri, 4/396; Heysəmi "əl-Məcma" əsərində, 9/83 demişdir: "Hədisi Təbərani rəvayət etmişdir. Hədisin Qasim ibn Məindən başqa bütün raviləri Səhih əsərlərinin etibarlı raviləridir. Qasim ibn Məinə gəldikdə onun özü də etibarlı ravidir."

[2] əl-Fəsəvinin əl-Mərifətu vat-tarix əsəri, 1/444.

güclü və etibarlı olanıdır."[1] Sonra Əli Ömərə işarə edib dedi: "Güclü və etibarlı olan şəxs budur."[2]

Əli ﷺ möminlərin əmiri Ömər ibn əl-Xəttab ﷺ üçün etibarlı nəsihət edən, çətin vəziyyətlərdə hökm verən, prolemləri həll edən və şübhələri aradan qaldıran birisi idi.

Buna dəlillər olduqca çoxdur. Onlardan bəziləri aşağıdakılardır:

**a) Hökm məsələlərində:**

Əli ibn Əbu Talib ﷺ hökm məsələlərində olduqca bacarıqlı idi. Buna misallar çoxdur. Bizim mədsədimiz bu misalların hamısını burada zikr etmək deyil, biz sadəcə onlardan bəzilərini qeyd edəcəyik ki, oxucu onun hökm məsələsində necə dərrakəli olduğunu anlaya bilsin.

Əbu Zabyən əl-Cənəbi demişdir: "Bir dəfə Ömər ibn əl-Xəttabın ﷺ yanına zina etmiş bir qadın gətirdilər və Ömər də onun daşqalaq olunmasına əmr verdi. Onu daşqalaq etməyə apardıqda yolda Əli ﷺ ilə rastlaşdılar. Əli ﷺ soru.du: "Bu nədir belə?" Onlar dedilər: "Bu qadın zina edib və Ömər də onun daşqalaq olunmasına əmr verib." Əli qadını onların əlindən aldı, onlar da Ömərin yanına qayıtdı. Ömər ﷺ dedi: "Nə üçün qayıtdınız?" Onlar dedilər: "Bizi Əli qaytardı." Ömər ﷺ dedi: "Yəqin ki, Əli nə isə bilir ki, belə edib." O, Əlinin yanına adam göndərdi. Əli də gəldi, amma bir az acıqlı halda idi. Ömər ﷺ dedi: "Bunları niyə qaytarmısan?" Əli dedi: "Məgər Peyğəmbərin ﷺ belə dediyini eşitməmisən? "Üç nəfərdən qələb dayandırılıb: yatan şəxsdən oyanana qədər, azyaşlı uşaqdan böyüyənə qədər, ağlını itirmiş adamdan ağılı qayıdana qədər." O: "Bəli" – deyə cavab verdi. Əli ﷺ dedi: "Bu filan qəbilədən başına bəla gəlmiş qadındır, yəqin ki, ağlını qaçırmış halda belə bir iş tutub." Ömər ﷺ dedi: "Bilmirəm." Əli ﷺ dedi: "Mən də bilmirəm." Bundan sonra Ömər onu daşqalaq etdirmədi."[3]

---

[1] "əl-Qəsəs" surəsi, 26.

[2] Təbərinin "Tarix" əsəri, 2/565.

[3] Əhmədin "Musnəd" əsəri, № 1327. Şeyx Şüeyb demişdir: "Səhih liğeyrihidir."

Ömər onun dəli olduğunu bilməmişdi.

**b) Maliyyə işlərində:**

Əli ibn Əbu Talib maliyyə məsələlərində də zəkalı birisi idi. Möminlərin əmiri Ömər ibn Xəttab da ona etimad göstərərdi. Aşağıdakı məsələlərdə bu açıq görsənir:

**1 – Ömər xəlifənin xərcləri məsələsində Əlinin məsləhətini götürür:**

Ömər ibn Xəttab Əbu Bəkrdən sonra xilafətə rəhbərlik etdikdə bir müddət beytul-maldan ümumiyyətlə heç bir şey qəbul etmədi. Nəhayət o kasıb bir vaziyyətə düşdü. Çünki Ömər dövlət işləri ilə məşğul olduğu üçün şəxsi ticarəti ilə ciddi məşğul ola bilmirdi və bu səbəbdən də onun bu ticarətindən götürdüyü qazancı ona yetmirdi. O, səhabələrin yanına adam göndərib onlarla məsləhətləşərək dedi: "Mənim başım bu işlərə çox qarışıb. Mən özüm üçün *beytul-maldan* bir şey götürə bilərəmmi?" Osman ibn Əffan dedi: "*Beytul-maldan* həm özün ye, həm də başqalarını yedirt."

Səid ibn Zeyd ibn Amr ibn Nufeyl rəvayət edir ki, "Ömər Əliyə dedi: "Sən nə deyə bilərsən bu barədə?" Əli dedi: "Günorta və axşam yeməkləri *üçün bir şey götür*." Ömər də bu rəyi götürdü."[1]

Ömər beytul-maldan olan payını müəyyən edərək dedi: "Mən öz payımı yetimə verilən pay miqdarınadək azaltdım, imkanım olduqda onu da götürməyəcəm, ehtiyac duyduqda isə ondan yalnız ehtiyacımı ödəyəcək qədər götürəcəm."[2]

**2 – Əlinin İraqdakı münbit torpaq barədə rəyi:**

İraqdakı münbit torpaqlar güclə fəth olunduqdan sonra bir sıra səhabələr həmin torpağın oranı fəth edənlər arasında bərabər

---

[1] İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 3/307; əl-Bəlazrinin "Ənsəb əl-Əşraf" əsəri, 3/411.

[2] İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 3/276; İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 6/460; Beyhəqinin "əl-Mərifə" əsəri, 11/115. Hafiz İbn Həcər "Fəth əl-Bari" əsərində, 13/151, bu hədisin isnadının "səhih" olduğunu söyləmişdir.

bölünməsini Ömərə ﷺ məsləhət gördülər. Lakin həmin ərazinin olduca böyük və münbit olduğu üçün, habelə Ömərin ﷺ o ərazi barədə gələcək düşüncələri olduğu üçün oranın bölüşdürülməsi rəyi onu razı salmadı. Sonra o, Əli ilə məsləhətləşdi və onun rəyi xəlifənin rəyinə uyğun oldu. Əli ﷺ dedi: "Torpaqları bölüşdürmə." Ömər də onun rəyini götürdü və dedi: "Əgər müsəlmanlar bir kəndi azad etmiş olsa oranı öz əhli arasında bölərəm, necə ki, Peyğəmbər ﷺ Xeybəri bölüşdürmüşdü."[1]

**c) İdarəçilik işlərində:**

1 – Ömər ﷺ dövlətin idarəetmə məsələlərini tənzimləmək üçün sabit və rəsmi bir tarixə ehtiyac duyduqda insanları bir yerə toplayıb onlardan soruşdu: "Tarixi hansı gündən hesablayaq?" Əli ﷺ dedi: "Rəsulullahın ﷺ şirk diyarını tərk edərək hicrət etdiyi vaxtdan." Ömər ﷺ belə də etdi.[2]

2 – Ömərin ﷺ Əlini ﷺ xəlifə təyin etməsi:

Ömər ﷺ Əliyə ﷺ insanları idarə edə bilən ən fəzilətli insan kimi baxırdı. Rəvayət olunur ki, bir dəfə o, ənsardan olan bir nəfərlə söhbət edərkən ondan soruşdu: "Nə deyirsiniz, məndən sonra xəlifə kim ola bilər?" Ənsarlar mühacirlərin adını sadaladılar, lakin Əlinin adını çəkmədilər. Ömər ﷺ dedi: "Bəs Əlini niyə qeyd etmirsiniz? Vallahi ki, onu seçsəniz haqqı istəməsəniz belə o sizi haqqa yönəldər. "[3] Ömər ﷺ yaralandıqdan sonra oğlu Abdullah ibn

---

[1] Ömərdən nəql olunmuş bu əsəri Buxari "Səhih" əsərində, "Əkinçilik" kitabı, "Peyğəmbərin ﷺ vəqfləri" fəslində, № 2334, rəvayət etmişdir.

[2] Buxarinin "Tarix əl-Kəbir" əsəri, 1/9; İbn Şəbəhin "Tarix əl-Mədinə" əsəri, 2/2; Hakimin "əl-Mustədrək" əsəri, 3/15, № 4287. Hakim demişdir: "Bu hədisin isnadı səhihdir, lakin Buxari ilə Muslim onu rəvayət etməmişlər." Zəhəbi də onun bu fikri ilə razılaşmışdır.

[3] Bu əsəri" əl-Mətalib əl-Aliyə" əsərində, 2/271, qeyd olunduğu kimi İshaq ibn Rahuyadan nəql olunmuşdur. Busiri "İthaf əl-Xiyara" əsərində, 5/4, demişdir: "Bu hədisin isnadındakı raviləri etibarlıdır, lakin o "mundəti" isnadla rəvayət olunmuşdur. Belə ki Əbu Micləz Öməri görməmişdir."

Ömərə ﷺ demişdir: "Əgər Əlini seçsələr Əli onları onları doğru yola yönəldər."[1] Məhz bu səbəbdən də Ömər əlini dəfələrlə Mədinəyə rəhbər qoyub getmişdi:

a) Ömər ﷺ Sirar [2] adlı su quyusu olan yerə getdikdə Əlini ﷺ Mədinədə öz yerinə rəhbər qoyub getmişdi. Bu hadisə Qadisiyyə döyüşündən öncə baş vermişdi. Həmin vaxt rumlular müsəlmanların üzərinə qoşunla gəlməkdə idi. Ömər müsəlmanları bir yerə toplayıb məsləhətləşməyə başladı, onlar da səfərə çıxmağı məsləhət gördülər.[3]

b) Ömər ﷺ Cabiyəyə getdikdə Əli ﷺ onun vəzifəsini icra edirdi. O vaxt Amr ibn As ﷺ Əcnadini fəth etmişdi. Odur ki, Rum rəhbəri ona belə yazımışdı: "Vallahi ki, Fələstində Əcnadindən savayı heç bir yeri fəth etməyəcəksən, qürurlanma və geri qayıt. Fəthin əsl sahibinin adı üçhərflidir." Amr həmin şəxsin Ömər ﷺ olduğunu bildi. O Ömərə yazıb bildirdi ki, fəthi yalnız o gerçəkləşdirə bilər. İnsanlar da onu çağırdılar və Ömər Əli ibn Əbu Talibi ﷺ öz yerinə qoydu.[4]

c) Ömər ﷺ Peyğəmbərin ﷺ xanımları ilə birlikdə həcc ziyarətinə getdikdə Əlini ﷺ öz yerinə təyin etmişdi. Bu, Ömərin ﷺ son həcci idi və hicrətin iyirmi üçüncü ilində baş vermişdi. Möminlərin analarının yanında onların məhrəmləri də var idi. O vaxt Əli ibn Əbu Talib ﷺ Mədinədə qaldı.[5]

d) Ömərin ﷺ Beytul-məqdisə getdikdə onu öz yerinə təyin etməsi.[6]

---

[1] Hədisi İbn Səd "ət-Təbəqat əl-Kubra" əsərində, 3/342, rəvayət etmiş, habelə "Buğyətu əl-Bahis" əsərində, 2/622, № 594, qeyd olunduğu kimi Haris rəvayət etmişdir. Hafiz ibn Həcər "əl-Mətalib əl-Aliyə" sərində 4/90, demişdir: "Bu səhih hədisdir. Buxari onun tamam versiyasını rəvayət etmişdir."

[2] Mədinənin yaxınlığında İraq istiqamətdə yerləşən Sirar qalasının yanındakı su quyusu. "Mucəm əl-Buldən" əsəri, 3/298.

[3] "əl-Muntəzam" əsəri, 4/192.

[4] "əl-Muntəzam" əsəri, 4/192.

[5] "əl-Muntəzam" əsəri, 4/327, "əl-Fəth" əsəri, 4/87.

[6] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/55.

**d) Cihad msələlərində və dövlət işlərində:**

Əli Ömərin ﷺ həyatı boyu ona nəsihət edən, onu sevən, onun üçün qorxan müşaviri olmuşdu. Ömər də Əlini ﷺ çox sevirdi. Onların arasında mərhəmət, sevgi və qarşılıqlı inam var idi.[1]

Ömərin ﷺ xilafəti dövründə hər bir düşünən şəxs Əli ilə Ömər ﷺ arasındakı bu xoş əlaqənin, fərqli və saf əməkdaşlığın şahidi olur. Əli Ömərin ﷺ bütün işlərdə birinci müşaviri idi. Əli Ömərə ﷺ hər hansı bir məsələdə məsləhət verdikdə Ömər ﷺ onu rahatca icra edərdi.

Əli ﷺ hər bir halda və vəziyyətdə ona məsləhət verərdi.[2] Misal üçün farslar müsəlmanlara qarşı vuruşmaq üçün Nəhavandda[3] toplaşdıqda Ömər ﷺ insanları toplayıb onlarla məsəhətləşmişdi ki, onların üzərinə özü getsin. İnsanlar da ona məsləhət vermişdi ki, getsin.

Əli ﷺ isə onun yanına gəlib belə demişdi: "Ey möminlərin əmiri, əgər sən Şam əhlini Şamdan çıxarsan Rum əhli ora yardıma gələr, əgər Yəmən əhlini Yəməndən çıxarsan Həbəşlər onlara yardıma gələr. Sən bu dünyada qaldığın müddətdə ərəblər hər yerdən sənin ətrafında toplanacaqlar. Bu zaman sənin arxanda buraxdığın qadın və uşaqlardan ibarət olan *insanlar* önündə olanlardan daha önəmli olar.

Şəhərlərin əhalisinə müraciət et, Bəsrə əhlinə yaz ki, üç hissəyə bölünsünlər. Onlardan biri qadın və uşaqlara nəzarət etsin, ikinci qrup əhd edənlərə nəzarət etsin ki, əhdlərini pozmasınlar. Üçüncü qrup isə Kufədəki qardaşlarına yardıma getsinlər.

Əcəmilər sabah sənə baxdıqda deyəcəklər ki; bu ərəblərin əmiri, onların əsasıdır. Bu onlar üçün qiyməti bir şey olacaq və öz itlərini sənin üzərinə hücum etdirəcəklər. *Kafir* qövmün sənə qarşı hərəkətinə gəlincə, Allah bunu səndən də öncə istəməz. O, istəmədiyi bir

---

[1] "Əli ibn Əbu Talib Mustəşarun Əminun Lilxuləfə ər-Raşidin" əsəri, səh. 138.

[2] əl-Butinin "Fiqh əs-Siyra ən-Nəbəviyyə" əsəri, səh. 529.

[3] Həmədanın cənubunda yerləşən şəhərin adıdır. "Mucəm əl-Buldən", 5/313.

şeyi dəyişməyə Qadirdir. Düşmənin sayına gəldikdə isə əvvəllər biz say çoxluğu ilə deyil, yardım ilə döyüşərdik." Bu rəy Ömərin ﷺ xoşuna gəldi.[1]

Nəhc əl-Bəlağənın müəllifi nəql etmişdir ki, Ömər ibn Xəttab ﷺ farslarla döyüşdə özünün şəxsən iştirak etməsi barədə *səhabələrdən* məsləhət istədikdə Əli ﷺ belə demişdir: "Bu işdə say çoxluğu, yaxud azlığı ilə qələbəyə və ya məğlubiyyətə nail olmaq mümkünsüzdür. Bu Allahın zahir etdiyi bir dini, hazırlayıb hər tərəfə yayılanadək yardım etdiyi bir ordusudur. Bizlər isə Allahın bizlərə vəd etdiyi vədə üzərindəyik, Allah öz vədini yerinə yetirəcək, ordusuna yardım edəcək. O, işlərə nəzarət edən və *ordunu* cəm edəndir. Nizam aradan qalxsa bütün işlər parçalanıb gedər və bir daha bir yerə toplanmaz.

Ərəblər bu gün sayca az olsalar belə, İslama görə çox və birliklərinə görə güclüdürlər. Odur ki, mərkəzdə ol və ərəblərin dəyirmanını hərəkət etdir. Özün iştirak etmədən onları müharibə alovuna göndər. Çünki sən bu dünyada qaldığın müddətdə ərəblər hər yerdən sənin ətrafında toplanacaqlar. Bu zaman sənin arxanda buraxdığın qadın və uşaqlardan ibarət olan *insanlar* önündə olanlardan daha önəmli olar.

Əcəmilər sabah sənə baxdıqda deyəcəklər ki, bu ərəblərin əsasıdır, onu öldürsəniz rahat olarsınız. Onların azğınları buna çalışacaqdır. *Kafir bir* qövmün müsəlmanlara qarşı vuruşmaq üçün gəlmələrinə gəlincə, Uca və Nöqsansız Allah onların gəlmələrini daha çox istəmir və bunun qarşısını almağa daha çox Qadirdir. Onların sayı barədə söylədiklərinə gəlincə bizlər əvvəllər say çoxluğu ilə deyil, yardım və kömək ilə döyüşərdik."[2]

Həmçinin Ömər ibn Xəttab ﷺ onunla Şamın ən böyük döyüşlərindən biri olan Yərmuk döyüşündən öncə Rumlulara qarşu dö-

---

[1] "Tarix ət-Təbəri", 2/524.

[2] "Nəhc əl-Bəlağə" əsəri, Xütbələr məcmusu – Dar əl-Kutub əl-Lubnani nəşriyyatı, 1-ci nəşr, səh. 203-204.

yüşə çıxmaq barədə də məşvərət etmişdi. Müsəlmanların Şamı fəth etməyə getmələrinin qaşısını məhz həmin döyüş alırdı. O zaman Əbu Ubeydə Ömərin ﷺ yanına elçi göndərərək demişdi ki, rumlular həm dənizdən, həm də qurudan hücum üçün toplanırlar.

Ömər ﷺ mühacir və ənsarları bir yer toplayaraq onlara Əbu Ubeydənin ﷺ məktubunu oxudu. Səhabələr özlərini saxlaya bilməyib ağladılar. Sonra ruh yüksəkliyi ilə dedilər: "Möminlərin əmirini Allaha and veririk ki, bizə Şama cihada getmək üçün izin versin və biz qardaşlarımız üçün əlimizdən gələni və canımızı fəda edək." Mühacir və ənsarların bu ruh yüksəkliyi o qədər artdı ki, nəhayət Abdurrəhmən ibn Auf ﷺ təklif etdi ki, Şamdakı mücahidləri himayə etmək üçün möminlərin əmiri Şama gedən orduya bilavasitə özü rəhbərlik etsin və beləliklə o müsəlmanlar üçün bir arxa və dəstək olsun. Əli ibn Əbu Talib ﷺ isə buna qarşı çıxaraq dedi: "Uca Allah bu dinin əhlinə hər zaman yardım etmişdir. Diri və Ölməz olan Allah onların sayı az ikən onlara yardım etmişdir. Sən bu böyük ordu ilə döyüşə getsən irəli atılacaqsan. Sən elə uzaqdan müsəlmanlara rəhbərlik et. Səndən sonra onların müraciət edə biləcəkləri bir şəxs yoxdur. Onların yanına döyüşənləri göndər, bəla və nəsihət əhlini dəf et. Allah dilədiyini zahir etsə sənin istəyin yerinə yetər. Yox əgər olmasa sən yenə müsəlmanlara arxa olarsan."[1]

Əlinin ﷺ bu nəsihəti Ömərə ﷺ olan sevgisindən qaynaqlanırdı. Onun döyüşə getməsini istəmirdi. İstəyirdi ki, o döyüşü deyil ərəblərin dəyirmanını hərəkət etdirsin. Ona xəbərdarlıq edir ki, əgər döyüşə getsə arxada daha təhlükəli hadisələr cərəyan edə bilər."[2]

Məlum məsələdir ki, əgər Əli ﷺ Ömərə ﷺ pislik arzu etsəydi və ya onun xilafəti qəsb etdiyini güman etsəydi belə etməzdi. Fürsətdən istifadə edərək ondan yaxa qurtarmağa çalışardı ki, özünə beyət olunsun. Çünki heç bir əziyyət çəkmədən Ömərdən yaxa qurtarmaq üçün bundan daha əlverişli fürsət ola bilməzdi. Beləcə Ömə-

---

[1] "Nəhc əl-Bəlağə" əsəri, səh. 192-193.

[2] Butinin "Fiqh əs-Siyra" əsəri, səh. 295.

rin ﷺ başına bir iş gələr Əlinin ﷺ də yolu açılardı. Lakin Əli ﷺ belə şeylərdən uzaq idi. Əksinə Ömərə və müsəlmanlara nəsihət etdi. Onun bu nəsihəti olduqca yerində idi və həmin göstəriş yalnız saf bir qəlbdən çıxa bilərdi. Onun istəyi ülvi və uzaqgörən idi. Allah ondan razı olsun, övliyalara verdiyi mükafatdan ona da bəxş etsin.

Əksinə xaçpərəstlər Ömərin ﷺ Qüdsə gəlməsini və sülh bəyannaməsini öz əli ilə yazmasını, habelə mübarək Məsciduləqsanın açarlarını şəxsən qəbul etməsini istədikdə bu barədə Əbu Ubeydə ﷺ Ömərə ﷺ məktub yazaraq bildirdi ki, Beytül-Məqdisin fəthi onun gəlişi ilə bağlıdır. Ömər ﷺ də böyük səhabələri bir yerə toplayaraq onarla məsləhətləşdi. Osman ibn Əffan ﷺ məsləhət gördü ki, oraya getməsin ki, onlar daha da alçalsınlar.

Lakin Əli ﷺ ona Qüdsə getməsini təklif etdi. Çünki bu böyük bir tarixi şərəf idi, habelə hər kəsə qismət olmurdu və hər zaman belə şey olmurdu. Onun getməsi müsəlmanlar üçün də bir yüngüllük idi. Əlinin ﷺ bu təklifi Ömərin ﷺ xoşuna gəldi və səfərə hazırlaşdı. Əlini ﷺ isə öz yerinə xilafətə rəhbərlik etmək üçün qoydu. O, hicrətin 16-cı ilində rəcəb ayında Şama yola düşdü.[1]

Ömərin ﷺ Əli ﷺ və başqa səhabələr ilə çox halda məsləhətləşməsi onun fiqh və elm baxımından geri qalması anlamında deyildir. Bir sıra səhih hədislər onun olduqca elmli və din sahəsində kamil olmasına dəlalət edir. Lakin onun imanı, şuranı sevməsi, özündən sonrakı rəhbərlərə məşvərət yolunu göstərməsi, öz rəyini hər kəsə məcbur etməməsi onu buna vadar etmişdi. Çünki Əlinin ﷺ özü də bir sıra hallarda öz fikrindən daşınaraq Ömərin ﷺ rəyini götürürdü.[2] Rəvayət olunur ki, Əli ﷺ demişdir: "Ömər mənimlə məşvərət etdikdə mən ona öz fikrimi dedim və o da öz fikrini dedi. Sonda mən onunla razılaşaraq ona tabe oldum."[3]

---

[1] "əl-Murtəda", səh. 114-116. Bu məsələ ilə müfəssəl tanış olmaq üçün Təbərinin "Tarix" əsərini, 2/240; İbn əl-Əsirin "əl-Kamil" əsərini, 3/399-402; Yaqubini, səh. 167; "əl-Bidayə və ən-Nihayə" əsərini, 7/55 oxuya bilərsiniz.

[2] Abdulhəmid Əlinin "Xilafətu Əli ibn Əbu Talib" əsəri, səh. 77.

[3] əl-İsbahaninin "Təsbit əl-İmamə və Tərtib əl-Xilafə" əsəri, səh. 107.

**e) Əli ﷺ və onun övladlarının Ömərlə ﷺ əlaqəsi:**

Ömər ﷺ Rəsulullahın ﷺ ailəsinə olduqca çox hədiyyələr verər, onları öz övladlarından və ailəsidə da üstün tutardı. Bunu qeyd edəcəyimiz aşağıdakı məqamlarda görə bilərik:

**1 – Ömərin Hüseyni öz övladı Abdullahdan ﷺ üstün tutması:**

Hüseyn ibn Əli ﷺ demişdir: "Bir dəfə Ömər mənə belə dedi: "Övladım, bəlkə gəlib bir bizi ziyarət edəsən?" Hüseyn ﷺ dedi: "Bir dəfə mən onlara getdim. Həmin vaxt o, Müaviyə ﷺ ilə birlikdə idi. İbn Ömər ﷺ isə qapıda gözləyirdi. Ona içəri girməyə izin verilməmişdi. Odur ki, mən İbn Ömərlə birlikdə geri qayıtdım. Bir müddət sonra mən Ömərlə qarşılaşdım və o mənə dedi: "Övladım bizə nə üçün gəlmədin?" Mən dedim: "Mən gəlmişdim, lakin həmin vaxt sən Müaviyə ilə birlikdə idin. Gördüm ki, oğlun İbn Ömərə daxil olmağa icazə verilmədi və o geri qayıtdı. Odur ki, mən də geri döndüm." Ömər dedi: "İcazə baxımından sən Abdullah ibn Ömərdən daha üstünsən. Bizim qəlbimizdə öncə Allah, sonra da sizsiniz." Sonra o, əlini Hüseynin başına qoydu." [1]

Ömərin sözünün mənası odur ki, bu yüksəlişi məhz əhli beytin sayəsində əldə etmişik. [2]

**2 – Ömərin ﷺ Əli ibn Əbu Talibin ﷺ övladlarının geyimlərinə diqqət göstərməsi:**

İbn Səd Cəfər ibn Muhəmməd əl-Baqirdən, o da atasından rəvayət edərək demişdir: "Bir dəfə Ömərə ﷺ Yəməndən gözəl libaslar gətirildi. O da öz növbəsində libasları insanlara payladı. İnsanlar da sevincək halda libaslarını geyindilər. Həmin vaxt Ömər ﷺ Peyğəmbərin ﷺ qəbri ilə minbəri arasında oturmuşdu, insanlar da onun yanına gəlib ona salam verib ona dua edirdilər. Bu vaxt Hə-

---

[1] İbn Şəbəhin "Tarix əl-Mədinə" əsəri, 2/27; əl-Xatib əl-Bağdadinin "Tarix" əsəri, 1/141; İbn Rahuyanın "əl-Mətalib əl-Aliyə" əsəri, 4/86. İbn Həcər "əl-İsabə" əsərində, 2/78, hədisin sənədinin səhih olduğunu demişdir.

[2] "əs-Səvaiq əl-Muhrəqə" əsəri, 2/515.

sənlə Hüseyn ﵄ anaları Fatimənin ﵂ evindən çıxıb insanlar arasında addımlayırdılar. Onların əyinlərində həmin bəzəkli libasdan yox idi. Ömər acıqlı şəkildə dedi: "Vallahi ki, sizlərə bu libası paylamağım məni sevindirmədi." Onlar dedilər: "Ey möminlərin əmiri, sən öz rəiyyətinə libas verdin və gözəl bir iş gördün." O dedi: "Yox, insanlar arasında addımlayan bu iki yeniyetməyə görə deyirəm, onların əynində həmin libasdan yoxdur." Bütün libaslar ya onların əyninə böyük idi, ya da kiçik. Sonra o, Yəmənin valisinə məktub yazdı ki, Həsənlə Hüseyn üçün təcili libas göndərsin. O da həmin libasları göndərdi. Ömər ﵁ də onları Həsənlə Hüseynə ﵄ geyindirdi."[1]

İbn Əsakirin rəvayətində isə Ömər ﵁ belə demişdir: "İndi nəfsim rahat oldu."[2]

**3 – Pay bölgüsündə Ömərin Haşim oğullarını ﵃ üstün tutması:**

Fəthlər baş verdikdən sonra Ömər ﵁ insanlara payları bölmək istədikdə Peyğəmbərin səhabələrini bir yerə topladı. Abdurrəhmən ibn Auf ﵁ dedi: "Özündən başla." Ömər ﵁ dedi: "Vallahi ki, yox. İlk öncə Peyğəmbərin ﷺ yaxınlarından, Peyğəmbərin ﷺ qohumları olan Haşim oğullarından başlamaq lazımdır." Beləcə o, Abbasa ﵁, sonra Əliyə ﵁ və nəhayət beş qəbiləyə, bundan sonra da Adiy ibn Kəb ailəsinə pay ayırdı və belə yazdırdı: "Haşim oğullarından Bədr döyüşündə iştirak edənlər, sonra Umeyyə ibn Abduşəms oğullarından Bədr döyüşündə iştirak edənlər, sonra da daha yaxın olanlar. Beləliklə o Peyəmbərin ﷺ yaxınlarının hamısına pay ayırdı. Xüsusən də Rəsulullahın ﷺ yanında böyük məqama malik olduqlarına görə Həsənlə Hüseynə ﵄ də pay ayırdı.[3]

---

[1] Hədisi İbn Səd "Kənz əl-Umməl" əsərində, 13/634, rəvayət etmişdir. Mən onu "ət-Təbəqat" əsərində çap olunmuş şəkildə tapmamışam. İbn Əsakir "Tarix" əsərində, 14/177 İbn Sədin isnadı ilə rəvayət etmişdir.

[2] "Tarix Diməşq" əsəri, 14/177.

[3] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 6/457, № 32899; İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 3/158.

**4 – Əli ibn Əbu Talibin ﷺ Ömər ibn əl-Xəttabın ﷺ verdiyi libasla fəxr etməsi:**

Bir dəfə Əli ﷺ əynində Ədən libası olduğu halda çölə çıxmışdı. *Ondan bi libas barədə soruşduqda* belə dedi: "Bu libası mənə qardaşım, əzizim və seçilmiş dostum möminlərin əmiri Ömər geyindirmişdir."[1] Əbu Səfərin rəvayətində isə deyilir: "Əli ibn Əbu Talibin ﷺ üzərində daim geyindiyi bir libas var idi. Ondan soruşdular: "Ey möminlərin əmiri, nə üçün sən bu libası çox geyinirən?" O dedi: "Bu libası mənə qardaşım, əzizim və seçilmiş dostum möminlərin əmiri Ömər geyindirmişdir. Ömər Allahdan bağışlanma dilədi, Allah da onu bağışladı." Sonra o, ağladı."[2]

**5 – Ömər ibn əl-Xəttabın ﷺ Yənbonu Əliyə ﷺ pay verməsi:**

Ömər ibn Xəttab ﷺ Əliyə ﷺ Yənbonu pay verdikdə Əli ﷺ Ömərin ﷺ böldüyü paya müəyyən şeylər aldı və orada bulaq qazdırdı. Sonra o həmin bulağı yoxsul və miskinlərə Allah yolunda sədəqə verdi ki, üzlərin ağaracağı və qaralacağı gündə Allah onun üzünü Cəhənnəm odundan uzaqlaşdırsın, odu da onun üzündən uzaqlaşdırsın. O, sədəqəsinin üzərinə belə yazdı: "Əli ibn Əbu Talib öz malı barəsində belə hökm verdi. O, Yənbonu Allahın razılığını qazanmaq üçün sədəqə verdi ki, Allah bununla onu Cənnətə daxil etsin, onu Cəhənnəm odundan uzaqlaşdırsın və Cəhənnəm odunu da ondan uzaqlaşdırsın. Həmin mal Allah yolunda və Allahın üzünü əldə etmək üçün ayrılmışdır. Allah yolunda və Onun üzü xatirinə hər bir xeyir əməl üçün xərclənə bilər. Müharibədə, sülhdə, xeyirdə, yaxın və ya uzaq qohumlar üçün xərclənə bilər. Yənboda olan heç bir malımı satmaq, hədiyyə etmək və miras qoymaq olmaz. Onun barəsində diri və ya ölü olmağımdan asılı olmayaraq hökmüm budur. Bu mal Allahın üzünü diləyərək Allah yolunda, üzlərin ağaracağı və qaralacağı gün üçün hər bir xeyir işdə xərclən-

[1] "əl-Muvafaqa" kitabının müxtəsəri, səh. 140.

[2] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 6/356, № 31997, isnadı həsəndir.

sin. Həmin malı satmaq, sədəqə vermək, miras qoymaq olmaz. Onu qəbul edən və ona varis çıxan Allahdır. Bu isə mənimlə Allah arasında olan bir məsələdir."[1]

**6 – Möminlərin əmiri Ömərlə Əli ﷺ arasında yuxu barədə söhbət:**

Ömər ibn əl-Xəttab ﷺ Əli ibn Əbu Talibə ﷺ belə dedi: "Mənə insanın yatıb ağlına belə gəlmədiyi şeyləri yuxuda görməsi təəccüblü gəlir. Özü də yuxusu həqiqət kimi görsənir. Habelə adam *hərdən* mənasız bir yuxu görür." Onda Əli ibn Əbu Talib ﷺ ona belə dedi: "Sənə bu barədə xəbər verimmi ey möminlərin əmiri? Uca Allah buyurur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır."[2]** Beləcə Allah bütün canları alır. Bu canların səmada Allah qatında olduğu zaman gördükləri sadiq yuxudur. Canlar cəsədlərinə qaytarıldıqları zaman isə yolda şeytanlar onlarla görüşər, onlara yalan və batil məlumatlar verər. Bu zaman gördükləri isə *yalan və mənasız yuxudur.*" Ömərə ﷺ onun sözləri xoş gəldi.[3]

**7 – Ömərin ﷺ Əli ibn Əbu Talibin qızı Ummu Gülsümlə ﷺ evlənməsi:**

Əli ibn Əbu Talib ﷺ Peyğəmbərin ﷺ qızı Fatimədən ﷺ olan qızı Ummu Gülsümü Ömərə ərə vermişdir. O vaxt Ömər ﷺ ondan onunla evlənməyi istəmişdi. Əli ﷺ onun fəzilətlərini, gözəl əməllərini təsdiq etdiyi üçün onunla razılaşmış və bununla da sübut etmişdi ki, onların arasında gözəl münasibətlər, möhkəm və mübarək əlaqələr mövcud olmuşdur. Ömər ﷺ başqalarına deyil məhz Peyğəmbərin ﷺ yaxınları olduqları üçün əhli beytə qarşı xü-

---

[1] Abdurrəzzaqın "əl-Musənnəf" əsəri", 10/375.

[2] "əz-Zumər" surəsi, 42.

[3] İbn Əbi Hatimin "Təfsir" əsəri, "əz-Zumər" surəsi, 42.

susi sevgi bəsləyirdi. Həm də Rəsulullah ﷺ onlara qarşı diqqətli, səxavətli olmağı və onların hüquqlarını qorumağı tövsiyə etmişdi.

Bu səbəbdən də Ömər Əli və Fatimənin qızı Ummu Gülsümlə nişanlanır. O bunun üçün Əlini dilə tutaraq deyir: "Vallahi ki, yer üzərində mənim kimi sənin qızına qayğı göstərə biləcək ikinci bir şəxs ola bilməz." Əli də ona: "Razıyam" - dedi. Ömər sevincək şəkildə mühacirlərə üz tutub dedi: "Məni təbrik etməyəcəksinizmi?" Sonra o, izah etdi ki, onun Əlinin qızı ilə evlənməsinin səbəbi Peyğəmbərdən ﷺ bunu eşitməsidir: "Qiyamət günü mənim səbəbimdən və nəsəbimdən başqa bütün səbəblər və nəsəblər qırılacaqdır." Sonra Ömər dedi: "Mən də istədim ki mənimlə Rəsulullah ﷺ arasında *qohumluq əlaqəsi* bir səbəb olsun."[1]

Tarix və nəsəb aimləri bu evliliyin səhihliyini təsdiq etmişlər. Əhli Sünnə alimləri tarix kitablarında bu evliliyi qeyd etmiş və bu xüsusda ittifaq etmişlər. Bu evliliyi qeyd etmiş alimlərdən bəziləri Təbəri[2], İbn Kəsir[3], Zəhəbi[4], İbn Cövzi[5], habelə tərcüçeyi hal əsərlərində İbn Həcər[6], İbn Səd[7], İbn Əsir[8] kimi alimlər qeyd etmişlər.

Ummu Gülsüm Ömərdən Ruqayyə adlı bir qız və Zeyd adlı bir oğlan dünyaya gətirmişdi. Zeydin dostları rəvayət etmişdilər ki, Zeyd ibn Ömər Adiy ibn Kəb oğullarından olan bir camaatın arasında gecə vaxtı baş vermiş mübahisədə iştirak etmişdi. Zeyd ibn Ömər isə onları barışdırmaq üçün gəlmişdi. Qarşıdurma zamanı onun başına bir zərbə dəyir və həmin zərbə nəticəsində başı parçalanır və dərhal ölür. Anası da onun ölümünə çox kədərlənir və

[1] Təbəraninin "əl-Kəbir" əsəri, 3/45 və "əl-Əvsat" əsəri, 5/376. Şeyx Albani "Silsilətu əl-Əhadis əs-Səhihə" əsərində, № 2036, bu hədisi səhih hesab etmişdir.
[2] Təbərinin "Tarix" əsəri, 2/564.
[3] "əl-Bidayə və ən-Nihayə" əsəri, 5/309.
[4] "Tarix əl-İslam Əhd əl-Xuləfə ər-Raşidin" əsəri, səh. 166.
[5] "əl-Muntəzam" əsəri, 4/131.
[6] "əl-İsabə" əsəri, 8/293.
[7] "ət-Təbəqat əl-Kubra" əsəri, 8/463.
[8] "Əsəd əl-Ğabə" əsəri, 7/45.

bu kədərdən dolayı özündən gedir. Bu onun da vəfat etməsinə səbəb olur. Ummu Gülsüm və oğlu Zeyd ibn Ömər eyni vaxtda dəfn olunurlar. Onlara Abdullah ibn Ömər ibn Xəttab ﷺ cənazə namazı qıldırır. Həsən ibn Əli ibn Əbu Talib ﷺ onun qıldırmasını buyurur və özü onun Abdullahın ﷺ arxasında namaz qılır.[1]

**Abbasla ﷺ Əli ﷺ arasında baş vermiş ixtilafa Ömərin ﷺ hökm verməsi:**

Rəvayət edilir ki, Malik ibn Ovs demişdir: "*Bir dəfə* günorta vaxtı mən evimdə ikən Ömər ibn Xəttabın ﷺ göndərdiyi elçi yanıma gəlib dedi: "Möminlərin əmiri səni çağırır!" Mən onunla *Ömərin* ﷺ yanına getdim. Mən Ömərin yanına daxil olduqda onun boş taxtın üstündə oturduğunu gördüm. Onun altına heç bir şey sərilməmişdi, özü də dəri yastığa söykənmişdi. Mən salam verib oturdum. Ömər dedi: "Ey Malik! Sənin həmqəbilələrindən bəziləri öz ailələri ilə birlikdə yanıma gəlib *məndən yardım istədilər* və mən *öz köməkçilərimə* onlara bir az yardım etməyi tapşırdım. Götür bu yardımı, onların arasında paylaşdır!" Mən dedim: "Ey möminlərin əmiri, bəlkə, bu işi başqasına tapşırasan." Ömər ﷺ dedi: "Ay adam, sənə bunu götür, *payla dedim*!" Mən Ömərin yanında ikən onun qapıçısı Yərfa gəlib dedi: "Osman, Abdurrəhman ibn Auf, Zubeyr və Səd ibn Əbu Vəqqas *yanına gəlmək üçün* izn istəyirlər, onlara izn verirsənmi?" Ömər: "Bəli!"- deyib onlara izn verdi. Onlar içəri daxil oldular və salam verib oturdular. Yərfa da bir qədər oturduqdan sonra *ayağa qalxıb* dedi: "Əli və Abbas izn istəyir, onlara izn verirsənmi?" Ömər: "Bəli!"- deyib onlara izn verdi. Onlar içəri daxil oldular və salam verib oturdular. Abbas dedi: "Ey möminlərin əmiri, mənimlə bunun arasında hökm ver." Onların mübahisəsi, Allahın Öz peyğəmbərinə ﷺ qənimət olaraq bəxş etdiyi Bənu-Nədir qəbiləsinin malları üstündə düşmüşdü. Osman və onunla gələnlər dedilər: "Ey möminlərin əmiri, onların arasında hökm ver, onları sakit-

[1] "Tarix Diməşq" əsəri, 19/487.

ləşdir!" Omər dedi: "Özünüzü ələ alın! Göyü və yeri saxlayan Allah xatirinə *deyin görüm*, Peyğəmbərin ﷺ, özünü qəsd edərək: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiyimiz sədəqədir"- dediyini bilirsinizmi?" Onlar: "Bəli, demişdir"- deyə cavab verdilər. Sonra Ömər Əliyə və Abbasa üz tutub soruşdu: "Sizi and verirəm Allaha *deyin görüm*, Peyğəmbərin ﷺ belə dediyini bilirsinizmi?" Onlar: "Bəli, demişdir"- deyə cavab verdilər. Ömər dedi: "Mən sizə bu haqda xəbər vermək istəyirəm. Bilin ki, Allah bu qənimətlərdən məxsusi olaraq Öz elçisi üçün pay ayırmış və bunu ondan başqa heç kəsə verməmişdi." Sonra Ömər bu ayəni oxudu: **"Allahın Öz Rəsuluna onlardan verdiyi qənimətlərə tərəf siz nə at, nə də dəvə sürdünüz. Lakin Allah Öz elçilərini istədiyi kəslər üzərində hakim edir. Allah hər şeyə qadirdir."**[1] Bu qənimətlər ancaq Rəsulullaha ﷺ məxsus idi. Amma bununla yanaşı vallahi, o, bu qənimətləri sizdən gizlin saxlayıb ancaq öz mənfəəti üçün istifadə etməmiş, *əksinə* bundan sizə pay ayırmış və onu sizin aranızda paylaşdırmışdı. Axıra da bu mübahisə etdiyiniz mallar qalmışdır. Peyğəmbər ﷺ bu maldan ailəsinin illik xərcini ödəyər, yerdə qalanını isə Allah yolunda xərclənən mallara qatardı. Peyğəmbər ﷺ ömrü boyu belə etmişdir. Allaha xatirinə *deyin görüm, Peyğəmbərin* ﷺ belə etdiyini bilirsinizmi?" Onlar: "Bəli!"- dedilər. Sonra Ömər Əliyə və Abbasa dedi: "Allaha xatirinə *deyin görüm*, bunu bilirsinizmi?" Sonra Ömər davam edib dedi: "Allah Öz peyğəmbərinin ﷺ dünyasını dəyişdikdən sonra Əbu Bəkr: "Mən Peyğəmbərin ﷺ xəlifəsiyəm"- deyib bu malları götürdü və onları Peyğəmbərin ﷺ sərf etdiyi işlərə sərf etdi. Allah bilir ki, Əbu Bəkr bu işdə sadiq, xeyirxah, doğru yolla gedən, haqqa boyun əyən bir adam idi. Allah Əbu Bəkrin ömrünü tamamladıqdan sonra mən Əbu Bəkrin varisi oldum və *xilafəti* idarə etdiyim iki il ərzində bu malları Peyğəmbərin ﷺ, sonra da Əbu Bəkrin sərf etdiyi işlərə sərf etdim. Allah bilir ki, mən bu işdə sadiq,

---

[1] "əl-Həşr" surəsi, 6.

xeyirxah, doğru yolla gedən, haqqa boyun əyən bir adam olmuşam. Sonra siz mənim yanıma gəldiniz və ikiniz də eyni sözü dediniz, eyni məsələni ərz etdiniz. Sən ey Abbas, gəlmisən, qardaşın oğlunun[1] *mirasından* sənə çatacaq payı götürəsən, bu *Əli* isə gəlib ki, zövcəsi üçün onun atasından qalmış mirasını alsın. Mən də sizə dedim ki: "Peyğəmbər ﷺ demişdir: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiyimiz sədəqədir!" Lakin düşünəndə ki, bu malları sizə vermək lazımdır, dedim: "İstəyirsinizsə, bu malları sizə verim, amma gərək siz bağladığınız əhdə, verdiyiniz sözə sadiq qalasınız və bu malları Peyğəmbərin ﷺ və Əbu Bəkrin sərf etdiyi, habelə mən xilafətə gəldikdən sonra sərf etdiyim işlərə sərf edəsiniz." Siz də: "Bu malları bizə ver!"- dediniz və buna görə də mən onları sizə verdim. Allah xatirinə deyin görüm, mən o malları bu iki nəfərə verdimmi?" Osman və onunla gələnlər: "Bəli!"- dedilər. Sonra o, üzünü Əliyə və Abbasa tərəf çevirib dedi: "Allah xatirinə deyin görüm, mən o malları sizə verdimmi?" Onlar: "Bəli!"- dedilər. Ömər dedi: "Yoxsa siz məndən başqa bir qərar gözləyirsiniz?! Göyü və yeri saxlayan Allaha and olsun ki, mən bu işdə başqa bir qərar verməyəcəyəm. Əgər siz bu malları yerbəyer edə bilməyəcəksinizsə, onda onları mənə qaytarın, mən bu işin öhdəsindən gələrəm."[2]

**Ömərin ﷺ şura əhli ilə birlikdə Əlinin ﷺ xəlifəliyə namizədliyini irəli sürməsi və Ömər ﷺ şəhid olduqdan sonra Əlinin ﷺ onun barəsində dediyi söz:**

**a) Şura əhli ilə birlikdə Əlinin ﷺ namizədliyinin irəli sürülməsi:**

Ömər ﷺ yaralandıqda anladı ki, artıq dünyasını dəyişəcək. Bu əsnada insanlar toplum-toplum onun yanına daxil olaraq onu ziyarət edir və deyirdilər: "Ey möminlərin əmiri, bizlərə tövsiyə et və özündə sonra bir xəlifə təyin et." O dedi: "Mən bir neçə nəfəri bu

---

[1] Peyğəmbərin ﷺ atası Abdullah Abbasın ﷺ doğma qardaşı olmuşdur.
[2] Buxari, 3094.

işdə daha haqlı görürəm. O kəsləri ki, Rəulullah ﷺ onlardan razı qaldığı halda vəfat etmişdir." Sonra o Əlinin, Osmanın, Zubeyrin, Talhənin, Sədin və Abdurrəhmanın adlarını çəkdi. Daha sonra onların arasından xüsusi olaraq Abdurrəhmanı, Osmanı və Əlini yanına çağıraraq onlara moizə etdi.[1]

Şübhəsiz ki, Ömər ﷺ rəhbər idi və özündən sonra müsəlmanlar üçün ən layiqli olan şəxsi qoyub getməli idi. O, ictihad edərək bu altı nəfərin başqalarından daha layiqli olduğu qənaətinə gəlmişdi. Onun gümanı doğru idi. Çünki, heç kim başqalarının onlardan daha layiqli olduğunu söyləməmişdi. *Xəlifənin seçilməsi üçün* onları ona görə təyin etmişdir ki, birdən özü onlardan birini seçər, amma digəri *xəlifəliyə onun seçdiyində* daha layiqli olar. Ona görə də o, bir nəfəri təyin etmək əvzinə altı nəfəri məsləhət görmüşdü. O demişdi: "Altı nəfər öz aralarında birini seçsin." Bu da ədalətli rəhbərin gözəl bir ictihadıdır. Bundan əlavə Uca Allah buyurur: **"O kəslər üçün ki, ... işləri barədə öz aralarında məsləhətləşir."[2]** Həmçinin buyurur: **"Sən görəcəyin işlər barədə onlarla məsləhətləş."[3]** Bu yöndən onun şura ilə bağlı verdiyi məsləhət doğru idi.[4]

Ömər əl-Faruq ﷺ altı nəfərin daha məqsədəuyğun olduğunu görmüşdü. Onların hər birinin özəl xüsusiyyətləri var idi. Hər biri ayrı ayrılıqda fərqli müsbət keyfiyyətlərə malik idilər. Onlardan birini təyin etsəydi onun xiləfatində hər hansı bir nöqsan olduqda sonradan bunu Ömərə nisbət edəcəkdilər. O, Uca Allahdan qorxduğu üçün müəyyən şəxsi təyin etməkdən çəkindi və düşündü ki, onların biri o birindən daha haqlı deyil. Bununla da o, ikitərəfli xeyir iş gördü: Həm altı nəfəri müəyyən etdi, çanki onlardan daha məsləhətlisi yox idi, həm də birini təyin etməkdən çəkindi ki, birdən təqsiri olar.

---

[1] Buxari, 3700.

[2] "əş-Şura" surəsi, 38.

[3] "Ali İmran" surəsi, 159.

[4] "Minhəc əs-Sünnə" əsəri, 6/141-142; "əl-Muntəqa" əsəri, səh. 362-364.

Uca Allah da insanlara imkan daxilində məsləhətli iş görməyi əmr etmişdir. Onun gördüyü bu iş də müsəlmanların məsləhəti üçün idi.[1] Heç kim deyə bilməz ki, o şura məclisini altı nəfərə həvalə etməklə özündən əvvəlkilərə müxalif olmuşdur. Çünki müxaliflik iki növdür: Zidd olan müxaliflik və çeşidli ixtilaf. Ömərin etdiyi isə ikinci növə aiddir.[2] Bütün səhabələr də onun bu fikri ilə razılaşmışdı və kiminsə ona etiraz etməsini eşitməmişik.

**b) Ömər ﷺ şəhid olduqdan sonra Əlinin ﷺ onun barəsində dediyi söz:**

İbn Abbas ﷺ demişdir: “Ömər vəfat etdikdə çarpayısının[3] üzərinə qoyuldu və insanlar onun ətrafına toplaşıb onun üçün dualar etməyə və cənazə namazı qılmağa başladılar. Həmin vaxt mən də onların arasında idim. Birdən çiynimdən bir nəfərin tutması məni diksindirdi. Baxıb gördüm ki, bu Əli ibn Əbu Talibdir. O, Ömərə rəhmət oxudu və dedi: “Səndən sonra sənin əməlinin bənzəri kimi edərək Allah qarşısına çıxmaq istədiyim başqa birisi yoxdur. Vallahi, mən ümid edirəm ki, Allah səni iki dostuna qovuşduracaq. Mən çox vaxt Peyğəmbərin ﷺ belə dediyi eşidərdim: “Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerə* getdim. Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerdən* daxil oldum. Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerə* çıxdım.”[4]

Abdu xeyr demişdir: “Nəcran əhli gəldikdə mən Əlinin yaxınlığında idim. Mən öz-özümə dedim ki, Ömərə rədd olunacaqsa bu gün olacaq. Onlar salam verib Əlinin ﷺ qabağında düzləndilər. Sonra onlardan biri əlini libasının qoluna salıb oradan bir məktub çıxarıb Əliyə ﷺ verdi. Onlar dedilər: “Ey möminlərin əmiri, bu

---

[1] “Minhəc əs-Sünnə” əsəri, 6/147-148; “əl-Muntəqa” əsəri, səh. 362-364.

[2] “Əqidətu Əhli əs-Sünnə” əsəri, 2/1042.

[3] Onun nəşi nəzərdə tutulur.

[4] Hədisi Buxari “Səhabələrin üstünlükləri” kitabı, “Ömər ibn əl-Xəttabın fəzilətləri” fəslində, № 3677, 3685; Muslim isə “Səhabələrin üstünlükləri” kitabı, “Ömər ibn əl-Xəttabın fəzilətləri” fəslində, № 2389, rəvayət etmişdir.

sənin öz əlinlə yazdığın yazıdır, burada sən Rəsulullahın ﷺ sənə diktə etdiklərini yazmısan." Mən gördüm ki, Əlinin gözlərindən yaş axmağa başladı. Sonra o, başını onlara tərəf qaldırıb dedi: "Ey Nəcran əhli, bu mənim Rəsulullahın ﷺ hüzurunda yazıdığım sonuncu yazımdır." Onlar dedilər: "Orada yazılanları bizə ver." O dedi: "Bu barədə sizə xəbər verəcəm. *Birincisi,* Ömərin ﷺ o vaxt sizlərdən aldığı özü üçün deyildi, onu müsəlman camaatı üçün götürmüşdü. *İkincisi də* onun sizlərdən götürdüyü sizə verdiyindən daha xeyirli idi. Vallahi ki, Ömərin ﷺ götürdüyünü geri qaytara bilmərəm. Şübhəsiz ki, Ömər bu işdən agah idi."[1] Əli ﷺ dedi: Mən Ömərin ﷺ bağladığı bir ipi aça bilmərəm."[2]

Həmçinin Cəməl döyüşündən sonra Əliyə ﷺ dedilər: "Ağ saraya get." O dedi: "Xeyr. Ömər ibn Xəttab ora getməyi xoşlamazdı, mən də ona görə xoşlamıram." Sonra o, Rahbə adlanan yerə getdi və böyük məsciddə iki rükət namaz qıldı.[3]

Həmçinin demişdir: "Allah Ömərə rəhmət eləsin, o, mübarizə apararaq yaralara məlhəm olmuş, fitnənin qarşısını almış və sünnəni yaşatmışdır. O, libası təmiz, eyibi az, xeyirə nail olmuş, şərdən uzaqlaşmış halda getmişdir. O, Allaha layiqinci itaət etmiş, Ondan layiqincə qorxmuşdur. O dünyadan köçərkən elə bir şaxələnmiş yollar qoyub getdi ki, bu yollarda zəlalət əhli doğru yola yönəlməz, haqq yolda olan isə yolunu azmazdı."[4]

**Əli ibn Əbu Talibin ﷺ öz övladlarına Ömər adı verməsi:**

Möminlərin əmiri Əli ibn Əbu Talib ﷺ Ummu Həbib bint Rabiə əl-Bəkriyyədən olan oğlunu Ömər adlandırmışdı.[5] "Əl-Fusul əl-

---

[1] Beyhəqinin "əs-Sünən əl-Kubra" əsəri, 10/120.

[2] İbn Əbi Şeybənin "əl-Musənnəf" əsəri, 6/357; Əbu Ubeydin "əl-Əmval" əsəri, 2/269; Yəhya ibn Adəm "əl-Xərac" əsəri, 1/23; İbn Zəncuyanın "əl-Əmval" əsəri, 1/354. Hədisin isnadı "mundəti"-dir.

[3] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/254.

[4] "Nəhc əl-Bəlağə" əsəri, 2/22.

[5] Yaqubinin "Tarix" əsəri, 2/213, İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 3/20.

Muhimmə" əsərində Əli ibn Əbu Talibin övladları belə qeyd olunmuşdur: Təğlubiyyəli Ömər. *Əlinin bu övladı* Xalid ibn Vəlidin Aynu ət-Təmr döyüşündə götürdüyü kəniz Sahbə bint Rabiədən olmuşdur. Bu Ömər səksən beş yaşınadək yaşamışdır. O, Əlinin mirasının yarısına sahib çıxmışdı. Çünki onun digər qardaşları Abdullah, Cəfər və Osman ondan öncə Hüseynlə ﷺ birlikdə şəhid olmuşdular. O isə şəhid olmadığına görə mirasa sahib çıxmışdı.[1]

**Üçüncü: Əli ﷺ Osman ibn Əffan ﷺ dönəmində**

**1 – Əlinin ﷺ Osmana ﷺ beyət etməsi:**

Ömər ibn Xəttab ﷺ şəhid olduqdan sonra Miqdad ibn Əsvad Ömər ibn Xəttabın təyin etdiyi altı nəfərlik şura üzvlərini bir yerə topladı. Həmin altı nəfər bunlar idi: Osman ibn Əffan, Əli ibn Əbu Talib, Talhə ibn Ubeydullah, Zubeyr ibn Əvvam, Səd ibn Əbu Vaqqas, Abdurrəhman ibn Auf ﷺ.[2] Sonra səslər yüksəldi və müxtəlif fikirlər yürüdüldü. Sonra da onlardan üçü nəfər işi digər üç nəfərə həvalə etdi. Beləliklə Zubeyr özünün namizədlikdən olan payını Əliyə ﷺ, Səd öz payını Abdurrəhman ibn Aufa ﷺ, Talhə isə öz haqqını Osmana ﷺ həvalə etmiş oldu.

Abdurrəhman dedi: "Mən öz haqqımı tərk edirəm, vallahi ki, mənim üzərimə düşən odur ki, İslam dini üçün çalışım. Odur ki, hansı biriniz *xilafətə* daha haqlıdırsa onu da təyin edəcəm. Osman və Əli ﷺ: "Bəli" – deyə cavab verdilər. Sonra Abdurrəhman hər ikisinin fəziləti haqqında xütbə verdi və onların hər ikisindən əhd aldı ki, əgər kimi seçsə o ədalətli olacaq və seçilməyən tərəf də seçiləni eşidib ona itaət edəcəkdir. Onların hər biri: "Bəli" – dedi.

Sonra Abdurrəhman ibn Auf ﷺ qalxıb insanlardan onların hər ikisi barəsində məsləhət aldı. İnsanların başbilənlərinin və qəbilə başçılarının həm toplum şəklində, həm də ayrı-ayrılıqda, tək-tək, cüt-cüt və birlikdə, həm gizlində, həm də aşkarda bu iki nəfər barə-

---

[1] "əl-Fusul əl-Muhimmə" əsəri, səh. 143.

[2] Bu altı nəfərin hamısı Cənnətlə müjdələnmiş on nəfərdən idi.

də olan rəylərini öyrənməklə müsəlmanların rəyini topladı. Hətta o, pərdə arxasından qadınların, daha sonra uşaqların rəyini soruşdu. Bununla da kifayətlənməyərək o, Mədinəyə gəlmiş piyada və süvari ərəblərin də rəylərini soruşdu. Beləliklə o üç gün, üç gecə sorğu apardı. Gördü ki, əksəriyyət Osman ibn Əffanın daha layiq olduğu qənaətindədir. O, gecələri yatmayıb Uca Allaha istixarə edir, insanlardan namizədlər barədə soruşurdu.

Sonra o, Ömərin رضي الله عنه vəfatının dördüncü günü şura əhlinin ilk dəfə toplandığı evə gəldi və Əli ilə Osmanı ora çağırdı. Onlar gəldikdə onlara üz tutub dedi: "Mən insanlardan hər ikinizin barəsində soruşdum və gördüm ki, insanlar sizi hər kəsdən üstün tutur." Sonra o, onların hər ikisindən yenidən əhd aldı ki, əgər kimi seçsə o ədalətli olacaq və seçilməyən tərəf də seçiləni eşidib ona itaət edəcəkdir.

Sonra Abdurrəhman رضي الله عنه onlarla birlikdə məscidə daxil oldu. Həmin vaxt Abdurrəhman Rəsulullahın ﷺ onun başına bağladığı əmmaməni başına geyinmiş və qılıncını taxmışdı. O üzünü mühacir və ənsarlara tutdu. Namaza çağırış olduqda məscid insanlarla doldu. İnsanlar o qədər sıx oldu ki, Osmana oturmağa yer qalmadı. Osman insanların arxasında özünə oturmağa güclə yer tapdı. O, olduqca həyalı birisi idi.

Sonra Abdurrəhman ibn Auf رضي الله عنه Peyğəmbərin ﷺ minbərinə qalxıb uzun uzadı dayandı. Sonra o, elə dualar etdi ki, insanlar onun bənzərini eşitməmişdilər. Sonra o, sözünə davam edib dedi: "Ey insanlar, mən həm gizlində, həm də aşkarda sizlərlə sorğu apardım və gördüm ki, hər kəs bu iki kişini, həm Əlini, həm də Osmanı başqalarından üstün tutur. Ey Əli yanıma gəl." Əli onun yanına gedib minbərin yanında dayandı. Abdurrəhman onun əlindən tutub dedi: "Sən Allahın kitabına, Peyğəmbərinin ﷺ sünnəsinə və Əbu Bəkrlə Ömərin رضي الله عنهما etdiklərinə riayət edəcəyinə beyət edirsənmi?" Əli رضي الله عنه dedi: "Allahım yox! Lakin mən bunlara riayət etməyə bacardığım və gücüm yetəcək qədər çalışacağam." Sonra o, Əlinin əli-

ni buraxdı və dedi: "Ey Osman yanıma gəl." Sonra Osmanın əlindən tutub dedi: "Sən Allahın kitabına, Peyğəmbərinin ﷺ sünnəsinə və Əbu Bəkrlə Ömərin ﷺ etdiklərinə riayət edəcəyinə beyət edirsənmi?" Osman ﷺ: "Bəli" – deyə cavab verdi. Abdurrəhman başını məscidin tavanına tərəf çevirdi, əlini Osmanın əlindən tutub dedi: "Allahım eşit və və şahid ol. Allahım eşit və şahid ol. Allahım xilafətdən mənim boynuma düşən payımı Osmanın boynuna qoydum."

Bundan sonra insanlar Osmana beyət etməyə başladılar və minbərin yanında izdiham yaratdılar. Sonra Abdurrəhman Peyğəmbərin ﷺ oturduğu yerdə oturdu və Osmanı pilləkanın ikinci pilləsində oturtdu. İnsanlar da gəlib Osmana beyət etdilər. Hər kəsdən öncə Əli ibn Əbu Talib ﷺ beyət etdi. Bəziləri isə onun sonda beyət etdiyini demişlər.[1]

**2 – Osmanın ﷺ xəlifəliyi dövründə Əli ﷺ şəri cəzalar təyin edir və məsləhətlər verir:**

**a) Osmanın ﷺ dönəmində Əlinin ﷺ şəri cəzaları təyin etməsi:**

Rəvayət olunur ki, Hadin ibn Munzir demişdir: "Bir dəfə mən gördüm ki, Osmanın ﷺ yanına Valid adlı bir şəxsi gətirdilər. O sübh namazının iki rükətini qılıb bitirdikdən sonra belə demişdir: "Sizin üçün əlavə edimmi?" Sonra iki nəfər onun əleyhinə şahidlik etdi. Bu iki nəfərdin biri olan Həmran şahidlik etdi ki, həmin şəxs şərab içib, ikinci şəxs isə şahidlik etdi ki, onun qusduğunu görüb. Osman dedi: "Deməkşərab içdiyinə görə qusub." Sonra dedi: "Ey Əli, qalx bunu şallaqla." Əli dedi: "Ey Həsən, qalx onu şallaqla." Həsən dedi: "Qoy ondan ləzzət alan kəs bunu etsin." Sanki bu onun xoşuna gəlməmişdi. O dedi: "Ey Abdullah ibn Cəfər, qalx buna şal-

[1] İbn Kəsirin "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/144-147. Bu rəvayət daha əhatəli olduğu üçün onu qeyd etdik. Həmin rəvayət səhih mənbələrdə varid olmuş rəvayətlərə əsaslanır.

laq vur." O da qalxıb vurmağa başladı. Həmin vaxt Əli şallaqları sayırdı. Qırxa çatdıqda Əli dedi: "Bəsdir, Peyğəmbər ﷺ qırx ədəd şallaq vurardı. Əbu Bəkr də qırx ﷺ ədəd vurardı. Ömər isə səksən şallaq vurardı. Bunların hər biri sünnədir. Mənim üçün isə bu daha sevimlidir."[1]

Bu hədisdən götürülür ki, Əli ﷺ Osmana ﷺ yaxın birisi idi və ona Allaha itaət etməkdə kömək edirdi. Valid ibn Uqbə məsələsində Əli ﷺ Osmanı ﷺ müdafiə edərkən deyirdi: "Sizin Osmanda tutduğunuz ayıblar özünə qəsd etməyə bənzəyir. Osmanın nə günahı var, axı o həmin adamı etdiyi əmələ görə cəzalandırıb, işindən də azad edib. Bizim gördüyümüz işlərdən dolayı Osmanın nə günahı var?"[2]

Demək, Osmanın iki nəfərin şahidliyindən sonra Validi şərab içdiyinə görə cəzalandırması səhabələrin önündə baş vermişdi. Onlar da onun əməlini təsdiqləmişdilər. Həmin şəxslərdən biri də Əli ibn Əbu Talib olmuşdu. Elə isə Osmanda ayıb tutmaq nə dərəcədə düzgündür?!

**b) Osmanın ﷺ insanları bir qiraət üzərində toplamaq məsələsində Əlinin ﷺ rəyi:**

Osman ﷺ Quranın cəm olunması təklifini verdikdə Əli ﷺ buna razılıq verən səhabələrin önündə idi. Bu şəxslər ümmətin ən saf şəxsiyyətləri və hidayət rəhbərləri idi. Osman, məsələ ilə bağlı səhabələrlə məsləhətləşmiş və onların rəylərini almışdır. Onlar da onun bu fikri ilə tanış olmuşdular. Beləcə bu məsələ hər tərəfə yayılmışdı. Bu məsələdə həmin vaxt onlara qarşı çıxan olmamış və heç kim narazılığını bildirməmişdi. Quranın *Osman tərəfindən cəm olunması* nəinki alimlərə, hətta bütün fərdlərə bəllidir.[3]

---

[1] Muslim, Şəri cəzalar kitabı, şərab içənin cəzası fəsli, № 1707.

[2] Təbərinin "Tarix" əsəri, 2/612, "Təhqiq Məvaqif əs-Sahəbə fi əl-Fitnə, əsəri, 1/421.

[3] Sadiq Arcunun "Osman ibn Əffan" əsəri, səh. 175.

Sonradan Əli ﷺ bu məsələdə Osmana eyib tutanlara bunu qadağan edər və deyərdi: "Ey insanlar, Osman barədə həddinizi aşmayın və onun barəsində yalnız xeyir söyləyin. Vallahi ki, onun Quranla bağlı etdiyi bizim – yəni səhabələrin – önümüzdə baş vermişdi. Vallahi ki, əgər mən xəlifə olsaydım mən də onun etdiyinin eynisini edərdim."[1]

**3 – Osmanın ﷺ qətli fitnəsində Əlinin ﷺ mövqeyi:**

**a) Fitnənin əvvəlində Əlinin ﷺ mövqeyi:**

Əli ﷺ hər zaman xəlifələrə eşidib itaət etmiş, məsləhət vermiş, nəsihət etmişdi. Osmana ﷺ da tabe olaraq çətin olsa belə ona itaətini bu sözləri ilə bildirmişdi: "Osman məni Sirar quyusuna[2] aparsa belə ona tabe olaram.[3]

Osmanın ﷺ qətlindən ay yarım öncə üsyançılar Zil Mərva adlanan yerdə yığışdıqda Osman onların yanına Əlini və rəvayətlərdə adı çəkilməyən başqa birisini göndərdi. Əli onlarla görüşüb dedi: "Allahın kitabını göstərin, qəzəbləndiyinizdə ayıb tutursunuz?" Onlar razılaşdılar.[4]

Başqa bir rəvayətə görə isə onlar iki-üç dəfə onunla mübahisə edib dedilər: "Rəsulullahın əmisi oğlu, möminlərin əmirinin elçisi sizə Allahın kitabını göstərir, qəbul edin." Onlar beş məsələdə razılaşdılar: Qovulmuş adamlar geri qaytarılsın, məhrumlara bir şey verilsin, qənimətə qənaət edilsin, bölgüdə ədalətli olunsun, əmanət və güc sahiblərindən istifadə edilsin, İbn Amir Bəsrəyə qaytarılsın, Əbu Musa Kufədə qalsın. Onlar bütün bunları bir məktuba yazdılar.[5]

---

[1] "Kitab əl-Məsahif" əsəri, səh. 97.

[2] Bu, İraq istiqamitində, Mədinədən üç mil uzaqlıqda yerləşən qədim su quyusudur.

[3] İbn Əbu Şeybənin "Musənnəf" əsəri, 7/523. Sənədi səhihdir.

[4] "Tarixi Diməşq" əsəri, 39/324, "Tarixi Xəlifə" əsəri, səh. 37.

[5] "Tarixi Diməşq" əsəri, 39/325.

Beləcə Osman ﷺ hər bir nümayəndə heyəti ilə ayrıca görüşdü və onlar öz diyarlarına qayıtdılar. Bu sülhdən sonra bütün heyətlər öz diyarına razı halda qayıtdı. Və məlum oldu ki, fitnə əhlinin qurduğu planlar uğursuzluqla üzləşmişdir. Çünki onlar öz hədəflərinə çata bilməmişdilər. Odur ki, onlar fitnəni yenidən alovlandırmaq üçün yeni bir plan hazırladılar ki, Osmanla heyətlər arasında əldə olunmuş sülhü pozsunlar. Aşağıda bu aydın olur:

Misir əhli geri qayıdarkən görürlər ki, bir nəfər dəvə ilə onlara tərəf qaçıb uzaqlaşır. Sanki məni tutun deyir. Onlar həmin adamı tutdular və ondan soruşurlar: "Sənə nə olub?" O dedi: "Mən möminlərin əmirinin Misir əhlinə göndərdiyi elçisiyəm." Onlar onun üzərinə baxış keçirdikdə üzərində Osmanın adından yazılmış bir məktub tapdılar. Məktubu açıb görürlər ki, orada yazılıb ki, bu adamların hamısı öldürülməli və ya çarmıxa çəkilməli, ya da əlləri və ayaqları kəsilməlidir. Bundan sonra onlar geri qayıtdılar və gəlib Mədinəyə çatdılar.[1]

Kufə əhli ilə Bəsrə əhli də geri qayıtdılar. Sanki onlar vədələşmişdilər. Əslində isə belə olmamışdı. Osman həmin məktubu yazmadığını bildirdi. Sonra dedi: "Bunun iki yolu var. Ya müsəlmanlardan iki nəfər *şahid* seçin, ya da Özündən başqa haqq məbud olmayan Allaha and içirəm ki, bunu mən yazmamışam, mən söyləməmişəm və mənim bundan xəbərim yoxdur. Ola bilsin ki, kimsə mənim adımdan məktub yazıb və mənim üzüyümün oxşarından möhür düzəltdirib." Lakin onlar Osmana inanmadılar.[2]

Əli ibn Əbu Talib ﷺ Osmana ﷺ qarşı qurulmuş bu məkrli oyunun fərqinə vardı və buna aydın dəlillər gətirdi. Əli ﷺ onlara belə dedi: "Ey Kufə əhli, ey Bəsrə əhli, Misir əhlinin başına gələnləri haradan bildiniz? Axı siz buradan uzaqlaşmışdınız? Sonra geri qayıtdınız. Vallahi ki, bu Mədinədə hazırlanmış bir işdir."[3]

---

[1] Təbərinin "Tarix" əsəri, 2/655-656.

[2] Təbərinin "Tarix" əsəri, 2/656, "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/174.

[3] Təbərinin "Tarix" əsəri, 2/653.

**b)Mühasirə əsnasında Əlinin mövqeyi:**

Əli Osmanı ən çox müdafiə etmiş kəslərdən biri idi. Buna Osman ibn Əffanın Əli ibn Əbu Talib ən yaxın adamı olan Mərvan ibn Həkəm də şahidlik etmişdi.[1] Həmin ağrılı günlərdə o, Osmanın yanında olmuşdu. Sonra Əli Osmanla məsləhətləşmədən Həsənlə Hüseyni böyük səhabələrin övladları ilə birlikdə Osmanı müdafiə etməyə göndərmişdi. Bu vaxt Həsən, Abdullah ibn Zubeyr və Mərvan ibn Həkəm yaralanırlar. İbn Əsakir Cabir ibn Abdullahdan rəvayət etmişdir ki, Əli Osmanın yanına adam göndərib soruşdu: "Mənim yanımda beş yüz zirehli adam var. İzin ver gəlim səni müdafiə edim. Sən qanını halal edəcək bir iş görməmisən." Osman dedi: "Allah səni xeyirlə mükafatlandırsın, istəmirəm ki, mənə görə qan axsın."[2]

Bir sıra rəvayətlər vardır ki, Əlinin mühasirə vaxtı Osmanın yanında durduğunu bildirir. Misal üçün üsyançılar Osmanın yanına su gətirilməsinə imkan vermirdilər. Hətta iş o yerə gəlib çatmışdı ki, Osmanın ailəsi az qala susuzluqdan ölsün. Bu vaxt Əli Osmanın evinə üç səhəng dolu su göndərir. Həmin suyun ona çatdırılması da olduqca çətin olur. Hətta Haşimi oğullarının və Umeyyə oğullarının azad etdikləri qullarından bir neçəsi suyu apararkən yaralanırlar. Lakin sonda suyu çatdırırlar.[3]

Hadisələr o qədər sürətlə baş verir ki, hətta üsyançılar Osmana hücum edib onu qətlə yetirirlər. Həmin vaxt səhabələrin çoxu məsciddə olur və xəbər gedib onlara çatdıqda onlar xəbərdən dəhşətə gəlirlər. Əli həm öz oğullarına, həm də qardaşı oğullarına belə deyir: "Siz qapıda durduğunuz halda Osman necə öldürülə bilər?" Hətta Əli Həsənə bir sillə çəkir. Həsən həmin vaxt yaralı idi.[4] Sonra o, Hüseynin sinəsindən vurur. İbn Zubeyrlə İbn Talhə-

[1] Zəhəbinin "İslam tarixi" əsəri, Raşidi xəlifələr, səh. 460-461. İsnadı güclüdür.
[2] "Tarixi Diməşq" əsəri, 39/398.
[3] əl-Bəlazrinin "Ənsab əl-Əşraf" əsəri, 2/284.
[4] İbn Əbu Asimin "əl-Əhad və əl-Məsani" əsəri, 1/86.

ni isə danlayır. Sonra Əli ﷺ qəzəbli şəkildə: "Allah sizi məhv etsin, Allahım Osmanın qanından, onun öldürülməsinə səbəbkar olmaqdan Sənə sığınıram." – deyərək evinə gedir.[1] Beləcə Əlinin mövqeyi hər zaman nəsihət və məşvərətdən, eşidib itaət etməkdən, fitnə vaxtı Osmanın ﷺ yanında möhkəm mövqedə dayanmaqdan, və onu qoruyanların *ən birincisi* olmaqdan ibarət idi. O, Osmanın barəsində heç vaxt pis söz söyləməmişdi. O, xəlifə ilə ona qarşı çıxanlar arasında islaha çalışmışdı. Lakin iş onun gücü yetəcək qədər deyildi və onun iradəsindən də xaric idi. İzzət və Cəlal Sahibi olan Allahın istəyi belə olmuşdu ki, Osman şəhadətə nail olsun.[2]

Əli ﷺ İbn Abbasla ﷺ Osman ibn Əffan barədə danışarkən onun əzəmətli mövqeyi aydın olur. O belə demişdir "Vallahi ki, müdafiə etməyimə baxmayaraq günah qazanmağımdan qorxdum."[3]

**4 – Əlinin ﷺ öz övladlarından birinə Osman ﷺ adı verməsi:**

Əbu Səid əl-Xudri ﷺ demişdir: "Bir dəfə mən Əli ibn Əbu Talibin yanından keçərkən onun yanında zülflü və saçları çiyinlərinə düşmüş bir uşaq var idi. Mən dedim: "Yanındakı bu uşaq kimdir?" O dedi: "Osman ibn Əlidir, mən ona Osman ibn Əffanın adını vermişəm. Başqa övladlarıma Ömər ibn Xəttabın, Peyğəmbərin ﷺ əmisi Abbasın, bəşəriyyətin ən xeyirlisi Muhəmmədin ﷺ adlarını vermişəm. Həsən, Hüseyn və Muhsinə gəlincə onlara bu adı Rəsulullah ﷺ vermiş, onların əqiqlərini kəsmiş, onların başını qırxmış və ağırlığında sədəqə vermişdi. Həmçinin əmr edərək onlara sünnət etdirmişdi."[4]

Buradan da bizlərə Əli ibn Əbu Talibl ə ﷺ Osman ibn Əffan ﷺ arasında nə qədər gözəl münasibətin olması bəlli olur. Belə ki, onların arasındakı əlaqə həm güclü, həm də sevgi, mərhəmət, vəfa

---

[1] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 7/518, isnadı səhihdir.
[2] Abdulhəmid Əlinin "Xilafətu Əli ibn Əbu Talib" əsəri, səh. 87.
[3] "Nəhc əl-Bəlağə" əsəri, 2/233.
[4] "Tarixi Diməşq" əsəri, 45/304.

və səmimiyyətlə dolu idi. Əli tam bir razılıqla Osmana beyət etmişdi. Bunun da əsas göstəricisi Əlinin Osmana dövlət işlərində yardım etməsi və fitnə zamanı onun yanında olması idi. Həmçinin Osmanın ölüm xəbərini eşitdikdə Həsəni danlaması da buna sübutdur. Həmçinin o, öz övladlarından birinə Osman adı verməklə ona olan sevgisini və yaxınlığını sübut etmişdir.

**5 – Əlinin ﷺ Osmanı ﷺ vəsf etməsi:**

Əli ﷺ Osman ibn Əffanı ﷺ tərifləyərək onu Rəsulullaha ﷺ yaxın bir səhabə kimi vəsf etmiş və demişdir:

"İnsanlar mənim arxamdadır, onlar məni səninlə onlar arasında sorğuladılar. Vallahi ki, bilmirəm sənə nə deyim, sənin bilmədiyin bir şey bilmirəm, sənin bilmədiyin bir işə səni yönəltmərəm. Bizim bildiyimiz bir şeyi sən də bilirsən. Səni hər hansı bir məsələdə ötüb keçməmişik ki, onun barəsində sənə xəbər verə bilək. Ayrıca bir iş də görməmişik ki, onu sənə xəbər verək. Sən də bizim gördüklərimizi görmüsən, eşitdiklərimizi eşitmisən, bizlər Rəsulullaha ﷺ səhabəlik etdiyimiz kimi sən də etmisən. Əbu Quhafənin oğlu ilə Xəttabın oğlu xeyir əməllərdə və haqda səninlə bir olublar. Hətta sən qohumluq baxımından Peyğəmbərə ﷺ o ikisindən daha yaxın olmusan. Sən onların nail olmadıqları bir şeyə nail olub Rəsulullahın ﷺ kürəkəni olmusan. Odur ki, sən nə kor olub sonradan görmüş, nə də cahil olub sonradan öyrənən olmusan."[1]

Allah Rəsulullahın ﷺ səhabələrindən razı olsun, onlar bir-birilərini sevir və öz aralarında mərhəmətli idilər. Onlar bir-birilərinin yerini və məqamını bilirdilər. Onlardan hər biri qardaşını özündən üstün tutur, ruhunu və qanını ona fəda edirdi. Axı onlar Peyğəmbər ﷺ məktəbinin tələbələri idi. O peyğəmbər ki, dünyaya mərhəmət, şəfqət, ədalət və insaf öyrətmişdi.

---

[1] "Nəhc əl-Bəlağə" əsəri, 2/30.

**Əli ibn Əbu Talibin ﷺ raşidi xəlifələr və səhabələr ﷺ barədə mövqeyi**

Əlinin ﷺ raşidi xəlifələr barədə mövqeyi ilə tanış olduqdan sonra heç deyə bilərikmi ki, Əli bəzi şeyləri üzə çıxarıb, bəzi şeyləri isə gizli saxlamışdır?! Allah qorusun, belə bir şey mümkün deyil. Əgər Əli ﷺ həqiqətən də bəzi şeyləri üzə çıxarıb, bəzi şeyləri gizlətmək istəsəydi o zaman onun *səhabələr barədə* insanlıq tarixinin heç vaxt unutmadığı bu mövdeyi olmazdı. Bu mömin və sadiq olan bir kəsin bütün etiraflardan öncə iman və sidq mövqeyi idi.

O, dünyadan üz döndərib orada zahid bir həyat yaşamışdı. O demişdi: "Vallahi, əgər mənə yeddi iqlim və onların içərisindəkilər verilsəydi ki, Allaha bir qarışqanı öldürməklə asi ol, mən bunu etməzdim. Şübhəsiz ki, sizin dünyanız mənim üçün çəyirtkənin ağzında olan onun yediyi yarpaq qədər də deyil."[1]

Bir qulaq as gör o, Cənnət ağsaqqallarının hörmətliləri olan Əbu Bəkr və Öməri ﷺ vəsf edərək onlar barədə nə demişdir. Onlar haqqında nalayiq ifadə işlədənlərə o, nə cür təpki göstərmişdir?

Suveyd ibn Ğaflə demişdir: "Mən bir neçə nəfərin yanından keçirdim... Onlar Əbu Bəkrlə Ömər barədə danışırdılar. Mən Əlinin yanına daxil olub dedim: "Ey möminlərin əmiri, mən sənin tərəfdarlarından bir neçə nəfərin yanından keçirdim, onlar Əbu Bəkrlə Ömər barədə nalayiq sözlər işlədirdilər. Yəqin sən gizlində onların söylədiklərini fikirləşirlər ki, onlar da belə bir cürət tapmışlar."

Əli ﷺ dedi: "Mən Əbu Bəkrlə Ömər barədə heç bir şey gizlətmirəm. Onlara qarşı bir şey gizlədənə Allah lənət eləsin. Mən onlar barəsində yalnız çox gözəl fikirdəyəm." Sonra onun gözləri yaşardı və qalxıb ağlamağa başladı. O, mənim əlimdən tutub məscidə apardı. Məscidə daxil olub minbərə qalxıb üzərində oturdu. O, ağ saqqalından tutub ona baxmağa başladı. Nəhayət insanlar onun ətrafına toplandıqdan sonra qalxıb müxtəsər və əhatəli xütbə verdi və dedi:

"İnsanlara nə olub ki, Qureyşin iki hörmətli şəxsləri və müsəlmanların iki rəhbəri barədə danışırlar! Mən onların söylədiklərin-

[1] "Nəhc əl-Bəlağə" əsəri, 2/218.

dən uzağam. Onların barəsində nalayiq söz söyləyənlərə cəza verərəm. Toxumu çatladan və insanı yaradan Allaha and olsun ki, onları yalnız Allahdan qorxan mömin olan kəs sevər, onlara yalnız günahkar olan pis insanlar nifrət edər. Onlar Rəsulullaha ﷺ sadiq və vəfalı olmuşdular. Onlar insanlara *yaxşı işləri* əmr edər, onları *pis işlərdən* çəkindirər və etdikləri hər bir işdə Rəsulullahın ﷺ rəyinə uyğun olanı edərdilər. Rəsulullah ﷺ da hər zaman onların fikirlərinə üstünlük verər, onları sevdiyi kimi heç kimi sevməzdi. Rəsulullah ﷺ onlardan razı halda dünyadan köçüb getdi. Onlar da dünyadan köçəndə möminlər onlardan razı idilər.

Rəsulullah ﷺ əmr etmişdi ki, Əbu Bəkr insanlara camaat namazı qıldırsın. Peyğəmbər ﷺ sağ ikən Əbu bəkr yeddi gün insanlara namaz qıldırdı. Allah Öz yanında olanları tərcih edib Peyğəmbərini ﷺ öz dərgahına apardıqda möminlər Əbu Bəkri rəhbər seçdilər və zəkatlarını ona verdilər. Çünki Rəsulullahla ﷺ Əbu Bəkr dost idilər. Sonra ona könüllü şəkildə beyət etdilər. Abdulmuttalib oğullarından ona ilk beyət edən mən olmuşam. O isə xəlifə olmaq istəmirdi. İstəyirdi ki, birimiz bunun qarşısını alsın. Vallahi ki, o, insanların ən xeyirlisi, ən mərhəmətlisi, ən ağıllısı, ən təqvalısı, ən yaşlısı və İslamı ilk əvvəl qəbul edəni idi. Mərhəmətli və ağıllı olduğu üçün Rəsulullah ﷺ onu Mikayıla, əfv edən və vüqarlı olduğu üçün İbrahimə bənzədərdi. O, Peyğəmbərin ﷺ yolunu bizim aramızda davam etdirdi.

Ondan sonra isə Ömər rəhbər oldu. İnsanlar arasında ondan razı olanı da var idi, olmayanı da. O, dünyadan köçdükdə isə razı olmayanlar da ondan razı oldular. O da Peyğəmbərin ﷺ və onun dostu Əbu Bəkrin yolunu davam etdirdi. Dəvənin balası anasının arxasınca getdiyi kimi, o da onların yolunu tutub getdi.

Vallahi ki, Ömər, rəhmli və mehriban idi, daim məzlumlara yardım və kömək edər, Allah xatirinə heç kəsin qınağından çəkinməzdi. Allah haqqı onun dilində bərqərar etmiş, sidqi isə əməllərində biruzə vermişdi. Hətta biz elə düşünürdük ki, mələk onun dilində danışır. Allah İslam dinini onun islamı qəbul etməsi ilə izzətləndirmişdi. Onun hicrəti də dini gücləndirmişdi. Allah münafiqlərin qəl-

binə ondan qorxu, möminlərin qəlbinə isə ona qarşı məhəbbət salmışdı. Rəsulullah ﷺ onu düşmənlərinə qarşı şiddətli və kobud olduğu üçün Cəbrayıla bənzədərdi. Həmçinin qəzəbinə görə Nuha bənzədərdi. Çətin anlarda olub Allahın itaətində durmağı xoş anlarda olub Allaha asi olmaqdan üstün tutardı. Heç onların bənzəri sizin aranızda varmı? Allah bizləri onların yolunu getməyə müvəffəq etsin. Onların qazandıqlarını yalnız onların yolunu getməklə və onları sevməklə əldə etmək olar.

Qoy məni sevən hər kəs onları da sevsin. Onları sevməyən kəs məni qəzəbləndirər. Belə adamdan mən uzağam. Onlarla bağlı kiminsə danışdığı mənə gəlib çatsa həmin adamı ən şiddətli şəkildə cəzalandıraram. Lakin gərək xəbərdarlıq etmədən cəza verməyim. Bu gündən etibarən onlar barədə kim nalayiq söz işlədərsə ona iftira yaxmış kimsəyə verilən cəzanı verərəm. Bilin və ağah olun, Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən xeyirliləri Əbu Bəkr və Ömərdir. İstəsəniz üçüncünün də kim olduğunu deyərəm. Həm özüm üçün, həm də sizin üçün Allahdan bağışlanma diləyirəm."[1]

Əli ‎رضي الله عنه‎ səhabələri vəsf edərək demişdir:

"Mən Muhəmmədin ﷺ səhabələrini görmüşəm, onlara bənzəyən başqa birisini görməmişəm. Onlar səhər torpağa batmış şəkildə yuxudan oyanar, gecəni isə səcdədə və qiyamda keçirərdilər. Onlar cübbələrinin üzərinə yanaqlarını qoyar, axirəti yada salaraq od üstündə durmuş kimi durardılar. O qədər səcdədə dayanardılar ki, alınlarının ortasında keçinin yəhər izinə bənzər nişanə olardı. Allah zikr olunduqda onların gözləri yaşarar və sinələri nəmlənərdi. Əzabdan qorxub savab əldə etməkdən ötrü şiddətli külək vaxtı ağaclar əyildiyi tək əyilərdilər."[2]

Bu sözlərdən sonra Əlinin ‎رضي الله عنه‎ Peyğəmbərin ﷺ səhabələrini nə qədər sevməsinə şübhə qala bilərmi?! Təbii ki, xeyr.

---

[1] Diya əl-Məqdisinin "ən-Nəhyu an Səbbi əl-Əshab" əsəri, səh. 7-8.

[2] "Nəhc əl-Bəlağə" əsəri, 1/19.

# Əli ibn Əbu Talibin رضي الله عنه xilafəti

**Əliyə رضي الله عنه beyət:**

Əli رضي الله عنه seçim yolu ilə xəlifə seçilmişdi.[1] Belə ki, Peyğəmbərin ﷺ Mədinədə qalmış bütün səhabələri Əliyə رضي الله عنه beyət edirlər. Çünki həmin vaxt ondan daha fəzilətli bir kimsə yox idi. Osmanın vəfatından sonra heç kim xəlifə seçilmək istəyində deyildi. Əbu Sibteyn Əli رضي الله عنه də xəlifə olmağa həris deyildi. Ona görə də o, Mədinədəki səhabələrin israrından sonra xəlifəliyi qəbul etdi.[2]

Salim ibn Əbu Cəad Muhəmməd ibn Hənəfiyyənin belə dediyini rəvayət etmişdir: "Osman رضي الله عنه qətlə yetirildikdə mən Əli ilə birlikdə idim. O, qalxıb mənzilinə daxil oldu. Peyğəmbərin ﷺ səhabələri onun yanına gəlib dedilər: "Bu kişi artıq dünyasını dəyişib, müsəlmanların isə rəhbərə ehtiyacları var. Xilafətə səndən daha layiqli, daha təcrübəli və Rəsulullaha ﷺ daha yaxın birisini görmürük."

Əli رضي الله عنه dedi: "Belə etməyin, mən əmir olmaqdansa daha yaxşı vəzir olaram." Səhabələr dedilər: "Vallahi ki, yox, sənə beyət etməyənədək əl çəkən deyilik." Əli dedi: "Elə isə məsciddə olsun. Mənə beyət gizli olmamalıdır. Habelə beyət müsəlmanların razı olduğu kəsə olmalıdır." Salim ibn Əbu Cəad dedi: "Bu vaxt Abdullah ibn Abbas dedi: "Mən onun məscidə getməsinin əleyhinə idim, qorxurdum ki, onun üzərinə hücum olar. Lakin o, məscidə getməyi israr etdi. Məscidə daxil olduqdan sonra mühacirlər və ənsarlar, daha sonra da digərləri gəlib ona beyət etdilər."[3]

Əli رضي الله عنه xəlifənin seçkilər yolu ilə seçilməsinin şəriətə uyğun olduğu və ümumən xəlifə seçmək məsələsində səmavi bir dəlilin olmadığı barədə demişdir:

"Əbu Bəkr, Ömər və Osmana beyət edənlər nə üzərinə beyət etmişdilərsə mənə də beyət etdilər. Şahid olan kəsin seçim imkanı, iş-

---

[1] İbn Sədın "ət-Təbəqat" əsəri, 3/31.

[2] "Əqidətu Əhli əs-Sunnə fi əs-Səhabəti əl-Kiram" əsəri, 2/677.

[3] Əbu Bəkr əl-Xalləlin "Kitab əs-Sunnə" əsəri, 2/417.

tirak etməyənin isə etiraz etmə imkanı yox idi. Şübhəsiz ki, şura mühacir və ənsarlara aid idi. Əgər onlar yekdil rəylə kimisə rəhbər saysaydılar həmin iş Allahın razılığı hesab olunardı. Əgər onlardan kimsə rəğbət və ya tənə ilə onun əmrindən çıxarsa, onu haqqa qaytarardılar. Razı olmadığı təqdirdə isə möminlərdən qeyrisinin yoluna tabe olduğu üçün ona qarşı vuruşardılar."[1]

**Əlinin ﷺ verdiyi ilk xütbə:**

Möminlərin əmiri Əli ﷺ xəlifə seçildikdən sonrakı ilk xütbəsində belə demişdi: "İzzət və Cəlal Sahibi olan Allah hidayət verən bir kitab nazil etmiş, orada xeyri və şəri bəyan etmişdir. Odur ki, xeyiri götürüb şəri tərk edin. Nöqsansız olan Allahın fərzlərini yerinə yetirin ki, O sizi Cənnətə daxil etsin. Şübhəsiz ki, Allahın haram buyurduqları bəllidir. Lakin O, müsəlmanın toxunulmazlığını bütün haramlardan üstün buyurmuşdur. Həmçinin O, müsəlmanlara ixlaslı şəkildə tövhid üzərində olmağı buyurmuşdur. Müsəlman o kəsdir ki, digər müsəlmanlar haqq istisna olmaqla onun dilindən və əlindən salamat olsun. Vacib olanlar istisna olmaqla müsəlmana əziyyət vermək olmaz. İnsanların işlərini görməyə tələsin..., İnsanlar sizin önünüzdədir, arxanızda isə bir saat vardır ki, sizlərə meydan oxuyur. Yüngülləşdirin ki, muradınıza çatasınız, şübhəsiz ki, insanlar axirətlərini gözləyərlər. Allahın bəndələri və ölkələri xüsusunda Ondan qorxun. Sizlər ərazilər və heyvanlara görə də məsuliyyət daşıyırsınız. İzzət və Cəlal Sahibi olan Allaha itaət edin və Ona asi olmayın. Xeyri gördükdə onu götürün, şəri gördükdə isə onu tərk edin: **"Yadınıza salın ki, bir vaxtlar siz yer üzərində zəif idiniz."**[2] [3]

Əlinin ﷺ beyəti müsəlmanların xəlifəsinin kor-koranə şəhid edilməsi fitnəsindən sonra baş vermişdi. O, müsəlmanları xeyirə çağırıb şərdən çəkindirdi. Onlara bəyan etdi ki, müsəlmanın toxu-

[1] "Nəhc əl-Bəlağə" əsəri, 3/7.
[2] "əl-Ənfal" surəsi, 26.
[3] Təbərinin "Tarix" əsəri, 2/701.

nulmazı bütün haramlardan daha önəmlidir. Müsəlmana heç bir halda əziyyət vermək olmaz. Sonra onlara ölümü və axirəti xatırlatdı və onları təqvaya, itaətə və saleh əməllər görməyə təşviq etdi.[1]

Xütbə müxtəlif əqidə, ibadət və əxlaq mövzularından ibarət idi. Həmçinin orada bəzi şəri məqsədlərə də önəm verilmişdi. Biz onun insanlar üçün hazırladığı xütbəni ixtisara salmaq istəsək belə deyərdik: "O, insanlara demək istəyirdi ki, Rəsulullahın ﷺ və raşidi xəlifələrin zamanındakı əhdinizə qayıdın.[2] Habelə möminlərin əmiri yeni xilafət dövründə insanların gedəcəkləri yolu hikmət və bəlağətlə onlara çatdıraraq belə demişdir: "Xeyiri harada görsəniz götürün, şəri harada görsəniz onu tərk edin."

Sonra o, insanların bilməli olduqları ayəni qeyd etməklə xütbəsini tamamlayır. Belə edir ki, onlar İslamdan öncəki vaxtları ilə uzun müddət sonra İslamdan sonrakı vaxtlarını müqayisə edə bilsinlər. O zaman onlar sayca az, zəif və azğın vəziyyətdə idilər. Onların misalı quşların götürüb apardığı bir parça ətə bənzəyirdi. İslamdan sonra isə onlar güc, var-dövlət, əmin-amanlıq, sülh, bolluq, rifah, zənginlik və bir sıra nemətlər əldə edirlər. Onların nemətləri artmış, bayraqları ucalmış, insanlar və ölkələr onlar üçün yaxınlaşmışdı.[3]

**Hökm xüsusunda Əli ibn Əbu Talibin ﷺ mənhəci:**

Bəzi rəvayətlərdə varid olmuşdur ki, Əli ﷺ öz beyəti üçün bəzi şərtlər irəli sürmüşdü. Həmin şərtlər bunlar idi: Beyət gizli deyil, məsciddə, hər kəsin önündə, müsəlmanların razılığı ilə baş verməli idi. Həmçinin o, müsəlmanları doğru bildiyi şəkildə idarə edəcəkdi. İnsanlar beyət etmək üçün razılaşıb növbəti günün səhərini vədələşdilər.[4] Həmin gün olduqca qətiyyətli və möhtəşəm bir gün idi. Möminlərin əmiri libasını geyinib insanların qarşısına çıxmışdı. Sonra o, Allaha həmd sənalar etdikdən sonra insanların ona etdikləri

---

[1] Nayif Mərufun "əl-Ədəb əl-İslami" əsəri, səh. 57.

[2] ən-Nəccarın "əl-Xuləfə ər-Raşidun" əsəri, səh. 378.

[3] Nədəvinin "əl-Murtəda" əsəri, 153.

[4] Təbərinin "Tarix" əsəri, 2/697; "Dirasət Fi Əhd ən-Nubuvva" əsəri, səh. 281.

təklifləri qeyd edərək dedi: "Mən bu işə razı deyildim, siz isə təkidlə mənim rəhbər olmalı olduğumu bildirdiniz. Bilin ki, mən sizsiz bu işin öhdəsindən gələ bilmərəm və bilin ki, mal-dövlətinizin açarları məndədir, mən sizin iştirakınız olmadan ondan bir dirhəm belə götürə bilmərəm."[1]

Sonra dedi: "Ey insanlar, bu sizin işinizdir, sizin əmr etdiyiniz kəslərdən savayı heç kimin bu işdə haqqı yoxdur. Dünən biz ayrıldıqda bu məsələdə artıq bir qərara gəldik. İstəyirsinizsə sizin üçün oturum *və gəlib mənə beyət edəsiniz*. İstəmirsinizsə *bilin ki,* mən heç kimi qınamaram."[2] Sonra o, sənini qaldırıb dedi: "Razı qaldınızmı?" Onlar dedilər: "Bəli." Əli dedi: "Allahım şahid ol." Sonra insanlar gəlib beyət etdilər. Beyətdən sonra möminlərin əmiri dedi: "Ey insanlar, səhabələrim mənə nə üçün beyət etdilərsə, siz də onun üçün beyət etdiniz. Beyət etdikdən sonra isə sizin seçim ixtiyarınız yoxdur. Elə isə rəhbər olan kəs doğru yolda olmalı, rəiyyət isə ona təslim olmalıdır." Bu, *Əliyə olan* ümumi beyət idi...[3]

O, bu mənhəci qoydu ki, hökm xüsusunda bu yolla getsin. Bu da aşağıdakı bəndlərin əsasında baş vermişdi:

**a) Rəhbərlərə nəzarət etmək xüsusunda ümmətin haqqını təsdiq etməsi:**

Əli ﷺ xəlifə seçildikdən sonra onun ilk sözləi belə olmuşdu: "Ey insanlar, bu sizin işinizdir, sizin əmr etdiyiniz kəslərdən savayı heç kimin bu işdə haqqı yoxdur. Bilin ki, mən sizsiz bu işin öhdəsindən gələ bilmərəm."[4] Bu sözlər Əbu Bəkrin ﷺ xəlifə seçilərkən söylədiklərinin eynisi idi. O demişdi: "Yaxşılıq etsəm mənə yardımçı olun, səhvim olsa onu düzəldin."[5] Ömər ﷺ isə belə demişdir: "Mə-

---

[1] Təbərinin "Tarix" əsəri, 2/697.

[2] Təbərinin "Tarix" əsəri, 2/700.

[3] İbn Hibbanın "əs-Siqat" əsəri, 2/267.

[4] Təbərinin "Tarix" əsəri, 2/697-700.

[5] İbn Hişamın "Siyra" əsərində deyildiyi kimi bunu İbn İshaq "Siyra" əsərində rəvayət etmişdir, 6/82; İbn Kəsir demişdir: "İsnadı səhihdir". "əl-Bidayə və ən-Nihayə" əsəri, 5/248.

nim üçün ən çox sevimli kəs mənim ayıblarımı mənə bildirən kəsdir."[1] Həmçinin demişdir: "Qorxuram ki, mən səhv etdikdə məndən qorxub heç kim həmin səhvimi düzəltməyə."[2] Həmçinin Osman demişdir: "Allahın kitabında rast gəlsəniz ki, mənim ayağımı bağlamaq lazımdır, gəlin ayağımı bağlayın."[3]

Beləliklə raşidi xəlifələrin zamanında ümmətin öz rəhbərlərinə nəzarət etmə haqqına rəhbər təslim olmalı idi. Bu məsələni heç kim inkar etməmişdi. Bu da həmin məsələdə icmanın olmasına dəlalət edir.[4]

**b) Şura:**

Şura Qurani Kərimdə buyurulmuş ilk və əsas islami bir prinsipdir. Aləmlərin Rəbbi olan Allah öz Rəsuluna xitabən buyurur: **"İşlərində onlarla məşvərət et."** Bunu Peyğəmbər öz həyatında tətbiq etmiş və raşidi xəlifələr də ona tabe olmuşdu.

Əli ibn Əbu Talib də bu işdən uzaq deyildi. O, öz işlərini şura ilə həll edər, qərarlarını onlarla məsləhətləşərək verərdi. Misal üçün xəvariclərdən olan əl-Xarit ibn Raşidə qarşı vuruşmaq tapşırığı almış Məqil ibn Qeys ər-Riyahidən ona məktub gəldikdə o dostlarını bir yerə yığıb məktubu onlara oxudu. Onlarla məsləhətləşərək onların fikrini öyrəndi. Onlar da yekdil bir rəyə gəldilər ki, Məqil ibn Qeysə yazmaq lazımdır ki, fasiqin izini arasın və onu qətlə yetirənə və ya sürgün edənədək ondan əl çəkməsin. Biz imkan verə bilmərik ki, insanlar sənin işlərinə maneçilik törətsinlər.[5]

Həmçinin rəvayət olunur ki, Əli şura barədə demişdir: "Məsləhətləşmək hidayətin özüdür, öz rəyi ilə kifayətlənən təhlükə ilə üzləşər."[6] Həmçinin demişdir: "Məsləhətləşmək necə də gözəl

---

[1] İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, 3/293.

[2] "Nizam əl-Hukm Fi Ahdi əl-Xuləfə ər-Raşidin" əsəri, səh. 179.

[3] Əhmədin "Musnəd" əsəri, № 524. Şeyx Şueyb onu səhih hesab etmişdir.

[4] Fəthi Abdulkərimin "əd-Dəulətu Və əs-Siyadətu Fi əl-Fiqhi əl-İslami" əsəri, səh. 378.

[5] Təbərinin "Tarix" əsəri, 3/144.

[6] əl-Məvurdinin "Ədəb əd-Dunyə və əd-Din" əsəri, səh. 381; "əl-Mustətraf" əsəri, səh. 167.

bir dəstəkdir, həmçinin öz rəyi ilə kifayətlənmək necə də pis bir hazırlıqdır."[1] Həmçinin demişdir: "Ağsaqqalın rəyi uşağın görüşündən üstündür."[2]

**c) Ədalət və *hüquq* bərabərliyi:**

Əli ﷺ insanlar arasında ədalətin bərqərar olmasını bacarmışdı. O, özündə bütün müsbət keyfiyyətləri, elmi və fiqhi birləşdirməklə bu işin öhdəsindən ən mükəmməl şəkildə gəlirdi. Təsadüfi deyil ki, Peyğəmbər ﷺ ona etibar etdiyinə və onun bacarığına güvəndiyinə görə onu Yəmənə qazi olaraq göndərmişdi.[3]

Peyğəmbər ﷺ onun üçün bu əzəmətli duanı etmişdi: "Allahım onun dilini sabit et, qəlbinə isə hidayət ver."[4] Ona görə də onun ədalətlə hökm verməsi, ədaləti qayə və hədəflərin əsası kimi götürməsi də təbii idi. Çünki məhz ədalətin sayəsində işlər səhmana salınır, rəiyyət arasında isə mehribançılıq yaranır.[5]

Rəvayət olunur ki, Şureyh demişdir: "Əli ﷺ Müaviyə ﷺ ilə döyüşə gedərkən öz zirehini itirmişdi. O, döyüşdən sonra Kufəyə qayıtdıqda gördü ki, onun zirehini bir yəhudi bazarda satır. Əli ﷺ yəhudiyə dedi: "Ey yəhudi, bu mənim zirehimdir, mən onu heç kəsə hədiyyə etməmişəm, nə də satmamışam." Yəhudi isə dedi: "Bu mənim zirehimdir və mənim əlimdədir." Əli ﷺ dedi: "Gedək qazinin yanına." Onlar Şureyhin yanına gəldilər. Əli ﷺ Şureyhin yanında oturdu, yəhudi isə onun önündə əyləşir.

Şureyh dedi: "Ey möminlərin əmiri, buyur." Əli ﷺ dedi: "Bəli. Mən iddia edirəm ki, yəhudinin əlində olan bu zireh mənə məxsusdur. Mən onu nə kiməsə satmışam, nə də hədiyyə etmişəm." Şureyh dedi: "Ey möminlərin əmiri, sübut gətir." Əli dedi: "Yaxşı, Qənbər[6],

---

[1] "Nihayətu əl-Ərab" əsəri, 6/64.

[2] "Nihayətu əl-Ərab" əsəri, 6/70.

[3] Əbu Davudun "Sunən" əsəri, № 3582; İmam Əhmədin "Musnəd" əsəri, № 1280. Şeyx Albani onu həsən hesab etmişdi.

[4] "Fədail əs-Sahəbə" əsəri, 2/871, № 1195. İsnadı həsəndir.

[5] "Nizam əl-Hukm Fi Ahdi əl-Xuləfə ər-Raşidin" əsəri, səh. 141.

[6] Əlinin ﷺ azad etdiyi köləsi idi.

Həsən və Hüseyn şahiddirlər ki, bu mənim zirehimdir." Şureyh dedi: "Oğulun ata üçün şahidliyi qəbul olunmur." Əli ﷺ dedi: "Cənnət əhlindən olan bir kəsin şahidliyi qəbul olunmur? Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Həsənlə Hüseyn Cənnət əhlinin gənclərinin hörmətliləridirlər."

Yəhudi dedi: "Möminlərin əmiri məni özünün *təyin etdiyi* qazisinin yanına apardı, onun qazisi isə onun əleyhinə hökm verdi? Şahidlik edirəm ki, bu haqdır, Şəhadət verirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur və Muhəmməd onun rəsuludur. Zireh sənə məxsusdur. Sən Siffin döyüşünə gedərkən kül rəngli dəvənə minmişdin, gecə vaxtı sənin zirehin yerə düşdü və mən də onu götürdüm." Əli ﷺ dedi: "Düzünü söylədiyin üçün onu sənə verirəm." Sonra onu atın üzərinə qaldırdı. Mən həmin yəhudinin Əli ﷺ ilə birlikdə xəvariclərə qarşı Nahrəvan döyüşündə iştirak etdiyini gördüm."[1]

**d) Azadlıqlar:**

Raşidi xəlifələrin dövründə azadlıq prinsipi o dövrün hökmünün əsasını təşkil edirdi. Həmin vaxt İslam şəriəti çərçivəsində, ona zidd olmamaq şərtilə insanlar arasında azadlıqlara zəmanət verilirdi. Möminlərin əmiri Əli ﷺ də azadlıqları müdafiə edirdi. Onun tutduğu mövqe islam cəmiyyətində azadlıq prinsipinə xidmət edirdi.

İstər tabeçiliyində olanlar olsun, istərsə də rəqibi olsun, Əli ﷺ heç kimin azadlığını məhdudlaşdırmırdı. Onun dönəmində heç kəs onun rəhbərliyi altında yaşamağa və ya oradan çıxmağa məcbur edilmirdi. Hətta onunla birlikdə düşmənlərə qarşı vuruşmağa belə heç kəs məcbur edilmirdi. O, heç kəsi Müaviyəyə qarşı vuruşmağa məcbur etməmişdi.

Həmçinin o, Abdullah ibn Məsudun ﷺ, Ubeydə Salmaninin, Rabi ibn Xeysəmin də tərəfdarlarının azadlıqlarını məhdudlaşdırmamışdı. Onlar Şam əhli ilə vuruşmaqdan imtina etdikdə onları

---

[1] "Hilyətu əl-Əvliya" əsəri, 4/139-140; "əl-Əmali əş-Şəcəriyyə" əsəri, 1/443.

özü ilə həmin döyüşə getməyə məcbur etməmişdi. Əksinə onların istəklərinə uyğun olaraq çıxıb getmələrinə icazə vermişdi.

Sıffin döyüşündən sonra hökm məsələsində xəvariclər ona qarşı üsyan qaldırdıqda o, heç kəsi onun rəhbərliyi altında qalmağa və ya çıxmağa məcbur etməmişdi. Əksinə öz tərəfdarlarına əmr etmişdi ki, yer üzərində fəsad törətmədikləri və müsəlmanlara qarşı düşmənçilik etmədikləri müddətdə onlara dəyməsinlər.[1] Əli ﷺ onlara belə demişdir: "...Sizin üç haqqınız var, sizə bu məsciddə namaz qılmağa qadağa qoymuruq, nə qədər ki, əliniz bizim əlimizin üstündədir qənimətdən olan payınızdan sizi məhrum etmirik, bizə qarşı vuruşmadıqca sizə qarşı vuruşmarıq."[2]

**Əbu Sibteyn Əli ibn Əbu Talibin ﷺ dövlətinin ən ali məxəzləri:**

Əbu Sibteyn Əli ibn Əbu Talibin ﷺ idarə etdiyi dövlətin ali mənbələri Allahın kitabı, Peyğəmbərin ﷺ sünnəsi və iki şeyx Əbu Bəkrlə Ömərin ﷺ yolu idi.

**Birinci məsdər:** Allahın kitabıdır. Uca Allah buyurur: **"Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, insanlar arasında Allahın sənə vəhy etdiyi ilə hökm verəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma."[3]** Şəkk yoxdur ki, Allahın kitabı həyatın bütün sahələrindəki şəri hökmləri özündə ehtiva edir. Həmçinin Allahın kitabı müsəlmanların öz dövlətlərini qurmaları üçün hansı əsaslara ehtiyacları olduqlarını da bəyan edir. Möminlərin əmiri Əli ibn Əbu Talib ﷺ demişdir: "Dininizə tabe olun, Peyğəmbərinizin ﷺ yolu ilə gedin, onun sünnəsinə tabe olun, ixtilafa düşdükdə Qurana müraciət edin, Quranın buyurduğuna tabe olun, inkar etdiyini isə rədd edin."[4]

---

[1] "Nizam əl-Hukm Fi Ahdi əl-Xuləfə ər-Raşidin" əsəri, səh. 159.

[2] Təbərinin "Tarix" əsəri, 3/115; İbn Əbi Şeybənin "əl-Musənnəf" əsəri, 7/562; Şafiinin "əl-Umm" əsəri, 4/136.

[3] "ən-Nisa" surəsi, 105.

[4] Təbərinin "Tarix" əsəri, 3/23.

**İkinci məsdər:** Pak sünnədir. İslamın təməl prinsipləri ona əsaslanır. Sünnənin sayəsində Qurani Kərimin icra və tətbiq hökmlərini anlamaq mümkündür. Əli ibn Əbu Talib ﷺ demişdir: "Peyğəmbərinizin ﷺ yolu ilə gedin. O, ən üstün yoldur. Peyğəmbərin ﷺ sünnəsinə tabe olun. Çünki o, ən ən üstün sünnədir."[1]

**Üçüncü məsdər:** Ondan əvvəl gəlmiş raşidi xəlifələrin sünnəsinə tabe olmaqdır. Rəsulullah ﷺ demişdir: "Məndən sonrakı iki nəfərin, Əbu Bəkrlə Ömərin yolu ilə gedin."[2] Əli ibn Əbu Talib ﷺ Əbu Bəkrlə Ömər ﷺ haqqında demişdir: "Toxumu çatladan və insanı yaradan Allaha and olsun ki, onları yalnız Allahdan qorxan mömin olan kəs sevər, onlara yalnız günahkar olan pis insanlar nifrət edər. Onlar Rəsulullaha ﷺ sadiq və vəfalı olmuşdular. Onlar insanlara *yaxşı işləri* əmr edər, onları *pis işlərdən* çəkindirər və etdikləri hər bir işdə Rəsulullahın ﷺ rəyinə uyğun olanı edərdilər. Rəsulullah ﷺ da hər zaman onların fikirlərinə üstünlük verər, onları sevdiyi kimi heç kimi sevməzdi. Rəsulullah ﷺ onlardan razı halda dünyadan köçüb getdi. Onlar da dünyadan köçəndə möminlər onlardan razı idilər."

Sonra o, söhbətinə davam edərək Əbu Bəkr ﷺ haqqında dedi: Vallahi ki, o, insanların ən xeyirlisi, ən mərhəmətlisi, ən ağıllısı, ən təqvalısı, ən yaşlısı və İslamı ilk əvvəl qəbul edəni idi. O, Peyğəmbərin ﷺ yolunu bizim aramızda davam etdirdi. Ondan sonra isə Ömər rəhbər oldu... O da Peyğəmbərin ﷺ və onun dostu Əbu Bəkrin yolunu davam etdirdi. Dəvənin balası anasının arxasınca getdiyi kimi, o da onların yolunu tutub getdi..."

Sonra dedi: "Heç onların bənzəri sizin aranızda varmı? Allah onların hər ikisinə rəhmət etsin! Allah bizləri onların yolunu getməyə müvəffəq etsin. Onların qazandıqlarını yalnız onların yolunu getməklə və onları sevməklə əldə etmək olar. Qoy məni sevən hər kəs

---

[1] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/308.

[2] Əhmədin "Musnəd" əsəri, № 23293; Tirmizinin "Sunən" əsəri, № 3662, Şeyx Albani "Silsilətu əl-Əhadis əs-Səhihə" əsərində onu səhih hesab etmişdir, 3/233.

onları da sevsin. Onları sevməyən kəs məni qəzəbləndirər. Belə adamdan mən uzağam."[1]

Həmçinin Əli ﷺ Osman ibn Əffanın ﷺ ictihadlarını müdafiə edərək belə demişdir: "Ey insanlar, Osman barədə həddinizi aşmayın və onun barəsində yalnız xeyir söyləyin. Vallahi ki, onun Quranla bağlı etdiyi bizim – yəni səhabələrin – önümüzdə baş vermişdi. Vallahi ki, əgər mən xəlifə olsaydım mən də onun etdiyinin eynisini edərdim."[2] Həmçinin deyərdi: "Ömərin bağladığı düyünü mən əsla açmaram."[3]

**Əli ibn Əbu Talibin ﷺ xilafəti dövründə baş vermiş ən mühüm hadisələr:**

Əli ibn Əbu Talibin ﷺ xilafəti dövründə olduqca mühüm hadisələr cərəyan etmişdi. Həmin hadisələr təkcə onun dönəmindəkilərə deyil, İslam ümmətinin hamısını təsir etmişdir. Həmin hadisələrdən bəzilərini qeyd edək:

**1 – Cəməl döyüşü:**

Bu olduqca böyük bir hadisə idi və bu barədə həm səhih, həm də qeyri səhih rəvayətlər varid olmuşdur. Bu bəhsdə müxtəsər olaraq döyüşün iki əhəmiyyətli detalı barədə danışmaq istəyirik. Çünki bu iki detal barəsində çoxlu sayda təhriflər mövcuddur. Bu iki detal, döyüşün hadisələri və adlanma səbəbi, bir də həzrəti Əlinin ﷺ möminlərin anası Aişəyə ﷺ hörmət bəsləməsi.

**a) Döyüşdə *baş verən* hadisələr:**

Bu döyüş barədə bir sıra rəvayətlər vardır, həmin rəvayətlərdən bəzilərini qeyd edək:

Hafiz İbn Kəsir ﷺ demişdir: "Əliyə beyət olunduqdan sonra Talhə, Zubeyr və bir sıra böyük səhabələr Əlinin ﷺ yanına daxil oldular və Osmanın qisasının alınmasını, onu qətlə yetirənlərin şəri

---

[1] əl-Laləkainin "Şərhu İtiqad Əhli əs-Sunnə və əl-Cəmaə" əsəri, № 4456.

[2] "Kitab əl-Məsahif" əsəri, səh. 98.

[3] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 6/357.

cəzaya məhkum edilmələrini tələb etdilər. Əli isə üzrxahlıq etdi ki, indi onların tərəfdarları çoxdur və indiki halda bunu edə bilməyəcək."[1] İbn Səd "ət-Təbəqat əl-Kubra" əsərində Əliyə beyət etmiş böyük səhabələrin adlarını, habelə Mədinədə olan bütün səhabələri qeyd etdikdən sonra demişdir:

"Talhə, Zubeyr çıxıb Məkkəyə Aişənin yanına getdilər.[2]

Sonra onlar Aişə ilə birlikdə Osmanın qanının qisasını tələb etmək üçün Məkkədən çıxdılar. Xəbər Əliyə ﷺ çatdıqda o, Mədinədən İraqa yola düşdü. Mədinədə isə öz yerinə Səhl ibn Huneyfi qoydu. Sonra ona məktub yazdı ki, o da gəlsin. Mədinəyə isə Əbu Həsən əl-Mazini rəhbərlik etdi. O, Zəqar deyilən yerə gəlib çatdı və Ammar ibn Yasiri və Həsən ibn Əlini Kufə əhlinin yanına göndərdi ki, onlara qoşulsunlar. Kufə əhli də onun yanına gəldilər və onlar birlikdə Bəsrəyə yola düşdülər. Talhə, Zubeyr, Aişə, Bəsrə əhlindən onlarla birlikdə olanlar və Cəməl hadisəsi günü orada iştirak edən digər adamlar *Bəsrəyə yaxın bir yerdə* qarşılaşdılar.

Onlar Bəsrəyə çatdıqda onların yanına *Əlinin ﷺ Bəsrəyə hakim təyin etdiyi* Osman ibn Huneyf çıxdı ki, nə istəyirsiniz?

Onlar dedilər: "Biz Osmanın qatillərini istəyirik."

O dedi: "Qoy Əli gəlsin sonra." Beləcə onları şəhərə daxil olmağa qoymadı.

Sonra *Bəsrədən* onların yanına Osmanın qətlində iştirak etmiş şəxslərdən biri olan Həkim ibn Cəblə yeddi yüz nəfərdən ibarət dəstə ilə çıxdı və onlara qarşı döyüşdü. Lakin məğlub oldular və onunla birlikdə olanların çoxu öldürüldü. Bəsrə əhlinin çoxu Talhə, Zubeyr və Aişənin tərəfinə keçdilər. Allah onların hamısından razı olsun.

Əli ﷺ eşidəndə ki, onun Bəsrədəki valisi Osman ibn Huneyflə Talhə, Zubeyr, Aişə və tərəfdarları arasında döyüş olub, Mədinə-

---

[1] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/228.

[2] Həmin vaxt Aişə ﷺ həcc mərasimini yerinə yetirmək üçün Məkkədə idi. Osmanın ﷺ şəhid olması hadisəsi də zil-hiccə ayının 18-i baş vermişdi. "ət-Təbəqat əl-Kubra" əsəri, 3/31.

dən Kufəyə çıxdı. Əli رضي الله عنه, on min nəfərlik ordu toplayıb Talhə ilə Zübeyrin رضي الله عنهما üzərinə hərəkət etdi.

Buradan bəlli olur ki, onlar Əliyə qarşı çıxmamışlar, *əksinə* Əli رضي الله عنه onların üzərinə qoşun yeritmişdir. Onların məqsədi Əli ilə vuruşmaq olmamışdı. Əgər onlar Əliyə qarşı çıxmış olsaydılar Bəsrəyə deyil, birbaşa Mədinəyə gedərdilər.

Talhə, Zubeyr, Aişə və onlarla birlikdə olanlar Əlinin xəlifəliyini keçərsiz hesab etməmiş, ona tənə vurmamış, onun barəsində nalayiq söz söyləməmiş və ondan başqasına beyət etməmişdilər. Onlar Bəsrəyə onunla vuruşmaq üçün də getməmişdilər, çünki həmin vaxt Əli رضي الله عنه heç Bəsrədə də deyildi.

Buna görə də Əhnəf ibn Qeys demişdir: "Osmanın mühasirəsindən sonra mən Talhə və Zubeyrlə görüşdüm və dedim: "Mənə nə əmr edirsiniz? Məncə Osman artıq öldürülüb."

Onlar dedilər: "Əlinin yanına get."

Əhnəf ibn Qeys deyir ki: "Osmanın ölümündən sonra mən Məkkədə Aişə ilə də görüşdüm və dedim: "Mənə nə əmr edirsən?"

O dedi: "Əlinin yanına get."[1]

**Döyüşdən öncə baş vermiş danışıqlar:**

Əli رضي الله عنه Qaqa ibn Amrı göndərdi ki, Aişə, Talhə və Zubeyrlə رضي الله عنهم danışsın. Aişə də Qaqaya səfərə çıxma səbəbini açıqladı, məqsədinin insanların arasını islah etmək olduğunu bildirdi. İmam Təbəri demişdir: "Qaqa çıxıb Bəsrəyə gəldikdə ilk öncə Aişənin رضي الله عنها yanına getdi və ona salam verib dedi: "Anacan, səni bu diyara gətirən nədir?" Aişə رضي الله عنها dedi: "Oğlum, insanların arasını islah etmək üçün gəlmişəm." Qaqa dedi: "Talhə ilə Zubeyrin yanına adam göndər ki, onlar da bura gəlsinlər və sən həm məni, həm də onları dinlə." Aişə رضي الله عنها onların yanına adam göndərdi və onlar gəlib çıxdılar. Qaqa dedi: "Mən möminlərin anasından soruşdum ki, bu diyara nə üçün gəlib. O da cavabında dedi ki, insanların arasını islah etmək üçün

[1] Təbəraninin "Tarix" əsəri, 3/34, Hafiz İbn Həcər "əl-Fəth" əsəri, 13/34, İsnadı səhihdir.

gəlib. Bəs siz nə deyirsiniz? Onunla razısınız yoxsa yox?" Onlar dedilər: "Biz onula razıyıq." Qaqa dedi: "Mənə xəbər verin görək bu islah necə olacaq? Əgər bilsək biz də islah edəcəyik. İnkar etmiş olsaq islah etməyəcəyik." Onlar dedilər: "Bu adamlar Osmanı qətlə yetiriblər..." Sonra dedilər: "Demək hər şeydən agah oldun, əgər Əli də gəlib sənin kimi bizimlə razılaşsa işlər düzələr." Qaqa Əlinin yanına qayıtdı və məsələ barədə ona xəbər verdi. Bu Əlinin xoşuna gəldi. Onlar sülh bağladılar. Bəzi insanların bu xoşuna gəldi, bəzilərinin isə yox."[1] Beləcə bir tərəfdən Qaqa, digər tərəfdən Talhə, Zubeyr və Aişə döyüşün olmaması barədə razılığa gəldilər. Hər tərəf də öz fikrini bildirdi.

Talhə, Zubeyr, Aişə və tərəfdarlarının fikri belə idi ki, Osmanı qətlə yetirənləri azad buraxmaq olmaz. Lakin Əlinin fikri belə idi ki, hal-hazırda onlara bir şey etmək məsləhət deyil. Bir az gözləmək lazımdır. Lakin onlar nəticə etibarı ilə Osmanı qətlə yetirənlərin öldürülməsi məsələsində eyni fikirdə idilər. Sadəcə bunun baş vermə vaxtında ixtilaf etdilər.

İttifaq gəldikdən sonra hər iki ordu gecəni rahat yatdı. Osmanı qətlə yetirmiş Səbailər isə gecəni narahat keçirdilər. Çünki hər iki tərəf onların qətlə yetirilməsində ittifaq etmişdilər. Bu döyüşü qələmə alan məşhur tarixçilər, məsələni bu cür qeyd etmişdilər. Təbəri[2], İbn Kəsir[3], İbn əl-Əsir[4], İbn Həzm[5] və başqaları.

Bu vaxt Səbailər söz verirlər ki, bu ittifaqın alınmaması üçün çalışsınlar. Səhər camaat yatdığı zaman bir qrup Səbai Talhə və Zubeyrin ordusuna hücum edib onlardan bir neçə nəfəri öldürdülər və qaçdılar. Talhənin ordusu da elə bildi ki, Əlinin ordusu anlaşmasını pozub. Səhər onlar Əlinin ordusu ilə mübahisə etməyə baş-

---

[1] Təbərinin "Tarix" əsəri, 3/29.
[2] Təbərinin "Tarix" əsəri, 3/39.
[3] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/240.
[4] "əl-Kamil fi ət-Tarix" əsəri, 3/120.
[5] "əl-Faslu fi əl-Miləli və əl-Əhvai və ən-Nihəl" əsəri, 4/293.

ladılar. Əli isə əksinə güman etdi ki, Talhə ilə Zubeyrin ordusu anlaşmanı pozub. Beləcə iki ordu arasında mübahisə qızışmağa başladı. Günorta vaxtı mübahisə döyüşə çevrildi.

**Döyüşün dayandırılmasına cəhdlər:**

Hər iki ordunun rəhbərləri döyüşü saxlamağa cəhd etdi. Lakin alınmadı. Talhə deyirdi: "Ey insanlar, sakit olacaqsınızmı?" İnsanlar isə ona qulaq asmadılar. O dedi: "Of, of, od pərvanələri, yeməyə yığışan milçəklər."[1] Əli də insanları sakitləşdirməyə cəhd edirdi, lakin onlar qulaq asmırdılar. Bu vaxt Aişə Kəb ibn Suru əlində Quran göndərdi ki, döyüşü dayandırsın. Səbailər isə onu nizə ilə vurub qətlə yetirdilər.

Demək müharibə alovlandıqda onu heç kim dayandıra bilmir. Buxari bu xüsusda İmru Qeysin bir neçə beyt şeirini qeyd etmişdir:

Müharibə yenicə başladıqda,
Öz zinəti ilə gəzən gənc qıza bənzər.
Onun alovları yanmağa başladıqda isə,
Cavan deyil qoca birisinə bənzər.
Onun rəngi dəyişməyə başlayar,
Onu qoxlamaq və öpmək də iyrənc olar.[2]

Şeyxulislam İbn Teymiyyə ﷺ demişdir: "Fitnə başlandıqda ağıllı olan kəslər, axmaq olanları sakitləşdirməkdə çətinlik çəkərlər. Bu zaman böyük insanlar fitnə alovunu söndürməkdə və əhlini dayandırmaqda aciz qalarlar. Fitnələrin halı belə olur. Necə ki, Uca Allah buyurur: **"Elə bir fitnədən qorxun ki, o, sizlərdən təkcə zalım olanlara üz verməz (hamınızı bürüyər). Bilin ki, Allah şiddətli cəza verəndir."**[3] [4]

---

1 Tarix xəlifə ibn Xəyyat, 182-ci səhifə.

2 "Səhih əl-Buxari" əsəri, Fitnələr kitabı, Dənizin ləpələri tək bürüyən fitnələr fəsli, 7096 saylı hədisdən əvvəl.

3 "əl-Ənfal" surəsi, 25.

4 "Minhəc əs-Sunnə ən-Nəbəviyyə" əsəri, 4/343.

Cəməl döyüşü hicrətin otuz altıncı ilində baş vermişdi. Yəni Əlinin ﷺ xilafətinin əvvəlində. Zöhrdən sonra döyüş başlamış, həmin gün məğribdən öncə isə bitmişdi.

Əli ﷺ ilə birlikdə olanların sayı on min nəfər idi. Qarşı tərəfin sayı isə beş-altı min idi. Əlinin ﷺ bayrağını Muhəmməd ibn Əli ibn Əbu Talib daşıyırdı. Qarşı tərəfin bayrağı isə Abdullah ibn Zubeyrdə ﷺ idi.

Bu döyüşdə çoxlu sayda müsəlman qətlə yetirildi. Bu fitnə idi, Allah bu fitnədən həm qılınclarımızı, həm də dilimizi qorusun. Allahdan onlara rəhmət və bağışlanma diləyirik.

**Döyüşdən sonra:**

Döyüş bitdikdən sonra Əli ﷺ ölülərin arasında gəzməyə başladı və onların arasında Talhə ibn Ubeydullahı ﷺ gördü. O, onu qaldırıv üzündəki torpağı silərək dedi: "Ey Əbu Muhəmməd, səni vadidə açıq səma altında ölmüş görmək mənim üçün çox ağırdır." Sonra dedi: "Kədər və hüznümü Allaha şikayət edirəm."[1]

Əli ﷺ dedi: "Ey Həsən, kaş ki, bundan iyirmi il qabaq öləydim."[2]

Sonra Əli Muhəmməd ibn Talhəni görüb ağladı. Muhəmməd ibn Talhəyə çox ibadət etdiyi üçün "Səccad" yəni çox səcdə edən ləqəbi verilmişdi. Allah ondan razı olsun.

---

[1] İbn Əsakirin "Tarixi Diməşq" əsəri, 27/81.

[2] İbn Əbi Şeybənin "əl-Musənnəf" əsəri, 7/546; Harisin "Müsnəd" əsəri, "Buğyətu əl-Bahis" əsərində 2/761 deyildiyi kimi; Hakimin "əl-Mustədrak" əsəri, 3/420, Təbəraninin "Mucəm əl-Kəbir" əsəri, 1/113, Talhə ibn Məsrifdən nəql olunmuşdur.

Həmçinin hədisi İmam Əhmədin oğlu Abdullah "əs-Sunnə" əsərində, 2/566 və Təbərani "Mucəm əl-Kəbir" əsərində, 1/114, Qeys ibn Abbaddan rəvayət etmişlər. Heysəmi "Məcmə əz-Zəvaid" əsərində, 9/54 demişdir: "Hədisi Təbərani yaxşı isnadla rəvayət etmişdir." əl-Buveysiri "İthaf əl-Xiyara əl-Məhəra" əsərində, 8/6, demişdir: "Musəddəd hədisi məvquf olaraq nəql etmişdir. Raviləri etibarlıdır." Hədisi Şeyx Əkram əl-Omari "Asru əl-Xiləfə ər-Raşidə" əsərində, səh. 457, səhih hesab etmişdir.

Bu döyüşdə iştirak etmiş bütün səhabələr etdikləri əmələ görə istisnasız peşman olmuşdular.[1]

**b) Əlinin ﷺ Aişəyə ﷺ hörmət bəsləməsi:**

Əli ﷺ möminlərin anası Aişəyə ﷺ böyük hörmət bəsləyirdi. Tarixçilər demişlər:

Əli ﷺ Aişəni ﷺ bir qrup kişinin müşayəti ilə və Bəsrənin tanınmış qadınlarından qırx nəfər qadınla yola saldı. Həmçinin ona on iki min pul da təxsis etdi. Abdullah ibn Cəfər ibn Əbu Talib həmin məbləği az hesab etdikdə ona daha böyük mal ayırdı. O dedi: "Əgər möminlərin əmiri bunu ayırmasa mən ayıraram."

Aişə ﷺ yola düşən gün Əli ﷺ onun yanına gəldi və yanında dayandı. İnsanlar da gəlib onunla vidalaşdılar. Aişə ﷺ dedi: "Ey övladlarım, bir-birimizi təqsirləndirməyin. Vallahi ki, mənimlə Əlinin arasında keçmişdə olanlar hər biq qadınla qayını arasında olur. Mənə görə o, ən xeyirli insanlardandır." Əli dedi: "Ey insanlar, o çox düz buyurur, mənimlə onun arasında olanlar belə bir şey idi. O, Peyğəmbərinizin ﷺ həm bu dünyada, həm də axirətdə zövcəsidir." Sonra Əli onu bir xeyli yola saldı. Oğullarını da həmin gün onu yola salmağa göndərdi. Bu hicrətin otuz altıncı ili rəcəb ayının əvvəli şənbə günü baş vermişdi.[2]

Aişənin Cəməl günü çıxmağına peşman olması barədə rəvayətlər məşhurdur. Təbərani Muhəmməd ibn Qeysin belə dediyini rəvayət etmişdir: "Cəməl gününü Aişənin ﷺ yadına saldıqda o dedi: "İnsanlar həmin günə dəvə günü deyirlər?!" Onlar: "Bəli" – deyə cavab verdikdə Aişə ﷺ dedi: "Kaş ki mən həmin gün rəfiqələrim kimi evdə oturardım. Mən çox istərdim ki, Peyğəmbərdən ﷺ ondan çox uşağım olaydı və onların hamısı Abdurrəhman ibn əl-Haris ibn Hişam və Abdullah ibn Zubeyr kimi olaydılar."[3]

---

[1] Şeyx Osman əl-Xamisin "Həqbə min ət-Tarix" əsəri, səh. 175-181.

[2] Təbərinin "Tarix" əsəri, 3/60-61; "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/246-247.

[3] Heysəmi "əl-Məcma" əsərində, 7/168 demişdir: "Hədisi Təbərani rəvayət etmişdir, sənədində Əbu Məşər Nacih vardır və o, zəif ravidir. Digər ravilər isə etibarlıdırlar." Hafiz İbn Həcər də "əl-Fəth" əsərində, 13/55, eyni sözü demişdir. Bax: "Tarixi Diməşq" əsəri, 34/274.

Həmçinin Aişənin belə dediyi rəvayət olunur: "Kaş ki, yaş bir budaq olaydım amma bu səfərə çıxmayaydım." [1] O, Uca Allahın: **"Evinizdə qərar tutun"** [2] – ayəsini oxuduqda örtüyü islananadək ağlayardı.[3]

Əli möminlərin anası Aişəyə hörmət əlaməti olaraq onu döyüşdən sonra bir neçə qureyşli qadının müşayiəti ilə Peyğəmbərin zövcəsinə layiqli şəkildə yola salmışdı. O, bununla Peyğəmbərin möminlərin anaları barədə tövsiyəsinə əməl etmişdi. Əbu Rafi Peyğəmbərin Əli ibn Əbu Talibə belə dediyini rəvayət etmişdir: "Səninlə Aişə arasında bir iş olacaq." Əli dedi: Mənimləmi ey Allahın Rəsulu?" O dedi: "Bəli." Əli dedi: "Elə isə mən bədbəxt olacam ey Allahın Rəsulu." O dedi: "Xeyr, lakin elə bir şey baş versə onu təhlükəsiz bir yerə yola sal."[4]

**2 – Sıffin döyüşü:**

Bu döyüş barədə aşağıdakı mövzularla danışacağıq:

**a) Əli ilə Müaviyə arasındakı *olaylar*:**

Hicrətin otuz altıncı ilində Əli ibn Əbu Talib xəifə seçildi. O, müxtəlif bölgələrə valilər təyin etdi. Şama isə Müaviyənin əvəzinə Səhl ibn Huneyfi seçdi. O, gedib Təbuka çatdıqda yolda Müaviyənin atlıları ilə qarşılaşdı. Onlar soruşdular: "Sən kimsən?" O dedi: "Əmirəm." Onlar soruşdular: "Haranın əmirisən?" O dedi: "Şamın." Onlar dedilər: "Əgər səni Osman göndəribsə xoş gəlmisən. Yox əgər başqası göndəribsə yaxşısı budur geri qayıdasan." O dedi:

---

[1] Hədisi İbn Əbu Şeybə "əl-Musənnəf" əsərində, 7/544 rəvayət etmişdir. Şeyx Əkram əl-Omari "Asru əl-Xiləfə ər-Raşidə" əsərində, səh. 458, demişdir: "İsnadı səhihdir."

[2] "əl-Əhzab" surəsi, 33.

[3] Hədisi İbn Səd Vaqidinin yolu ilə, 8/81 rəvayət etmişdir. İmam Əhmədin "Zuhd" əsəri, səh. 164; Əbu Nueymin "əl-Hilya" əsəri, 2/49, isnadında məchul ravi vardır.

[4] İmam Əhməd, № 27242; əl-Bəzzar, № 3881; Təbərani "əl-Kəbir" əsəri, № 995. Heysəmi "əl-Məcmə" əsərində, 7/163, demişdir: "Hədisin raviləri etibarlıdır." Hafiz İbn Həcər "əl-Fəth" əsərində, 13/55, demişdir: "İsnadı həsəndir."

“Məgər nələrin baş verdiyini eşitməmisiniz?” Onlar dedilər: “Eşitmişik.” Beləcə o, Əlinin yanına qayıdır.

Sonra Müaviyə ﷺ bir nəfərlə məktub göndərdi və həmin şəxs Əli ibn Əbu Talibin ﷺ yanına daxil oldu. Əli soruşur: “Arxandakı nədir?” O dedi: “Mən elə bir qövmün yanından gəlirəm ki, onlar yalnız yaxşılıq istəyirlər. Onlar qisas yanğısı içərisindədirlər. Mən yetmiş min ağsaqqalı Osmanın köynəyinin yanında ağlar qoyub gəlmişəm. Həmin köynək Dəməşqin minbərindən asılıb.” Əli dedi: “Allahım Osmanın qanından Sənə sığınıram.”[1]

Beləliklə Əli ﷺ Şam əhli ilə döyüşmək qərarına gəlir. O, xütbə verərək insanları döyüşə səsləyir və hazırlaşmağa başlayır. O, Mədinədən çıxaraq ora öz yerinə Qasəm ibn Abbası qoyur. O, özünə tabe olanlarla birlikdə, onun əmrindən çıxaraq ona beyət etməmiş asilərə qarşı vuruşmağı qərara alır. Bu vaxt oğlu Həsən ibn Əli ﷺ onun yanına gəlib deyir: “Atacan, burax bu işi, axı müsəlmanların qanı axıdılacaq, onlar arasında ixtilaf baş verəcək.” Əli isə onun sözünü qəbul etmir və döyüşməyə israr edərək ordunu hazırlayır. *Ordu tam hazır vəziyyətə gəlib* Mədinədən Şama doğru hərəkət etmək istədikdə Əlinin ﷺ başı başqa bir işə qarışır.[2]

Əli ibn Əbu Talib ﷺ Cəməl döyüşündən sonra Bəsrəyə daxil olur və möminlərin anası Aişəni Məkkəyə yola salır. Sonra o Bəsrədən Kufəyə gəlir. O, hicrətin otuz altıncı ili rəcəb ayının on ikinci gecəsi bazar ertəsi günü Kufəyə daxil olur. Ona deyirlər ki, Ağ sarayda məskunlaş. O isə deyir: “Xeyr, Ömər ibn Xəttab orada məskunlaşmağı xoşlamazdı. Mən də xoşlamıram.” O, Rahbə deyilən bir yerdə məskunlaşır. Sonra Böyük məsciddə iki rükət namaz qılıb insanlara xütbə verir. O, insanları xeyrli işlərə təşviq edib pis əməllər-

---

[1] Təbərinin “Tarix” əsəri, 3/4; Əlidən varid olmuş əsəri isə İbn Cəad “Musnəd” əsərində, № 2261; Hakim “Mustədrak” əsərində, № 4528, səhih olaraq rəvayət etmiş, Zəhəbi də onun bu fikri ilə razılaşmışdır.

[2] “əl-Bidayə və ən-Nihayə” əsəri, 7/229-230. Onun Şama getməsinə mane olan isə Cəməl döyüşü olur ki, bu barədə biz bu fəsildə söhbət açdıq.

dən çəkindirdikdən sonra Cərir ibn Abdullaha məktub verib[1] Müaviyənin yanına göndərir. Həmin məktubda deyir:

"Əbu Bəkr, Ömər və Osmana beyət edənlər onlara nəyə görə beyət etmişdilərsə mənə də ona görə beyət ediblər. Şahid olan kəsin isə seçim imkanı olmayıb. İştirak etməyən kəs isə beyəti rədd edə bilməz. Bu iş mühacir və ənsarların məşvərəti ilə baş verib. Onlar birlikdə toplaşıb kimisə rəhbər adlandırarlarsa bu Allahın razılığı hesab olunar. Kimsə onlarla razılaşmayıb öz istəyi ilə və ya tənə ilə kənara çıxarsa, həmin şəxsi geri qaytararlar. Əgər razılaşmasa möminlərdən qeyrisinin yoluna tabe olduğuna görə onunla vuruşarlar. Allah da onu öz istəyinə tabe edər."[2]

**b) Döyüşdə *baş verən* hadisələr:**

Möminlərin əmiri Əli ibn Əbu Talib ﷺ Kufədən çıxaraq Şama daxil olmağı qərara aldı. Müaviyəyə ﷺ də xəbər çatdı ki, Əli ﷺ özü səfərə çıxıb. O, Şamın ordularına xəbər göndərdi və onlar toplandılar. Beləcə əmirlər bayraqlarını qaldırdı və Şam əhli döyüşə hazır vəziyyətə gətirildi. Onlar Fərat çayına tərəf Sıffin istiqamətində hərəkət etdilər. Əli də Şama tərəf həmin istiqamətdə gəlirdi. O, Əştər ən-Nəxaini əmir göndərdi və ona belə əmr etdi: "Şam əhli döyüşə başlamamış onlara hücum etməsinlər. Habelə, onları dəfələrlə beyətə çağırsınlar. Əgər imtina etsələr onlar vuruşmayınca onarla vuruşmasınlar. Nə müharibə istəyənlər kimi irəli keçməsinlər, nə də kişilərdən heybətlənənlər kimi geri çəkilməsinlər." Həmçinin ona dedi: "Mən gələnə qədər onları səbrli olmağa çağır. Biz də sənin arxanca yavaş-yavaş gəlirik inşəAllah."

Əştər gəlib onlara yetişdikdə Əlinin ﷺ söylədiyi kimi etdi. O, Müaviyənin ordusunun əvvəlində gələn dəstə ilə birlikdə dayanıb gözlədi. Beləcə onlar bir saat səbir etdilər. Axşam olduqda Şam əhli

---

[1] "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/254.

[2] Bu məktub "Nəhc əl-Bəlağə" əsərində qeyd olunmuşdur, səh. 336-367. "Dar əl-Kitab əl-Lubnani" nəşriyyatı – Beyrut. Həmçinin başqa tarix kitablarında da bu varid olmuşdur.

çıxıb getdi. Səhər açıldıqda yenə onlar qarşı qarşıya dayanıb birlikdə səbir etdilər. İkinci gün də ordu döyüşmədən dağılışdı. Üçüncü günün səhəri Əli öz ordusu ilə həmin yerə gəlib çatdı. Müaviyə də öz ordusu ilə gəldi. Beləcə iki ordu qarşı-qarşıya gəldi və şiddətli döyüş başladı. İraq əhli suya nəzarət edən Şam əhli ilə mübarizə apararaq su əldə etməyə çalışırdılar. Şam əhli isə İraq əhlinə su içməyə imkan vermirdilər. Sonra onlar su içmək barədə sülhə gəldilər ki, heç kim qarşı tərəfin su içməsinə mane olmasın. Əli də əmr etdi ki, Şam əhlinin su içməsinə mane olmasınlar. Beləcə onların hamısı su içə bildilər.

Əli bəzi əshabını çağırıb dedi: "O adamın yanına gedib onu itaət etməyə, camaata tabe olmağa dəvət edin və görün nə deyir."

Müaviyə isə məzlum halda qətlə yetirilmiş Osmanın qanının qisasını tələb etməkdə israrlı idi. Beləcə onlar arasındakı müharibə yenidən qızışdı. Gün ərzində iki dəfə döyüş oldu. Zul-hiccə ayı bitib Muhərrəm ayı başlayanda insanlar döyüşdən əl çəkmək qərarına gəldilər ki, bəlkə döyüşdən və qan axıtmağdan imtina etdiklərinə görə Allah onların arasında sülh yarada.

Bu minvalla Əli ilə Müaviyə bir-birilərinə növbə ilə elçilər göndərdi və döyüş *müvəqqəti* dayandı. Beləliklə Muhərrəm ayı da bitdi. Amma onların arasında sülh bağlanmadı. Bu vaxt Müaviyə və Amr ibn As sağ və sol tərəfdəki orduları hazırlamağa başladılar. Əli də öz ordusunu hazırlamağa başladı. Sonra Əli öz adamlarına yaxınlaşıb əmr etdi ki, Şam əhli başlamayınca heç kim döyüşə başlamasın, yaralılara toxunulmasın, qaçanı təqib etməsinlər, insanların əmirləri təhqir olunsalar belə qadınlara toxunulmasın və onlar aşağılanmasın.

İnsanlar *bir daha* şiddətli şəkildə vuruşdular və günün sonunda geri çəkildilər. Bəziləri insafa gələrək döyüşü dayandırdılar. Bu iki gün davam edir. Sonra üçüncü gün çıxıb yenidən şiddətlə döyüşdülər. Axşam yenə geri çəkildilər. Beləcə dördüncü günü də, beşinci gün də yenə döyüşə çıxdılar.

Artıq yeddinci gün başa çatdıqda heç kim heç kimə qələbə çala bilməmişdi. Şam əhli Müaviyəyə رضي الله عنه beyət etdilər ki, ölənədək onunla birlikdə olacaqlar. Möminlərin əmiri Əli رضي الله عنه də insanları səbirli və sabit olmağa, bir də cihada səslədi. Əştər ən-Nəxai *onunla birlikdə olub sonra geri çəkilmiş ordusu ilə* Müaviyənin ətrafında olan və ölənədək döyüşəcəklərinə söz verən beş sıra döyüşçülərə hücum etdi və *onlardan dördünü yarıb* irəliləyə bildi. Sonra İraq əhli geri çəkilib yenidən bir yerə toplandılar və döyüşərək şamlılara hücum etdilər. Beləcə döyüş cümə gününədək davam etdi. Əli رضي الله عنه insanlara sübh namazını döyüş əsnasında qıldırdı. Daha sonra İraq əhli Şam əhli üzərində üstünlüyü ələ aldı və az qaldı ki, şamlılar məğlub olsunlar. Bu vaxt Şam əhli Quranları nizələrin ucuna keçirib yuxarı qaldırdılar [1] və belə dedilər: "Bizimlə sizin aranızda bu vardır. İnsanlar məhv olub getdi, bəs kafir və müşriklərə qarşı kim vuruşacaq?."

Quranlar qaldırıldıqda İraq əhli dedi: "Allahın kitabına cavab verib ona yönəlirik." Misar ibn Fədəki ət-Təmimi və Zeyd ibn Husayn ət-Tai sonradan xəvaric olmuş bir qrup qari ilə birlikdə dedilər: "Ey Əli, Allahın kitabına çağırıldığın zaman ona cavab ver. Yoxsa səni və səninlə birlikdə olanları qövmə təhvil verərik. Ya da Osman ibn Əffanın başına gətirdiyimizi sənin də başına gətirərik. Əli رضي الله عنه dedi: "Sizə nəhy etdiyimi yadınızda saxlayın, sizin də mənə söylədiklərinizi yadınızda saxlayın. Mənə tabe olursunuzsa vuruşmalısınız. Yox mənə asi olsanız nə istəyirsiniz onu da edin."[2]

Əştər onlara moizə verərək onlarla mübahisə etdi, lakin onlar öz fikirlərindən əl çəkmədilər. Şam əhli tam olaraq və İraq əhlinin də əksəriyyəti sülhün və döyüşün dayandırılmasının tərəfdarı idi. Odur ki, döyüş dayandırıldı. Uzun uzadı danışıqlardan sonra tərəflər hökm vermə məsələsi ilə razılaşırlar. Razılaşırlar ki, hər tərəfin

---

[1] İbn Cərir və başqa tarixçilər bu təklifin Amr ibn As رضي الله عنه tərəfindən olduğunu qeyd etmişlər.

[2] Təbərinin "Tarix" əsəri, 3/101. Bu rəvayətin səhih rəvayətlərə müxalif olmasını bəyan edəcəyik.

əmiri, yəni Əli ilə Müaviyə ﵄ hərəsi bir nəfər təyin etsinlər ki, hökmü onlar versinlər. Sonra həmin iki hakim hər iki tərəfin xeyrinə bir qərar çıxarsınlar. Müaviyə Amr ibn Ası ﵁ təyin etdi. Əli isə Abdullah ibn Abbası ﵄ təyin etmək istədikdə qarilər buna mane olaraq dedilər: "Biz yalnız Əbu Musa əl-Əşarinin ﵁ hakim olması ilə razıyıq."

**c) Hökm çıxarma:**

Hər iki ordu elə bir hala düşmüşdülər ki, artıq döyüşməyə halları yox idi. Hərir gecəsi Kində qəbiləsinin rəhbəri Əşas ibn Qeys insanlara xütbə verərək dedi: "Ey müsəlmanlar, keçmiş günlərdə nələrin baş verdiyinin şahidi oldunuz. Gördünüz ki, ərəblərdən nə qədəri qətlə yetirildi. Vallahi ki, mən bu yaşa çatmışam, belə bir şey görməmişəm. Şahid olan kəs iştirak etməyənə çatdırsın ki, bizlər ittifaqa gəldik ki, ərəblər məhv ola bilər, hərəmlər başsız qala bilər. Vallahi ki, mən bu sözləri müharibədən qorxduğum üçün demirəm. Mən onsuz da yaşlı birisiyəm. Mən sabahkı qadın və uşaqlar üçün qorxuram. Biz məhv oluruq, Allahım şahid ol ki, mən qövmümə və din qardaşlarıma baxıb əlimdən gələni etdim."[1]

Bu xəbər gedib Müaviyəyə ﵁ çatdıqda o, dedi: "Kəbənin Rəbbinə and olsun ki, doğru deyir. Biz sabah da döyüşü davam etdirsək rumlular hücum edib qadınlarımızı və uşaqlarımızı əsir götürəcəklər. Farslar da İraqa hücum edərək onların qadınlarını və uşaqlarını əsir götürəcəklər. Bunu yalnız ağıllı kimsələr anlayır." Sonra o, tərəfdarlarına dedi: "Quranları taxtaların ucuna bağlayın."[2] Bu iraqlılardan nəql olunmuş rəvayətdir və orada nə Amr ibn Asın adı çəkilir, nə də hiylədən bəhs olunur. Göstərilir ki, hər iki tərəfin istəyi belə imiş. Çünki Müaviyə və Amr ﵄ şücaət tələb edən işlərə tələsər və ümmətin gücünü bərpa etməyə səy göstərərdilər. Sadəcə bu fitnənin əsasını qoyan Səbailərə vəziyyət xoş getməmişdi. Onlar haqqı batil kimi göstərən bir sıra azdırıcı rəvayətlər uydurmuşlar.

[1] "Vaqatu Sıffin" əsəri, səh. 479.

[2] "Vaqatu Sıffin" əsəri, səh. 481.

Habelə onlar müsəlmanların qanlarının qorunması üçün edilmiş hökm vermə məsələsini cinayət, hiylə və provokasiya kimi təqdim etmişlər.[1] Onlar möminlərin əmiri Əliyə ﷺ səhih rəvayətlərlə ziddiyyət təşkil edən yalan sözlər nisbət etmişlər. Guya Əli ﷺ belə demişdir: "Onlar qaldırdıqları Quranı daha sonra qaldırmayacaqlar, onlar onun içərisində olanlardan bixəbərdirlər, onu yalnız hiylə və yalan olaraq qaldırıblar." Həmçinin guya Əli ﷺ, Quranlar qaldırılarkən söyüş söymüş və belə demişdir: "Bu, fahişə oğlunun məşvərətidir."[2] Onlar həmçinin Amr ibn Asa qarşı da rəvayətlər uydurmuşdular. Hətta elə bir tarix kitabı yoxdur ki, Amr ibn Asın ﷺ şəninə əksiklik gətirməsinlər. Möhtərəm səhabələrin düşmənlərinin uydurduqları rəvaytlərdə Amr ibn As ﷺ hiyləgər və məkrli bir insan kimi göstərilir.

Əbu Mixnəfdən nəql olunmuş rəvayətə görə isə Şam əhli hökm vermə məsələsini təklif etdikdə Əli bundan imtina etmiş, lakin o, sonradan xəvaric olacaq qarilərin təzyiqləri qarşısında bununla razılaşmışdır.[3] Bu rəvayətdə Əlinin Müaviyəni ﷺ söydüyü də bildirilir. Halbuki mübarək nəslin nümayəndələri belə bir iş tutmaqdan uzaqdırlar. Adi səhabələrə bu yarşmazsa onların rəhbərlərindən biri olan möminlərin əmiri Əli ﷺ bunu necə edə bilər?!

Bu rəvayətin yalan olmasını isbat etmək üçün onun sənədində olan Əbu Mixnəfin yalançı olduğunu bilmək kifayətdir. Bu rəvayətin səhih olması mümkünsüzdür. *Əbu Mixnəfin bu qondarma rəvayəti,* səhabələrə iftira yaxmayan digər səhih rəvayətlərin qarşısında heç nədir. Misal üçün imam Əhməd ibn Hənbəlin Həbib ibn Əbu Sabitdən nəql etdiyi rəvayətdə o, demişdir: "Mən Əli ibn Əbu Talibin ﷺ tərəfdarlarından olan Əbu Vailin yanına gəldim. O, dedi: "Biz Sıffində idik, Şam əhli böyük itkiyə uğradıqda bir təpəyə sığındılar. Bu vaxt Amr Müaviyəyə ﷺ dedi: "Əliyə ﷺ Quran gön-

---

[1] "əd-Dəulə əl-İslamiyyə Fi Asri əl-Xuləfə ər-Raşidin" əsəri, səh. 316.

[2] Təbərinin "Tarix" əsəri, 3/101.

[3] Təbərinin "Tarix" əsəri, 3/101.

dər və onu Allahın kitabına çağır. O, sənin təklifini rədd etməyəcək." Sonra bir kişi Əlinin ﷺ yanına gəlib dedi: "Bizimlə sizin aranızda Allahın kitabı vardır: **"Kitabdan özlərinə bir pay verilmiş kəsləri görmədinmi? Onlar, aralarında hökm versin deyə, Allahın Kitabına dəvət olunurlar, sonra da onlardan bir dəstə haqdan üz çevirir."**[1] Əli ﷺ dedi: "Yaxşı. Mən bunu etməyə daha layiqəm. Bizimlə sizin aranızda Allahın kitabı vardır." Sonra bizim həmin vaxt qarilər adlandırdığımız xəvariclər qılıncları ilə birlikdə gəlib dedilər: "Ey möminlərin əmiri, biz bu təpənin üzərində olan bu qövmlə bağlı nə gözləyirik? Gedək qılınclarımızla onların üstünə ki, Allah bizimlə onların arasında hökm versin."

Səhl ibn Huneyf əl-Ənsari ﷺ danışıb dedi: "Ey insanlar, özünüzü ittiham edin. Siz bizi Rəsulullahla ﷺ müşriklər arasında bağlanmış Hudeybiyyə sülhü günü görmüsünüz. Lazım olsa döyüşəcəyik." Sonra o, Ömərin ﷺ Hudeybiyyə sülhünə etiraz etməsini və "əl-Fəth" surəsinin Rəsulullaha ﷺ nazil olmasını qeyd etdi.

İbn Əbu Şeybə əlavə olaraq demişdir: "Əli ﷺ dedi: "Ey insanlar, şübhəsiz ki, bu bir fəthdir." Sonra o, vəziyyətlə razılaşıb geri döndü. İnanlar da geri döndülər.[2] Səhl ibn Huneyf qardaşlar arasında müharibənin davam etməsini təkid edənlərə bərk qəzəbləndi və dedi: "Ey insanlar, dininizi rəyinizdən üstün tutun."[3] Sonra onlara anlatdı ki, sülhün və danışıqların alternativi yoxdur. Çünki qalan hər bir iş fitnədir və nəticəsi bilinmir. O dedi: "Biz qılınclarımızı belimizə kobudlaşmaq üçün taxmamışıq. Yoxsa bildiyimiz bir şeyi bundan öncə görmüş olardıq. Hər dəfə bir düşməni dəf etdikdə başqa bir düşmən meyana gələrdi. Bilmirdik ona necə yaxınlaşaq."[4]

Bu səhih rəvayətlər fitnə əhlinə və yalan rəvayətlər yayan səhabə düşmənlərinə rəddiyyədir. Onlar şeirlər uyduraraq onları Sıffin dö-

---

[1] "Ali İmran" surəsi, 23.

[2] İmam Əhməd, № 16018; İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 7/558. Şeyx Şueyb hədisi səhih hesab etmişdir. Hədisin əsli isə Buxari və Muslimdədir.

[3] Buxari, 7308, Muslim, 1785.

[4] Buxari, 4189, Muslim, 1785.

yüşündə iştirak etmiş səhabə və tabiinlərə nisbət edirlər. Bununla fitnə əhli onların nə qədər çox döyüşmək əzmində olduqlarını göstərməklə nəfslərdə nifrət yaratmaq və fitnənin davam etməsini istəyirlər.[1]

Osmanın ﵁ qatillərini Müaviyəyə ﵁ təslim etmədən Allahın kitabı ilə hökm verməyə razılaşmaq, həmçinin Müaviyə Əliyə ﵄ tabe olaraq ona beyət etmədən onunla hökm vermə məsələsində razılaşmaq Sıffin döyüşünün nəticələrindən yaranmış bir zərurət idi. Belə ki, çoxsaylı müsəlmanların həyatına son qoyan bu müharibəni dayandırmaq və qanların axıdılmasının qarşısını almaq ümmətin birliyini qorumaq üçün, habelə düşmənlər qarşısında tab gətirmək üçün hamının razılaşdığı zəruri bir qərar idi. Bu isə doğru qərarlar qəbul etməkdə ümmətin fəallığına və diqqətli olmasına dəlildir.[2]

Möminlərin əmiri Əli ﵁ Sıffində döyüşün dayandırılmasını qəbul etdi və hökm çıxarma ilə razılaşaraq onu fəth hesab etdi, sonra da Kufəyə qayıtdı.[3] O, ümid bəsləyirdi ki, hökm çıxarma məsələsi ilə ixtilafa son qoyulacaq, onlar vahid kəlmə üzərində toplanacaq, dövlət daha da möhkəmlənəcək və yeni fəthlər baş verəcəkdir. Tərəflərin hökm vermə məsələsində razılığa gəlmələrinin aşağıdakı nəticələri olmuşdu:

a) Bu, döyüşü dayandırmaq və qanların axıdılmasının qarşısını olmaq üçün onların əldə edə bildikləri sonuncu cəhd idi. Bundan əvvəl Cəməl döyüşündən sonra həm camaat şəklində, həm də fərdi şəkildə döyüşün dayndırılması üçün baş vermiş müxtəlif cəhdlər olsa da belə heç bir nəticəsi olmamışdı. Tərəflərin fikirlərini açıqlayan məktub mübadiləsinə gəlincə isə bu, qarşı tərəf üçün faydasız olmuşdu. Həmin cəhdlərdən sonuncusunda Müaviyə ﵁ döyüşün qızğın çağında Əliyə ﵁ məktub yazaraq döyüşü dayandırmasını tələb edərək demişdi: "Mən hesab edirəm ki, biz bilsək ki, mühari-

---

[1] "əl-İnsaf Fimə Vəqaə Fi Tarixi əl-Asr ər-Raşidi Minəlxiləf" əsəri, səh. 530.

[2] "Dirasətun Fi Tarix əl-Xuləfə əl-Əməviyyin" əsəri, səh. 38.

[3] "Dirasətun Fi Tarix əl-Xuləfə əl-Əməviyyin" əsəri, səh. 38.

bə sizlərə və bizlərə nə qədər ziyan vurur buna əl atmazdıq. Biz öz ağlımıza tabe olsaq belə gərək olub keçənlərə peşman olaq və sülh yaradaq."[1]

b) Çoxsaylı müsəlmanların qanı axıdılaraq ölmüşdü və müsəlmanlar məhv olma təhlükəsi ilə üz-üzə qalmışdılar. Bundan sonra döyüşü dayandırmağı hər kəs istəmişdi.

c) Müsəlmanlar artıq bu üzun döyüşdən bezmişdilər. Sanki onlar sülhə çağıran səsi səbirsizliklə gözləyirdilər. Əlinin ﷺ ordusunun çoxu döyüşü dayandırmağın tərəfdarı idilər. Onlar deyirdilər: "Müharibə bizləri yeyib bitirdi, sağ qalmaq üçün gərək döyüşü dayandıraq."[2]

Bütün bunlar Amr ibn Asın ﷺ Quranı qaldıraraq hiylə işlətməsini iddia edən mənfur fikirləri alt-üst edir. Doğru olan odur ki, Quranı qaldırmaq nə yeni bir fikir idi, nə də Amr ibn Asın ﷺ uydurması idi. Belə ki Cəməl döyüşündə də Quranlar qaldırılmışdı. O vaxt Quranı qaldırmış Bəsrənin qazisi olan Kəb ibn Sur oxla qətlə yetirilmişdi.

d) İslaha çağıran vəhyin səsinə cavab verməK. Uca Allah buyurur: **"Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Peyğəmbərə müraciət edin."**[3] Əli ibn Əbu Talibə ﷺ də Allahın kitabı ilə hökm vermə məsələsi təklif olunduqda onun: "Bəli, mən bunu etməyə daha layiqəm. Bizimlə sizin aranızda Allahın kitabı vardır." – deməsi də bunu təsdiq edir.[4]

**d) Möminlərin əmiri Əlinin ﷺ xəvariclərə qarşı mövqeyi:**

Möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ xəvariclərə qarşı mövqeyi ədalətli idi. O, əvvəldən onara qarşı vuruşmamışdı. İlk əvvəl onlarla mübahisə etmək üçün yanlarına ümmətin alimi olan

---

[1] Dinurinin "əl-Əxbar ət-Tival" əsəri, səh. 187; "Dirasət Fi Ahd ən-Nubuvva" əsəri, səh. 432.

[2] "Vaqatu Sıffin" əsəri, səh. 485; "Dirasət Fi Ahd ən-Nubuvva" əsəri, səh. 433.

[3] "ən-Nisa" surəsi, 59.

[4] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 7/558; İmam Əhmədin "Musnəd" əsəri, 16018.

Abdullah ibn Abbası رضي الله عنه göndərir. Bəziləri bundan sonra öz mövqeyindən əl çəksə də bir çoxları mövqelərini dəyişmirlər. Bununla da Əli ibn Əbu Talib رضي الله عنه ümidini üzmür və özü şəxsən çıxıb onlarla mübahisə edir. Gördükdə ki, bunlarla mübahisə etməyin faydası yoxdur onda onlara qarşı vuruşur. Aşağıdakı sətirlərdə bu bəyan olunacaqdır:

**İbn Abbasın رضي الله عنه xəvariclərlə mübahisəsi:**

Möminlərin əmiri Əli رضي الله عنه onların müsəlman camaatına qaytarılmasına həris idi. Bunun üçün o, İbn Abbası رضي الله عنه onlarla mübahisə etmək üçün onların yanına göndərir. İbn Abbas رضي الله عنه özü bu hadisəni bizlərə nəql edərək demişdir: "Mən gözəl libas geyinib darandım. Günorta vaxtı onların yanına daxil oldum. Onlar dedilər: "Xoş gəlmisən ey İbn Abbas, səni bura gətirən nədir?" Mən dedim: "Mən Peyğəmbərin ﷺ səhabələri, mühacir və ənsarların, Peyğəmbərin ﷺ əmisi oğlu və kürəkəninin yanından bura gəlmişəm. Quran onların yanında nazil olub, onlar Quranın mənasını sizdən daha yaxşı bilirlər. Sizin aranızda onlardan heç kim yoxdur ki, onların dediklərini sizə, sizin söylədiklərinizi isə onlara çatdıra bilim."

Bundan sonra onlardan bir neçəsi mənim tərəfimə keçdi. Mən dedim: "İndi gətirin görək Peyğəmbərin ﷺ səhabələrində və onun əmisi oğlunda nəyi ayıb tutursunuz?" Onlar dedilər: "Üç şeylə razı deyilik." Mən dedim: "Onlar hansılardır?" Onlar dedilər: "Birincisi Əli Allahın hökmünü qoyub insanlar vasitəsilə hökm vermişdir. Uca Allah isə buyurur ki: "**Hökm yalnız Allaha məxsusdur."**[1] İnsanlarla hökm vermək nə deməkdir?" Mən dedim: "Bu bir, bəs sonra?" Onlar dedilər: "İkinci: "Əli Cəməl döyüşdən sonra qənimətlər, habelə cariyələr götürməyib. Əgər onun döyüşdükləri adamlar kafir idilərsə nə üçün qənimət və cariyələri götürmədi? Yox əgər mömin idilərsə o zaman onlara qarşı nə üçün vuruşurdu?" Mən dedim: "Bu iki, bəs üçüncü nədir?" Onlar dedilər: "Üçüncü də Sıffin döyüşündən sonra Müaviyə ilə razılaşmaya gələndə Əli öz adının

---

[1] "əl-Ənam" surəsi, 57.

yanında möminlərin əmiri sözünü pozmuşdu. Əgər o möminlərin əmiri deyilsə, deməli kafirlərin əmiridir." İbn Abbas cavabında dedi: "Bundan savayı bir etirazınız varmı?" Onlar dedilər: "Bunlar kifayətdir."

Mən dedim: "Əgər mən sizin dediklərinizə qarşı Allahın kitabı və Peyğəmbərin ﷺ sünnətindən dəlillər gətirsən qayıdarsınızmı?" Onlar dedilər: "Bəli." Mən dedim: "Əli Allahın hökmünü qoyub insanlar vasitəsilə hökm vermişdir – sözünüzə gəlincə Uca Allah Öz kitabında qiyməti dörddə bir dirhəm olan məsələdə hökmünü insanlara həvalə edərək buyurur: **"Ey iman gətirənlər! İhramda ikən ovu öldürməyin. Sizlərdən kim onu qəsdən öldürərsə,** ***kəffarəsi*** **öldürdüyünün mislində bir** ***qurbanlıq*** **heyvanı əvəz ödəməkdir. Buna sizlərdən iki ədalətli kişi qərar verməli,** ***sonra da həmin*** **qurbanlıq heyvan Kəbəyə çatdırılmalıdır."**[1] Deməli Uca Allah Quranın gətirilməsini deyil iki nəfərin hökm verməsini tələb edir. Halbuki istəsəydi özü də hökm verə bilərdi. Demək insanlar vasitəsilə hökm verməк caizdir. İndi sizi and veririrəm Allaha, insanların arasını düzəltmək və qanlarının axıdılmasının qarşısını almaq məsələsində insanlar vasitəsilə hökm vermək daha önəmlidir, yoxsa dovşan ovu məsələsində?" Onlar dedilər: "Doğru deyirsən. Birinci daha önəmlidir." Mən dedim: "*Uca Allah* qadın və onun əri barəsində belə buyurur: **"Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin."**[2] İndi sizi Allaha and verirəm, *bir deyin görüm* hansı birisində insanlar vasitəsilə hökm vermək daha önəmlidir, insanların arasını düzəltmək və qanlarının axıdılmasının qarşısını almaq məsələsində, yoxsa qadın məsələsində? Hə bu məsələ bitdimi?" Onlar dedilər: "Bəli."

Mən dedim: "Deyirsiniz ki, Əli ﷺ Cəməl döyüşdən sonra qənimətləri, habelə qadınları o cümlədən ananız Aişəni cariyə götürmə-

---

[1] "əl-Maidə" surəsi, 95.

[2] "ən-Nisa" surəsi, 35.

yib. Heç ananız da cariyə götürülə bilərmi? Əgər iddia etsəniz ki ananız deyil kafir olarsınız. Yox əgər desəniz ki, onu cariyə götürmək olar yenə kafir olarsınız çünki o möminlərin anası və peyğəmbərin ﷺ xanımıdır. Uca Allah buyurur ki: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır."**[1] Sizlər iki zəlalət arasındasınız. Elə isə bundan çıxmaq üçün bir yol axtarın. Bununla da razısınızmı?" Onlar dedilər: "Bəli."

İbn Abbas ﷺ dedi: "Əlinin öz adının yanından möminlərin əmiri sözünü pozmasına gəlincə indi mən sizi razı salaram. Peyğəmbər ﷺ müşriklərlə Hüdeybiyyə sülhü bağladıqda Əliyə belə demişdi: "Ey Əli yaz! Bu, Allahın rəsulu Muhəmmədlə bağlanan sülh müqaviləsidir." O zaman müşriklər dedilər: "Əgər sənin Allahın rəsulu olduğunu qəbul etsəydik sənə qarşı vuruşmazdıq." Onda Peyğəmbər ﷺ Əliyə dedi: "Ey Əli, *Allahın rəsulu* sözünü sil. Allahım Sən şahidsən ki, mən Allahın rəsuluyam. Ey Əli onu sil və belə yaz: Bu, Muhəmməd ibn Abdullahla bağlanan sülh müqaviləsidir." İbn Abbas ﷺ dedi: "Vallahi ki, Rəsulullah Əlidən daha fəzilətlidir, o, həmin sözləri özü pozmuşdu. Onun öz əli ilə *Allahın rəsulu sözünü* pozması onun peyğəmbərliyinin pozulması demək deyil. Bununla da razılaşırsınızmı?" Onlar dedilər: "Bəli."

Bundan sonra onlardan iki min nəfər geri qayıtdı və onlar yerdə qalanlara qarşı vuruşdular. Mühacir və ənsarlar da onlara qarşı vuruşdular.[2]

**Əli ibn Əbu Talib ﷺ xəvariclərlə mübahisə edir:**

İbn Abbas ﷺ xəvariclərlə mübahisə etdikdən sonra onlardan iki mini geri qayıdır. Bundan sonra Əli ﷺ özü çıxıb onlarla danışdı və onlar da *onunla razılaşaraq* geri qayıdıb Kufəyə daxil oldular. Lakin bu razılaşma uzun müddət davam etmədi. Belə ki, xəvariclər

---

[1] "əl-Əhzab" surəsi, 6.

[2] "Xasais Əmir əl-Muminin Əli ibn Əbu Talib", ən-Nəsai, Əhməd Bəlluşinin təhqiqi, səh. 195-200. Həsən rəvayətdir. Şeyx Albani də onu "əl-İrva" əsərində, 8/111 səhih hesab etmişdir.

güman etdilər ki, Əli hökm vermə məsələsində öz mövqeyindən dönüb və onların iddia etdikləri xətasına görə tövbə edib. Bundan sonra onlar insanlar arasında bunu yaymağa başladılar.

Belə olduğu halda Əşəs ibn Qeys əl-Kindi möminlərin əmirinin yanına gəldi və ona belə ddi: "İnsanlar danışır ki, guya sən tövbə edib küfrdən qayıtmısan." *Bunu eşidən* Əli ﷺ cümə günü qalxıb xütbə verdi. Allaha həmd-sənalar etdikdən sonra insanların düşündüyü kimi olmadığını və hansı məsələdə onlardan fərqləndiyini danışdı.[1]

Başqa bir rəvayətdə isə deyilir ki, xəvariclər bu vaxt məscidin bir tərəfində dedilər: "Hökm Allaha məxsusdur." Onlardan biri barmaqlarını qulaqarına tıxayıb dedi: "**Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan."**[2] Onda Əli ﷺ dedi: **"Sən səbirli ol! Həqiqətən də, Allahın vədi haqdır. Qoy *axirətə* yəqinliklə inanmayanlar səni qeyri-ciddi olmağa – *dindən dönməyə* sövq etməsinlər."**[3] [4]

Möminlərin əmiri Əli ﷺ bu azğın camaata qarşı ədalətlə siyasət sərgiləmişdi. Onlara demişdi ki: "Sizin bizlər üzərində üç haqqınız vardır:

1 – Bu məsciddə namaz qılmağı sizlərə qadağan etmirik.

2 – Əlləriniz bizim əllərimizin üzərində olduğu müddətdə sizi qənimətdən məhrum etməyəcəyik.

3 – Bizə qarşı vuruşmayınca sizinlə vuruşmayacağıq.[5]

---

[1] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 7/556.

[2] "əz-Zumər" surəsi, 65.

[3] "ər-Rum" surəsi, 60.

[4] Təbərinin "Tarix" əsəri, 3/114-115. Şeyx Albani "İrva əl-Ğalil" əsərində, 8/119 onun səhih olduğunu bildirmişdir.

[5] İbn Əbu Şeybənin "Musənnəf" əsəri, 7/562; Şafiinin "əl-Umm" əsəri, 4/136; Təbərinin "Tarix" əsəri, 3/155.

**3 – Nəhrəvan döyüşü (hicrətin 38-ci ili):**

Xəvariclər möminlərin əmiri Əli ibn Əbu Taliblə ﷺ bağladıqları əhdləri pozduqlarına görə Əli ﷺ onlara qarşı vuruşmaq məcburiyyətində qaldı. İki ordu arasında Nəhrəvan çayı yerləşirdi. Əli öz ordusuna əmr etdi ki, xəvariclər qərb istiqamətindən çayı keçməyincə döyüşə başlamasınlar.

Əli ﷺ elçilərini göndərərək onları Allaha and verdi və əmr etdi ki, geri qayıtsınlar. O, Bəra ibn Azibi ﷺ göndərərək üç gün onları *geri qayıtmağa* çağırdı. Onlar isə bunu qəbul etmədilər. O halda Əli ﷺ onlarla döyüşmək məcburiyyətində qaldı. Döyüş hicrətin otuz səkkizinci ilində Səfər ayının doqquzuncu günü dısa və həlledici oldu.[1]

Bu qısa döyüşdə xəvariclər böyük itki ilə üzləşdilər. Möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ ordusunda isə vəziyyət fərqli idi. Muslimin "Səhih" əsərində Zeyd ibn Vahbdan rəvayət olunan hədisdə deyildiyi kimi, Əlinin ordusunda ölənlərin sayı ikicə nəfər idi.[2]

Bu döyüşlər Əlinin ﷺ xilafəti vaxtı baş vermiş əsas döyüşlər idi. Müxtəsər şəkildə həmin döyüşlər barədə məlumat verməyə çalışdıq ki, əsas məqsəd açıqlansın. Əslində isə bu barədə uzun-uzadı danışmaq olardı.

**Əli ibn Əbu Talibin ﷺ dönəmində maliyyə və ədliyyə idarələri:**

Əli ibn Əbu Talib ﷺ Əbu Bəkr əs-Siddiq ﷺ və Ömər ibn Xəttab ﷺ kimi maliyyə və ədliyyə məsələlərinə önəm verirdi. Hətta o, ədliyyə məsələlərində bir az da irəli gedərək ədliyyə ilə yanaşı xüsusi polislər təyin etmişdi. Onlar ədliyyə məsələlərini həyata keçirən icraçı orqanlar hesab olunurdu. Aşağıdakı sətirlərdə bu barədə söhbət açacağıq:

---

[1] "Ənsab əl-Əşraf" əsəri, 2/63. Sənədində məchul bir ravi var.

[2] Muslim, 2/746, № 1066.

**1 – Maliyyə idarəsi:**

Əli ibn Əbu Talibin ﷺ vaxtında İslam dövlətinin maliyyə siyasətində heç bir dəyişiklik olmamışdı. Əli Əbu Bəkr əs-Siddiqin ﷺ vaxtında olduğu kimi bərabər bölgüyə önəm verirdi.[1] O, heç kimə fərqli yanaşmaz, azad olunmuş kölə ilə ağanı eyni tutardı.[2]

Bəzi vilayətlərdə xərac yığmaq valilərə həvalə olunmuşdu. Misirdə oranın valisi Qeys ibn Səd ibn Ubadə xəraca məsul şəxs idi. Həmçinin Əli Əştər ən-Nəxaini Misirə göndərdikdə ona xitab edərək bildirmişdi ki, o, rəhbər olmaqla yanaşı oranın əhalisini islah edəcək xəracın yığılmasına görə də məsuliyyət daşıyır. Əli ﷺ ona demişdi:

Onların islah olunmaları başqalarının da islah olunmalarına səbəbdir. Başqaları da yalnız onun sayəsində islah oluna bilərlər. Çünki insanların hamısı xəraca və xərac əhlinə tabedirlər. Yer üzünü abadlaşdırmağa xəracı yığmaqdan daha çox diqqət ayır. Çünki yalnız abadlaşdırmaq sayəsində xəracı əldə edə bilərsən. Kim abadlıq olmadan xəracı tələb edərsə ölkəni xaraba qoyar, insanları da həlak edər. Beləsinin işi çox nadir hallarda öz qaydasında ola bilər. İnsanlar ağırlıqdan, xəstəlikdən, susuzluqdan, quraqlıqdan və ya torpaqların sel altında qalmasından şikayət edərlərsə onların problemlərini yüngülləşdirməklə işlərini qaydasına salmış olarsan. Şübhəsiz ki, abadlıq işləri lazımdır. Həqiqətən əhalisi ehtiyac içində olan yer daim xarabaya çevrilər. Valilər yalnız pul toplamağa meyilli olduqda, öz yerlərində qalmayacaqlarını zənn etdikdə və *başlarına gələn* ibrətlərdən faydalanmadıqda o yerin əhalisi də yoxsullaşar.[3]

Əli ﷺ xərac məsələsinə məhz iqtisadi vergi gözü ilə baxırdı. Çünki həmin vaxt xərac dövlətin əsas gəlir mənbəyi idi. Əlinin ﷺ hər tərəfdə işçilərə nəzarəti gücləndirməsi məşhurlaşmışdı. Xərac və maliyyə işləri Əli ibn Əbu Talibin ﷺ dəqiqliklə nəzarət etdiyi məsələlərdən idi. O, adamlar göndərərək onlara nəzarət edirdi.[4]

---

[1] "əl-İstiyab" əsəri, 3/11.
[2] D. Əli Şərafinin "Əli ibn Əbu Talib" əsəri, səh. 66.
[3] "Nihayətu əl-Ərab" əsəri, 6/25-26.
[4] "əl-Vilayətu Alə əl-Buldan", 2/98; "ən-Nəzariyyətu əl-Maliyyə Fil İslam", səh. 155.

**2 – Ədliyyə idarəsi:**

**a) Ədliyyəyə önəm verməsi:**

Əli ibn Əbu Talib ﷺ Osmanın ﷺ qətlə yetirilməsindən sonra xəlifə seçilmişdi. Həmin hadisə müsəlmanların birliyinin pozulmasına səbəb olmuşdu. Həmin vaxt cərəyan edən hadisələrə qarşı mübarizə aparmaq böyük bir müşkülə çevrilmişdi.

Buna baxmayaraq bu problemlər Əlinin ﷺ ədliyyəyə xüsusi önəm verməsinə və onu tənzimləməsinə mane olmamışdı. Diqqət yetirsək görərik ki, məhz bu dönəmdə qazilərin vəsfləri, hüquqları və öhdəlikləri formalaşmışdır. Əli ibn Əbu Talib ﷺ də xüsusi bacarığa malik bəzi qazilərin işindən razı qalmışdı. Onlar Əlidən ﷺ öncə də qazi və vali kimi fəaliyyət göstərmişdilər.[1]

Bəllidir ki, Əli ibn Əbu Talib ﷺ cəmiyyətdə baş verən yeniliklərə uyğun olaraq ədliyyə və məhkəmə sistemində bəzi dəşişikliklər etmək istəyirdi. Lakin o, bu işləri ara sakitləşənədək təxirə salmalı oldu. Rəvayət olunur ki, o belə demişdir: "Əvvəl nə cür qazilik edirdinizsə, indi də elə edin. Əsas odur ki, camaat olun. Mən ixtilafdan qorxuram."[2]

**b) Əli ibn Əbu Talibin ﷺ zamanında vilayət polisləri:**

Əli ﷺ hakimiyyətə gələndə polis vəzifəsi ölkədə olan əsas və mühüm vəzifələrdən biri idi. Əlinin ﷺ dövründə polisin rolu barədə varid olmuş rəvayətlər çoxdur. Bu rəvayətlərdən birində Əsbağ ibn Nəbatə rəvayət edir ki, bir dəfə bir nəfər cavan bir neçə nəfərdən Əli ibn Əu Talibə ﷺ şikayət edib dedi: "Bunlar mənim atamla səfərə çıxmışdılar. Onlar qayıdıblar, atam is yox. Mən onlardan atamın barəsində soruşduqda onlar dedilər ki, o, ölmüşdür. Sonra onlardan atamın malı barədə soruşduqda dedilər ki, o, heç nə tərk etməmişdi. Əslində isə onun çoxlu mal-dövləti var idi. Biz Şureyhə müraciət etdik. Şureyh də onlara and içdirib buraxdı."

[1] Cəbr Mahmudun "əl-Qadau Fi Sadr əl-İslam" əsəri,səh. 239.

[2] Abdurrəzzaqın "əl-Musənnəf" əsəri, 11/329.

Belə olduqda Əli رضي الله عنه polisləri çağırdı və onların hərəsinin yanına iki nəfər təyin etdi. Sonra polislərə tapşırdı ki, onların bir-birilərinə yaxınlaşmalarına imkan verməsinlər və onların bir kimsə ilə danışmalarına şərait yaratmasınlar. Sonra o, katibini və o adamlardan birini yanına çağırdı və adama dedi: "Mənə bu adamın atası barədə xəbər ver görüm, sizinlə hansı gündə səfərə çıxmışdı? Sonra siz hara getdiniz? Səfəriniz necə idi? O, hansı xəstəlikdən ölmüşdü? Malına nə oldu?" Sonra o, həmin adamdan soruşdu ki, onu kim yuyub dəfn etdi, onun cənazə namazını kim qıldırdı, o harada dəfn olundu. Beləcə bir sıra suallar verdi. Katib də yazmaqda davam edirdi. Sonra Əli رضي الله عنه təkbir gətirdi, yanındakılar da təkbir gətirdilər. Müttəhimlər isə nəyin baş verdiyini anlamadılar və elə bildilər ki, dostları hər şeyi etiraf edib. Sonra isə birinci adam getdi və ikinci adam dəvət olundu. Onu da birinci kimi sorğu-suala tuturlar. Sonra digərləri da sorğulandı və hər kəsdən məlumatlar toplandı. Məlum oldu ki, onlardan hər biri digərinə zidd məlumatlar verib. Sonra birincini geri çağırdılar. Əli رضي الله عنه dedi: "Ey Allahın düşməni, yoldaşlarını dindirdikdən sonra biz sənin xəyanətini və yalanını bildik, səni cəzadan yalnız doğru danışmağın xilas edə bilər." Sonra Əli رضي الله عنه onun həbs olunmasına qərar verdi və təkbir gətirdi. Orada olanlar da təkbir gətirdilər.

Vəziyyəti görən dostları elə düşündülər ki, o, hər şeyi açıb danışdı. Sonra Əli رضي الله عنه ikinci adamı yenidən çağırdı və onu təhdid etdi. Adam dedi: "Ey möminlərin əmiri, vallahi ki, mən onların etdiklərindən razı deyildim." Sonra Əli رضي الله عنه digərlərini də çağırdı və onlar olub keçənləri etiraf etdilər. Sonra həbsdə olan çağırıldı və ona deyildi ki, dostların hər şeyi etiraf etdi, səni yalnız doğru danışmağın xilas edə bilər. O da digərləri kimi hər şeyi etiraf etdi. Beləcə Əli رضي الله عنه onlara malı geri qaytarmağı məcbur etdi və onlardan ölənin qisasını aldı.[1]

---

[1] İbn əl-Qeyyimin "ət-Turuq əl-Hukmiyyə" əsəri, səh. 72.

Bu qissə özündə araşdırma ilə məşğul olanlara fayda verə biləcək bir sıra məna və dəlilləri ehtiva edir. Eyni zamanda qissə həbsxananın, polis işçilərinin mövcudluğuna da dəlalət edir.[1] Həmçinin möminlərin əmiri Kufə şəhərində də bir həbsxana tikdirərək onu "Nafi" adlandırdı. İlk öncə o çox möhkəm deyildi və məhbuslar oradan çıxa bilirdilər. Sonra o, həmin həbsxananı dağıdıb yerində "Məxis" adlı yeni həbsxana inşa etdirdi.[2]

Həbsxana əhli yemək, içmək, yay və qış geyimləri ilə təmin olunurdular.[3]

Möminlərin əmiri Əli ibn ƏbuTalibin ﷺ bir sıra polisləri var idi. Onlardan Əbu əl-Həyyac əl-Əsədini, Qeys ibn Səd ibn Ubadəni, Məqil ibn Qeys ər-Riyahini, Malik ibn Xabib əl-Yərbuini, Əsbağ ibn Nəbatə əl-Muşaciini, Səid ibn Sariyə ibn Murra əl-Xuzaini göstərmək olar.

Polisin ictimai vəzifələrindən biri də möhtac olanlara yardım etmək, darda olana yardım göstərmək, yolunu azana yol göstərmək, miskinləri doyurmaq, kömək etmək, mehribanlıq nümayiş etdirmək və Uca Allahın rizası üçün edilən bu cür digər humanitar yardım nöblərini göstərmək idi.

Buradan da bizlərə bəlli olur ki, raşidi xəlifələrin dövründə asayiş keşikçiləri cəmiyyətə yüksək səviyyəli xidmətlər göstərirdi. Onlar sadəcə asayiş məsələləri ilə kifayətlənmirdilər. Baxmayaraq ki, asayişin qorunmasının olduqca böyük əhəmiyyəti var idi.

---

[1] D. Nəmr əl-Humeydaninin "Vilayətu əş-Şurta Fil-islam" əsəri, səh. 107.

[2] İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, 5/275, № 26034; Həmçinin onun "əl-Ədəb" əsəri, səh. 351; əl-Bəlazrinin "Ənsab əl-Əşraf" əsəri, 1/282.

Bu adların məqsədi var idi, nafi faydalı deməkdir və o, zərərin ziddidir. Məxis isə zəlil edən, islah edən deməkdir ki, Bu iki addan həbsin məqsədi bəlli olur.

[3] "Vilayətu əş-Şurta" əsəri, səh. 108.

# Möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ şəhid olması

**a) Şəhid olma rəvayəti:**

Xəvariclərdən üçü razılığa gəlirlər ki, Əli ibn Əbu Talibi, Muaviyə ibn Əbu Sufyanı və Amr ibn Ası ﷺ qətlə yetirsinlər. Lakin Uca Allahın istəyi belə oldu ki, xəvariclərdən olan Abdurrəhman ibn Mulcim[1] möminlərin əmiri Əli ibn Əbu Talibi ﷺ qətlə yetirir, digər iki nəfər isə Muaviyə ibn Əbu Sufyanı və Amr ibn Ası ﷺ qətlə yetirə bilmirlər.

Möhtərəm oxucu, möminlərin əmirinin qətlə yetirilməsi əhvalatını Muhəmməd ibn Hənəfiyyənin rəvayəti ilə sizə təqdim edirik. O, demişdir:

"Vallahi ki, mən Əlinin ﷺ Böyük məsciddə Misir əhli ilə birlikdə namaz qıldığı zaman vurulduğu günün gecəsi namaz qılırdım. Onlar dəhlizə yaxın yerdə namaz qılır, qiyam, ruku və səcdə edirdilər. Onlar gecənin əvvəlindən sonunadək usanmadan namaz qıldılar. Sonra Əli ﷺ Sübh namazı üçün məscidə gəldi və dedi: "Ey insanlar, namaz, namaz." Bilmirəm Əli ﷺ həmin sözləri dəhlizdən çıxıb dedi yoxsa yox. Sonra mən şəfəqə baxdım və belə bir səs eşitdim: "Hökm Allahındır, sənin və dostlarının deyil ey Əli." Sonra mən qılınc gördüm, sonra bir də qılınc gördüm. Sonra Əlinin belə dediyini eşitdim: "Adamı əldən buraxmayın."

İnsanlar hər tərəfdən onun üzərinə atıldılar. İbn Mulcimi tutub Əlinin yanına gətirdilər. Mən də insanlarla birlikdə Əlinin yanına

---

[1] Zəhəbi Abdurrəhman ibn Mulcim haqqında demişdir: "Əlini qətlə yetirən iftiraçı, xəvaric olan bu şəxs Misirin fəthində iştirak etmiş və onların rəhbərlərinə qarışmışdı. O, Quranı və fiqhi oxumuş biri idi. O, Tədul oğullarından biri, onların Misirdəki süvarilərindən idi. Quranı Muaz ibn Cəbələ oxumuşdu, özü də abidlərdən idi. Deyilənə görə məhz o, Səbiğ ət-Təmimini Ömərin ﷺ yanına göndərərək Quranın tərcüməsi barədə soruşmuşdu..." Sonra Zəhəbi dedi: "Sonra ona məktub gəldi və etdiyini etdi. Xəvariclərə görə o, ümmətin ən xeyirlisi idi." "Ahd əl-Xuləfə ər-Raşidin" əsəri, 3/653.

daxil oldum. Mən Əlinin belə dediyini eşitdim: "Cana can, mən ölsəm, onu məni qətlə yetirdiyi kimi öldürün. Sağ qalsam özüm onun barəsində bir qərar verəcəyəm."

İnsanlar tələsik Həsənə Əlinin ﵁ başına gələnləri xəbər verdilər. İnsanlar orada, İbn Mulcim isə əli-qolu bağlı vəziyyətdə Əlinin yanında olarkən Ummu Gülsüm bint Əli ağlaya-ağlaya dedi: "Ey Allahın düşməni, atama heç nə olmaz, Allah səni alçaldacaqdır." İbn Mulcim dedi: "Sən kimin üçün ağlayırsan? Vallahi ki, *bu qılıncı* min dirhəmə almışam və onu min dirhəmə də zəhərləmişəm. Bu zərbə ilə bütün Misir əhlini vurmuş olsaydım heç biri sağ qalmazdı."[1]

**b) Həkimin Əliyə ﵁ tövsiyəsi və möminlərin əmirinin ﵁ *xilafət məsələsində* şuraya üstünlük verməsi:**

Rəvayət olunur ki, Abdullah ibn Malik demişdir: "Əli ﵁ yaralandığı gün həkimlər onun ətrafına toplandılar. Onların arasında ən güclü həkim Əsir ibn Amr əs-Sukuni idi. O tibbi Xosrovun yanında öyrənmişdi. Əsir bir qoyunun ağ ciyərini isti-isti götürdü və onun damarından birini çıxartdı. Sonra onu Əlinin yarasına saldı. Sonra da həmin damara üfürdü. Daha sonra damarı çıxartdı və onun üzərində beyinin ağartısını gördü. Zərbənin dərinliyi beyinə çatmışdı. Həkim dedi: "Ey möminlərin əmiri, vidalaş, çox yaşamayacaqsan."[2]

Rəvayət olunur ki, Cundub ibn Abdullah Əlinin ﵁ yanına daxil olub dedi: "Ey möminlərin əmiri, səni itirsək – inşəAllah itirmərik – Həsənə beyət edəkmi?" O dedi: "Mən sizə nə əmr edirəm, nə də qadağan edirəm, siz daha yaxşı bilərsiniz."[3]

**c) Möminlərin əmiri Əlinin ﵁ övladları Həsən və Hüseynə ﵄ vəsiyyəti:**

Möminlərin əmiri Əli ﵁ Həsənlə Hüseyni ﵄ yanına çağırıb dedi:

---

[1] Təbərinin "Tarix" əsəri, 3/157.

[2] "əl-İstiab" əsəri, 3/1128.

[3] Təbərinin "Tarix" əsəri, 3/157.

"Sizə Allahdan qorxmağı tövsiyə edirəm, dünya sizi tələb etsə belə siz onu tələb etməyin, onun sizdən aldığı bir şey üçün ağlamayın, haqqı deyin, yetimə rəhm edin, çarəsizə yardım edin, axirət üçün çalışın, zalıma qarşı mübarizə aparın, məzluma isə kömək edin, Quranda olanlara əməl edin, Allahdan başqa heç kimin qınağından çəkinməyin."

Sonra o, Muhəmməd ibn Hənəfiyyəyə baxıb dedi: "Qardaşlarına etdiyim vəsiyyəti əzbərlədinmi?" O dedi: "Bəli." Əli ﷺ dedi: "Mən sənə də eyni tövsiyələri edirəm. Qardaşlarının hörmətini saxla. Onların sənin üzərində haqları böyükdür. Onların əmrlərinə tabe ol. Onların izni olmadan bir iş görmə."

Sonra *üzünü Həsənlə Hüseynə ﷺ tutub* dedi: "Onu da sizə tapşırıram. Çünki o, sizin doğma qardaşınız və atanızın oğludur. Siz bilirsiniz ki atanız onu çox sevir." Sonra Həsənə dedi: "Ey oğlum, sənə Allahdan qorxmağı, namazları vaxtında qılmağı, zəkatı vaxtı çatanda verməyi və gözəl şəkildə dəstəmaz almağı tövsiyə edirəm. Bil ki, təmizlik olmadan namaz da yoxdur, zəkat verməyənin namazı qəbul olmaz. Həmçinin sənə günahına görə bağışlanma diləməyi, qəzəbini boğmağı, qohumlarla əlaqə saxlamağı, cahillə mülayim davranmağı, dində savad almağı, işdə sabit olmağı, Qurana bağlı olmağı, qonşularla gözəl davranmağı, yaxşı işlərə dəvət etməyi, pis işlərdən çəkinməyi, yaramaz işlərdən çəkinməyi tövsiyə edirəm."

**Vəfat anında isə o, belə vəsiyyət etmişdir:**

"Mərhəmətli və Rəhmli Allahın adı ilə! Bu Əli ibn Əbu Talibin vəsiyyətidir. Vəsiyyət edirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, O təkdir, Onun heç bir şəriki yoxdur, Muhəmməd Onun qulu və elçisidir. Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərmişdir. Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanlardanam.

Sonra ey Həsən sənə, digər övladlarıma və əhlimə vəsiyyətim budur ki, Rəbbiniz olan Allahdan qorxun və yalnız müsəlman oldu-

ğunuz halda ölün. Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Mən Əbul-Qasimin (s) belə dediyini eşitmişəm: "İki nəfərin arasını düzəltmək, nafilə namazdan və orucdan daha əfzəldir. Qohumlarınıza nəzər salın, onarla əlaqə saxlayın ki, Allah da sizin hesabınızı yüngülləşdirsin.

Allah xatirinə yetimlərə diqqət göstərin, onların ağızlarına diqqət yetirin ki, onlar sizin yanınızda itib batmasınlar. Allah xatirinə qonşularınıza qarşı da diqqətli olun, onlar Peyğəmbərinizin (s) vəsiyyətidirlər. Bizə o qədər tövsiyə edərdi ki, onlara miras verəcəyimizi də güman edərdik. Allah xatirinə Qurana qarşı da diqqətli olun. Başqalarının sizdən daha çox ona əməl etməsinə imkan verməyin. Allah xatirinə namazlara da diqqət yetirin. Çünki o dininizin dirəyidir. Allah xatirinə Rəbbinizin evinə qarşı da diqqətli olun. Siz olduğunuz müddətdə onun boş qalmasına imkan verməyin. Əgər o boş qalsa onun üçün mücadilə olunmaz. Allah yolunda malınızla və canınızla cihad etməyə çalışın. Allah xatirinə zəkatınızı verin, o, Rəbbinizin qəzəbini söndürür. Allah xatirinə Peyğəmbərinizin (s) haqqını bilin ki, o sizin yanınızda haqsızlığa düçar olmasın. Allah xatirinə Peyğəmbərinizin (s) səhabələrinə qarşı diqqətli olun. Peyğəmbər (s) onları bizə tövsiyə etmişdir.[1] Allah xatirinə

---

[1] Hörmətli oxucu, görün Əli (ə) ölüm ayağında ikən necə tövsiyələr edir. Ömrünün son anlarında o, səhabələrə qarşı diqqətli olmağı tövsiyə edir. Çünki Peyğəmbər (s) onlarla bağlı tövsiyə vermişdi, o da onun tövsiyəsini icra edərək övladlarına özündən sonra onlara qarşı diqqətli olmağa, onların haqlarını qorumağa və qədrlərini bilməyə çağırırdı. Bu sözdən sonra onlar arasında nə qədər böyük sevginin olmasına şübhə qala bilərmi? Bu məqamda belə bir suala cavab verilməlidir ki, əgər Əli (ə) səhabələrə nifrət bəsləyirdisə, habelə onların zəlalətdə olduğunu və xilafəti ondan qəsb etdiklərini etiqad edirdisə onda onu ölüm ayağında bu sözləri söyləməyə vadar edən nə idi? Bəziləri iddia edirlər ki, guya həyatı boyu səhabələr barədə ona görə susurdu ki, o, öz həyatına görə və ya fitnəyə görə qorxurdu. Ya da ola bilsin ki, peyğəmbər (s) ona belə bir əmr vermişdi. Amma mən belə deyirəm: "Bəs indi necə, burada artıq heç bir üzür yoxdur, burada açıq ürək sözlərini deyə bilərdi axı? Buna bir cavab tapa bilmirəm. Çünki onların iddiaları xəyaldan başqa bir şey deyildir."

kasıb və yoxsullara qarşı diqqətli olun, onları öz yaşayışınıza şərik edin. Allah xatirinə kölələrinizə qarşı da diqqətli olun. Namaz, namaz."

Allah xatirinə tənə edənin tənəsindən qorxmayın, sizi istəyənlər və sizə qarşı çıxanlar sizə yetər. Allahın sizə əmr etdiyi kimi insanlara xoş söz söyləyin. Yaxşı işlərə çağırıb, pis işlərdən çəkindirməyi tərk etməyin. Belə etmiş olsanız ən şərli olanlarınız sizə rəhbərlik edər, sonra sizlər nə qədər dua etsəniz də sizə cavab verilməz.

Bir-birinizlə əlaqə saxlayın, malınızdan xərcləyin, bir-birinizə arxa çevirməyin, əlaqəni kəsməyin, təfriqəyə düşməyin, yaxşılıq etməkdə və *Allahdan qorxub pis əməllərdən* çəkinməkdə bir-birinizə yardım edin, günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə yardım etməyin. Allahdan qorxun. Həqiqətən, Allah cəzası şiddətlidir. Allah əhli beytdən sizi qorumuşdur, həmçinin aranızda peyğəmbərinizi də qorumuşdur. Sizi Allaha əmanət edirəm. Sizə Allahın salamı və rəhməti olsun." Sonra, hicrətin qırxıncı ilinin Ramazan ayında Əli ﷺ Lə iləhə illəllah –deyib gözlərini yumdu.[1]

Başqa bir rəvayət görə isə o, Ramazan ayının iyirmi birinci gecəsinin səhəri qətlə yetirilmişdi.[2] Bu rəvayətdə onun dünyasını dəyişdiyi tarix göstərilir. Belə ki, o vurulduqdan üç gün sonra dünyasını dəyişmişdir.[3]

Əli ibn Əbu Talib ﷺ onu qətlə yetirənə işgəncə verilməsini qadağan etdi. O demişdi: "Onu həbs edin. Əgər mən ölsəm, onu öldürün. Əgər sağ qalsam yaralarımın qisasını alaram."[4] Başqa bir rəvayətdə isə belə demişdir: "Ona yemək - içmək verin, onunla yaxşı davranın, sağalmış olsam qanım barəsində hökmü özüm verəcəm. İstəsəm qisasımı alaram, istəsəm də bağışlayaram."[5]

---

[1] Təbərinin "Tarix" əsəri, 3/157-158.

[2] Buxarinin "Tarix əl-Kəbir" əsəri, 1/99, səhih isnadla.

[3] Abdulhəmidin "Xilafətu Əli ibn Əbu Talib" əsəri, səh. 439.

[4] "Fədail əs-Səhabə" əsəri, 2/560, həsən isnadla.

[5] Əbu Ərəbin "əl-Mihən" əsəri, səh. 4; "Xilafətu Əli ibn Əbu Talib" əsəri, səh. 439.

Digər bir rəvayətdə isə belə bir əlavə vardır: "Mən ölsəm onu məni öldürdüyü kimi öldürün, amma həddi aşmayın. Şübhəsiz ki, Allah həddi aşanları sevməz."[1]

Əli ﷺ işgəncə verməyi Həsənə ﷺ qadağan etmiş və demişdir: "Ey Abdulmuttalib oğlu, möminlərin əmirini öldürdü, möminlərin əmirini öldürdü – deyərək müsəlmanların qanını axıtmaqdan çəkinin və mənim qatilimdən başqa heç kəsi qətlə yetirməyin. Bax ey Həsən, əgər mən onun zərbəsindən dünyamı dəyişsəm, mənə vurduğu hər zərbəyə görə ona bir zərbə vur. Adama işgəncə vermə. Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "İşgəncə verməkən çəkinin, hətta quduz it olsa belə."[2]

Möminlərin əmirinin qatilinin öldürülməsi əmri ilə bağlı müxtəlif rəvayətlər vardır. Onlardan bəziləri səhih, bəziləri isə zəifdir. Onların hamısında Əli dünyasını dəyişdiyi təqdirdə öz qatilinin öldürülməsini, lakin həddin aşılmamasını əmr edir. Bütün bu rəvayətlər bir-birni qüvvətləndirir və dəlil kimi götürülmə səviyyəsinə qalxır. Bu məsələnin bir tərəfi.

Əli ibn Əbu Talib ﷺ o adamın mürtəd olaraq öldürülməsini əmr etməmişdi.[3] Hətta müsəlmanlar onu qətlə yetirmək istədikdə o, buna imkan verməmiş və demişdi: "Adamı öldürməyin, əgər sağalsam yaralarımın qisasını alaram, ölsəm onu öldürün."[4]

Həmçinin məşhur tarixi rəvayətləri də yada salın: Əli öldükdən sonra Həsən ﷺ İbn Mulcimin yanına adam göndərdi. O Həsənə ﷺ dedi: "Sənə nə aidiyyatı var, vallahi ki, mən Allaha verdiyim bütün əhdlərə riayət etmişəm. Mən Huteymin yanında Allaha əhd vermişdim ki, Əlini və Müaviyəni ya öldürəcəm, ya da bu yolda özüm öləcəyəm. Əgər istəyirsənsə məni burax gedim *Müaviyəni də* öldürüm. Əgər mən onu öldürə bilməsəm onda məni öldürərsən,

[1] "ət-Təbəqat" əsəri, 3/35.
[2] Təbərinin "Tarix" əsəri, 3/158.
[3] "Minhəc əs-Sunnə" əsəri, 7/406.
[4] "Minhəc əs-Sunnə" əsəri, 5/245.

yox, əgər onu öldürsəm və özüm də sağ qalsam gəlib əlimi sənin əlinə qoyub sənə beyət edəcəm." Həsən isə ona belə dedi: "Yox, ilk ölcə odun dadına baxmalısan. Bunu deyərək onu qətlə yetirdi."[1]

Səhih olan rəvayətlərə görə Həsən, Hüseyn və əhli beytin digər uşaqları möminlərin əmiri Əlinin Abdurrəhman ibn Mulcimin qətli ilə bağlı vəsiyyətinə riayət etmişdilər.

**d) Əlinin yuyulması, kəfənlənməsi və xilafət müddəti:**

Xəlifə ibn Xəyyatın sözlərinə görə Əlinin xilafət müddəti dörd il doqquz ay altı gün olmuşdur. Üç gün və ya on dörd gün deyənlər də vardır.[2] Zahir olan rəyə görə onun xilafət müddəti dörd il doqquz ay üç gün olmuşdur. Çünki onun xəlifəliyinə, hicrətin otuz beşinci ili zil-hiccə ayının on səkkizi günü beyət olunmuşdu.

Şəhid olaraq vəfat etməsi isə hicrətin qırxıncı ili, ramazan ayının iyirmi biri günü baş vermişdi.[3]

Möminlərin əmi Əlini Həsən, Hüseyn və Abdullah ibn Cəfər qüsl etdilər. Onlar onu arasında libas olmayan üç kəfənlə kəfənlədilər.[4] Sonra Həsən ibn Əli ona cənazə namazı qıldırdı və dörd təkbir gətirdi.[5]

Onun məzarının yeri barədə müxtəlif rəylər vardır. İbn əl-Cəuzi bu barədə bir neçə rəvayət qeyd etmiş və demidir: "Hansı rəyin daha səhih olduğunu yalnız Allah bilir.[6] Bu xüsusda varid olmuş rəvayətlərdən bəziləri aşağıdakılardır:

Həsən ibn Əli onu Rahbədə Camaat məscidinin yanında, Kində qapıları tərəfdə Fəcr namazından sonra insanlar dağılmamışdan əvvəl dəfn etmişdi.[7]

---

[1] Təbərinin "Tarix" əsəri, 3/159.
[2] "ət-Tarix" əsəri, səh. 199.
[3] Buxarinin "Tarix əl-Kəbir" əsəri, 1/99, səhih isnadla.
[4] "əl-Muntəzəm" əsəri, 5/175; "ət-Təbəqat" əsəri, 3/37.
[5] "ət-Təbəqat" əsəri, 3/38.
[6] "əl-Muntəzəm" əsəri, 5/178.
[7] "ət-Təbəqat" əsəri, 3/38.

Başqa bir rəvayətə görə isə o, Kufədə Camaat məscidinin yaxınlığında İmara qəsrinin yanında gecə vaxtı dəfn olunmuş, məzarının yeri isə itmişdi.[1]

Digər bir rəvayətə görə isə oğu Həsən ﷺ onu Mədinəyə aparıb dəfn etmişdi.[2]

Qətlə yetirilərkən onun neçə yaşı olması barədə də ixtilaf vardır. Bəziləri onun vəfat edərkən əlli doqquz yaşı olduğunu demişlər. Bəziləri isə altmış beş yaşında vəfat etdiyini bildirmişlər. Ən səhih rəyə görə isə Əli ﷺ altmış üç yaşında vəfat etmişdir.[3]

**e) Müaviyənin Əlinin ﷺ ölüm xəbərini qarşılamısı:**

Əlinin ﷺ ölüm xəbəri Müaviyəyə ﷺ yetişdikdə o ağlayaraq "innə lilləhi va innə ileyhi raciun" - deyir. Bu zaman zövcəsi ona belə deyir: "Ona qarşı vuruşurdun, indi isə onun üçün ağlayırsan?" Müaviyə ﷺ dedi: "Vay sənin halına, sən bilmirsən ki, insanlar necə böyük elmə, fəzilətə və fiqhə sahib bir insanı itirdilər."[4] Müaviyə ﷺ ayələr nazi olarkən onları yazmamışdan öncə Əli ibn Əbu Talibdən ﷺ soruşub dəqiqləşdirərdi. Onun ölüm xəbəri ona çatdıqda o dedi: "Fiqh və elm Əbu Talibin oğlunun ölümü ilə getdi." Qardaşı Utbə ona dedi: "Şam əhli bunu səndən eşitməsinlər." O dedi: "Məndən əl çək."[5]

Müaviyə ﷺ xəlifə olarkən Dirar əs-Sadəidən tələb edir ki, Əlini ﷺ onun üçün vəsf etsin. O da belə deyir: "Məni üzrlü say ey möminlərin əmiri." Müaviyə ﷺ dedi: "Yox, onu vəsf etməlisən." O dedi: "Əgər onu vəsf etmək məcburiyyətindəyəmsə, vallahi bil ki, o, uzaqgörən, qüvvətli, aramla danışan, ədalətlə hökm verən, hər tərəfə elm saçan, ətrafını hikmətlə dolduran, dünyadan üz döndərən,

---

[1] "əl-Muntəzəm" əsəri, 5/177, "Tarix əl-İslam Əhd əl-Xuləfə ər-Raşidin" əsəri, səh. 615.

[2] "Tarixi Bağdad" əsəri, 1/137.

[3] Təbərinin "Tarix" əsəri, 3/160-161.

[4] "Tarixi Diməşq" əsəri, 59/142; "əl-Bidayə və ən-Nihayə" əsəri, 8/130.

[5] "əl-İstiab" əsəri, 3/1108.

gecənin qaranlığında rahatlıq tapan, ibrətlərlə dolu, uzun-uzadı düşünən, qısa libas geyinməyi və bayat yeməyi xoşlayan birisi idi.

O, aramızda bizlərdən biri kimi idi, ona sual verdiyimizdə bizə cavab verər, xəbər istədikdə bizə xəbər verərdi. Vallahi ki, bizə yaxın olmasına baxmayaraq biz onun heybətindən onunla danışmazdıq. O, din əhlinə hörmət edər, miskinləri özünə yaxınlaşdırardı. Güclü olan kəs onun yanında üzrlü sayılmaz, zəif olan kəs isə onun ədalətinə qovuşardı.

Şahidlik edirəm ki, mən onu bəzi hallarda görmüşdüm. O, gecənin qaranlığında ulduzlar parlayarkən saqqalını ovuclayıb ibadət edər və dərin hüznlə ağlayardı. O deyərdi: "Ey dünya, məni yoldan çıxarmaqmı istəyirsən? Get başqasını yoldan çıxart. Əfsuslar olsun, əfsuslar olsun. Mən səndən bir dəfəlik ayrılıram. Sənin ömrün qısa, təhlükən isə azdır. Mənim azüqəm az, səfərim uzun, yolum isə məşəqqətlidir." Bunu eşidən Müaviyə ﷺ ağlamağa başladı və dedi: "Allah Əbu Həsənə rəhm etsin. Vallahi ki, o elə idi. Ey Dirar onun üçün necə kədərlənirsən?" O dedi: "Övladı gözü önündə qətlə yetirilmiş valideyin kimi."[1]

[1] "Tarixi Diməşq" əsəri, 24/401, "əl-İstiab" əsəri, 3/1108.

# Əli ibn Əbu Talib ﷺ şeyx və ravi kimi

**1 – Əlinin ﷺ Rəsulullahdan ﷺ nisbətən az hədis rəvayət etməsinin səbəbləri:**

Möminlərin əmiri Əli ﷺ öz dövründə sünnəni ən yaxşı bilən səhabələrdən biri idi. Bir dəfə Aişənin ﷺ yanında Əlinin ﷺ adı çəkildikdə o dedi: "Qalanlar arasında sünnəni ən yaxşı bilən odur."[1] Bununla belə Əli ﷺ Peyğəmbərdən ﷺ beş yüz səksən altı hədis rəvayət etmişdir.[2] Bu isə aşağıdakı səbəblərdən dolayı bəzi səhabələrin peyğəmbərdən ﷺ nəql etdikləri hədislərdən sayca azdır:

1 – O, müharibələrlə, qaziliklə və rəhbərlik işi ilə o qədər məşğul idi ki, gənclərlə söhbət etməyə vaxt tapa bilmirdi. Çünki bəzi səhabələrin elminin yayılmasına səbəb gənclərlə qurulan elm məclisləri idi. Abdullah ibn Məsud və Abdullah ibn Abbas ﷺ belə edirdilər.

2 – Əlinin ﷺ zamanında onun barəsində ifrata varan bidət əhlinin meydana çıxması. Belə ki onların Əlinin ﷺ barəsində ifrata varmaları səbəbindən onun adından çoxlu sayda yalanlar uydurulmuşdu. Buna görə də hədis alimləri ondan nəql olunan hədislərin sənədini diqqətlə araşdırıblar.

3 – Onun zamanında fitnələrin artması. Həmin vaxt insanlar ondan elm almağa deyil fitnələrlə məşğul idi. O isə bilmirdi ki, elmi kimə öyrətsin. Hətta onun belə dediyi rəvayət olunur: "Məndəki elmi kaş ki, təhvil ala bilən kəslər olaydı."[3]

Möminlərin əmirinin hədisi qəbul etmə üslubunda isə aşağıdakıları müəyyən etdik:

1 – Peyğəmbərin ﷺ adından yalan danışmaqdan çəkinmək. Hətta o, Peyğəmbərin ﷺ: "Kim mənim adımdan yalan danışarsa Cəhənnəmdəki yerini hazırlasın."[4] - hədisinin ravilərindən biridir.

---

[1] Təbəraninin "Təhzib əl-Əsar" əsəri, 2/140; əl-Bəlazrinin "əl-Ənsab" əsəri, 1/283.

[2] "Tarix əl-Xuləfə" əsəri, səh. 171.

[3] "İlam əl-Muvaqqiin" əsəri, 1/12.

[4] İbn Macənin "Sunən" əsəri, 1/13. Albani demişdir: "Səhihdir." Hədisin əsli isə Buxari və Muslimdə Əlidən savayı bir toplum səhabədən nəql olunmuşdur.

2 – Rəvayətin düzgünlüyünü dəqiqləşdirmək. Hətta o, rəvayət edən kəsə and içdirərdi. Rəvayət olunur ki, o belə demişdir: "Mən Rəsulullahın ﷺ özündən hədis eşitdikdə Allahın mənə fayda verəcəyi qədər faydalanardım. Amma kimsə ondan hədis rəvayət etdikdə həmin şəxsə and içdirərdim, o and içdiyi təqdirdə ona inanardım."[1]

3 – Münkər və şəzz hədislərin rəvayət olunmaması. Onun belə dediyi rəvayət olunur: "İnsanların başa düşdükləri şeyləri rəvayət edin. Olmaya, Allahın və Rəsulunun təkzib olunmasını istəyirsiniz?[2]

Həmçinin Əli Əbu Bəkr, Ömər, Miqdan ibn Əsvad və zövcəsi Fatimədən ﷺ hədislər rəvayət etmişdir.

**2 – Əlidən ﷺ rəvayət edən ən məşhur səhabələr:**

Möminlərin əmiri Əli ibn Əbu Talibdən ﷺ bir çox səhabələr hədis rəvayət etmişlər. Onlardan bəziləri aşağıdakılardır:

1 – Əbu Umamə İyas ibn Sələbə əl-Ənsari ﷺ: Harisə oğullarındandır, Əbu Burdənin bacısı oğludur. Bədr döyüşündə Rəsulullah ﷺ ona əmr etmişdi ki, anasının yanında qalsın.[3]

2 – Əbu Rafi əl-Qibti: Rəsulullahın ﷺ azad etdiyidir, deyilənə görə adı İbrahim idi. Bəziləri isə onun adının Sinan və ya Yəsar olduğunu bildirmişlər. İbn Abdulbərr demişdir: "Onun ən məşhur bilinən adı Əsləmdir. O, hicrətin 40-cı ilində Əli ibn Əbu Talibin ﷺ zamanında vəfat etmişdir.[4]

3 – Əbu Səid əl-Xudri Səd ibn Malik ibn Sinan ibn Sələbə əl-Ənsari ﷺ: Rəsulullahla ﷺ birlikdə çıxdıqda onun on beş yaşı var idi. Hicrətin 74-cü ilində vəfat etmişdir.[5]

4 – Cabir ibn Abdullah ibn Amr ibn Haram ibn Kəb ibn Ğanəm ibn Kəb əl-Ənsari əs-Suləmi ﷺ: O, Əli ﷺ ilə birlikdə Sıffin dö-

---

[1] İbn Macənin "Sunən" əsəri, № 1395. Şeyx Albani hədisin isnadını həsən hesab etmişdir.

[2] Buxarinin "Səhih" əsəri, "Elm" kitabı, "Elmi bir toplumdan gizlədərək digərlərinə öyrədən kimsə" fəsli № 127.

[3] "əl-İstiab" əsəri, 1/1601; "əl-İsabə" əsəri, 7/19.

[4] "əl-İstiab" əsəri, 2/29.

[5] "əl-İstiab" əsəri, 4/1671.

yüşündə işirak etmişdi. Hicrətin 78-ci ilində vəfat etmişdir. O, sünnəni yaxşı bilən hafizlərdən idi.[1]

5 – Cabir ibn Səmura ibn Cunadə ibn Cundəb əl-Amiri əs-Suvai ﷺ: Zuhra oğullarının müttəfiqi idi. Anası Xalidə bint Əbu Vəqqasdır. Kunyəsi: Əbu Abdullah. O, demişdir: "Mən Rəsulullahla ﷺ birlikdə iki mindən çox namaz qılmışam." Kufəyə gəlib hicrətin 74-cü ilində orada vəfat etmişdir.[2]

6 – Zeyd ibn Ərqam ibn Zeyd ibn Qeys ibn ən-Noman ﷺ: Deyilənə görə kunyəsi Əbu Ömər və ya Əbu Amir idi. Hicrətin 68-ci ilində Kufədə vəfat etmişdir. Bəziləri isə onun Hüseynin ﷺ qətlindən azacıq sonra vəfat etdiyini demişlər. O, Əli ﷺ ilə birlikdə Sıffin döyüşündə iştirak etmişdir.[3]

7 – Abdullah ibn Cəfər ibn Əbu Talib ﷺ: Əlinin ﷺ qardaşı oğludur. Həbəşistanda dünyaya gəlmişdir. İslamda dünyaya gəlmiş ilk uşaqdır. Hicrətin 80-ci ilində doxsan yaşında vəfat etmişdir.[4]

8 – Abdullah ibn Ömər ibn Xəttab əl-Quraşi əl-Ədəvi ﷺ: İsalamı atası ilə birlikdə, həddi büluğa çatmamışdan öncə qəbul etmişdi. Hicrətin 73-cü ilində Məkkədə vəfat etmişdir.[5]

9 – Abdullah ibn Məsud ibn Ğafil ibn Vail əl-Huzəli ﷺ: İslamı ilk qəbul edənlərdən biri idi. Hicrətin 32-ci ilində vəfat etmişdir.[6]

10 – Amr ibn Hureys ibn Osman əl-Quraşi əl-Məxzumi ﷺ: Kunyəsi Əbu Səiddir. O, Peyğəmbəri ﷺ görmüş və ondan hədislər eşitmişdir. Peyğəmbər ﷺ onun başına sığal çəkərək onun üçün bərəkət diləmişdir. O, Kufəyə gəlmişdi və orada hörmətli şəxslərdən biri idi. Hicrətin 85-ci ilində vəfat etmişdir.[7]

---

1 "əl-İsabə" əsəri, 1/434; "Əsəd əl-Ğabə" əsəri, 1/162.
2 "əl-İstiab" əsəri, 1/219.
3 "Əsəd əl-Ğabə" əsəri, 1/391.
4 "əl-İsabə" əsəri, 4/276.
5 "əl-İstiab" əsəri, 1/291.
6 "əl-İstiab" əsəri, 2/988.
7 "əl-İstiab" əsəri, 3/1672.

**3 – Əhli beytindən Əlidən ﵁ *hədis* rəvayət edənlər:**

Əhli beytdən aşağıdakı şəxslər Əlidən ﵁ rəvayət etmişlər:

1 – Rəsulullahın ﷺ nəvəsi, Əlinin oğlu Həsən ibn Əli ﵄. O, hicrətin 3-cü ilində anadan olmuş, 49-cu ilində isə vəfat etmişdir.[1]

2 – Rəsulullahın ﷺ nəvəsi, Əlinin oğlu Hüseyn ibn Əli ﵄. O, hicrətin 61-ci ilində 56 yaşında aşura günü şəhid olmuşdur.[2]

3 – Əlinin ﵁ oğlu Muhəmməd ibn Əli ibn Əbu Talib Əbul-Qasim əl-Mədəni. O, bənu Hənifə qəbiləsindən olan anası Xaulə bint Cəfər ibn Qeysə nisbət olunaraq İbn əl-Hənəfiyyə ləqəbi ilə tanınmışdı. əl-İcli demişdir: "Mötəbər tabiinlərdəndir. Kunyəsi Əbul-Qasim idi, özü də əməlisaleh bir insan idi." Ömərin xəlifəliyi dövründə dünyaya gəlmiş vəhicrətin ya 73, ya 80, ya 81, ya 82, ya da 93-cü ilində vəfat etmişdir.[3]

4 – Əlinin ﵁ nəvəsi Muhəmməd ibn Ömər ibn Əli ibn Əbu Talib. İbn Hibban onu "əs-Siqat" yəni etibarlı ravilər əsərində qeyd etmişdir.[4]

5 – Əlinin ﵁ nəvəsi Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib. Ləqəbi Zeynulabidindir. Böyük tabiinlərdəndir. Anası farsların sonuncu imperatoru Yezdəgürdün qızı Səlafədir. O, babası Əli ibn Əbu Talib ﵁ tərəfindən göndərilmişdi. əl-İcli demişdir: "Mədinəlidir, tabiindir və mötəbərdir. Hicrətin 94-cü ilində əlli səkkiz yaşında vəfat etmişdir.[5]

6 – Bacısının oğlu Cəda ibn Həbira ibn Əbu Vahb ibn Amr ibn Aid ibn İmran ibn Məxzum. Cədanın anası Ummu Hani bint Əbu Talibdir. O, Peyğəmbərin ﷺ zamanında dünyaya gəlmiş. O, hətta Peyğəmbəri ﷺ görmüş və səhabədir. Xorasanın valisi olmuş, Kufədə məskunlaşmışdı. əl-İcli demişdir: "Mədinəlidir, tabiindir və mötəbərdir. Əlidən ﵁ *hədis* rəvayət etmişdir.[6]

---

[1] "Əsəd əl-Ğabə" əsəri, 1/258.
[2] "Təhzib ət-Təhzib" əsəri, 2/299.
[3] "Təhzib ət-Təhzib" əsəri, 9/315.
[4] "əs-Siqat" əsəri, 5/353.
[5] "Təhzib ət-Təhzib" əsəri, 7/268.
[6] "Təhzib ət-Təhzib" əsəri, 2/70.

7 – Köləsi Ummu Musa. Deyilənə görə adı Faxitə və ya Həbibə idi. Dəraqutni demişdir: "Onun *rəvayət etdiyi* hədisləri doğrudur." əl-İcli demişdir: "Kifəlidir, tabiindir, mötəbərdir.[1]

**4 – Əlidən ﷺ rəvayət edən ən məşhur tabiinlər:**

1 – Əbu əl-Əsvəd əd-Duəli əl-Bəsri, qazidir. Adı Zalım ibn Amr ibn Sufyandır. Həmçinin deyilənə görə adı Amr ibn Osman və ya Osman ibn Amrdır. O, Peyğəmbərin ﷺ vaxtında İslamı qəbul etmişdir. Cəməl döyüşündə Əli ﷺ ilə birlikdə vuruşmuşdur. İbn Məin, əl-İcli və başqaları onu etibarlı ravi hesab etmişlər. Hicrətin 69-cu ilində Ubeydullah ibn Ziyadın vaxtında vəfat etmişdir.[2]

2 – Əbu Burdə ibn Əbu Musa əl-Əşəri, o böyük alim idi. Əsl adı Harisdir. Bəziləri onun adının Amir olduğunu demişlər. İbn Səd, əl-İcli və İbn Hibban onu etibarlı ravi hesab etmişlər. əl-İcli demişdir: "O, Şureyhdən sonra Kufənin qazisi olmuşdur. O, öz atasından, Əlidən, Huzeyfədən, Abdullah ibn Salamdan, Aişədən və başqalarından hədis rəvayət etmişdir." Deyilənə görə o, hicrətin 103, 104 və ya 107-ci ilində vəfat etmişdir.[3]

3 – Əbu Abdurrəhman əs-Suləmi Abdullah ibn Həbib ibn Rabiə əl-Kufi. O, qarilərdən idi. Atası isə səhabə idi. əl-İcli, Nəsai və Əbu Davud onu etibarlı ravi hesab etmişlər. O, Ömərdən, Osmandan, Əlidən, Səddən, Xalid ibn Vəliddən, İbn Məsuddan, Huzeyfədən və başqalarından hədis rəvayət etmişdir. Deyilənə görə hicrətin 72-ci və ya 85-ci ilində vəfat etmişdir. O, Əli ﷺ ilə birlikdə Sıffin döyüşündə də iştirak etmişdir.[4]

4 – Zur ibn Hubeyş ibn Həbbabə ibn Əus əl-Əsədi Əbu Məryəm. Həmçinin ona Əbu Mutrif əl-Kufi də deyilir. O, etibarlı ravi və muxadramdır (yəni, Peyğəmbərin ﷺ sağlığında ikən ona iman gətirən, lakin onu görə bilməyən müsəlmanlardandır). Hicrətin 81, 82 və ya 83-cü ilində yüz iyirmi yeddi yaşında vəfat etmişdir.[5]

---

[1] "Təhzib ət-Təhzib" əsəri, 12/507.
[2] "Təhzib ət-Təhzib" əsəri, 12/12.
[3] "Təhzib ət-Təhzib" əsəri, 12/21; İbn Sədin "Təbəqat" əsəri, 6/268.
[4] "Təhzib ət-Təhzib" əsəri, 5/161; İbn Sədin "Təbəqat" əsəri, 6/172.
[5] "Təhzib ət-Təhzib" əsəri, 1/215; İbn Sədin "Təbəqat" əsəri, 6/104.

5 – Qudaalı Zeyd ibn Vahb əl-Cuhəni. Kunyəsi Əbu Süleymandır. O, tabiinlərin ən hörmətli və etibarlılarındandır. Onun etibarlı ravi olması barədə ittifaq vardır. İbn Məin və qeyriləri onu etibarlı ravi hesab etmişlər. O, hicrətin doxsanıncı ilindən öncə və ya ondan bir az sonra Həccacın rəhbərliyi dövründə vəfat etmişdir.[1]

6 –Suveyd ibn Ğaflə ibn Əusəcə ibn Amir. Kunyəsi Əbu Umeyyədir. O, Rəsulullahı ﷺ görmək üçün səfərə çıxmışdı. Lakin Rəsulullah ﷺ vəfat etdiyindən dolayı onu görə bilməmişdi. O, Əbu Bəkri, Öməri, Osmanı və Əlini ﷺ görmüş və onlarla yoldaşlıq etmişdir. Hicrətin 81 və ya 82-ci ilində 130 yaşında vəfat etmişdir.[2]

7 – Şureyh ibn Hani ibn Yezid ibn Nəhik əl-Harisi əl-Məzhəci Əbu Miqdam əl-Kufi. O, Peyğəmbərin ﷺ zamanında yaşamış, lakin onu görməmişdir. O, Əlinin ﷺ səhabələrindən idi. Hicrətin 78-ci ilində Əbu Bəkranın oğlu ilə birlikdə Sicistanda vəfat etmişdir.[3]

8 – Amir ibn Şərahil ibn Abd və ya Amir ibn Abdullah ibn Şərahil əş-Şabi əl-Humeyri Əbu Amr əl-Kufi. Həmədan xalqından idi. Onun belə dediyi rəvayət olunur: "Mən səhabələrdən beş yüzünü görmüşəm." Həsənin onun barəsində belə dediyi rəvayət olunur: "Vallahi ki, o, çox elmli, dərrakəli, islamı çoxdan qəbul etmiş birisi idi." Rəvayət olunur ki, Məkhul onun barəsində belə demişdir: "Mən ondan daha savadlı birisini görməmişəm." İbn Uyeynə onun barəsində demişdir: "Səhabələrdən sonra insanlar deyirdilər ki, İbn Abbas öz zamanının, Şabi öz zamanının, Səuri də öz zamanının *alimi olmuşdur*. O, Ömərin ﷺ xilafətinin altıncı ilində anadan olmuş, hicrətin 109-cu ilində isə vəfat etmişdi.[4]

9 – Abdu Xeyr ibn Yəzid və ya İbn Buceyd ibn Cəuni ibn Abdu Amr ibn Abdu Yərib ibn Said əl-Həmədani, Əbu Əmarə əl-Kufi. O, cahiliyyə dövrünü görmüş biri idi. əl-İcli demişdir: "O Kufəli, tabi-

---

1 "Təhzib ət-Təhzib" əsəri, 3/368; İbn Sədin "Təbəqat" əsəri, 6/102.

2 "Təhzib ət-Təhzib" əsəri, 4/244.

3 "Təhzib ət-Təhzib" əsəri, 4/290.

4 "Təhzib ət-Təhzib" əsəri, 5/57.

in və etibarlı ravidir." İbn Hibban onun adını etibarlı tabiinlərin adları arasında qeyd etmişdir. Deyilənə görə o, yüz iyirmi il yaşamış və Sıffin döyüşündə qətlə yetirilmişdi.[1]

10 – Abdurrəhman ibn Əbu Leylə, adı Yəsardır. Deyilənə görə onun adı Bilal, yaxud Davud ibn Bilal ibn Buleyl ibn Uheyhə ibn Cəllah ibn Hureyş əl-Ənsari əl-Əusidir. Ömərin xilafətinin sonuna altı ilə qalmış anadan olmuşdu. Rəvayət olunur ki, o belə demişdir: "Mən yüz iyirmi ənsar görmüşəm." İbn Məin və əl-İcli onu etibarlı ravi hesab etmişlər. Deyilənə görə o, hicrətin 71-ci və ya 82-ci ilində Cəmacimdə yaralanmışdır.[2]

11 – Ubeydə əs-Səlmani. O, həm də Ubeydə ibn Amrdır. Həmçinin onun İbn Qeys ibn Amr əs-Səlmani əl-Muradi Əbu Amr əl-Kufi olduğu da bildirilir. O, Peyğəmbərin ﷺ vəfatından iki il öncə anadan olmuş, lakin onu görməmişdi. Şəbi demişdir: "Qazilik məsələsini ən yaxşı bilən Şureyh idi. Ubeydə də ona köməklik edirdi. əl-İcli demişdir: "O Kufəli, tabiin və etibarlı ravidir." O, hicrətin yetmişinci ilindən öncə vəfat etmişdir.[3]

12 – Abdullah ibn Sələmə əl-Muradi əl-Kufi. Əlinin ﷺ səhabəsi idi. Kunyəsi Əbu Aliyə idi. əl-İcli demişdir: "O Kufəli, tabiin və etibarlı ravidir." Buxari demişdir: "Onun hədisləri araşdırılmaz. Amr ibn Murradan *rəvayətləri* qəbul da oluna bilər, olunmaya da bilər. O yaşa dolmuş birisi idi." Yaqub ibn Şeybə demişdir: "O etibarlı."[4]

13 – Abdullah ibn Şəqiq əl-Uqeyli. Kunyəsi Əbu Abdurrəhmandır. Həmçinin ona Əbu Muhəmməd əl-Bəsri də deyilir. O, Bəsrə əhlindən olan tabiindir. İbn Səd onu Bəsrə əhlindən olan tabiinlər arasında birinci təbəqədə qeyd etmişdir. İbn Məin də onu etibarlı ravi hesab etmişdir. Rəvayətə görə onun duaları müstəcəb idi. O, hicrətin yüzüncü ildən sonra və ya hicrətin 108-ci ilində vəfat etmişdir.[5]

---

[1] "Təhzib ət-Təhzib" əsəri, 6/113; İbn Sədin "Təbəqat" əsəri, 6/221.
[2] "Mizan əl-İtidal" əsəri, 2/584; "Təhzib ət-Təhzib" əsəri, 6/234.
[3] "Təhzib ət-Təhzib" əsəri, 7/78; İbn Sədin "Təbəqat" əsəri, 6/93.
[4] "Mizan əl-İtidal" əsəri, 2/409; "Təhzib ət-Təhzib" əsəri, 6/213.
[5] "Təhzib ət-Təhzib" əsəri, 5/223.

14 – Əlqamə ibn Qeys ən-Nəxai. O, Əlqamə ibn Qeys ibn Abdullah ibn Malik ibn Əlqamə ən-Nəxai əl-Kufidir. O, Rəsulullah ﷺ sağ ikən dünyaya gəlmişdir. Əhməd demişdir: "O, etibarlı ravidir və xeyir əhlindəndir." ən-Nəxai demişdir: "O, Quranı bir gecədə xətm edərmiş." Hicrətin 62-ci və ya 63-cü ilində vəfat etmişdir. İbn Səd demişdir: "O, etibarlı və çox hədis rəvayət edən birisi idi."[1]

15 – Umeyr ibn Səid ən-Nəxai əs-Səhbani, Əbu Yəhya əl-Kufi. İbn Hibban onu "əs-Siqat" əsərində qeyd etmişdir. O, Əlidən içki içən şəxsin cəzası barədə hədis rəvayət etmişdir. İbn Səd demişdir: "O, hicrətin 115-ci ilində vəfat etmişdir. Hicrətin 107-ci ilində vəfat etdiyi də deyilir."[2]

16 – Hani ibn Hani əl-Həmdani əl-Kufi. Nəsai demişdir: "Pis ravi deyil." İbn Hibban onu "əs-Siqat" əsərində qeyd etmişdir. İbn əl-Mədini demişdir: "Məchul ravidir." İbn Səd demişdir: "Münkər hədisləri var." Şafii demişdir: "Halı məchul olduğundan hədis əhli onun hədislərini götürmürlər." İbn Səd onu Kufə əhlinin birinci təbəqəsində qeyd etmişdir. Zəhəbi demişdir: "Pis ravi deyil."[3]

17 – Yezid ibn Şərik ibn Tariq ət-Teymi əl-Kufi. Yəhya ibn Məin demişdir: "Etibarlı ravidir." İbn Hibban onu "əs-Siqat" əsərində qeyd etmişdir. İbn Səd demişdir: "O, etibarlı ravi idi və qövmünün başçılarından idi." Əbu Musa əl-Mədini demişdir: "Deyilənə görə o, cahiliyyət dövrünü də görmüşdür." O, Ömərdən, Əlidən, Əbu Zərdən, İbn Məsuddan və Huzeyfədən ﷺ rəvayətlər etmişdir.[4]

Bunlar Əlidən ﷺ hədis rəvayət edənlərin bəziləri idi. Məqsədimiz onların hamısını qeydə almaq deyil, sadəcə müsəlmanların elm dəryası olan Əli ibn Əbu Talibdən ﷺ hədis rəvayət etməyə nə qədər həris olduqlarını göstərməkdir.

---

[1] "Təhzib ət-Təhzib" əsəri, 7/245; "ət-Təbəqat əl-Kubra" əsəri, 6/86.

[2] "Təhzib ət-Təhzib" əsəri, 8/129; "Siyar Əlam ən-Nubəla" əsəri, 4/443.

[3] "Təhzib ət-Təhzib" əsəri, 11/22; Zəhəbinin "əl-Kaşif" əsəri, 3/218.

[4] "Təhzib ət-Təhzib" əsəri, 11/294.

# Əlinin ﷺ şeirləri və bəlağəti

**1) Şeiri:**

Həzrəti Əlinin ﷺ məşhur şeir divanı vardır. Bir çox insanlar onun beytlərini təqlid edirlər. Lakin tənqid alimləri həmin beytlərin böyük bir hissəsinin səhihliyini şübhə altına alırlar.

Ədəbiyyatşünasların lüğət kitablarında qeyd olunur:

Mən dilşünas alim Əbu Mənsur Muhəmməd ibn Əhməd əl-Əzhərinin "ət-Təhzib" əsərində oxumuşam ki, o demişdir: "Əbu Osman əl-Mazini demişdir: "Əli ibn Əbu Talibin ﷺ *aşağıdakı* iki beytdən başqa hər hansı bir şeiri deməsi barədə səhih məlumat yoxdur:

Qureyş məni təmənna edib öldürmək istədi,
Lakin onlar zəfər çalıb istəklərinə nail ola bilmədi.
Mən həlak olsam haqqım onlarda girov qalar,
Eyni misildə əfv edilmədən onlardan qisas alınar.[1]

İbn Hişam öz "Sira" əsərində bir neçə yerdə Əlidən ﷺ şeirlər qeyd etmişdir. Lakin o da, həmin şeirlərin Əliyə ﷺ məxsusluğunun səhihliyini şübhə altına almışdır.

**2) Bəlağəti:**

Möminlərin əmiri Əli ibn Əbu Talib ﷺ bir sıra özəlliklərə malik idi. Onlardan hazırcavablıq, gözəl dil qabiliyyəti, yüksək zəka, qəlbin təmizliyi, nəfsin paklığı, imanın dərinliyi, dində möhkəmlik, Rəsulullaha ﷺ yaxınlıq, ondan vəhyi öyrənməsi, bununla da fəsahətli dilə, açıq-aydın bəyana malik olmasını göstərmək olar. Onun kəlmələri sanki cəvahirat, cümlələri hikmətli idi. Ağıllı insanlar onu dərhal bəyənərdilər. Bəlağət əhli onu izləyərdilər. Hidayət əhli üçün də o, bir qənimət idi. Onun kəlamları insanları yaxşı işlərə, gözəl xüsusiyyətlərə sövq edərdi. Onun hikmətlə dolu sözləri insanların dinə və elmə dəvət olunmasında, onların tərbiyələndirilməsində, ağıl-

---

[1] Yaqutun "Mucəm əl-Udəba"əsəri, 14/43.

landırılmasında, qəlblərinin dirilməsində əvəzsizdir. Çünki onun sözləri olduqca dərin mənalara, aydın ifadələrə, dərin fikirlərə malikdir. Bundan əlavə həmin sözlər təqvalı qəlbdən, pak sinədən çıxır.[1] Onlardan bir neçəsini[2] hörmətli oxucunun nəzərinə çatdırmaq istəyirəm:

1 – Gecə namazı gündüzün nurudur.

2 – Dinin salamat olması təqvadan, fəsada uğraması isə tamahkarlıqdan olur.

3 – Elminə əməl edənə xoş halına.

4 – Fürsət bulud kimi sürətli gəlib keçir.

5 – Qəlbin sərtləşməsi toxluqdan olur.

---

[1] "Mənhəcu Əli ibn Əbu Talib Fi əd-Dəvəti İləllah" əsəri, səh. 275.

[2] Kim daha çox məlumat əldə etmək istəyirsə Səllabinin "Əli ibn Əbu Talib" kitabına müraciət edə bilər.

# Son söz

Bu Möminlərin əmiri Əli ibn Əbu Talibin رضي الله عنه həyatından bəzi seçmələr idi. O, elə bir şücaətkar insan idi ki, şücaətdə onu misal çəkərdilər. Elə hikmətli idi ki, onun hikmətindən hər zaman bəhrələnərdilər. Elə bir zahid insan idi ki, dünyanı tərk etmişdi. O, İslamın düşmənlərinə qarşı bir qılınc idi.

O, Peyğəmbərin ﷺ evində tərbiyə alaraq onun malik olduğu əxlaqi keyfiyyətlərə yiyələnmişdi. Onun sözlərində və əməllərində də bu özünü büruzə verərdi. O, Qurani Kərimin əxlaqına malik idi. Beləcə o, Ədnanın nəvəsi Muhəmmədin ﷺ yolu ilə getmişdi. Onun sevdikləri insanları sevmişdi. Ondan sonra Əbu Bəkri, Öməri və Osmanı da sevə-sevə yaşamış, onların hər üçünə vəzirlik edərək nəsihətlər etmişdi.

O, adi bir şəxsiyyət deyildi, fəqih, alim, hədis ravisi idi. Hətta bu xüsusiyyətlərinə görə Müaviyə ibn Əbu Sufyan da onun ölümünə ağlamışdı. Allah səndən razı olsun ey Əbu Sibteyn Əli.

# Müracət olunmuş ədəbiyyatlar:


1 – əl-Busirinin “İthaf əl-Xiyara əl-Məhəra Bi Zəvaid əl-Məsanid əl-Əşəra” əsəri, əl-Vatan nəşriyyatı, ər-Riyad, Hicri. 1420.

2 – İbn Əbu Asimin “əl-Əhad Və əl-Məsani” əsəri, ər-Rayə nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Hicri. 1411. Miladi. 1991. Doktor Basim Feysal əl-Cəvabiranın təhqiqi.

3 – Şeyx Albaninin “Əhkam əl-Cənaiz” əsəri, əl-Məktəb əl-İslami nəşriyyatı, Beyrut, 4-cü nəşr, Hicri. 1406.

4 – İmam Ğazəlinin “İhya Ulum əd-Din” əsəri, Dar əl-Ərqam nəşriyyatı, Beyrut, Livan, 1-ci nəşr, Hicri. 1419. Miladi. 1998.

5 – əl-Fakihinin “Əxbar əl-Məkkə” əsəri, Xıdır nəşriyyatı, Beyrut, 2-ci nəşr, Hicri. 1414. Abdulmalik ibn Duheyşin təhqiqi.

6 – Şeyx Albaninin “İrva əl-Galil Fi Təxrici Əhadis Mənar əs-Səbil” əsəri, əl-Məktəb əl-İslami nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1405. Miladi. 1985.

7 – əl-Vahidinin “Əsbəb ən-Nuzul” əsəri, əl-Hələbi müəssisəsi, Qahirə, Hicri. 1388. Miladi. 1968.

8 – İbn Abdulbərr ən-Nəmrinin “əl-İstiab” əsəri, əl-Ceyl nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1412. Miladi. 1992. Əli Muhəmməd əl-Bəcavinin təhqiqi.

9 – Hafiz İbn əl-Əsir əl-Cəzərinin “Əsəd əl-Ğabə Fi Mərifəti əs-Səhabə” əsəri, ət-Təufiqiyyə kitabxanası, Qahirə, 1-ci nəşr, Miladi. 2003. Xeyri Səidin təhqiqi.

10 – Hafiz İbn Həcər əl-Əsqəlaninin “əl-İsabə Fi Təmyiz əs-Səhabə” əsəri, əl-Ceyl nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1412.

11 – İbn Taqtaqinin “əl-Useyli” əsəri, Ayətullah əl-Məraşi nəşriyyatı, Qum – İran, 1-ci cild, Hicri. 1374.

12 – İmam İbn Qeyyim əl-Cəuziyyənin “İlam əl-Muvaqqiin An Rabbil Aləmin” əsəri, əl-Kulliyyat əl-Əzhariyyə kitabxanası, Qahirə, Miladi. 1968. Taha Abdurrauf Sədin təhqiqi.

13 – əl-Məqrizinin "İmta əl-Əsma" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, Livan, 1-ci nəşr, Hicri. 1420, Muhəmməd Abdulhəmid ən-Nəmisinin təhqiqi.
14 – İbrahim ər-Ruheylinin "əl-İntisar Li əs-Sahbi və əl-Al", Dar əl-Ğuraba kitabxanası, Mədinə, 2-ci nəşr, Hicri. 1419. Miladi. 1999.
15 – əl-Bəlazrinin "Ənsab əl-Əşraf" əsəri, əl-Əlami müəssisəsi, Beyrut, Livan, 1-ci nəşr, Hicri. 1394. Miladi. 1974, Muhəmməd Baqir əl-Mahmudinin təhqiqi.
16 – Dr. Hamid Muhəmməd əl-Xəlifənin "əl-İnsaf Fimə Vəqaə Fi Tarix əl-Asr ər-Raşidi min əl-Xilaf" əsəri, əl-Qələm nəşriyyatı, Dəməşq, Miladi. 2009.
17 – Ridvan Caminin "əl-Əvail Min əs-Səhabəti Və Zəvu əl-Fadli Minhum Və ən-Nəcabə", Qahirə, 1-ci nəşr, Hicri. 1422. Miladi. 2002.
18 – Hafiz İbn Kəsir əd-Diməşqinin "əl-Bidayə Və ən-Nihayə" əsəri, əl-Məarif kitabxanası, Beyrut, Livan, 1-ci nəşr, Hicri. 1408. Miladi. 1988.
19 – Hafiz Siracuddin ibn əl-Muləqqinin "əl-Bədru əl-Munir Fi Təxric Əhadis ər-Rafii əl-Kəbir", əl-Hicra nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Hicri. 1425.
20 – əl-Heysəminin "Buğyətu əl-Bahis An Zəvaid Musnəd əl-Haris" əsəri, Xidmətu əs-Sunnə ən-Nəbəviyyə mərkəzi, Mədinə, 1-ci nəşr, Hicri. 1413, Hüseyn əl-Bakirinin təhqiqi.
21 – əl-Alusinin "Buluğ əl-Ərab Fi Mərifəti Əhval əl-Arab" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, Livan, 3 cilddə.
22 – Hafiz Zəhəbinin "Tarix əl-İslam" əsəri, əl-Kitab əl-Arabi nəşriyyatı, 3-cü nəşr, Miladi. 2002. Dr. Ömər Abdussələm Tədmurinin təhqiqi.
23 – Abduləziz əl-Humeydinin "ət-Tarix əl-İslami Məvaqif Va İbər" əsəri, əd-Dəvətu və əl-Əndəlus nəşriyyatları, 1-ci cild, Hicri. 1418.

24 – İmam Təbərinin “Tarix əl-Uməmi Va əl-Muluk” əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, 1-ci cild, Hicri. 1407.
25 – İmam Suyutinin “Tarix əl-Xuləfa” əsəri, əs-Səadə nəşriyyatı, Misir, 1-ci cild, Miladi. 1952. Muhəmməd Muhyiddin Abdulhəmidin təhqiqi.
26 – İbn Əbu Xeysəmənin “ət-Tarix əl-Kəbir” əsəri, Ğaras yayın evi, Küveyt, 1-ci nəşr, Hicri. 1425. Miladi. 2004.
27 – İmam əl-Buxarinin “Tarix əl-Kəbir” əsəri, əl-Fikr nəşriyyatı, Seyid Haşim ən-Nədəvinin təhqiqi.
28 – İbn Şəbəhin “Tarix əl-Mədinə ən-Nəbəviyyə”, əl-Fikr nəşriyyatı, Beyrut, Fəhim Muhəmməd Şəltutun təhqiqi.
29 – Əhməd ibn Əbu Yaqubun “Tarix əl-Yaqubi” əsəri, Sadir nəşriyyatı, Beyrut – Livan, tarixsiz.
30 – Hafiz Xatib əl-Bəğdadinin “Tarix Bağdad” əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, tarixsiz.
31 – Xalifə İbn Xəyyatın “Tarix” əsəri, əl-Qələm nəşriyyatı, Dəməşq, 1-ci nəşr, Hicri. 1397. Dr. Əkram əl-Umarinin təhqiqi.
32 – Hafiz İbn Əsakirin “Tarix Mədinəti Diməşq” əsəri, əl-Fikr nəşriyyatı, Beyrut, 1-ci nəşr, Miladi. 1998.
33 – Əbu əl-Bəqa İbn Diya əl-Məkkinin “Tarix Məkkə əl-Muşərrafə Va əl-Məscidi əl-Haram” əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, 2-ci nəşr, Hicri. 1424. Əla İbrahim – Əyman Nasrın təhqiqi.
34 – İbn əl-Cəuzinin “ət-Təbsira” əsəri, əl-Kitab əl-Misri nəşriyyatı, Misir, Hicri. 1390. Miladi. 1970.
35 – əl-İsbahaninin “Təsbit əl-İmamə Və Tərtib əl-Xilafə” əsəri.
36 – Muhəmməd Əmhəzunun “Təhqiq Məvaqif əs-Səhabə Fil-Fitnə” əsəri, ət-Taybə nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Hicri. 1415.
37 – İmam Suyutinin “Tədrib ər-Ravi Fi Şərh Təqrib ən-Nəvavi” əsəri, ər-Riyad əl-Hədisə nəşriyyatı, Abdulvahhab Abdullətifin təhqiqi.

38 – İbn Əbu Hatim ər-Razinin "Təfsir" əsəri, Mustafa əl-Baz nəşriyyatı, 2-ci nəşr, Miladi. 2006, Əsad ət-Tayyibin təhqiqi.
39 – əl-Məsudinin "ət-Tənbeh Və əl-İşraf" əsəri, əl-Məktəbə əl-Hilal nəşriyyatı, Livan, 1-ci nəşr, Miladi. 1992.
40 – İmam Təbərinin "Təhzib əl-Əsar" əsəri, əl-Xanci nəşriyyatı, Qahirə, Mahmud Muhəmməd Şakirin təhqiqi.
41 – İmam Muhyiddin ən-Nəvəvinin "Təhzib əl-Əsma Və əl-Luğat" əsəri, Mustafa Abdulqadir Ətanın təhqiqi.
42 – İbn Həcər əl-Əsqəlaninin "Təhzib ət-Təhzib" əsəri, əl-Fikr nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1404. Miladi. 1984.
43 – Hafiz İbn Nasir əd-Din əd-Diməşqinin "Təvdih əl-Muştəbəh Fi Dabti Əsma ər-Ruvat Və Ənsabihim" əsəri, ən-Nəşr nəşriyyatı, Beyrut, 1-ci nəşr, Miladi. 1993.
44 – İbn Hibbanın "əs-Siqat" əsəri, əl-Fikr nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1395. Seyyid Şərafuddin Əhmədin təhqiqi.
45 – Hafiz İbn Abdulbərr ən-Nəmrinin "Cami Bəyan əl-İlmi Və Fadlihi" əsəri, ər-Rəyyan müəssisəsi, İbn Həzm nəşriyyatı, 1-ci cild, Hicri. 1424. Miladi. 2003, Fəvvaz Əhməd Zumrəlinin təhqiqi.
46 – Muhəmməd Seyyid əl-Vəkilin "Cəulə Tərixiyyə Fi Asri əl-Xuləfə ər-Raşidin" əsəri, əl-Muctəmə nəşriyyatı, 5-ci nəşr, Hicri. 1416.
47 – əl-Bərrinin "əl-Cəvhəra Fi Nəsəbi ən-Nəbiyyi Səllallahu Aleyhi Və Səlləm Və Əshabihi əl-Əşəra" əsəri.
48 – Şeyx Osman əl-Xəmisin "Huqbə Min ət-Tarix" əsəri, İmam Buxari kitabxanası, Qahirə, 4-cü nəşr, Miladi. 2008.
49 – Səid ibn Əli əl-Qahtaninin "əl-Hikmətu Fi əd-Dəvati İləllahi Təalə" əsəri, Səudiyyə Ərəbistanının Vəqflər Nazirliyi, 1-ci nəşr, Hicri. 1423.
50 – Əbu Nueym əl-İsbəhaninin "Hilyətu əl-Əvliya" əsəri, əl-Kitab əl-Ərəbi nəşriyyatı, Beyrut, 4-cü nəşr, Hicri. 1405.

51 – Hafiz ən-Nəsainin "Xəsais Əmir əl-Muminin Əli" əsəri, əl-Muəllə kitabxanası, Küveyt, 1-ci nəşr, Hicri. 1406. Əhməd əl-Bəluşinin təhqiqi.
52 – İmam Nəvəvinin "Xulasətu əl-Əhkam" əsəri, ər-Risalə müəssisəsi, Beyrut, 1-ci nəşr, Hicri. 1418. Hüseyn Cəməlin təhqiqi.
53 – Abdulvahhab Nəccarın "əl-Xuləfa ər-Raşidun" əsəri, əl-Qaləm nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1406.
54 – İmara Muhəmməd İmaranın "Xuləfa ər-Rəsul Səllallahu Aleyhi Və Səlləm" əsəri, əl-Yəqin nəşriyyatı, Misir, 1-ci nəşr, Hicri. 1423. Miladi. 2002.
55 – Dr. Muhəmməd Dayfullah əl-Bətayinənin "Dirasə Fi Tarix əl-Xuləfa əl-Əməviyyin" əsəri, əl-Vifaq nəşriyyatı, Amman, 1-ci nəşr, Hicri. 1420.
56 – Hafiz İbn Həcər əl-Əsqəlaninin "əd-Dirayə Fi Təxric Əhadis əl-Hidayə" əsəri, əl-Mərifə nəşriyyatı, Beyrut, Seyyid Abdullah Haşim əl-Yəmaninin təhqiqi.
57 – İbn Abdulbərrin "əd-Durar Fi İxtisar əl-Məğazi Və əs-Siyər" əsəri, Misirin Vəqflər Nazirliyi, 1-ci nəşr, Hicri. 1415. Şəuqi Dayfın təhqiqi.
58 – əl-Beyhəqinin "Dəlail ən-Nubuvva" əsəri, əl-Kutub əl-Elmiyyə və əl-Rəyyan nəşriyyatları, 1-ci nəşr, Hicri. 1408. Dr. Abdulmuti Qalacının təhqiqi.
59 – Əsma Muhəmməd Ziyadənin "Dəvr əl-Məra əs-Siyasi" əsəri, əs-Səlam nəşriyyatı, 1-ci nəşr, Hicri. 1421.
60 – əl-Acurrinin "Zəmm əl-Livat" əsəri, Məktəbətu əl-Quran nəşriyyatı, Məcdi Seyyid İbrahimin təhqiqi.
61 – İbn əl-Cəuzinin "Zəmm əl-Həva" əsəri, Mustafa Abdulvahidin təhqiqi.
62 – Əbu Həsən ən-Nədəvinin "Rical əl-Fikr Və əd-Dəva Fi əl-İslam" əsəri, İbn Kəsir nəşriyyatı, Dəməşq.

63 – İbn Əbu əd-Dunyanın "ər-Riqqa Və əl-Bukə" əsəri, əl-Ubeykan nəşriyyatı, 1-ci nəşr, Hicri. 1415. Muhəmməd Xeyr Ramadan Yusufun təhqiqi.
64 – əl-Muhib ət-Təbərinin "ər-Riyad ən-Nədira Fi Mənaqib əl-Əşəra" əsəri, əl-Məktəbə əl-Qayyimə nəşriyyatı, Qahirə.
65 – İmam Hənnad ibn Sirrinin "əz-Zuhd" əsəri, əl-Xuləfa nəşriyyatı, Küveyt, 1-ci nəşr, Hicri. 1406. Abdurrəhman əl-Fəryəvainin təhqiqi.
66 – Muhəmməd ibn Yusuf əs-Salehi əş-Şaminin "Subul əl-Hudə Və ər-Rəşad Fi Siyrati Xayri əl-İbad" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1993.
67 – Şeyx Muhəmməd Nasirəddin Albaninin "Silsilətu əl-Əhadis əs-Sahihə" əsəri, əl-Məarif nəşriyyatı, ər-Riyad.
68 – İmam Əhməd ibn Hənbəlin oğlu Abdullahın "əs-Sunnə" əsəri, İbn Qeyyim nəşriyyatı, Dəmmam, 1-ci nəşr, Hicri. 1406. Muhəmməd Səid əl-Qəhtaninin təhqiqi.
69 – Abdullah İbn Macə əl-Qəzvininin "Sunən" əsəri, əl-Fikr nəşriyyatı, Beyrut, Muhəmməd Fuad Abdulbaqinin təhqiqi.
70 – Hafiz Süleyman ibn Əşəs Əbu Davudun "Sunən" əsəri, əl-Fikr nəşriyyatı, Muhəmməd Muhyiddin Abdulhəmidin təhqiqi.
71 – Əbu İsa Tirmizinin "Sunən" əsəri, İhya ət-Turas əl-Ərəbi nəşriyyatı, Beyrut, Əhməd Şakirin təhqiqi.
72 – Beyhəqinin "Sunən əl-Kubra" əsəri, Hindistandakı Məclis Dairatu əl-Məarif nəşriyyatı, 1-ci nəşr, Hicri. 1344.
73 – Hafiz Əhməd ibn Şueyb ən-Nəsainin "Sunən" əsəri, əl-Mətbuat əl-İslamiyyə nəşriyyatı, Hələb, 2-ci nəşr, Miladi. 1986. Abdulfəttah Əbu Ğuddənin təhqiqi.
74 – Hafiz ən-Nəsainin "Sunən əl-Kubra" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, 1-ci nəşr, Miladi. 1991.
75 – İmam əd-Dariminin "Sunən" əsəri, əl-Kitab əl-Ərəbi nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1407. Fəvvaz Əhməd Zumrəli və Xalid əs-Səbunun təhqiqi.

76 – Hafiz Əbu Abdullah əz-Zəhəbinin "Siyar Əlam ən-Nubəla" əsəri, ər-Risalə müəssisəsi, Beyrut.
77 – Muhəmməd ibn İshaqın "Siyra" əsəri, əl-Dirasət institutu, Muhəmməd Həmidullahın təhqiqi.
78 – Burhanuddin əl-Hələbinin "əs-Siyratu əl-Hələbiyyə" əsəri, əl-Mərifə nəşriyyatı, Beyrut, Hicri. 1400.
79 – Mehdi Rizqullah Əhmədin "əs-Siyratu ən-Nəbəviyyə Fi Dau əl-Məsadir əl-Asliyyə" əsəri, Kral Feysal İslam araşdırmalar mərkəzi, 1-ci nəşr, Hicri. 1412. Miladi. 1989.
80 – İbn Hişamın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, əl-Ceyl nəşriyyatı, Beyrut, Hicri. 1411. Taha Abdurrauf Sədin təhqiqi.
81 – Əbu Şəhbanın "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, əl-Qaləm nəşriyyatı, Dəməşq, 3-cü nəşr, Hicri. 1417.
82 – Hafiz İbn Kəsirin " əs-Siyratu ən-Nəbəviyyə" əsəri, əl-Mərifə nəşriyyatı, Beyrut, Livan, Hicri. 1396. Miladi. 197.
83 – Mustafa əs-Sibainin "əs-Siyratu ən-Nəbəviyyə" əsəri, Dəməşq, Suriya, Hicri. 1381.
84 – İmam Nəvəvinin "Şərh ən-Nəvəvi Alə Səhih Muslim" əsəri, İhya ət-Turas əl-Ərəbi nəşriyyatı, Beyrut, 2-ci nəşr, Hicri. 1392.
85 – əl-Beyhəqinin "Şuəb əl-İman" əsəri, əl-Məktəbə ər-Ruşd nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Hicri. 1423. Muxtar Əhməd ən-Nədəvinin təhqiqi.
86 – İbn Əbu Dunyanın "əş-Şukr" əsəri, əl-Məktəb əl-İslami nəşriyyatı, Küveyt, 3-cü nəşr, Miladi. 1980. Bədr əl-Bədrin təhqiqi.
87 – İmam Muhəmməd ibn İsmayıl əl-Buxarinin "Səhih əl-Buxari" əsəri, Tauqu ən-Nəcat nəşriyyatı, 1-ci nəşr, Hicri. 1422.
88 – İmam Muslim ibn Həccac ən-Nisaburinin "Səhih Muslim" əsəri, İhya ət-Turas əl-Ərəbi nəşriyyatı, Beyrut, Muhəmməd Fuad Abdulbaqinin təhqiqi.
89 – İbn Həcər əl-Heytəminin "əs-Səvaiq əl-Muhriqa" əsəri, ər-Risalə müəssisəsi, Beyrut, 1-ci nəşr, Miladi. 1997. Abdurrəhman Turki və Kamil əl-Xarratın təhqiqi.

90 – İbn Sədin "ət-Təbəqat əl-Kubra" əsəri, Sadir nəşriyyatı, Beyrut, 1-ci nəşr, Miladi. 1968.
91 – İmam İbn Qeyyim əl-Cəuziyyənin "ət-Turuq əl-Hukmiyyə" əsəri, əl-Mədəni mətbəəsi, Qahirə, Dr. Muhəmməd Cəmil Ğazinin təhqiqi.
92 – Əkrəm əl-Umarinin "Asru əl-Xilafə ər-Raşidə" əsəri, əl-Ulum və əl-Hikəm kitabxanası, Mədinə, 1-ci nəşr, Hicri. 1414.
93 – Abdulhəlim Uveysin "Əli ibn Əbu Talib əl-Xaliyfətu əl-Muftəra Aleyhi" əsəri, ət-Tənvir araşdırmalar mərkəzi, Qahirə, 1-ci nəşr, Miladi. 2007.
94 – Muhəmməd Raşid Ridanın "Əli ibn Əbu Talib" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, Hicri. 1403. Miladi. 1983.
95 – İbn Ənbanın "Umdətu ət-Talib Fi Nəsəbi Ali Əbi Talib" əsəri, Cull əl-Mərifə nəşriyyatı və ət-Təvbə nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Miladi. 2003.
96 – Hafiz İbn Həcər əl-Əsqəlaninin "Fəth əl-Bari Şərh Səhih əl-Buxari" əsəri, əl-Mərifə nəşriyyatı, Beyrut, Hicri. 1379.
97 – İbn Həzm əl-Əndəlusinin "əl-Faslu Fi əl-Miləli Və əl-Əhva Və ən-Nihəl" əsəri, əl-Xanci kitabxanası, Qahirə.
98 – Əbu Nueym əl-İsbəhaninin "Fədail əl-Xuləfa ər-Raşidin" əsəri, əl-Buxari nəşriyyatı, Mədinə, 1-ci nəşr, Hicri. 1417. Miladi. 1997.
99 – İmam Əhməd ibn Hənbəlin "Fədail əs-Səhabə" əsəri, ər-Risalə müəssisəsi, Beyrut, 1-ci nəşr, Miladi. 1983. Vasiyyullah Abbasın təhqiqi.
100 – Hafiz İbn Kəsirin "Fədail əl-Quran" əsəri, İbn Teymiyyə nəşriyyatı, 1-ci nəşr, Hicri. 1416.
101 – Munir əl-Ğədbaninin "Fiqh əs-Siyra ən-Nəbəviyyə" əsəri, Camiatu Ummu əl-Qura nəşriyyatı, Hicri. 1419.
102 – əl-Butinin "Fiqh əs-Siyra ən-Nəbəviyyə" əsəri, əl-Fikr nəşriyyatı, Dəməşq, 11-ci nəşr, Miladi. 1991.

103 – Muhəmməd Qalacının "Qiraə Siyasiyyə Li əs-Siyra ən-Nəbəviyyə" əsəri, ən-Nəfais nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1416.
104 – İbn əl-Əsirin "əl-Kamil Fi ət-Tarix" əsəri, Sadir nəşriyyatı, Beyrut, Hicri. 1385. Miladi. 1965.
105 – İmam Şafiinin "əl-Umm" əsəri, əl-Mərifə nəşriyyatı, Beyrut, Hicri. 1393.
106 – Əbu Ubeyd əl-Qasim ibn Sələmin "Kitab əl-Əmval" əsəri, əl-Hudə ən-Nəbəvi nəşriyyatı, Misir, əl-Fadilə nəşriyyatı, Səudiyyə Ərəbistanı, 1-ci nəşr, Hicri. 1428. Miladi. 2007.
107 – İbn Əbu Davudun "Kitab əl-Məsahif" əsəri, əl-Faruq əl-Hədisə nəşriyyatı, Hicri. 1423. Miladi. 2002. Muhəmməd ibn Abdənin təhqiqi.
108 – Hafiz Hibətullah əl-Laləkainin "Kəramət əl-Əvliya" əsəri, Taybə nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Hicri. 1412. Dr. Əhməd Səd Həmədanın təhqiqi.
109 – əl-Muttəqi Hindinin "Kənz əl-Umməl Fi Sunəni əl-Əqval Və əl-Əfal" əsəri, ər-Risalə müəssisəsi, Beyrut, Miladi. 1989.
110 – İbn Mənzurun "Lisan əl-Ərəb" əsəri, Sadir nəşriyyatı, Beyrut, 1-ci nəşr.
111 – əl-Heysəminin "Məcmə əz-Zəvaid Və Mənbə əl-Fəvaid" əsəri, əl-Fikr nəşriyyatı, Beyrut, Hicri. 1412. Miladi. 1992.
112 – İmam Muhyiddin ən-Nəvəvinin "əl-Məcmu Fi Şərh əl-Muhəzzəb" əsəri, İmam mətbəəsi, Misir.
113 – Hafiz Əbu Bəkr əl-Beyhəqinin "əl-Mədxal İlə əs-Sunən əl-Kubra" əsəri, əl-Xuləfa nəşriyyatı, Küveyt, Hicri. 1404. Dr. Muhəmməd Diya ər-Rahmən əl-Əzaminin təhqiqi.
114 – ən-Nədəvinin "əl-Murtəda" əsəri, əl-Qələm nəşriyyatı, Dəməşq, 2-ci nəşr, Hicri. 1419.
115 – Hafiz əl-Həkəminin "Mərviyyat Ğazvətu əl-Hudeybiyyə" əsəri, İslam universiteti mətbəəsi, Səudiyyə Ərəbistanı, Hicri. 1406.

116 – Hafiz Əbu Abdullah əl-Hakim ən-Nisaburinin "əl-Mustədrak Alə əs-Səhiheyn" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1411. Mustafa Abdulqadir Ətanın təhqiqi.
117 – əl-Abşihinin "əl-Mustətraf Fi Kulli Fənnin Mustəzraf" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, 2-ci nəşr, Miladi. 1986. Dr, Mufid Qamihənin təhqiqi.
118 – İmam Əhməd ibn Hənbəlin "Musnəd" əsəri, Qurtuba müəssisəsi, Qahirə, tarixsiz.
119 – Əbu Bəkr əl-Bəzzarın "Musnəd əl-Bəzzar" əsəri, Ulum əl-Quran nəşriyyatı, Beyrut, Hicri. 1409. Dr. Məhfuz ər-Rəhman Zeynullahın təhqiqi.
120 – Əbu Yalə əl-Movsulinin "əl-Musnəd" əsəri, əl-Məmun Litturas nəşriyyatı, Dəməşq, 1-ci nəşr, Miladi. 1984. Hüseyn Səlim Əsədin təhqiqi.
121 – Abdurrəzzaq əs-Sənaninin "əl-Musənnəf" əsəri, əl-Məktəbə əl-İslami nəşriyyatı, Beyrut, 2-ci nəşr, Hicri. 1403.
122 – Hafiz İbn Əbu Şeybənin "əl-Musənnəf" əsəri, ər-Ruşd kitabxanası, ər-Riyad, 1-ci nəşr, Hicri. 1409. Kamal əl-Hutun təhqiqi.
123 – Hafiz İbn Həcər əl-Əsqəlaninin "əl-Mətalib əl-Aliyə Bi Zəvaid əl-Məsanid əs-Səmaniyə" əsəri, əl-Asimə nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Hicri. 1419. Dr. Səd ibn Nasir əş-Şisrinin təhqiqi.
124 – Əbulqasim ət-Təbəraninin "əl-Mucəm əl-Əvsat" əsəri, əl-Hərameyn nəşriyyatı, Qahirə, Hicri. 1415. Tariq İvadullahın təhqiqi.
125 – Yaqut əl-Həmavinin "Mucəm əl-Buldan" əsəri, əl-Fikr nəşriyyatı, Beyrut, tarixsiz.
126 – Hafiz Əbulqasim ət-Təbəraninin "əl-Mucəm əl-Kəbir" əsəri, əl-Ulum və əl-Hikəm nəşriyyatı, Mosul, 2-ci nəşr, Miladi. 1983. Həmdi Abdulməcid əs-Sələfinin təhqiqi.
127 – əl-Beyhəqinin "Mərifətu əs-Sunən Və əl-Əsar" əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, Livan, Seyyid Kisravi Həsənin təhqiqi.

128 – əl-Fəsəvinin “əl-Mərifə Və ət-Tarix” əsəri, ər-Risalə müəssisəsi, Beyrut, Miladi. 1981. Dr. Əkram əl-Umarinin təhqiqi.
129 – əl-Vaqidinin “əl-Məğazi” əsəri, Aləm əl-Kutub nəşriyyatı, 3-cü nəşr, Hicri. 1404. Miladi. 1984.
130 – Dr. Cavad əl-Əlinin “əl-Mufəssəl Fi Tarix əl-Ərəbi Qablə əl-İslam” əsəri, əs-Saqi nəşriyyatı, 4-cü nəşr, Hicri. 1422. Miladi. 2001.
131 – Saleh Əhməd əş-Şaminin “Min Muin əs-Siyra” əsəri, əl-Məktəb əl-İslami nəşriyyatı, 2-ci nəşr, Hicri. 1413.
132 – Hafiz İbn əl-Məğazilinin “Mənaqib Əmir əl-Muminin Əli ibn Əbu Talib” əsəri, əl-Əsar nəşriyyatı, Səna, 1-ci nəşr, Miladi. 2003.
133 – Əbu əl-Fərac İbn əl-Cəuzinin “əl-Muntəzəm Fi Tarix əl-Muluki Və əl-Uməm” əsəri, Sadir nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1358.
134 – Şeyxulislam İbn Teymiyyənin “Minhəc əs-Sunnə ən-Nəbəviyyə” əsəri, əl-Qurtubə müəssisəsi, 1-ci nəşr, Hicri. 1406.
135 – Süleyman ibn Qasim əl-İydin “Mənhəcu Əmir əl-Muminin Əli ibn Əbu Talib Fi əd-Dəvəti iləllah” əsəri, əl-Vatan nəşriyyatı, ər-Riyad, 1-ci nəşr, Hicri. 1415.
136 – Muhəmməd Rəvvas Qaləcinin “Məvsuətu Fiqh əl-İmam Əli” əsəri, ən-Nəfais nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1417.
137 – Muhəmməd Cəmaluddin əl-Qasiminin “Məuizatu əl-Muminin Min İhya Ulum əd-Din” əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, Miladi. 1995. Məmun əl-Cinanın təhqiqi.
138 – Əbu Səd əl-Ubeyin “Nəsr əd-Dur” əsəri, əl-Kutub əl-Elmiyyə nəşriyyatı, Beyrut, 1-ci nəşr, Hicri. 1424. Xalid Abdulğani Məhfuzun təhqiqi.
139 – Musab ibn Abdullah əz-Zubeyrinin “Nəsəbu Qureyş” əsəri, əl-Məarif nəşriyyatı, Qahirə, Lifi Brofsal təhqiqi.

140 – Muhəmməd Muhəmməd əs-Samədin "Nizam əl-Hukm Fi əl-Əhd ər-Raşidi" əsəri, əl-Cəmaiyyə Liddirasət müəssisəsi, Beyrut, 1-ci nəşr, Hicri. 1414.
141 – "Nəhc əl-Bəlağə" əsəri, əl-Kitab əl-Lubnani nəşriyyatı, 1-ci nəşr.
142 – Diya əl-Məqdisinin "ən-Nəhyu An Səbbi əl-Əshab" əsəri, əz-Zəhəbiyyə nəşriyyatı, Misir, Dr. Muhəmməd Əhməd Aşurun təhqiqi.
143 – Əbu əl-Abbas İbn Xətibin "Vəsilətu əl-İslam Bi ən-Nəbiyyi Aleyhis-salətu Vəs-salam" əsəri, əl-Ğarb əl-İslami nəşriyyatı, Miladi. 1984. Süleyman əl-İdin təhqiqi.
144 – Nasr ibn Məzahimin "Vaqətu Sıffin" əsəri, Muəssəsətu əl-Arabiyyə əl-Hədisə nəşriyyatı, 2-ci nəşr, Hicri. 1382. Abdussalam Harunun təhqiqi.
145 – Nəmr əl-Humeydaninin "Vilayətu əş-Şurta Fi əl-İslam" əsəri, Aləm əl-Kutub nəşriyyatı, ər-Riyad, 2-ci nəşr, Hicri. 1414.

**Allahın izni ilə bitdi**